Şirin Xanım Kərimbəyli

Şadiman

TƏK YARADANA GÜMANIM

BAKI - 2017

Kitaba maddi və mənəvi dəstək göstərdiyinə görə həyat yoldaşım Əli Abdulla Əli oğluna minnətdaram.

Redaktoru və korrektoru: Əli Abdulla

Şirin Xanım Kərimbəyli Şadiman
Tək Yaradana gümanım
(Şeirlər, nəzm hekayələr, publisistik məqalələr)
QANUN Nəşriyyatı, Bakı – 2017, 480 səh.
Çapa imzalanmışdır: 27.01.2017

Şirin Xanım Kərimbəyli Şadiman Azərbaycan ədəbiyyatında öz dəst-xətti olan sənətkarlardan biridir. Onun yaradıcılığı təkcə Vətən məhdudiyyətində qalmır. O öz ürəklər fəth edən yaradıcılığı ilə çoxdan Azərbaycan sərhədlərini aşıb. Dünyanın harasında bir ağrı-acı varsa, Şirin Xanımın ilhamlı qələmi orda olur və o ağrıları nəzmə çəkir. Şair istər şeriyyəti, istərsə də publisist düşüncələri ilə oxucu ürəyini riqqətə gətirən sənət-kardır. Nəşriyyatımız adından müəllifə yeni-yeni yaradıcılıq zirvələri arzulayırıq.

Sayt: www.shirinxanim-shadiman.net

ISBN 978-9952-36-294-7
© Ş. Kərimbəyli Şadiman, 2017
© Qanun Nəşriyyatı, 2017

“TƏK YARADANA GÜMANIM”A SÖZÜM

2012-ci ildə çapdan çıxan ”Ay adamlar mən burdayam” kitabımdan sonra beş ildir ki, illərin acı-ağrısını, sevincini hopdurub misralarıma bənd-bənd şeirlərə, mənzum hekayələrə köçürtdüm. Əslində şeir nədir? Şeir yaşadığımız həyatın həqiqiliyinin güzgüsüdür. Yazdıqlarımı ilhamın diqtəsi ilə gördüklərimi və könül süzgəcindən keçirdiklərimi şerin müxtəlif növlər üzrə bəndlərinə yerləşdirdim. Burada tarixlə bağlılıqlar, təbiət, ilham, adamın özü ilə baş-başa, göz-gözə daxili dialoqları önəmli yer tutur. Kitabda insanın iç dünyası ilə gerçək dünya arasında baş verən toqquşmalar, üsyanlar, kədər, fərəh anları, bir sözlə, həyat həqiqətləri öz əksini tapıb. Bir müəllif olaraq mənə elə gəlir ki, istər yazıçı, istər şair oxucunu yazdıqlarının sehrinə sala bilmirsə, onda təəccüb, həyəcan, fərəh doğurmursa, o zaman, o öz istəklərini oxucuya çatdıra bilmir, oxucunu yaşadığımız dünyanın ovqatına kökləyə bilmir. Beləliklə, hər bir insan kimi şair də bir ömür yaşayır. Yaşadağı ömür dolaylarında ətrafda baş verənləri doğru-düzgün, heç kimə yarınmadan, heç kimi öymədən misralarına hopdurmaq, şair olanın qələmə və Yaradana olan sadiqlik vəzifəsidir. Mən də çalışmışam ki, bundan öncəki, çapdan çıxan kitablarımda olduğu kimi təmizliyi, düzlüyü, sadiqliyi qoruyum. “Tək Yaradana gümanım” kitabımda qoşmalar, bayatılar, ikiliklər, dördlüklər, deyimlər, qəzəllər, nəzm-hekayələr, bir də kitabın son fəslində son aylarda yazdığım publisistik məqalələr yer alıb. Bir sözlə, özümün yaşadıqlarımı, ətrafda baş verənlər, dünyamızın ağrılı həyat hekayələri yağış təki ürəyimə yağıb və qələmim vasitəsilə damla-damla, zərrə-zərrə misralara süzülüb. Arı hər çiçəkdən şirə çəkən kimi, mən də hər üzdən, hər gözdən, min bir məna buldum, könlüm dilə gəldi, məni əzablara, sevinclərə tuş edən ilhamımla qoşalaşdı, sözlərdən misra-misra çələng hördü. Kitabın, mənəviyyatın arxa plana keçdiyi bir zamanda dəyərli oxucuları təkcə mənim yox, gözünün nurunu yazdıqlarına ərməğan edən digər müəlliflərin kitablarını oxumağa dəvət edirəm. Mütaliə biliyin anasıdır deyirlər, oxuyun, nitqiniz bəlağətli olsun, mənəvi dünyanız zənginləşsin. Yeni çapdan çıxacaq “Tək Yaradana gümanım” kitabımı sizlərə əmanət edirəm. Daima kitablarla ünsiyyətdə olasınız, mənəviyyatı zəngin millətlər həmişə öndədir. Öndə olanlardan olaq, Vətən övladları!..

27.12. 2016 Müəllif

İLAHİYƏ YETƏN SƏDAM

TƏK YARADANA GÜMANIM

Doğuldum düşdüm dünyaya,
Qoyuldu haqdan zamanım,
Əymədim ömrü riyaya,
Tək Yaradana gümanım.

Ruhumdan geydim varlığı,
Canım götürmür darlığı,
Çox üzdə şeytan yarlığı,
Tək Yaradana gümanım.

Yığdım ağrını ürəyə,
Sən lal ol, dedim diləyə,
Hər yanım ürcah kələyə,
Tək Yaradana gümanım.

İnsanı tutub günahı,
Unudub haqqı, Allahı,
Dünyanın qandır sabahı,
Tək Yaradana gümanım.

Sirr kainatın boğçası,
Adamı varmı açası?
Cahandan hara qaçası?!
Tək Yaradana gümanım.

İnsan insana yağıdı,
Çəkilməz sinə dağıdı,
Misrama qonan ağıdı,
Tək Yaradana gümanım.

Ruhum göylərdən çəkilmir,
Qolum-qanadım bükülmür,
Ümid sarayım sökülmür,
Tək Yaradana gümanım.

Şadiman, sıxma ürəyi,
Atəşə yaxma ürəyi,
Odur bədənin dirəyi,
Tək Yaradana gümanım.

21.12.2016

MƏZHƏB ACISINDAN QOP, AY MÜSƏLMAN

Ya Rəsulum! Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. Allah sonra (qiyamətdə) onlara nə etdiklərini xəbər verəcəkdir!

Quran, 6 Surə, 159-cu ayə

Haqqına qurtuluş tap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Müsəlman elləri qanlar içində,
Ağrılar taxt qurub canlar içində,
Dilləri hıçqırır niyə-neçində.
Özün bu sitəmdən sap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Bizə hava təki birlik gərəksə,
Haqqın varlığına inam dirəksə,
Qurana səcdəyə gələn ürəksə,
Birliyə pak qala yap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Allah sevdalılar bir-birin qırır,
Xaça inanclılar bizə tor qurur,
Min bir hiyləsiylə arxadan vurur…
Bizi yerə soxur lap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Yalnız xilasımız birliyə bağlı,
Hissi yox, qaldıraq ayağa ağlı,
İslam ölkələri lal, qolubağlı,
Aslan ol, şərini qap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Məhəmməd də bizim, Əli də bizim,
Qurbanam imana, paklığa özüm,
Türkə, kürdə, farsa, ərəbə çözüm…
Min iman atına çap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Baxın, ölkə-ölkə oda düşmüşük,
Sanki bir-birinə qada düşmüşük,
Avropada belə yada düşmüşük?!
Onların sevgisi gop, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Bizi təkləyərək, dənləyəcəklər,
Bir olub birləşsək, inləyəcəklər,
Bizi də insantək dinləyəcəklər!
Şəri hissə-hissə çap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Gör başın üstündə gəzən qadanı,
Burax bir-birinə çürük ədanı,
Birlik ilə başla qəlbə sevdanı,
İltifat qırılan sap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Bu necə Qurana, imana sevgi?
Rəbbin göndərdiyi fərmana sevgi?
Gəlib qırğınlardan dərmana sevgi,
Olub ayaqlara top, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Şadiman bu dərdi vərəqə saldı,
Bizim ağlımızı yağılar çaldı,
Qapımız ağzını gəlib şər aldı,
Dərdimiz kağızda çap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.
Məzhəb acısından qop, ay müsəlman.

03.02.2012

BAHAR BULUDUTƏK

Bahar buludutək dolmuşam, Allah,
Yağmağa sel tutan çay axtarıram.
Yerlə göy arası qalmışam, Allah,
Çəkdiyim dərdlərə say axtarıram.

27.02.2016

İKİ QAPI

Türkiyəli-Sivaslı şair Refik Kutlunun «İki qapısından keçməyən varmı?» şeirinə nəzirə

Bu dünyada iki qapı,
Biri gələr, biri gedər.
Qırılanda qəlbin sapı,
Ölüm təni məzar edər.

Var azara tutulanlar,
Belinə şər çatılanlar,
Cəhənnəmə atılanlar.
Yer-göy şərdən həzar edər.

Çox bilənin başı ağrar,
Bəbəkdə göz yaşı ağrar,
Ürəyi dərd, ələm doğrar,
Öz-özündən ah-zar edər.

İki qapı sahibi var,
Sonsuzluğun göy dibi var,
İki dünya qalibi var.
Can yiyəsin, O, var edər.

Bizə dinlə öyüd edən,
Bədənləri meyid edən,
Bilən bilir – gəlmir gedən,
Qulağın haqqa kar edər.

Şadimanla ömür kaşda,
Harayı var dağda, daşda,
Doğulanla can tələşda,
Gördüyünə çox ar edər.

05.01.2013

HARA GƏLMİŞƏM

İlahi, içimdə ağrı dam kimi,
Mən onu özümə canım bilmişəm.
Yanır qismətidə ömür şam kimi,
Özüm də bilmirəm hara gəlmişəm?

27.02.2016

MƏN İLAHİ TƏŞNƏSİYƏM

Mən ilahi təşnəsiyəm,
Adama səcdə etmirəm.
Doğulandan bu günədək
Onunla yola getmirəm.

Çalışdım ki, dəyişməyəm,
Ağlım ilə döyüşməyəm,
Çaşıb çirkaba düşməyəm,
Atılan yala getmirəm.

Amacım, haqqa qovuşmaq,
Şərdən, xətadan sovuşmaq,
Canla bədənə yovuşmaq,
Min cürə hala getmirəm.

Mən İlahi təşnəsiyəm,
Ruhun bədən irşəsiyəm,
Göy içinə düşəsiyəm,
Hissimlə dala getmirəm.

11.10.2013

UTANIRAM, İLAHİ

İnsan olmaqdan utanıram, İlahi,
Qulaq dələn ah-uflardan yanıram, İlahi.
Su yerinə torpaq suvarır qanlar,
Xarabaya dönür ünvanlar.
Hamımız bir ömür yaşayırıq,
Adam adı daşıyırıq.
Adam da adamı öldürərmi?
Allah verən ömrü gərərmi?
Qanlara, qırğınlara rəng verənlər,
Bu dünyanın işlərini cəng görənlər,
Aləmi qatır bir-birinə,
Başım şişir gedəndə dərinə.
Vəhşi niyyətləri beyinlərdən siləsən bəlkə,
Yıxırıq bir-birimizi düşəndə bərkə.
Ömürlər qırılır yarıda,
Axı dünyada qalır dünyanın varı da.
Bu müsibətləri qanıram, İlahi,
İnsan olmaqdan utanıram, İlahi.

22.10.2014

DİN ADI ALTINDA BU VƏHŞİLİKLƏR

Tökülən qanlara bəs deyən yoxdu,
Dil deyən yalana kəs deyən yoxdu,
Bunlar Yaradana – qəsd, deyən yoxdu,
İnləyər beyinlər, sızlar iliklər,
Din adı altında bu vəhşiliklər.

İlahi bunumu əxz etdi bizə?
Yerisin qan-qırğın, dərd evimizə,
Artır fitnə-feil, boş-boş moizə,
Hiylə qəlbə girər, vicdanı təklər,
Din adı altında bu vəhşiliklər.

Dağılır, viranə olur şəhərlər,
Boğazdan yapışıb acı qəhərlər,
Mövhumat kök atar, beyni zəhərlər,
Açar ürəklərdə min bir dəliklər,
Din adı altında bu vəhşiliklər.

Heç kəs ayranına turş deməyir ki,
Axan göz yaşına yaş deməyir ki,
Hissin törətdiyin baş deməyir ki,
Haqqa xain çıxar qəlbi dönüklər,
Din adı altında bu vəhşiliklər.

Dünyanın xilası yalnız elmdə,
İlahi kəlməsi dua bilimdə,
O öz yuvasını qurub könlümdə,
Nadan silahını sinəyə diklər,
Din adı altında bu vəhşiliklər.

Allahın varlığı savada bağlı,
Bəxtiyar o kəsdir işlədir ağlı,
Ehkama uyanlar uydurar nağlı,
İnsanın xilası yalnız biliklər,
Din adı altında bu vəhşiliklər.

Ey din kitablarla qırğınlar salan,
Allah yaradansa, sevərmi talan?!
Bəsdir İlahiyə söylədiz yalan,
Tapdanır namuslar, enir mənliklər,
Din adı altında bu vəhşiliklər.

Müsəlman ölkələr bir-bir dağılır,
Sərvəti talanır, yurdu sağılır,
Köçkünü, qaçqını küncə sıxılır,

İndi yasxanaya dönüb şənliklər,
Din adı altında bu vəhşiliklər.

Adəmə davamı öyrətdi tanrı?
Bəlkə şüurlara illətdi tanrı,
Qana susayana alətdi tanrı,
Dünyanı savaşla titrətdi ilklər,
Din adı altında bu vəhşiliklər.

Tükənib, dünyada qalmayıb səbir,
İnsana nə qalır? Bir quru qəbir!...
Şadiman, həllini tapmayır cəbir,
Cavabsız suala dönüb tənliklər,
Din adı altında bu vəhşiliklər.
Din adı altında bu vəhşiliklər.

3.08.2015

KAİNAT İÇRƏ DOLAŞDIM

Allahım, kainat içrə dolaşdım,
Sənin işığına doğru gəlirəm.
Sənin atəşinlə qaynayıb daşdım,
İçimə sığmayır sorğu, gəlirəm.

Möhtəşəm kainat sirlər içində,
Sirrini heç kimə açmayır hələ.
Gələnlər gedirlər, ömür köçündə,
Şükür ki, yer göyə qaçmayır hələ.

Bu müdhiş bəşərin işləri çətin,
Hiyləsi, xətası özündən böyük.
Təkcə sən bilərsən onun niyyətin,
Başının zərbəsi ürəyə bir yük.

İlahi, yerlərin ahı bitməyir,
Kainat içindən özünü göstər.
Dilim haray salır, əlim yetməyir,
Ürəyim eşqiylə tək səni istər.

Göstər gül üzünü, gəlim səcdəyə,
Sənin atəşinə alışım-yanım.
Könlüm soraqdadı qəfil müjdəyə,
Sənsən göydə, yerdə mənim həyanım.

10.07.2015

AH, MƏZHƏBLƏR

Ah, məzhəblər, məzhəblər,
Kimlərinsə beynində-qəlbində coşan təblər.
Bəşəri xəstələndirən zəhərli həblər…
Milyonlar arxanızca getdi,
Qonşu-qonşu ilə, qardaş-qardaşla ixtilaf etdi.
Hamı Allah dedi,
Allah adıyla milyonlarla baş yedi!
Yaradan bu binəsib bəndələri
heç vecinə almadı,
Onların mərtəbəsinə alçalmadı.
Günbəgün artan fitvalara əl çalmadı.
Məzhəb eşqiylə min hoqqadan çıxanlar,
Bir-birinə xor baxanlar,
Allah sevdalı sandılar özlərini,
Dağıtdılar alınlarını, inlətdilər dizlərini.
Bir gün çıxardar
Yaradan ona şər atanların gözlərini…
Kəlisa, Məscid, Sinaqoq Allah qışqırır,
İlahi sevgisiylə bəbəklərində yaş qırır.
Bəs bir-birinə düşmən gözlə baxan bəndələr,
Niyə Allahın yolnunu fitvalara bənd elər.
Bu nə sevgi, bu nə eşq,
Bu nə haqq yolunda məşq?!
İnsanın bir-birini qırmağındanmı keçir
Yaradana sevgi?
Bəndələr əlindən qəm udana sevgi!
Bu sevgi deyil,
Bu şeytana meyil!
Allah evləri qana apardı,
Millətlər içində tufan qopartdı.

***

Ah, məzhəblər, siz nələr etdiz,
İnsanlığı mələr etdiz.
Guya bunula Allaha səcdə etdiz!
Milləti, millətlə,
dövləti dövlətlə,
Vuruşdurduz,
Dinləri fəryad içində yarışdırdız.
Bir göz qırpımında ara qarışdırdız.
Xalq içinə ixtilaf saldız,
Elə zənn etdiz haqq mərtəbəsinə ucaldız,
Axırda özünüz-özünüzlə qaldınız.
Ah, məzhəblər, bu tökülən qanlarla,
Üzülən canlarla,
Allah evindən insanları qaçaq salmayın,
Hər ürəkdə nifrətdən ocaq salmayın.

Yaradan mərtəbəsinə qalxa bilirsiz qalxın,
Oradan bu tökülən qanlara baxın.
Əgər içinizdə tanrı xofu varsa,
Batırmayın dünyanı yasa…

***

Ey insan, əgər Allahı sevirsənsə,
Buna könüldən əminsəsə,
Özünü elmə çevir,
Çünki Allah elmi sevir.
Allah kainatın özü,
Kainat onun deyəcək sözü!
Məzhəb acısından qopaq,
Özümüzü elmdə tapaq.
Odur millətlərin sabahı,
Elmlə sevindirək Allahı,
Silək içimizdən günahı,
İnsanlıq dünyanın sabahı…

***

Ah, məzhəblər, məzhəblər,
Dinlər içində doğulan dəblər.
Öncə dinlər yarandı,
Amacı Tövrat, İncil, Qurandı.
Sevgisi dünyanı yaradan, qurandı.
Bəs bu necə dünya qurmaqdı,
Bu Haqqın belini qırmaqdı.
Tökülən qanlar,
Bədəndən qaçan canlar,
Bu necə İlahiyə sevgi?
Məhv edir bir-birini insanlar…
Dünya qan içində üzür,
Hamı bir-birin kinli-kinli süzür.
Kinlə daşır diləklər,
Artır günbəgün kələklər.
Sinaqoqlar, Məscidlər, Kilsələr,
Mənə nə deyirlər desələr,
Lap istəyir inciyib küsələr,
Həqiqət budur ki, dinlər çağladır siyasəti,
İnsanlar əllərində alətdi.
Qan-qırğınlardı adəti.

***

Ah, məzhəblər, məzhəblər,
Dinlər içində doğulan acı həblər.
Məramım budur ki,
qoy insan beynində elmlə coşsun təblər.
Elmdən başlanır ədəblər.
Gəlin qırğınlara son deyək,
Bir-birinə can deyək.

14.07.2015

İLAHİ, HARDASAN

Gecənin səhərdən gözləri qorxur,
Sübhün ah-fəryadı qəlbə qəm oxur,
Hönkürən buludam, bəbəyim çuxur,
Boğulan könlümə yeni nəfəs ver,
İlahi, hardasan? Səsimə səs ver!

Sənsən ruh evini bədəndə tikən,
Sənin məbədindi saf ədəb-ərkan,
Titrəyir hiylədən yer adlı məkan,
Usandım dünyadan, varsa, həvəs ver,
İlahi, hardasan? Səsimə səs ver!

Aləmin fəğanı ağladır məni,
Necə ünvan edim dərdimə səni?
Ağılım gəzdirə bilməyir təni,
Canı varlığımdan qopar, qəfəs ver,
İlahi, hardasan? Səsimə səs ver!

Mən ki, doğulandan dərdə ortağam,
Bostanı doludan viranə tağam,
Piltəsi alışan, yanan çirağam,
Dərdə qapı açma, yoluna nəhs ver,
İlahi, hardasan? Səsimə səs ver!

Yörəmdə hiylələr gün başa vurur,
Gunahı olmayan cana toy qurur,
Qapımda fitnələr boybaboy durur,
Mənim harayıma damla, tələs ver,
İlahi, hardasan? Səsimə səs ver!

Bitməyir dünyada həyat oyunu,
Yem edir zalımlar qurda qoyunu,
Niyə yaratmısan insan soyunu?!
Acgözün ruzisin əlinlə kəs ver,
İlahi, hardasan? Səsimə səs ver!

Bir yol bu dünyaya özünü göstər,
Bəndələr ayılsın, üzünü göstər,
Harda dolaşırsan? İzini göstər!
Vəhşi xislətlərə bir dəfə bəs ver,
İlahi, hardasan? Səsimə səs ver!

Şadiman vurğundu eşqinə müdam,
Sanki dəli olur qüssədən adam,
Ağlım min yol edir ürəyi edam,
Sındır qələmimi, ömrümü kəs - ver,
İlahi, hardasan? Səsimə səs ver!
İlahi, hardasan? Səsimə səs ver!

03.06.2015

YANAN ATƏŞ OL

İlahi, içimdə yanan atəş ol,
Qoyma duyğularım ayaza düşə,
Başımın üstündə parlaq günəş ol,
Ruhum qürbət təki canla görüşə.

Əlim əllərinə yetişmir, neylim?
Bu ağrı acılar ötüşmür, neylim?
Yaralar göynəyir, bitişmir, neylim?
Vermə sevincimi kədər bölüşə.

Həyatım ağrıdan ağrıya enir,
Ötən günlərimin işığı sönür,
Sinəmdə eşq boyda ürək döyünür,
Qoyma ağrıların odunda bişə.

Özün Şadimanı yaratdın eşqlə,
İçində hisləri oyatdın eşqlə,
Könlümün içinə dərd qatdın eşqlə
Canımın ahına birgə gülüşə.

06.01.2016

***

Allahım eşqinə bürünmüşəm mən,
Sevgindən sevdalar qurdum könlümdə.
İşığına doğru sürünmüşəm mən,
Sən bəxş edən ruhdu – yurdum könlümdə.
Onun səcdəsiylə döyünmüşəm mən.

17.12.2016

İLAHİ, BİZƏ HƏYAN OL

İnsan insana yağıdı,
Dərdlər ürəyin dağıdı,
Dildə dolaşan ağıdı,
Şərdən, bəladan əyan ol,
İlahi, bizə həyan ol.

Üzdən həyanı aldılar,
Min cür boyaya saldılar,
Qəlbdən saflığı çaldılar,
Şərdən, bəladan əyan ol,
İlahi, bizə həyan ol.

Dinləri oyun etdilər,
Guya ki, soyun etdilər,
Kütləni qoyun etdilər,
Şərdən, bəladan əyan ol,
İlahi, bizə həyan ol.

Bəzəkli din ocaqları,
Qanla dolu qucaqları,
Dilənçi künc-bucaqları,
Şərdən, bəladan əyan ol,
İlahi, bizə həyan ol.

Axı bizi sən yaratdın,
Yaradıb könlə od qatdın,
Yerdə həyatı ucaltdın,
Şərdən, bəladan əyan ol,
İlahi, bizə həyan ol.

Çək öz qəlbinə insanı,
Yağdır içinə leysanı,
Göz yaşı yerin ehsanı,
Şərdən, bəladan əyan ol,
İlahi, bizə həyan ol.

Şadimanın yox çarası,
Köz bağlar sinə yarası,
Tökülür gözdən qorası,
Şərdən, bəladan əyan ol,
İlahi, bizə həyan ol. **11.07.2015**

İÇİMDƏ TƏNHALIQ YATIR

İçimdə tənhalıq yatır, İlahi,
Mən bu tənhalıqdan qopa bilmirəm.
Ahım səmalara çatır, İlahi,
Özümü heç yerdə tapa bilmirəm.

Sanki göy içindən qopub düşmüşəm,
Min yol bu dünyayla mən görüşmüşəm,
Ciyərim dağlanıb yanıb, bişmişəm,
Qanadım qırılıb çapa bilmirəm.

Toyda da, yasda da, yığıncaqda da,
İlin hər fəsili ötən çağda da,
Qapılıb özümə tək otaqda da,
Bir ümid qalası yapa bilmirəm.

Nədir içimdəki bu şikayətim?
Bir ömür uzunu qəm hekayətim,
Doğulan günümdən can səyahətim,
Özüm öz odumu qapa bilmirəm.

07.01.2016

ÖZÜNÜ GÖSTƏR

Allahım, varsansa özünü göstər,
Bir bəndə əhlinə üzünü göstər,
Çıx göyün üzünə közünü göstər,
Bilmirik qovuşaq biz sənə necə?
Basma qəlbimizin həsrətin küncə.

Sən bizim diləkdən çox-çox uzaqsan,
Bəlkə qarlı qışsan, bəlkə sazaqsan,
Sən bizim dərdlərə yüklənən dağsan,
Dünyada yaşamaq necə işgəncə?!
Basma qəlbimizin həsrətin küncə.

Allahım, içimdə atəşimə gəl,
Göylərdə qövr edən günəşimə gəl,
Mən sənsiz veyiləm, hər işimə gəl,
Səni axtarıram hər gündüz-gecə,
Basma qəlbimizin həsrətin küncə.

27.02.2016

KƏRƏMİNƏ ŞÜKÜR

Hamı sənə üzün tutub
Kərəminə şükür, Tanrı.
Dodaqlarda sözün tutub
Bilinməyir məkir, Tanrı.

Göy üzünün günəşinə,
Qəlbə düşən atəşinə,
Adəmlə xoş gərdişinə,
Canlarda eşq səkir, Tanrı.

Yalan dildə çox gizlənib,
Ürəklərdə əzizlənib,
Asimandan hikmət enib,
Bizi haqqa çəkir, Tanrı.

Qəlb içində kir gəzdirən,
Yamanlığı sirr gəzdirən,
Sanki canda dürr gəzdirən,
Cana ağrı əkir, Tanrı.

Bilirsən ki, ruh əzabda,
Qalmayıbdı qəlbdə tab da,
Bizlərlə çox haqq-hesabda,
Ürəyi dərd sökür, Tanrı.

Ömür – imkan, gündən bezir,
Bədən sağkən cana nəzir,
Bizlə qalır, bizlə gəzir,
Qəlbə sevgi tökür, Tanrı.

Bilən bilir, ey Şadiman,
Bir gün gələr haqdan fərman,
Kömək etməz dərdə dərman,
Ruhu göyə çəkir, Tanrı.

16.06.2016

İLAHİ,YOLUMU AÇ

Dünyada qalmaqdan yoruldum daha,
Heç dözmək olmayır bu qədər aha,
Gecəm ağrıları doğur sabaha,
Bütün sitəmləri qoy yıxım gedim.
İlahi, yolumu aç çıxım-gedim.

Hər tərəf göz yaşı, ağrı-acıdı,
Qurtulmaq fəryaddan can əlacıdı,
Ürəyim dərdlərin hicran ucudu,
Kirpikdən yaşımı tez sıxım gedim,
İlahi, yolumu aç çıxım-gedim.

İnsanın üzündən yağır tələşi,
Daşdırır dəryalar gözünün yaşı,
Ürəyi partladır ağrıyan başı,
Dünyaya son dəfə mən baxım-gedim,
İlahi, yolumu aç çıxım-gedim.

Suallar, cavablar önündə quldu,
Bu nə Yaradana, imana yoldu?
Hamı məzhəb gəzib bir dinsiz oldu,
Su təki dəryaya lap axım-gedim,
İlahi, yolumu aç çıxım-gedim.

Özün də bilirsən can müştağında,
Qəlbim qopub qalıb hicran tağında,
Ruhum yerdə-göydə Rəbb sorağında,
Canıma odundan ver yaxım-gedim,
İlahi, yolumu aç çıxım-gedim.

Bir sakit gecəndə dönüm yuxuna,
Quştək qanad açım gəlim qoxuna,
Qoşula bilmirəm heç bu axına,
Şimşəktək göyündə tez çaxım-gedim,
İlahi, yolumu aç çıxım-gedim.

Məni sən yaratdın, sən də qail et,
Hər bir diləyimi əmrə nail et,
Əgər dönük çıxsam ömrü zail et,
Ruhumu göylərə buraxım gedim,
İlahi, yolumu aç çıxım-gedim.
İlahi, yolumu aç çıxım-gedim.

19.07.2016

DÜNYA

ƏFQAN QAÇQINI

Yayılıb dünyanın dörd bir yanına,
Nə vaxt haqq yetişər bəs həyanına?
Qarışıb torpağı axan qanına,
Qəmlər barat olub, sanki anına,
Dərdi min budaqlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Ağlayır içində məmləkətini,
Aləmə göz dağı fəlakətini,
Kim dağıdıb halal bərəkətini?
Dadıb zalımların hərəkətini,
Özu can soraqlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Yağır qayasına, daşına illət,
Qalıbdı sərgərdan binəva millət,
Udubdu yurdunu qan, qırğın, zillət,
Olubdu kişisi, qadını alət,
Ağladır ağılı əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Xalq necə müsibət içində olar?
Azğın yağıları biçində olar,
Dərdi üstbəüstdən içində olar,
İsti ocağından köçündə olar…
Bəxt qapısı bağlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Sənə xoşbəxtlikmi gətirdi yadlar?!
Canda qəm bostanı bitirdi yadlar,
Malını, mülkünü itirdi yadlar,
Əzrayıl əlinə yetirdi yadlar,
Oldun ağzıbağlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Sovetin tank-topu yurdunu basdı,
Qırmızı terrorun əliylə asdı,
Amerka haqqını künclərə basdı,
Bu gün torpağında, yurdunda yasdı,
Evi qan çıraqlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Allah ağıl versin Talibanına,
Qoy qayıtsın canı elin yanına,
Özü zülm etməsin, öz insanına,
Qanlar ələməsin xanimanına,
Olasan xoş çağlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Ey bədbəxt müsəlman bacım, qardaşım,
Mənim də içimə axır göz yaşım,
Mənim də qan ağlar torpağım, daşım,
Qarabağ hayında ürəyim, başım,
Yadın dili yağlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Bu zalım zamanə haqdan yan qaçır,
Ədalət arayan başa dərd açır,
Niyə haqqa yolu bəs namərd açır?
Dərdin qapısını çox vaxt mərd açır…
Qəm göyü min tağlı əfqan qaçqını,
Qəlbi çarpaz dağlı əfqan qaçqını.

Ey qızı, gəlini, anası ağlar,
Gölündə çırpınan sonası ağlar,
Gülləli göyündə durnası ağlar,
Dərdini anlayıb qanası ağlar,
Dili ah-fəğanlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Sən ki, Vətəndən yox, zülümdən qaçdın,
Güllədən, bombadan, ölümdən qaçdın,
Azğın mövhümatdan, bölümdən qaçdın,
Haqqına bükülmüş kilimdən qaçdın,
Naləsi yaraqlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Özgə məmləkətlər sənə yar olmaz,
Heç bir yad ölkədən xoş diyar olmaz,
Acı fəğanını bir duyar olmaz,
Çəkdiyin ağrıyar, bəd, uyar olmaz,
Sözü qəm varağlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

Əhvalın yandırır bu Şadimanı,
Salıbdı fəryada dini-imanı,
Dindaşım, unutmaq olmur peymanı,
Dönsün zalımların tərsə fərmanı,

Sən ol bəxti ağlı, əfqan qaçqını,
Qəlbi çarpaz dağlı, əfqan qaçqını.

19.10.2010

İNSANLAR

Nədir belə min illər didişdiyimiz,
Bir-birinin işinə qarışdığımız,
Həm xeyirlə, həm şərlə yarışdığımız,
Vaz keçibən həyatdan, vuruşduğumuz,
Zəhmətlə yaradan, quran insanlar,
Aləmi bir-birinə vuran insanlar.

Min illər tökülən qanlar bəs deyilmi?
Tanrının verdiyi ömrə qəsd deyilmi?
Əqlimiz hissimizdən sərbəst deyilmi?
Etdiklərimiz taleyə nəhs deyilmi?
Gələcəyini bəxtdən soran insanlar,
Aləmi bir-birinə vuran insanlar.

Rəbb bir gün əməllərimizi soracaqdır,
Ruhumuz önündə nizam tərəzi quracaqdır,
Günahlarımızı canımızda aracaqdır,
İçimizin ahı məzarımızı yaracaqdır,
Siz dünyanı etməyin toran, insanlar,
Aləmi bir-birinə vuran insanlar.

Dinlər haqqımıza ibadət deyilmi?
Uca Yaradandan şəhadət deyilmi?
Hər canda qövr edən ədalət deyilmi?
Bəs nədir dinlər, acısı boran, insanlar?
Aləmi bir-birinə vuran insanlar.

Döyüşlər, vuruşlar bəs haçan itəcək?
Canın cana üsyanı nə vaxt bitəcək?
Savaş məzarları sonamı yetəcək?
Hər ömür bir bulud, vallah ötəcək,
Ağlayır Zənbur, İncil, Quran, insanlar,
Aləmi bir-birinə vuran insanlar.

Şadiman ah deyib içindən boğulur,
Bağrında gündə min bir ələm doğulur,
Ağrısı göylərdən yerlərə dağılır,
Dərdləri ürəkdə üst-üstə yığılır,
Gözümüzü tutmasın toran, insanlar,
Aləmi bir-birinə vuran insanlar.

12.05.2013

İNSAFI YOXMU?

Qəlbə acı çəkdirənin,
Bir azca insafı yoxmu?
Bu dünya batıb günaha,
Heç içində safı yoxmu?

Dörd yanımda nalə, şivən,
Kimə üz tut, kimə güvən,
Ürək tutan, könül sevən,
Əqildən sərrafı yoxmu?

Cilidlənib xeyirlə şər,
Fitnələrə uyub bəşər,
Göylər uçub yerə düşər,
Haqq arayan sufi yoxmu?

Bu dünya üzü acıdır,
Təmizlik tək əlacıdır,
Şadimanın ruh tacıdır,
Can gizlənən rəfi yoxmu?

05.01.2013

NƏDƏN XƏLQ ETDİ

Kim kimin əlində əzildi getdi?
Bütün ağrılara yük olan dünya.
Ömürlər cunatək süzüldü getdi,
Hamının gözündə tək olan dünya,
Bəs səni Yaradan nədən xəlq etdi?!

17.12.2016

BİLMƏDİN DÜNYA

Səndə kədər gördüm, səndə qəm gördüm,
Heç məni sevdirə bilmədin, dünya
Gözdə çəpərlənmiş gizli nəm gördüm,
Könlümü güldürə bilmədin, dünya.

Pünhan alışmağım gecələr nalan,
Dolu dərdlərimi tutmayır palan,
Nə etdim önündə hamısı yalan,
Özümü bildirə bilmədim, dünya.

Mən ki, hər addımda səni səslədim,
İçimdə sevdalı istək bəslədim,
Bütün ağrılardan canı həslədim,
Adımı sildirə bilmədin, dünya.

Batdın tikan təki hər gün gözümə,
Elə qərar verdim yenə dözümə,
Heç gələ bilmədim bir dəm özümə,
(Hər addım sevdalar saldın izimə),
Sən məni öldürə bilmədin, dünya.

19.05.2013

YORULDUM ARTIQ
BU DÜNYADA QALMAQDAN…

Yoruldum artıq
bu dünyada qalmaqdan.
Hər gün internet portallarından,
televiziya ekranlarından,
qəzetlərdən
min bir dava xəbərləri almaqdan.
Bu insan qurumları,
onların ürək yıxan durumları
Dinlər,
Dinlərdən doğan qara günlər,
Dinləri zara gətirən məzhəblər,
Onları özləri sayaq ilhama
gətirən təblər.
İnsan beyinini zəhərləyən
inanc kökənli həblər!
Dillərdə doğur,
İnsanlığa vacib olan
mehribanlığı boğur.

Bu din alverçiləri,
Rəbbi, Allahı, İlahini, Tanrını,
Böyük Yaradanı şərləyir,
Rəbbin özü də
bu tapmacalardan çərləyir.
Bitməzmi dini siyasətə batırmaq,
İçdəki vicdan hissini yatırmaq,
Bəsdir millətləri bir-biriylə vuruşdurmaq.
Olmazmı, ey iki ayaqlı bəndə,
dinc durmaq?
Bitməzmi din adı altında
qardaşı qardaşa qırdırmaq?
Dini siyasətə qul etmək,
Bu amalı bütün
iyrəncliklərə yol etmək.
Ey Yaradan,
Ey əlimizdən qan udan,
Bizi niyə yaratdın?
Bir-birimizə qan utdurmaqçın
bu dünyaya atdın?
O dünyada bizi nə gözləyir bilmirəm,
Amma bu dünya əzrayılla doludur.
Deyirlər ruhumuz haqqın quludur!
Qul da belə olarmı heç?
Dünyaya qırğın salarmı heç?
Utanıram insan adlı
bir canlı olmaqdan…
Yoruldum artıq
bu dünyada qalmaqdan…
Yoruldum artıq
bu dünyada qalmaqdan…

19.05.2013

BİLSƏYDİM GƏLMƏZDİM

Məni öz eşqinlə dəli etmisən,
Vuruldum göyünə, yerinə dünya.
Ruhunu cismimdə bəlli etmisən,
Ağlım çox baş vurdu dərinə, dünya.
Bilsəydim gəlməzdim yerinə, dünya.

17.12.2016

YAMAN DÜŞDÜN ODA

Dünya, yaman düşdün oda,
Başın üstə çoxdu qada,
Bel bağladın dosta, yada,
Şər başdadı, haqq sürünür.
Hər yerində qan görünür.

Damın çökür, bacan uçur,
Dərdin dildə çoxdandı cur,
Nədən səni hiylə qucur?
Qırğınına an bürünür.
Hər yerində qan görünür.

Yerin-yurdun talan olur,
İnsanların ilan olur,
Əcəl daha yalan olur,
Yaşamağa can ərinir,
Hər yerində qan görünür.

Dünya, nədir bu zillətin?
Qurtarmayan müsibətin,
Bəs hardadır həqiqətin?
Haqq çırağı bəlkə sönür,
Hər yerində qan görünür.

Şadimanın dərd təşnəsi,
Aləmlərdən gəlir səsi,
Kəsir zülüm, qəm nəfəsi,
Yəqin Rəbbin üzü dönür,
Hər yerində qan görünür.

08.02.2016

FƏRYADI İÇİNDƏ BATAN TÜRKMƏN

Qəfil acıların içində qaldı,
Mehrini dərdinin özünə saldı,
Dəhşətin, işğalın sorağın aldı,
İraqda taleyi yatan Türkmən,
Fəryadı içində batan Türkmən.

Kərkükü, Mosulu qanlar bürüdü,
Uşağı, böyüyü ölüm sürüdü,
Silahsız yurdlara güllə yürüdü,
Naləsi göylərə çatan Türkmən,
Fəryadı içində batan Türkmən.

Niyə qahmar çıxmır Türk Türkə, Allah?
Qopur anaların sinəsindən ah,
Bəs ölən çocuqlar deyilmi günah?
Şəhidinə yası tutan Türkmən,
Fəryadı içində batan Türkmən.

Bəs niyə susubdu ata Türkiyə?
Qulağı ağzında bu səsə, küyə,
Qəzza haraylayır İslamam deyə,
Qanını yurdlara qatan Türkümən,
Fəryadı içində batan Türkmən.

Yurdum Azərbaycan, Türkiyə, haray!
Dolaşır Kərkükü, Ərbili ah-vay,
Meyidlər düzülüb yollara tay-tay,
Ağlayır, hıçqırır VATAN Türkmən,
Fəryadı içində batan Türkmən.

Keçir çadırlarda günləri ağlar,
Dəyir sinələrə sağalmaz dağlar,
Yardımsız, tərəfsiz bitməz bu çağlar,
Qanların içində itən Türkmən,
Fəryadı içində batan Türkmən.

Niyə bir-birinə yağı müsəlman?
Düşüb ayaqlara ağlayır iman,
Kimindir bu günah, kimindir fərman?
Əzablar içində bitən Türkmən,
Fəryadı içində batan Türkmən.

Şadiman, ağlayan ürək susmayır,
Ruhum hönkürtüdə canı asmayır,
Qan töküb, ev yıxan əlin qısmayır,
Canımda ahlarla ötən Türkmən,
Fəryadı içində batan Türkmən.
Fəryadı içində batan Türkmən.

31.07.2014

BELƏ GETSƏ

Min üzlülər feilinə düşmüsən,
Ağıllarda çözülməyən işmisən?
Quduzların ağızında dişmisən?
Haçan evə yığılarsan, a dünya.
Belə getsə dağılarsan, a dünya.

Qan tökməkdən çəkinməyir insanın,
Su yerinə qan olubdu ehsanın,
Göy çaxnaşır, göydən tökür leysanın,
Kainatdan çıxılarsan, a dünya.
Belə getsə dağılarsan, a dünya.

Vicdanları qəfəslərə salıblar,
Ağılları beyinlərdən çalıblar,
Düşünənlər şər əllərdə qalıblar,
Məngənədə sıxılarsan, a dünya.
Belə getsə dağılarsan, a dünya.

Məzarların hekayəti daşında,
Hönkürürsən hər insanın yaşında,
Ömürlərin müsibəti başında,
Künc-bucağa yığılarsan a dünya,
Belə getsə dağılarsan, a dünya.

Mərifətin insanlıqdan ucada,
Pərçimlənib, ruhun qalıb bacada,
Sən qalibsən həm toxa, həm aca da,
Dəhşətlərlə hələ varsan a dünya,
Belə getsə dağılarsan, a dünya.

12.07.2015

DÜNYANI HAMI DANLAR

Bu dünyanı hamı danlar,
Heç ağlına baxan yoxdu.
Qarasına çox yamanlar,
İçdə şəri yıxan yoxdu.
İnsan səhvin haçan anlar?!

14.02.2016

MÖHLƏTİNƏ VURULMUŞAM

Möhlətinə vurulmuşam,
Saat təki qurulmuşam,
Canım bilib sarılmışam,
Varı ilə yalan dünya,
Talan dünya, talan dünya.

Aşiqinik doğulandan,
Düşüb dərdə boğulandan,
Məzarlara dağılandan,
Nəfsə zəfər çalan dünya,
Talan dünya, talan dünya.

Səni yıxıb sürütdülər,
İçində qəm əritdilər,
Bildiklərin yeritdilər,
Qanla köksü dolan dünya,
Talan dünya, talan dünya.

Vüsalına çatan ölür,
Varlıq səndə nemət bölür,
Yaradan hər yerdə gülür,
Gülüşə əl çalan dünya,
Talan dünya, talan dünya.

Sən milyonlar yola saldın,
Qanmazı pis hala saldın,
Acgözləri bala saldın,
Sonra varın alan dünya,
Talan dünya, talan dünya.

Var üstündə tökülür qan,
Bədənləri tərk edir can,
Şivən qopur, gözdə leysan,
Leysanla bir dolan dünya,
Talan dünya, talan dünya.

Şadimana ömür əzab,
Ürək dözmür, etməyir tab,
Haçan gələr, bəs haqq-hesab?!
Bizdən öncə olan dünya.
Talan dünya, talan dünya.

12.07.2015

XOŞ SABAHLAR AÇILSIN

Üzümüzə xoş sabahlar açılsın,
Həsrət bitsin, kədər getsin dünyadan.
Pisliklərdən, xətalardan qaçılsın,
Ağıl çaşsa, üz qızarsın həyadan.

Müjdələri qəlbə salaq, insanlar,
Xoş həyata carçı olaq, insanlar.

Bitsin qırğın, qan-qadalar yamandır,
Çatsın sonu silahların nəhayət.
Yensin savaş, qana rəvac divandır,
Yetər! Dinlər Yaradana ibadət!

Ömür qısa, həyat gözəl, insanlar,
Hər addımda xeyir əzəl, insanlar.

Var olandan dünyada qan bitirdik,
Keçmiş olsun, bir-birinə can deyək.
Özümüzə inam hissin itirdik,
Sülhə gələk, sülhə eşqlə yan deyək.

Ey Şadiman, kinə yuva qalmasın,
Başımızın üstün savaş almasın.

21.01.2015

GÖYLƏR SƏNDƏN ARALI

Göylər səndən aralı,
Yer ayağın altında.
Min bir yerdən yaralı,
Qaçma zaman atında.
Xəzinə hər qatında.

İşığın gözdən keçir,
Dünya, nur həyatında.
Hər gələn üzdən keçir,
Ömrün bata-batında,
Xəzinə hər qatında.

15.02.2016

DÜNYAMIZI QORUYAQ

Sabahlardan doğsun günəş hər səhər,
Ağıl versin bu dünyaya bar-bəhər,
Ey insanlar, ömür qısa, gün yarı,
Hansı ürək şəfa bilər ah-zarı?

Yetər artıq qan-qırğınlar, zülümlər,
Silahların törətdiyi ölümlər.

Axı dünya insanın can odası,
Yıxsaq onu dəyər bizə qadası.
Dilimizə, irqimizə baxmayaq,
Bir-birinin axırına çıxmayaq.

Ey Şadiman, yer titrəyən qucaqdı,
Alışdırsaq sönməyəcək ocaqdı.
Gəlin onu könlümüzə süsləyək,
Canımıztək, qanımıztək istəyək.

Ürəkləri qoy sevgilər bürüsün,
Bütün bəşər sülhə doğru yürüsün.

22.01.2015

DÜŞDÜN DÜNYA

Ürəyində qəm selin var,
Yandın oda, bişdin dünya.
Aha düşən lal dilin var,
Bu necə dərd, düşdün dünya?

Dörd tərəfin qanla dolu,
Ağrı çəkən canla dolu,
Tapılmayır haqqın yolu,
Bu necə dərd, düşdün dünya?

İşığını qapatdılar,
İçində şər oyatdılar,
Yaraları qanatdılar,
Bu necə dərd, düşdün dünya?

14.02.2016

İNSANI ALƏT ETMƏYİN

Sizə inanırıq, sizə həmişə,
Siz də canımızı vurmayın dişə,
Hər insan ömürü dünyaya guşə,
Ömrün günlərini zillət etməyin,
Həkimlər, insanı alət etməyin.

Hamı yaşamaqçın gəlib dünyaya,
Çevirmin insanın həyatın vaya,
Nə edək sizlərin cibləri doya?
Qapıdan girəni niyyət etməyin,
Həkimlər, insanı alət etməyin.

Körpə gülüşləri dodaqda donur,
Üzünə ağrının fəryadı qonur,
Əlləyin çarəsiz baxışlara nur,
Dərdini sağalmaz, illət etməyin,
Həkimlər, insanı alət etməyin.

Harda itib batdı Hippokrat andı?!
Dilinizdən düşdü, ocaqda yandı,
Ürəkmi daşlaşdı, vicdan dayandı?!
Dərdləri çarəsiz halət etməyin,
Həkimlər, insanı alət etməyin.

Hər insan doğulub yaşamaq üçün,
Bədənlə alveri edirsiz neçün?
Yandırıb tökürsüz adamın için,
Bizlərdən ümidsiz millət etməyin,
Həkimlər, insanı alət etməyin.

Sizin içinizdə loğman olan var,
Xəstə qeyidinə eşqlə qalan var,
Çarəsiz ölənə qəlbi talan var,
Canla oynamağı xislət etməyin,
Həkimlər, insanı alət etməyin.

İnfarktla, xərçənglə inləyir ölkə,
Üz tutub gəlirik, sağalar bəlkə…
Dillər fəryad çəkir, qəlb parça, tikə,

Min yol ölçün, biçin, qələt etməyin,
Həkimlər, insanı alət etməyin.

Şadimana yara xəstə fəryadı,
Körpə iniltisi, cavan imdadı,
Hər şeydən müqəddəs həkimlik adın
Yamanlıq əyninə xələt etməyin,
Həkimlər, insanı alət etməyin.
Həkimlər, insanı alət etməyin.

03.03.2016

DƏRDLƏ ÇOX GÖYNƏDİN

İçim sızlar kaman kimi,
Səni saydım iman kimi,
Ömrə baxdın zaman kimi,
Heç bilmədin sən neylədin?
Dünya, dərdlə çox göynədin.

Ağrıların toz qopartdı,
Nəfəsimə özün atdı,
Heç bilmədim nə həyatdı?
Əzablardan dağ eylədin,
Dünya dərdlə çox göynədin.

Tanıyandan səni busan,
Olmur sənlə ömür asan,
Batıb gedir qəmə susan,
Hər bağdan bir gül iynədin,
Dünya dərdlə çox göynədin.

Bir bilsəydin nə çəkirəm,
Sevinc biçib, eşq əkirəm,
Ürəyimə qəm bükürəm,
Cana batan bir iynədin,
Dünya dərdlə çox göynədin.

İşığını gözə saldın,
Surətini üzə saldın,
Məcnun edib düzə saldın,
Daha bəsdi, ağ eylədin,
Dünya dərdlə çox göynədin.

07.03.2016

TƏLƏSDİN KÖNLÜMÜ ƏZMƏYƏ DÜNYA

Mən ki, öz xoşumla doğulmamışdım,
Zərrətək ümmana dağılmamışdım,
Canımın evinə yığılmamışdım,
Ruhum alışmamış gəzməyə dünya,
Tələsdin könlümü əzməyə dünya.

Sən başında xonça bəzəkli idin,
Hər ağrı-acıma ürəkli idin,
Mən elə zənn etdim diləkli idin,
Gəldim ürəyimi üzməyə dünya,
Tələsdin könlümü əzməyə dünya.

Məni bənd etdikcə özünə hər dəm,
Gözlərim önündə kölgələndi nəm,
Hönkürdü halıma ömrə düşən dəm,
Nola kirpik yaşı süzməyə, dünya?
Tələsdin könlümü əzməyə dünya.

Hər yerin qırğınla, qanla doludu,
Deyirlər insanlıq haqqın quludu,
Cahan Yaradanın hesab yoludu,
Heç taqət qalmayıb dözməyə, dünya,
Tələsdin könlümü əzməyə dünya.

Mən işıq içində nur axtarıram,
Nurunu tapanda könlə sarıram,
Doğulan günümdən haqqı arıram,
Başladın dodağı büzməyə dünya,
Tələsdin könlümü əzməyə dünya.

26 .04.2016

SAHİB ÇIXMADIN

Gələnə-gedənə sahib çıxmadın,
Özün də aslısan Allahdan, dünya.
Gedənin dalınca dönüb baxmadın,
Yəqin ki qaçırsan günahdan, dünya.

17.12.2016

SƏN ELƏ GÖZƏLDİN…

Sən elə gözəldin çiçəklər kimi,
Coşub çağlayırdın diləklər kimi,
Göylərdən gəlmişdin mələklər kimi,
Vurdun könlümüzə yara, Əsmərim,
Hara uçdun getdin, hara Əsmərim?!

Həkimlər, dərmanlar cəlladın oldu,
Qulaqlarda qalan fəryadın oldu,
Qəlbi yara edən tək adın oldu,
Tapmadıq dərdinə çara, Əsmərim,
Hara uçdun getdin, hara Əsmərim?!

Gözümüz önündə gəzirsən hər gün,
Vallah, qəlbimizi üzürsən hər gün,
Oldun könlümüzdə açılmaz düyün,
Ruhumuz çəkilir dara, Əsmərim,
Hara uçub getdin, hara Əsmərim?!

Dərmanlar, iynələr yağına döndü,
Könlümüz çəkilməz dağına döndü,
Adın dilimizdə ağına döndü,
Xəzan yaman vurdu bara, Əsmərim,
Hara uçub getdin, hara Əsmərim?!

Əzrayılın gəldi, qova bilmədik,
Dərdini gizləyən yuva bilmədik,
Səni hifz edəsək dua bilmədik!
Gəlmişik sitəmdən zara, Əsmərim,
Hara uçub getdin, hara Əsmərim?!

Düşdüyün dəhşəti unutmaq olmur,
Ürək paramparça ovutmaq olmur,
Balaca mələkdin, yas tutmaq olmur,
Çəkdin ruhumuza qara, Əsmərim,
Hara uçub getdin, hara Əsmərim?!

Şadiman sarsılıb bu gedişinə,
Həkim yaman çəkdi səni dişinə,
Ölmün yazılmasın fələk işinə…
Talelə vurmayaq ara, Əsmərim,
Hara uçub getdin, hara Əsmərim?!
Hara uçub getdin, hara Əsmərim?!

22.03.2016

BİZ NİYƏ İNANDIQ SÖZÜNƏ, HƏKİM?

Ölənin ruhunun dilindən…

Dünəndən yatıram qəbirdə nalan,
İnsan da olarmış səbirdə nalan,
Qalsaydı mənimtək çarəsiz balan,
Onda nə edərdin özünə, həkim?
Biz niyə inandıq sözünə, həkim?!

Sən mənə leykozun adını qoydun,
Ağzımda dərmanın dadını qoydun,
Atamın, anamın qəlbini oydun,
Hiyləni çəkmisən üzünə, həkim,
Biz niyə inandıq sözünə, həkim?!

On beş gün içində öldürdün məni,
Yamanca sağaltdın, güldürdün məni,
Ruhum lənətləyir əbədi səni,
İnsanlar axışır üzünə, həkim,
Biz niyə inandıq sözünə, həkim?!

Heç altı yaşına çatmadım ki, mən,
O nə dərmanlardı yazdın mənə sən?
Ciyər parçalandı, qanla doldu tən,
Vurur doğmalarım dizinə, həkim,
Biz niyə inandıq sözünə, həkim?!

Düşdü nənə, baba borc-xərc içinə,
Çəkdin əzizlərin dağı içinə!
Baxırsan ürəksiz insan köçünə…
Gəlmə atam təki özünə, həkim
Biz niyə inandıq sözünə, həkim?!

Atamın, anamın gözəl qızıydım,
Nənəmin, babamın göy ulduzuydum,
Qohum-əqrabanın dadı-duzuydum,
Dur gəl məzarımın közünə, həkim,
Biz niyə inandıq sözünə, həkim?!

Üç dəfə sən məndən ilik götürdün,
Bəlkə mən sağlamdım, hara ötürdün?!
Təbiblik adını harda itirdin?

Bunu ruhum deyir üzünə, həkim?
Biz niyə inandıq sözünə, həkim?!

Mən bir yaşıl gözlü, ağbəniz idim,
Hərdən də gözləri göy dəniz idim,
Saçları sarışın, çox təmiz idim,
Düşəcək kabusum izinə, həkim,
Biz niyə inandıq sözünə, həkim?!

Mən bu il məktəbə gedə bilmədim,
Nə arzu tutmuşdum edə bilmədim,
Sənə iki yazdım, onu silmədim,
Gəl bax qiymətinin düzünə, həkim,
Biz niyə inandıq sözünə, həkim?!

Mən xəstəxanaya ayaqla gəldim,
Yol boyu nənəmlə danışıb güldüm,
Vurduğun iynədən sonra mən öldüm,
Çör dəysin sən təki yüzünə, həkim,
Biz niyə inandıq sözünə, həkim?!

Evə qaytardılar, lal, huşsuz canla,
Beş gün can verirdim ahu-fəğanla,
Necə yaşayırsan belə vicdanla?!
Sənin kimilərin özü nə, həkim?
Biz niyə inandıq sözünə, həkim?!

Mənim istedadım, ağılım vardı,
Gələcəyə arzum, nağılım vardı,
Bu uşaq canıma məzarım dardı,
Keçəsən fələyin bizinə, həkim,
Biz niyə inandıq sözünə, həkim?!

Ruhum qonaq gəldi bu Şadimana,
Sənin kimliyini yaysın cahana,
Düşər bir gün ölkə yəqin səhmana,
O zaman gəlməzsən özünə, həkim,
Biz niyə inandıq sözünə, həkim?!
Biz niyə inandıq sözünə, həkim?!

03.03.2016

SORMUŞAM, DÜNYA

Bir azca işığam, bir azca odam,
Özüm öz ruhuma bəzən çox yadam,
Niyə yaranıbdı, neyçündü adam?!
Səndən neçə kərə sormuşam dünya,
Səni suallarla yormuşam, dünya.

Bizim ayağımız torpağa bağlı,
Göylər ovsunlayır, aparır ağlı,
Bitib tükənməyir kainat nağlı,
Səyyarə içində qormuşam, dünya,
Səni suallarla yormuşam, dünya.

Elə doğulandan tələtümdəyəm,
Ruhum hardan gəlib, özüm kimdəyəm?!
Zəkamın duyduğu bir çəkimdəyəm,
Ağrını canıma sarmışam, dünya,
Səni suallarla yormuşam, dünya.

Göylərdən yerlərə sirdi boylanır,
İnsanın içindən kirdi boylanır,
Kürə acılara dözmüb haylanır,
Bilməyib içinə varmışam, dünya,
Səni suallarla yormuşam, dünya.

Adamın hiyləsi canından betər,
Ağlından ürəyə yol alıb bitər,
Səni batırmağa bir fəndi yetər,
Qapında günahkar durmuşam, dünya,
Səni suallarla yormuşam, dünya.

28.04.2016

XATİRƏ İMİŞ

Ürək sızıldayır sınıq sim kimi,
Zaman ram eləyir bir tilsim kimi,
Adımız hallanır gur isim kimi,
Ömür də bir kiçik xatirə imiş,
İnsanı doğluşu xətirə imiş.

18.03.2016

HAMI DÜŞÜB BU DÜNYANIN ÜSTÜNƏ

Hamı düşüb bu dünyanın üstünə,
Yazıq dünya bəd əmələ, neyləsin?
Silahları artırırlar qəsdinə,
Yalan deyən zəhər dilə, neyləsin?

İnsan özü yağıdır bir-birinə,
Hiylə qurub çəkilirlər sərinə,
Getdikcə də şər işləyir dərinə,
Qana batan qanlı ələ, neyləsin?

Yığışmışıq biz dünyanın qoynuna,
O da dözür iblislərin oynuna,
Cəfamızı götürübdü boynuna,
Yurdu batan bədbaxt elə, neyləsin?!

Hamı söyüb yamanlayır dünyanı,
İndi çoxdu itirənlər həyanı,
Yaxşıların yaxşı ki, var həyanı,
Yoxsa dünya gəlməz ələ, neyləsin?

Dörd tərəfi bəndələrin savaşı,
Haqq qanmayan adam onun əyyaşı,
Yurdlar viran, uçurulur dam-daşı
Gözdən axan qanlı selə, neyləsin?

Dünya bəndə vuruşuyla dağılır,
Bezir daha, lap boğaza yığılır,
Adam əhli öz qanında boğulur,
Yaranışdan insan belə, neyləsin?

06.08.2016

DÖNƏCƏYİN VAR

Dünya, kainatın bir ulduzusan,
Parlaqsan, nə vaxtsa sönəcəyin var.
Vallah, canlıların dadı-duzusan,
Sənin də dərgaha dönəcəyin var.

17.12.2016

VƏTƏN ƏQLİN HİKMƏTİDİ

TÜRK OĞLU TÜRK

Hanı Sultan tacı-taxtın?!
Niyə yatıb qalıb baxtın?
Ötüb keçir dərdlə vaxtın,
Qaldır səsi aləmə bərk,
Qurduna dön, Türk oğlu Türk.

Vətənlər əsir ağlayır,
Nalələr sinə dağlayır,
Bəxtini şər varağlayır,
İgidliyin başına sərk,
Qurduna dön, Türk oğlu Türk.

Parçalanıb, aralandıq,
Min bir yerdən yaralandıq,
Bəsdir daha paralandıq,
Acıları gəl eylə dərk,
Qurduna dön, Türk oğlu Türk.

Ərbilə əlim çatmayır,
Kərküküm gecə yatmayır,
Şərin qulağı batmayır,
Etmək olmur ocağı tərk!..
Qurduna dön, Türk oğlu Türk.

Təbrizində gözüm qalıb,
Borçalını hicran alıb,
Şər Dərbəndi dərdə salıb,
Əsir yurdlar sinəyə görk,
Qurduna dön, Türk oğlu Türk.

Bu xaçın Səlib yürüşü,
Əzilməli köpək dişi,
Şər-xətadır hər bir işi,
Sənə baxan şər gözü tök,
Qurduna dön, Türk oğlu Türk.

Qarabağın işğallarda,
Necə dursun bu hallarda?

Pak sevgi var vüsallarda,
Aralıqda iltifat tük…
Qurduna dön, Türk oğlu Türk.

İrəvanı yağı aldı,
Aramıza sərhəd saldı,
Göyçəgöldə gözüm qaldı…
Dur, yağını qanına bük,
Qurduna dön, Türk oğlu Türk.

Qılıncını qart daşa sürt,
Düşməninin köksünə dürt,
Xain üzə qapını ört,
Soydaşından bu sənə ərk,
Qurduna dön, Türk oğlu Türk.

Üzü Haqqa durmaq hünər,
Ulu sözün dilində ƏR,
Qalx, düşmənin qolunu gər,
Şadimana əhvalın görk.
Qurduna dön, Türk oğlu Türk.
Qurduna dön, Türk oğlu Türk.

10.02.2012

QUBA MƏZARLIĞI

1918-ci ilin mart-aprelində erməni-bolşevik birləşmələri 50 min azərbaycan əhalisini öz yurd-yuvasında qətlə yetirdi.

Quba məzarlığı açdı tarixi,
Dünyaya bir dəhşət saçdı tarixi.

***

Çəkilmir üstündən ağrı-acılar,
Göylərin bağrına fəryad sancılar,
Ruhlar fəğan edir burda didərgin,
Ağrılar içində zamanlar gərgin.
Sünbültək biçilib qəfil insanlar,
Qan gürşada dönüb, yağıb leysanlar!
Erməni-bolşevik quldur dəstəsi,
Əllərində tüfəng, xəncər tiyəsi,
Batırıb qanlara şəhəri, kəndi,
Baş tutub bir zaman hiyləgər fəndi.

Evlərdən insanlar tökülüb çölə,
Qanlar suya dönüb, çevrilib gölə.
Uşaqlar, qocalar, qadınlar nalan,
Neçə yurd-yuvalar, məscidlər talan!
Hönkürən, qışqıran insan harayı,
Çox küncdə-bucaqda güldürdü vayı!
Can götürüb qaçan, sağ qaldı o vaxt,
Hər kəsin üzünə gülmədi heç baxt…
Göylər də ağladı Quba yasına,
Fələk yaş axıtdı yerin tasına.
Öz doğma evində qırıldı millət,
Yuvalar içində şah oldu illət.
Burda fərq qoymadı düşmən heç kimə,
Müsəlman tamamən ölməli, demə.
Türk, ləzgi, yəhudi, dağlı qırıldı,
Qanlardan səmanın bağrı yarıldı.
Hamı Allah deyib göyə əl açdı,
Əzrayıl özü də zülümdən qaçdı.
Onun roluna girmiş qansızlar,
İnsan öldürməkdə birmiş qansızlar.
Qanların içində üzdü məmləkət,
Qanlardan donunu geydi fəlakət!
Qadınlar saçından asıldı o gün,
Körpələr küncləre qısıldı o gün.
Qocalar Quranla məscidə qaçdı,
Diz çöküb əllərin göylərə açdı.
Allahın evinə doldu insanlar,
Allahla təmasda oldu insanlar.
Onlar məscidə də kibriti vurdu,
Qapını bağlayıb, ağzında durdu.
Yandı qadın, uşaq orda günahsız,
Yağını bəsləyən, doğan Allahsız!
O günlər Şamaxı, Bakı qırıldı,
Siyəzən, Dəvəçi aha sarıldı.
Xaçmazda el-oba qana boyandı,
Çocuqlar, körpələr beşikdə yandı!
Bunları unutmaq olmaz, ey millət,
Unutsaq yenə də doğacaq zillət!
İrəvan, Zəngəzur, Borçalı, Dərbənd,
Təbriz, Xan Qarabağ zəncirlərlə bənd,
Gəlin bu dərdlərə edəyin peyvənd!
Türk yurdu şəhidlər məzarı olur,
Baxın, ana Vətən saçını yolur.

***

Quba məzarlığı açdı tarixi,
Dünyaya bir dəhşət saçdı tarixi.

***

Sümüklər sızlayır şivən içində…
Millətə bir haray, güvən içində!..
Ruhlar ah-fəğanla dolaşır burda,
Öz qara bəxtiylə ulaşır burda.
Körpə, qoca, uşaq, qadın kəlləsi,
Gahdan qulaqlara dəlir ah səsi.
Quyular açılıb, sirr üzə çıxıb,
Düşmənin etdiyi kir üzə çıxıb.
Lənətin o yana yolu da yoxdu,
Vətəndə bu tipli quyular çoxdu…
Nə qədər hələ də yer altındadır,
Gözəl Azərbaycan şər altındadır.
Şərin quyruğunu kəsməsək, olmaz,
Vətənin üstündə əsməsək, olmaz.
Yuvanı qorusan – yurduna dönər,
Yurdunu bəsləsən – ORDUNA dönər…

***

Yenə zaman ötüb, günlər keçəcək,
Barış şərbətini yağı içəcək…
Ancaq Soyqırımlar ürəyimizdə,
Vicdandan boylanan diləyimizdə.
Susub, bu qanlarla oturmaq olmaz,
Sandıqlar içinə yatırmaq olmaz.
Olmamış soyqırım bəsləyir yağı,
Haqqı vicdanından həsləyir yağı.
Türklərə edilən bu Soyqırımı,
Bilib, tanımalı dünyada hamı.
Haqqı qəfəslərə salanlar bilsin,
Məkiri, hiyləsi kalanlar bilsin,
Düzlüyü yoluna qaytarmaq gərək,
Düzlüklə vurmalı cahanda ürək.
Onda nahaq qanlar tökülməyəcək,
Heç bir insan könlü sökülməyəcək.

***

Quba məzarlığı açdı tarixi,
Dünyaya bir dəhşət saçdı tarixi!..

23.04.2012

URMU GÖLÜ AĞISI

Güney Azərbaycanında Urmu gölü yox olmaq təhlükəsi ilə üz-üzə, o, insanları haraya çağırır…

Çəkilib sinəmə dağlar, düyünlər,
Tərsinə çevrilib indi beyinlər,
Quruyur sularım, tükənir günlər,
Yanıb köz oluram oduma gəlin.
Ey Vətən deyənlər, dadıma gəlin.

Adımı Urmugöl qoydu dədələr,
Mənim harayıma yetmir gədələr,
Dərdimi köksümdən gəlib didələr,
Yığılın, ellilər, adıma gəlin.
Ey Vətən deyənlər, dadıma gəlin.

Tökülür bədənim, qəfəs oluram,
Anbaan quruca nəfəs oluram,
Bəmdə inildəyən bir səs oluram,
Bəmimə zil tutun, adıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Məni Urmu deyib, öyürdüz axı,
Mənə sevgili yar deyirdiz axı,
Qalxır asimana köksümün ahı,
Güneyli, Quzeyli yardıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Daha quş karvanı gölə gəlməyir,
Mənim ağılarım dilə gəlməyir,
Sularım quruyur, ələ gəlməyir,
Durun, qoşun çəkin, yurduma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Babəkin kəsilən qolu haqqı ki,
Nəsimi soyulan yolu haqqı ki,
Sərdari-millilər halı haqqı ki,
Hələ can üstəyəm, vardıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

İndi ağım ilə yüklənib Güney,
Min bir əzablarla rənglənib Güney,

İranda, ey dunya, təklənib Güney,
Dillər haraylayan, sorduma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Mən sussuz yaşaya bilməyəcəyəm,
Sularım coşmasa, gülməyəcəyəm,
Mənə can desələr, ölməyəcəyəm,
Düşün cığırıma – ardıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Şadiman, bilirəm yanırsan mənə,
Sən də bu gölümü anırsan mənə,
Gəl, ey şair qızım, su lazım tənə!...
Dərdi ləşgər çəkən, orduma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.
Ey Vətən deyənlər, dadıma gəlin.

26.07.2012

VƏTƏN ƏQLİN HİKMƏTİDİ

Vətən əqlin hikmətidi,
Onun eşqi candan gəlir.
Hər millətin nemətidi,
Məhəbbəti qandan gəlir.

Ondan keçmək olarmı heç?
Ocaqsız el qalarmı heç?
Ürəyə od salarmı heç?
Sədası hər yandan gəlir.

O yuvadır, sökmək olmaz,
İçinə şər tökmək olmaz,
Hər qoltuğa bükmək olmaz,
Yurd özü ad, sandan gəlir.

Vətən cigər, paramızdır,
Qorumasaq, yaramızdır,
Sığınmağa çaramızdır,
Vüsalı hər andan gəlir.

Bu Şadiman qərib olsa,
Gözü dolub yolda qalsa,
Əgər xain çıxan olsa,
Hər sözü min dondan gəlir.

14.02.2013

TÜRKÜN BAYRAĞI

Yanacaqdır yerdə, göydə nurlu, parlaq çırağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

O sevdalı ürəklərdə alışacaq şam kimi,
Zülmətlərə udduracaq yağını axşam kimi,
O Turanın sinəsində coşub-daşan kam kimi,
Altaylarda, Türküstanda gəzəcəkdir sorağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Canımızdan, qanımızdan, ruhumuzdan boylanır,
Onun rəngin görən düşmən fəryad çəkir-oylanır,
Çıxır əngin asimana, başımıza haylanır,
Birləşəcək Turan ellər, görəcəkdir xoş çağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Qurd ürəkli kişilərin məkanıdır uluslar,
Qan yaddaşa qayıtmağın təkanıdır uluslar,
Şərəf, namus, qeyrət, ismət ərkanıdır uluslar,
Kəsiləcək Türk yurdlardan yağıların ayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Gələcəkdir bir araya, Ərəm, deyən oğullar,
Qurd ruhundan qopub çıxan, nərəm, deyən oğullar,
Silah qapıb xainləri, gərəm, deyən oğullar,
Sibiryadan, Tatarlardan uçacaq yel sayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Çanaqqala savaşının qanı gəzir üzündə,
Şəhid ruhu alov saçır torpağının özündə,
Məhşərətək haray çəkir ocağının közündə,
Yağı özü yaddır ona, yağı sözü bayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Türk torpaqlar Ay-Ulduzlar istiqlalın doğacaq,
Onun ruhun sındıranı künc-bucağa sığacaq,
Bayraqların, Türkəm, deyən bir sıraya yığacaq,
Artacaqdır sülhsevənin bu topluma marağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Göy atların kişnərtisi qulaqlardan getməyir,
Tarixlərin havacatı hələ başdan ötməyir.

Əllərimiz ayrılalı, bir-birinə yetməyir,
Qıpqırmızı sancağıdır könlümüzün dayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Türkiyənin səmasından gəl-gəl deyir bizlərə,
Sığal çəkir al rəngiylə şəfəqli gündüzlərə,
İşığından nur ələnir könüllərə, üzlərə,
Süslənibdi məhəbbətlə tarix dolu varağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Yanacaqdır yerdə, göydə nurlu, parlaq çırağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.
09.11.2012

ƏSLİ-SOYU TAMAM DANAN

Əsli-soyu tamam danan,
Hardan gəlib, hara getdi?
Doğmaya yox, yada yanan,
Harda idi, hara yetdi?

Bədən cana xain çıxmaz,
Yaramaza kimsə baxmaz,
Şər əlindən heç buraxmaz,
Bülbül susdu, qarğa ötdü.

Qırantlarla bəslənənlər,
Bu eşq ilə süslənənlər,
Düşmənlə bir səslənənlər,
Könlə gələn sözdə bitdi.

Ata minib, tərsə çapan,
Öz xalqına çirkab atan,
Bilinməyir anan, atan,
Bilinirsə nə xislətdi?

Şər yağıdı, bəlli üzü,
Fitnə-fəsad hər bir sözü,
Baş açmaq da olmur düzü,
Kök birsə nə xəyanətdi?

Şadimanı çək çarmıxa,
Fitvalara verməm yaxa,
Xalqın gözü baxa-baxa,
Düşmənə nə ibadətdi? **14.02.2013**

QALIB ÇADIRLARDA

Sayman Aruza

Güney Azərbaycanında minlərlə
bacı-qardaşımız, bu soyuq zamanda
çadırlar içində soyuqdan
əsməyə məhkum olunublar...

Yolladığın şəkil könlümü üzdü,
Sayman bəy, onsuz da dərdlərim közdü,
Bəsdir millətimiz sitəmə dözdü!
Əzabdan çatlayır daha dağ-daşım,
Axır ürəyimə qanlı göz yaşım.

Şəkilin üzündən tökülür soyuq,
Əlləri şaxtadan titrəyən çocuq,
Açıbdı kədəri gözündə oyuq,
Dözməyir bu dərdə düşünən başım,
Axır ürəyimə qanlı göz yaşım.

Qalıb çadırlarda didərgin ağlar,
Gəlir günbəgündən nə qanlı çağlar?
Bu acı sitəmlər sinələr dağlar,
Güneydə üzülən bacı, qardaşım.
Axır ürəyimə qanlı göz yaşım.

Qar-çovğun içində çadırlar miskin,
Adamlar kədərli, adamlar küskün,
Niyə bu millətə düşüb qaragün?
Sağ ikən, qabaqda gedir başdaşım,
Axır ürəyimə qanlı göz yaşım.

Quzeydən Güneyə harayım yetmir,
Niyə başımızdan qan-qada ötmür?
Acılar uzanır, acılar bitmir…
Necə Vətən bölən sərhədi aşım?!
Axır ürəyimə qanlı göz yaşım.

Dur, ey Azərbaycan, qap silahını,
Parçala düşməni, dağıt ahını,
Özün yoluna qoy xoş sabahını,
Qalıb əsirlikdə torpağım, daşım,
Axır ürəyimə qanlı göz yaşım.

Ağladır müsibət bu Şadimanı,
Quzeyli-Güneyli yurddu imanı,
Yığılıb boğaza daha bu canı,

Ayıl xəyallara dalan soydaşım,
Çadırlar içində donan qardaşım,
Axır ürəyimə qanlı göz yaşım.

10.11.2012

HEÇ OLMADI BİR XOŞ GÜNÜMÜZ

Heç olmadı bir xoş günümüz, ay bahalanma,
Aldı başımız üstünü ah-vay, bahalanma.

Çoxları tökür başına şabaş təki pulu,
Bir bilməyirlər nədir o say, bahalanma.

Qəpik-quruşa meylimizi etmişik pənah,
Gözdə yaşımız olmadadı çay, bahalanma.

Bizlər də axı bu Vətənin övladı olduq,
Harayımıza kimsə demir hay, bahalanma.

Yaşayış pulu, işıq pulu, qaz pulu artar,
Başımızı bir dürtməyə yox tay, bahalanma.

Dediklərimə inamını etmirsən rəva,
Onda dur özün dərdimizi say, bahalanma.

Heç andıra qalmış nöyütdən görmədik səfa,
İçlərdəki ahlarımızı yay, bahalanma.

Üzdə gülüşə olmayacaqdır daha hacət,
Dolaşıq olub bizlərə gün-ay, bahalanma.

Vətən əhli dükan-bazarı eyləyir seyir,
Borclar da edib günümüzü zay, bahalanma

İndi daha səhər bizə lazım deyil əsla,
Deyək bütün yatmışlara lay-lay, bahalanma.

Bu Şadimanın dilinə dinc durmağı dedim,
Töhmətləri etdi mənə çox pay, bahalanma.

17.12.2013

AĞRISIN TARİXƏ SALAN ALBANYA

Əsirlər içində yatır taleyin,
Göy yeddi qatına çatır taleyin,
Səni müsibətə atır taleyin,
Qəsiri, qalası talan Albanya,
Ağrısın tarixə salan Albanya.

Sən ki, Qafqaz adlı yerdə doğuldun,
Dinlər savaşında ahdan boğuldun,
Sanki Cavanşirlə qoşa nağıldın,
Varlığın olubdu yalan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Sənin «Əsli-Kərəm» dastanın haray,
Müsəlman Kərəmlə xaç Əslində vay,
Dur, yatmış bəxtinlə sal aləmə hay,
İstəkli ellərin nalan Albanya,
Ağrısın tarixə salan Albanya.

Qalx Dədəm Qorqudun naləsin oyat,
Sənə sitəm dolu dərd verdi həyat,
Şöklü Məliklərin bağrı etdi çat,
Gəlmə Haylar oldu balan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Tarixin, əlifban yad ələ keçdi,
Sənin doğmaların şərdən qan içdi,
Təni haray çəkdi, dərdi can içdi,
Əzablar içində solan Albanya,
Ağrısın tarixə salan Albanya.

Kəlisa inancın Hay tayfasında,
Həqiqət inləyir şər səfasında,
Dünyanın nə qalıb haqq vəfasında?
Saçını ah-ufla yolan Albanya,
Ağrısın tarixə salan Albanya.

İndi Qarabağın matəm içində,
Ordakı yerlilər sitəm içində,
Haylar soy-kökünü şərlə biçində,
Öz qara bəxtiylə dolan Albanya,
Ağrısın tarixə salan Albanya.

Haylar torpağımı Hayıstan etdi,
Terrorla, qırğınla yurdu qan etdi,
Uddu tarixini, mərama yetdi,
Qıpçağın, udinin balan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Səndə iyrmi altı el birləşirdi,
Əlli iki hərfli dil yerləşirdi,
Bəxtinə çarların sehri düşürdü,
Çökdü taxtı-tacın, qalan Albanya,
Ağrısın tarixə salan Albanya.

Biz uzaq düşdükcə keçmişimizdən,
Düşmən xəta yapdı hər işimizdən,
Bizim unutqanlıq vərdişimizdən…
Bu dərdlər olubdu bəlan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Demirəm biz xaça qayıdaq indi,
Deyirəm, olmuşu oyadaq indi,
Deyirəm, haqq desin dil-dodaq indi,
Deyirəm, dur, yurdu dolan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Şadiman ah ilə bu dərdi yazar,
Çəkdiyin sitəmə eyləyər həzar,
Sənə dağ çəkənə yar olsun məzar,
Öz əsir laylasın çalan Albanya,
Ağrısın tarixə salan Albanya.
Ağrısın tarixə salan Albanya.

07.01.2013

SƏNİ QANA SALAN

Səni qana salan qanda boğulsun,
İçinə dünyanın qəmi yığılsın,
Başından dərd-bəla bir yol dağılsın,
Ruhumuz içində eşqiylə bitən,
Ey candan, könüldən boylanan Vətən.

13.05.2016

EY DƏRBƏNDİM

Ey Dərbəndim,
Baş kəndim,
Dar bəndim,
Heç səndən olarmı keçəsi,
Ürəyimin külçəsi…

Ey Dərbəndim,
Ey qərib şəhərim,
Boğazımda kilidlənən qəhərim,
Sənin göylərində açılsın səhərin,
Daşsın bağında, bağçanda bar-bəhərin.

Ey Dərbəndim,
Gözlərim dikilib yoluna,
Qollarım asılıb qoluna,
Çevrilmə İmperya quluna…
Qəfəsindən qopda gəl,
Bütün ağrı-acıları dəl,
Deyirlər, səs çıxarda bilmir tək əl!...

Qoy əlimiz birləşsin,
Qoy dilimiz birləşsin,
Ayrılan ürəklərə atəş düşsün,
Yandırsın yaman dilləri,
Qandırsın ayrılıq salan illəri…
Birləşsin ürək telləri…
Sən gərəksən Vətənə,
Ürəyimizdə bitənə,
Mehir salma yetənə.
Mehir salsan dönəcəksən,
Yağılara enəcəksən.
Sən ciyərparamız,
Sən bağrımızda
sağalmayan yaramız.
Ayrılıq əzabından soldun, di bəsdi,
Həsrətin səbrimizi kəsdi!
Yağı əlində qalan yuvamız,
Sənə yetmirmi duamız?!
Təbrizin, Ərdəbilin, Bakının
qanqardaşı,
Türkün unudulmaz oylağı,

Səni qəsb etdi yağı,
çəkdi sinəmizə dağı.
Axıtma ürəyə göz yaşı,
Sən Vətənə can sirdaşı.
Ey karvan yollarının sorağı,
Ey Çıraqqala çırağı,
Harda donub qalıb Sarvanbaşı ayağı?!
Ey Qubanın, Xaçmazın, Şabranın can dayağı…
Demə ki, səni
unutduq,
Demə ki, səni atdıq,
Ürəyimə pərçimlənən
bərə-bəndim,
Elə bilmə eşqindən döndüm.
İnanmırsan, ürəyimdən soruş,
Sənə doğru gəlirəm qarış-qarış…
Ey dəmirqapı Dərbəndim…
Ey Dar bəndim…

23.11.2012

SEVDAMSAN VƏTƏN

Diləklər içində coşub daşasan,
Ağrından alışan nidamsan, Vətən!
Olmayır dünyada heç bir şey asan,
Sən mənim bitməyən sevdamsan, Vətən.

Gələn sabahlara işıq kimisən,
Mənim ürəyimə aşiq kimisən,
Dərdimi hayqıran aşıq kimisən,
Ruhumun daddığı qidamsan, Vətən.

Anlamaz nə bilir ocaq istisin,
Yurdun bacasından qalxan tüstüsün,
Soyuqsa, könlümə gir bir az isin,
Sən özün dərd çəkən adamsan, Vətən!

Şadiman qəlbini sənə şam edib,
Doğulub demə ki, bir yol kam edib,
Vallah, məni aşiq bu ilham edib,
Hönkürən təbimə sədamsan, Vətən!

14.02.2016

PULUM, EY PULUM

Alimlər qarşında çökər,
Məndən yazmaqçın dil tökər,
Sözdən mənə qala tikər,
Pulum, ey pulum.

Qapımdan necə girmisən?
Məni nə yaxşı görmüsən,
Bəxtimə düşən dürmüsən?
Pulum, ey pulum.

Aldığım diplom sənnəndi,
Alimliyim o günnəndi,
Dar cığırım ennəndi,
Pulum, ey pulum.

Bu yurd nə yaxşı məkandı,
Para əldə bir sükandı,
Hər işimdə bir təkandı,
Pulum, ey pulum.

Hamı məndən danışarlar,
Tərif üçün yarışarlar,
Hər dərdimə qarışarlar,
Pulum, ey pulum.

Oxudub zalım edərsən,
Sən məni alim edərsən,
Ad üçün aya gedərsən,
Pulum, ey pulum.

Əlimdən tutub yazarsan,
Hər kəsə quyu qazarsan,
Hərdən yolu da azarsan,
Pulum, ey pulum.

Səcdəmə durub gələrlər,
Baxıb üzümə gülərlər,
Dərdimdən düşüb ölərlər,
Pulum, ey pulum.

Qapılar özü açılar,
Gözlərdən günəş saçılar,
Sədlər, sərhədlər uçular,
Pulum, ey pulum.

Qəzet, jurnal dildən düşər,
Nəşriyyatlar əldən düşər,
Adım ən başda yerləşər…
Pulum, ey pulum.
Pulum, ey pulum

13.07.2011

VƏTƏNİN VARLIĞI

Vətənin varlığı əsgərdən başlar,
İgidin sədası sərhəddən gələr.
Yurduna arxadır düşünən başlar,
Düşmənə nifrətlər hiddətdən gələr.

Torpaqsız, yuvasız insan qəribdi,
Dünya ayağına hicran səribdi,
Məğlubun barını yağı dəribdi,
Çəkdiyi sitəmlər zillətdən gələr.

Vətən ev-eşikdi, Vətən diləkdi,
Bədənin içində vuran ürəkdi,
Allah nəsib edən məsum mələkdi,
Onun mükafatı nemətdən gələr.

Biz ağrı-acısın uduruq hər gün,
Dərdini minnətsiz dadarıq hər gün,
Onunla sevdalı dildarıq hər gün,
Tək ona sevgimiz izzətdən gələr.

Vətən duyğu dolu həyata bağlı,
Çağladır ruhları, coşdurur ağlı,
O candan boylanan bir el nağılı!
Onun sədaqəti millətdən gələr.

Şadiman, nə eşqdi boylanır candan?
Ağrına qoşulub oylanır candan,
Qopa yurdlarımız acı hicrandan,
Sağalmaz yaralar illətdən gələr.

14.02.2016

ERMƏNİ GÜLLƏSİ BATMADI SƏNƏ

Özünə od vuran Qarabağ Qazisi
Zaur Həsənova

Erməni gülləsi batmadı sənə,
Səni bizimkilər yaman batırdı.
Bizdə unutqanlıq olub ənənə,
Nəsildən-nəsilə yurda yatırdı.

Özünə od vurub, canına qıydın,
Məmur hikkəsinə dözməyən Qazi,
Balalar önündə bunu haqq duydun,
Ağrını, acını çözməyən Qazi.

Çoxu künc-bucaqda gizlənən zaman,
Vətən harayına savaşa qalxdın.
Haqqı tapdalayan bilməyir iman,
Qapılar dalına haqqı buraxdın.

Hələ yurd-yuvalar işğal altında,
Biz öz-özümüzə qənim olmuşuq.
Fəryadın inləyir göyün qatında,
Acı müsibətə demə yolmuşuq…

Canına qıymağı günah sayırlar,
Buna sövq edənin yeri cəhənnəm.
Bəndələr özünü allah sayırlar,
Sərvətdən, kürsüdən başlar olur dəm.

Biz Qarabağ boyda dərd daşıyırıq,
Bu dərddən varlanıb, şişənlər nə çox.
Təslimçi adıyla şən yaşayırıq,
Dilimiz neştərtək bir-birinə ox!

Ey Vətən insanı, nə günə düşdük?
Qarabağ Qazisi özün yandırır!
Bəs hansı tilsimə, düyünə düşdük?
Yurdumuz-yuvamız ah oyandırır.

İnsanı canından bezdirən kəslər,
Sizlər vəzifəyə xalqçın gəlmisiz.
Vicdanı çuvalda gəzdirən kəslər,
Haqsızlıq üçün yox, haqçın gəlmisiz.

Ey Vətən övladın tapdalayanlar,
Bizim işğal altda torpağımız var!..
Xalqı güvə kimi sərt dalıyanlar,
Bizim Güney boyda bir dağımız var!..

Bu gecə yuxular qaçıb gözümdən,
Alışan Qazinin səsi qulaqda.
Bu gecə göz yaşım baxır üzümdən,
Sözlər sətir-sətir donur varaqda.

Ailə başına tökülsə də pul,
Onlar ata dağı daşıyacaqlar.
Evin sütununa əkilsə də pul,
Ömürlük ağrıyla yaşayacaqlar.

Özünə od vuran Qazi məzarda,
Ölən ümidləri başdaşı oldu,
Yetim balaları qaldı ah-zarda,
Bu tarix – Vətənin göz yaşı oldu!

30.12.2013

EŞQİNƏ DÜŞDÜM

Doğulan günümdən eşqinə düşdüm,
Dərdinin min cürə məşqinə düşdüm.
Min dəfə hönkürdüm bu günə, Vətən,
Əynimə biçdiyin dərdi dəyişdim.
Necə əlac edim düyünə, Vətən?!

14.02.2016

AÇILMAYIR BAXT

Bir ağ gün görmədi millətin heç vaxt,
Bitib tükənməyir zillətin heç vaxt.
Üzdə can deyənlər bağrına yağı,
Vətən, bağlı qalıb açılmayır baxt.

14. 02. 2016

EŞQİN BİTMƏZ AZƏRBAYCAN

Nədən heç vaxt eşqin bitməz? Coşar, çağlar özün kimi.
Öylə bir od tapmıram ki, alovlansın közün kimi,
Gözəlliklər ayna tutar camalına üzün kimi,
Qəlbə yatmaz heç bir istək, heç bir dilək sözün kimi,
Məhəbbətin zirvəsində daim bitən, Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Yadlar sənin qollarını zəncirlədi dönə-dönə,
Parçaladı torpaqları, sərhəd çəkdi, yandı sinə,
Dağ vuruldu düşmənlərin fitvasıyla od köksünə,
Sərvətini apardı yad, «dostlar» getdi hey əksinə,
Övladları savaşlarda ölüb-itən, Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Mən də sənin bir zərrənəm qəbul eylə, ey çırağım,
Adın ilə bağlıdır bil hardan gəlsə xoş sorağım,
Əsir düşmüş yurdlarındı ürəyimdə can fərağım,
Ordumuzun qüdrətiylə gedəcəkdir könül dağım,
Ürəyimin tellərində dil-dil ötən Azərbaycan.
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Gündən-günə yüksəlişin yağıları çaşdıracaq,
İgidlərin haqq yolunda qoşun çəkib səf duracaq,
Sənə olan zülümlərin hesabını ər soracaq,
Quzey-Güney bu məmləkət bir sinədə yanan ocaq!
Bu sevginlə varmı sənə dünyada tən Azərbaycan?
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Dərbəndinə Təbrizinə Borçalına can qurbandı,
Əsir düşmüş Qarabağın könlümüzün şərəf andı!
Bədənindən aralanmış Naxçıvanın qopan candı,
Məni, səni çalxaladan sevgi dolu həyəcandı,
Ərkim çatan, könlüm yatan, ünüm yetən Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Qalx ayağa, qap sılahı, yürü yağı üstünə, yurd,
Əsir ellər həqarəti toxunmurmu şəstinə, yurd?
Durub azğın düşmənlərin zaman-zaman qəsdinə, yurd,
Yandırdılar el-obanı çox baxdılar tüstünə, yurd,
Od götürüb müsibətdən alışır tən Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Taleyimtək yollarına düzülübdü çoxlu tikan,
Yuvalarda ocaq sönmüş savaşa nə ədəb-ərkan?
Əsirlərlə yağıların əllərinə keçib imkan,
Döyüşlərdə dağılıbdı, yıxılıbdı ulu məkan,
Ocağına kül ələnib bəxti yatan Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Sevinirəm, Güneyinin müstəqillik sevdası var,
Başımızın üstə əsən bayrağının sədası var,
Himnimizin könlümüzdə havalanan nidası var,
Sənə olan sitəmlərin düşməninə qadası var,
Qürbətlərdən heç bir zaman olmur Vətən, Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Şadimanın ürəyini parçalayır müsibətin,
Səni sevən övladına həyat eşqi məhəbbətin,
Yavaş-yavaş faş olacaq bu dünyaya həqiqətin,
Düşməninə qan uddurmaq əvvəl-axır ibadətin!
Torpağına düşən toxum olacaq dən Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

15.05.2014

BƏXTİN AÇILSIN

İstərəm sənin də bəxtin açılsın,
Üstündən çəkilsin buludlar, Vətən.
Yağının başına dağlar uçulsun,
Getsin yurd-yuvadan fəryadlar, Vətən.

Hər qara gecənin ağ sabahı var,
Səhərin nurları üzündə gülsün.
Bilirəm, içində işğal ahı var,
Gözündə dünyanın sevinci gülsün.

Şadiman ağrından dağlar yaratdı,
Gözüm bulud oldu, ürəyim qəhər.
Özünün dağların üstündən atdı,
Tək sənin varlığın qoy versin bəhər.

14.02.2016

BALIQ BAHA, DAHA ƏTİ YEMİRƏM

Kasıbların dilindən

Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Bahalaşır hər gün ərzaq qiyməti,
Nədir belə möhtəkirlər niyyəti?
Dükan-bazar yıxır-sökür milləti,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Varlıların gözü qızır, ay aman,
Haqqı danıb, yoldan azır, ay aman,
Kasıblara quyu qazır, ay aman,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Çoxdan alıb başımızı qan-qada,
Qarabağda yurdlar susub fəryada,
Niyə biz də gün görmədik dünyada?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

İşsizlərin sayı artır günbəgün,
Atlar dönüb, olur qatır günbəgün,
Millət düşüb, xəstə yatır günbəgün,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Bir vaxt xoşbəxt olacaqmı, bu ölkə?
Süfrəsin bol salacaqmı, bu ölkə?
Yenə dala qalacaqmı, bu ölkə?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Neft çıxaran Vətəndə hər şey baha,
Harınların qorxusu yox heç daha,
Nərdivanı qoyub çıxır Allaha,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Qiymətlər də gündən-günə artmada,
Kasıb-kusub sinəsini yırtmada,
Çoxu hələ xorhaxorla yatmada,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Kim olacaq bu millətin arxası?
Canımızdan nə qalıb ki, qorxası?
Şər əlində haqqımızın yaxası,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Neft çıxaran ölkənin bax halına,
Haram ciblər içdə qalan malına,
Daraşıbdı qurdlar-quşlar yalına,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Kasıbların bir dərmanlıq pulu yox,
Yaşamağa bağlanıbdı yolu yox,
Tərpənməyə, danışmağa halı yox,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

İnfarkt, xərçəng cumur xalqın üstünə,
Şəkər durub camaatın qəsdinə,
Yamanlığı artıranın qəsdi nə?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Əzizlərim pensiyaya çatmadı,
Pul-parasız xəstəliyə batmadı,
Gecələri ağrılardan yatmadı,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Millət qaçır həkim üçün İrana,
Dava-dərman burda baha, sorana,
Mühakimə yoxdu yara vurana?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Şadimana sən danışma, sus dedim,
Tut dilini, dar ağacdan as dedim,
Gətirməyən kor bəxtini pus, dedi:
«Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.»

09.01.2014

DOKTOR CAVADI

Bu gün Cavad Heyət Bakıda
torpağa tapşırıldı, məzar evi
nurlu olsun, təbibliyindən,
alimliyindən öncə,
o böyük VƏTƏNDAŞ idi...

Dilindən düşmədi Vətən torpağı,
Qəlbdə dalğalatdı üçrəng bayrağı,
Güneydən Quzeyə gəzdi ayağı,
Çıxmaz qəlbimizdən işıqlı adı,
Yaşadar «Varlıq»ı doktor Cavadı.

Güneydə çalxatdı TÜRK varlığını,
Sevdi anasıtək bərk varlığını,
Etmədi çoxlartək tərk varlığını,
Oldu Vətənmizin nurlu övladı,
Yaşadar «Varlıq»ı doktor Cavadı.

Müstəqil dövlətlə qürurlanırdı,
Ürəyi millətçin eşqlə yanırdı,
O, Azərbpycanı canı sanırdı,
Canı qucağına aldı ustadı,
Yaşadar «Varlıq»ı doktor Cavadı.

Əlləri məlhəmli Cavad Heyəti,
Saldı dil-ağıza təbib qüdrəti,
Gəzdi Avropanı onun izzəti,
Xəstə ürəklərə yetdi imdadı,
Yaşadar «Varlıq»ı doktor Cavadı.

Təbib dil eşqiylə dərgi yaratdı,
Ana türkcəsinə məbəd ucaltdı,
Duyğusun, sevgisin «Varlıq»a qatdı,
Heyrətdə buraxdı yaxını, yadı,
Yaşadar «Varlıq»ı doktor Cavadı.

Bu itgi eldəndir, ey gözəl insan!
Yoxluğun Vətənə deyildir asan,
Araz da hönkürüb tökəcək leysan…
Necə ki, gözümdə gurşadın dadı,
Yaşadar «Varlıq»ı doktor Cavadı.

Qarabağ deyirdin çıxışlarında,
Bir niskil yatmışdı baxışlarında,
Döyüldük dövranın sərt qışlarında,

Bu qopan tufanlar ruhun fəryadı,
Yaşadar «Varlıq»ı doktor Cavadı.

Şadiman ruhuna əyir başını,
Öpəcək Vətənin məzar daşını,
Basacaq bağrına VƏTƏNDAŞINI,
İnsanlıq sevənə örnək həyatı,
Yaşadar «Varlıq»ı doktor Cavadı.
Yaşadar «Varlıq»ı doktor Cavadı.

14.08.2014

SƏNİ ÇOX SEVİRƏM, VƏTƏN

Bilməm qanımdasan, yoxsa canımda,
Bəlkə boylanırsan sən vicdanımda,
Sənin fəryadların var dövranımda,
Ruhumun içidi eşqinlə ötən,
Səni çox sevirəm Vətən, ey Vətən.

Dağılmış yurdların canda ağlayır,
Güneyin, Qüzeyə can sorağlayır,
Bəlalı taleyin qəlbi dağlayır,
Sənə hədyan deyir hər yoldan ötən,
Səni çox sevirəm Vətən, ey Vətən.

İşıq ucu boyda möhtacların var,
Bütün dərd-bəlaya əlacların var,
Yıxılan-ucalan baş tacların var,
Könlümün bağında güllərtək bitən,
Səni çox sevirəm Vətən, ey Vətən.

Sən bizə sahibsən, dərddə övladın,
İşğalla, təslimlə çəkilir adın,
Mənim ürəyimdən keçir fəryadın!
Ahınla bir oldu çox ölüb-itən,
Səni çox sevirəm Vətən, ey Vətən.

Bu dərdi, möhnəti nə vaxt yıxasan,
Sən də bu aləmə bir dik baxasan,
Dönüb şimşəklərə göydə çaxasan,
Olsan dünyada diləyə yetən…
Səni çox sevirəm Vətən, ey Vətən.

Gəl bu Şadimanın içinə boylan,
Ocaqtək yanıram, ahıma oylan,
Dilimdən boylanır balana laylan!
Alışır eşqinə bu bədən, bu tən,
Səni çox sevirəm Vətən, ey Vətən.
Səni çox sevirəm Vətən, ey Vətən. **12.03.2015**

ÜRƏK YANIR, EY ŞƏHİDİM

Əyilir önündə an, vaxt dayanır ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Pak növrəstə bədənlər döşənib qəbir evinə,
Gözdən axan yaşlarım çevrilib bir can divinə,
Çalışıb ağlamıram ki, yağı, düşmən sevinə,
Ananın fəryadını yer-göy anır, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Tabutun üstə gedən bayrağımın qan izi var,
Bu qara günlərin əlbəttə ki, bir gündüzü var,
Sinələrdə alışan eşqinə istək közü var,
Bizim yurd haqqımızı dünya danır, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Matəmin özü qara, üzü qara, əhdi qara,
Bizi savaşa çəkən vurur sinələrə yara,
Vətəndən baş götürüb hara qaçaq, fələk, hara?
İçdə yatmış qisasım dur-oyanır, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

İstəkli qız qalacaq gözləri yolda beləcə,
Ana, bacı harayı sancılıb məzara necə?
Hönkürür əhvalına al sabah, məlalı gecə,
Söykənib başdaşına ruhu sanır, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Düşmənin hər üzünü gördü Vətən torpağımız,
Qanlı köynəklərini sərdi Vətən torpağımız,
Qərənfili yasına dərdi Vətən torpağımız,
Bizə gələn bəlanı yad nə qanır, ey Şəhidim?!
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Bu əllər söylə səni qəbir evinə necə qoya?
Daha millət usanıb illər ilə qanlı vaya,
Dəxi düşmənlərimiz öz qanını içə, doya,
Könlüm borana düşüb, içim donur, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Çox düşmənləri sınağa çəkdi Azərbaycanı,
Çox gənciylə məzarlara əkdi Azərbaycanı,
Çox işğalın boğçasına bükdü Azərbaycanı,
Ruhun cənnət quşutək bağa qonur, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Şadiman, Bakıya bax, Təbrizi çağır haraya,
Qalxsın yatmışlarımız yol arasınlar çaraya,
Ox unutqanlığımız Kərkükə dəyən yaraya!
Dərdini tariximiz özü tanır, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Əyilir önündə an, vaxt dayanır ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

01.08.2014

SƏPİLİB YER ÜZÜNƏ

Övladların səpilib yer üzünə,
Həsrətmi sən birləşən ər üzünə?
Yağı çıxır gülənlərin üzünə,
Öz kökündən dönənlərmi ad, Vətən?!
Yurda necə divan tutur yad, Vətən?

Dur Bakıdan Təbrizinə ağ yol aç,
Sənə oğul olmayandan özün qaç,
Birlikdədir bu dərdlərə son əlac,
Et mənliyi puç olandan dad, Vətən,
Yurda necə divan tutur yad, Vətən?

Dilim taxtı, yolum baxtı, yağın çox,
Sinən üstə çalın-çarpaz, dağın çox,
Göz yaşını sözə tutan ağın çox,
Qoy yandırsın bu aləmi od, Vətən,
Sənə necə divan tutur yad, Vətən?

Öz yurdunda əsir olur soydaşın,
Nə vaxt dərddən qurtulacaq bəs başın?
Nə vaxt candan ötəcəkdir tələşin?
Bu dərdləri unutma, et yad, Vətən,
Sənə necə divan tutur yad, Vətən?

Qaça-qaça düşüb qalıb oğullar,
Qəribliyə mehr salıb oğullar,

Qaçqın, köçkün adın alıb oğullar,
Daha gedib damağından dad Vətən,
Sənə necə divan tutur yad, Vətən?

Düşmənlərin sıralanıb ətrafda,
Qol açıbdı yağılara ətraf da,
Lal eyləyib düzə dilin, sərraf da,
Qoyma qalsın yağılara dad, Vətən,
Sənə necə divan tutur yad, Vətən?

Bu Şadiman bir ömürdü hay salıb,
Sinəsinə fəryadından vay salıb,
Gözlərindən ürəyinə çay salıb,
Yaman olub zəhmətlərin bad, Vətən,
Sənə necə divan tutur yad, Vətən?

20.12.2014

ÇANAQQALA

Ruhumuzun qürur yeri, Çanaqqala,
Ürəklə bir vurur yeri, Çanaqqala…

Üstümüzə gələn azğın yolun sapdı,
Qorxu bilməz igidlərin silah qapdı,
Süngülərlə düşmənlərin bağrın çapdı,
Varlığımız dincliyini səndə tapdı,

Sən titrətdin ərzi-göyü, Çanaqqala,
Nərə çəkdin, kəsdin heyi,Çanaqqala.

Yerlər-göylər bir-birinə dəydi o gün,
Əsgərlərin qurd ürəyi yedi o gün,
Paltarını süngülərdən geydi, o gün,
Yağıların bayraqların əydi o gün,

Türkə sönməz çıraq oldun Çanaqqala,
Tarixinə varaq oldun, Çanaqqala.

Türkü əymək istəyənlər vaya düşdü,
Yer titrədi başlarına qaya düşdü,
Bütün dünya için çəkdi, haya düşdü,
Qan sıçradı, ulduzlara, Aya düşdü,

Ət bədənlər çəpər oldu, Çanaqqala,
Şəhidlərlə için doldu, Çanaqqala.

O qanların izi qalıb ürəklərdə,
Fəryadları cövlan edir fələklərdə,
Əsgərinin səsi gəzir küləklərdə,
Mərtəbəsi əlçatmayan mələklərdə,

Məzarına baş əyirik, Çanaqqala,
Qəhrəmana can deyirik, Çanaqqala.

Türkiyənin bağırından baxan diyar,
Osmanlını ağırınla yaxan diyar,
Düşmənlərin axırına çıxan diyar,
Ucalığa bayrağını taxan diyar,

Bugünümüz sənə borclu, Çanaqqala,
Müsəlmana şərəf taclı, Çanaqqala.

Başı uca millətinin Vətənisən,
Numusunun, qeyrətinin Vətənisən,
Anaların heyrətinin Vətənisən,
O kişilik sərvətinin Vətənisən,

Ay-ulduzlu sancağın var, Çanaqqala,
Al qırmızı ruhuna yar, Çanaqqala.

Sən şərəfli tarixinlə öyünməkdə,
Türk deyənin sinəsində döyünməkdə,
Xainlərin yalanlarla deyinməkdə,
Yenə türkün əleyhinə şər dinməkdə.

İgidlərin bu gün də var, Çanaqqala,
Vətən adlı torpağa yar, Çanaqqala!

Atatürkün şərəf dolu hərb meydanı,
O möhtəşəm İnsan uddu qan-qadanı,
Göylərində qanad açır ruhu canı,
Torpağının güllərində şəhid qanı,

Hayqırtısı dağda-daşda, Çanaqqala,
Ürəklərdə yeri başda, Çanaqqala.

Bütün dünya heyran olub şöhrətinə,
Yığışırlar hər il sənin izzətinə,
Allah özü aşiq olub zəhmətinə,
Bu Şadiman canın verər millətinə,

Heç sönməyən çırağımız, Çanaqqala,
Bir millettək sorağımımız, Çanaqqala.

23.04.2015

YANDIQ, SU VERİN BİZƏ

19 may 2015-ci ildə Bakıda
yanan binada həlak olanlanların ruhuna

Bu səhər gözümüzü tüstüyə açdıq,
Bir udum hava üçün Allaha əl açdıq,
Yandıq, su verin bizə,
Acı tüstü köz basır dilimizə.
Naləmizdən bütün yatmışlar oyandı,
Bir arzumuz var idi – bu cəhənnəmdən
çıxmaq,
Bu arzumuz əbədi yandı,
Dilimizdən fəryadlar qopdu,
Alovlar diləklərimizi də qəlbimizdə
axtarıb tapdı…
Onları da yandırdı çırta-çırtla,
Yana-yana vidalaşdıq həyatla…

***

Mən yaş yarımlıq Ömərəm,
Mən iki yaşlı Ayxanam,
Mən üç yaşlı Fərəhəm,
Mən beş yaşlı Ayanam,
Mən tələbə Ülkərəm,
Arzularım ürəyimdə qaldı,
Məni nişanlım yox, alovlar aldı…
On altı yaşlı qardaşım,
anam da mənimlə yandı,
Bizim üçün həyat birgə dayandı…

***

Siz ey haqqa, ədalətə can deyənlər,
Unudulmasın bu acı günlər!
Siz ey haqqı, ədaləti pul üçün döyənlər,
Tərəzini əyənlər,
İçinizdə vicdan deyilən bir məfhum varmı?
İnsan da insanı belə günə qoyarmı?
Heç dodaqlarımızdan qopan fəryadımızı
duydunuzmu?
Özünüzü bizim yerimizə qoydunuzmu?
Biz hər gün sizin yuxularınıza gələcəyik,
Sizinlə birlikdə öləcəyik,
Ruhumuz sizlərə əzab verəcək,

Bizə etdiklərinizi ölənədək gözləriniz
görəcək,
Bizim hıçqırtılarımız qulaqlarınızda
partlayacaq,
İçinizdə quracaq sönməyən ocaq!

***

Bunu sizə on altı yaşlı mən Davud
deyirəm,
Bunu sizə iyirmi yeddi yaşlı mən Yaşar
deyirəm,
Bunu sizə otuz doqquz yaşlı mən Nazilə
deyirəm,
Bunu sizə qırx üç yaşlı mən Zülfiyyə
deyirəm,
Bunu sizə qırx altı yaşlı mən Sahib
deyirəm,
Bunu sizə əlli səkkiz yaşlı mən Alla
deyirəm,
Bunu sizə altmış yaşlı mən Firəngiz
deyirəm,
Bunu sizə altmış yeddi yaşlı mən Yuri
deyirəm,
Bunu sizə altmış səkkiz yaşlı mən Elmira
deyirəm,
Bunu sizə səksən yeddi yaşlı mən Lyubov
deyirəm,
Sizi günahlarınız alovlandıracaq,
Biz yanan kimi yandıracaq!

***

Ey bizlərə gözlərindən yaşlar tökənlər,
Bu müsibətə acı çəkənlər,
Ciblərə axan pullar yandırdı bizi,
Biz yandıq,
Allah qorusun onlardan sizi!
Bu dəfə də qərənfilləri pulgirlər ağlatdı,
Allahım bu necə həyatdı?!
Bizi həyatdan etdilər…
Ahımız titrətdi yaxınları, yadları…
Ey Vətən övladları,
Bizə göz yaşı tökməyin,
Biz çəkəni siz çəkməyin…
Biz çəkəni siz çəkməyin…

21.05.2015

AÇ QARANI BAŞDAN, VƏTƏN

Aç qaranı başdan, Vətən,
Ver ağrını, çəkim candan.
Keçsin qılınc daşdan, Vətən,
Gəl, qurtulaq həyəcandan.

Yurdlar bizdən imdad istər,
Hər tərəfin abad istər,
Qarabığın fəryad istər,
Xarabadı yurd divandan.

Uşaq təki tarix ağlar,
Alıb başa qara bağlar,
Döyüşməsək, bitməz çağlar,
Şər-şeytanı qov ünvandan.

Hanı Babək? Durub gəlsin,
Qılıncının ucun dəlsin,
Bilməyənlər, bunu bilsin,
Vətən keçir, əhd-peymandan.

Çoxdur bizdə İbn Sumbat,
Yaşanmayır belə həyat,
Ruhu etdik ucuz, boyat,
Keçsin ürək qoy dərmandan.

Acı ömür sürənlərik,
İşğal üzün görənlərik,
Əgər ərik, ərənlərik,
Qurtulaq bu ah-amandan.

Şuşa olsun paytaxtımız,
Ordan baxsın şah taxtımız,
Olsun daha şad baxtımız,
Düşmən ölsün bu fərmandan!

Ölənlərin gor çatladır,
Ürəkləri dərd partladır,
Düşmən ayıq, şər atdadır,
Duraq keçək imtahandan.

Vətən, səndən keçmək olmaz,
Təslim yolun seçmək olmaz,
İşğal donub belə qalmaz,
Qalsa partlar dərd cahandan.

Şadimanın dili qısa,
Dözmür Vətən bata yasa,
Düşmənin qan qussun tasa,
Çıxmasın heç qoy hicrandan. **12.07.2015**

SOYULMAĞA ÖYRƏŞMİŞİK, A MİLLƏT

Nə gərəkdir ahu-fəğan eyləmək,
Ağrımızı aləmlərə söyləmək,
Olanlara oldu deyib neyləmək?
Bizimki də belə gəlmiş, a millət
Soyulmağa öyrəşmişik, a millət.

Cibimiz boş, xoş güzəran ararıq,
Özümüzü qəm bağrına sararıq,
Bir-birini qürbətlərdə sorarıq,
Dərdimizlə birləşmişik, a millət.
Soyulmağa öyrəşmişik, a millət.

Neftimizin pulu axdı sel kimi,
Keçdi getdi yanımızdan yel kimi,
Diləyimiz ayaqlandı bel kimi,
Ah içində yerləşmişik, a millət.
Soyulmağa öyrəşmişik, a millət.

Divarımız, hasarımız bəzəndi,
Yollarımız neçə kərə düzəndi,
Aldadanın aldanana çox fəndi,
Özümüzü nə bilmişik, a millət,
Soyulmağa öyrəşmişik, a millət.

Biz paranı yuxularda görərik,
Borcla, xərclə müti ömür sürərik,
Borc dəftərlə süfrəmizi sərərik,
Zənn edirlər lap ölmüşük, a millət,
Soyulmağa öyrəşmişik, a millət.

Biz hələ də fil qulağın xoşlarıq,
Xəyallarla xor-xor yatıb huşlarıq,
Arx gəlməmiş çırmanmağa başlarıq,
Əzilmişik, döyülmüşük, a millət,
Soyulmağa öyrəşmişik, a millət.

Yenə bankda öldü, batdı pulumuz,
Özümüzə məlum yazıq halımız,
İtə atsan it yeməyən yalımız,
Gözümüzdən qan silmişik, a millət,
Soyulmağa öyrəşmişik, a millət.

Şadimanı qınayırsız qınayın,
Sözlərini sac üstündə sınayın,
Qəribliyə heç salmayın hay-hayın,
Kətan təki üzülmüşük, a millət,
Soyulmağa öyrəşmişik, a millət.

15.03.2015

QOLLARI DİBİNDƏN VURULAN

Qolları dibindən vurulan Vətən,
İtrilmiş torpaqlar sənin deyilmi?
Bəxtinə qurğular qurulan Vətən,
Başın üstə gəzən çənin deyilmi?

Vətəndən yazmağı şivən sayanlar,
Qul duruma girmək kişilikdənmi?
Özgə havasına zövqlə uyanlar,
Bu cür ömür sürmək kişilikdənmi?

Vətənin sərvətin talayanlara,
Vətən qucağında imarətlər var.
Şərə quyruğunu bulayanlara,
Bitib tükənməyən səadətlər var.

Qarabağ düşmənin əlində nalan,
Milyonlar səpilir boş-boş işlərə.
Heç uca taxtından düşməyir yalan,
Nə vaxt son qoyular bu gedişlərə?

Vətən göz yaşını axıdır tökür,
Harınlar fəryada qulaq verməyir.
Talayan talayır, sökənsə sökür,
Kimsə müsibəti, sanki görməyir.

Əgər unudulsa Qarabağ bu gün.
Bundan da dəhşətli qanlar olacaq.
Yurdun sinəsindən getsə dağ bu gün,
Törəməz heç zaman bir qanlı ocaq!

Hamı igidlikdən dəm vurur niyə?
İgidin torpağı əsir alınmaz.
Düşüb ayaqlara bəy qürur niyə?
Eşqisiz qələbə heç vaxt çalınmaz.

Cəbhədə Vətəni qoruyan kasıb,
Dönəndə özünə iş tapa bilmir.
Ümidsiz insanlar özünü asıb,
Evində daş üstə daş tapa bilmir.

Bir çoxu kef ilə dünyanı gəzir,
Bir çoxu evində çörək tapmayır.
Kəbə ziyarətin zənn edir nəzir,
İçində sevdalı ürək tapmayır.

Qarabağ yağının əlində naçar,
Söküb dağıdırlar yurdu, yuvanı,
Kimin əlindədir o məşum açar?
Kağızla susdurduq qanlı davanı.

Düşmən vaxt qazandı, biz isə təslim,
Təslimin əvvəli, sonu olmayır.
Əlim haqqı yazır, hönkürür dilim,
Yağı pardaqlanır, ümid qalmayır.

Hamı Vətən deyir, Vətən qübarda,
Onun çiçəyinə güllə ələnir.
İşğala haqq varmı, deyin bir harda?!
Bizdə qəhrəmanlıq dillə ələnir.

Artıq unudulur tökülən qanlar,
Şəhid məzarları titrəyir ahdan.
Əqidə dəyişir bu gün, insanlar,
Vətənə bir işıq varmı sabahdan!

Qorxağa dünyada hörmət edilmir,
Təslimə qol çəkdik, qorxağıq demək.
Cahanda uduzan heç mədh edilmir,
Biz özünə aşiq, axmağıq demək.

Qarabağ millətin ölüm-qalımı,
O bizim varlığa bir nişangahdı!
O necə söyləsin sorun halımı?
Onu unutmağın özü günahdı.

Kişilər, silaha sarılmaq vaxtı,
Çevirin sərvəti silah sursata.
İndi QƏLƏBƏYLƏ qurulmaq vaxtı,
Vətən ana deyil, olsun sərt ata!

Bu eşqlə Şadiman hislərə əsir,
Onun ağrısına ürək dözməyir.
Qurubdu ruhumda qasırğa qəsir,
Əsəndə küyünə fələk dözməyir.

09.07.2015

TORPAĞININ QOXUSU

Torpağının qoxusunu ciyərimə çəkdim,
Könlümə eşqin dolu çiçəklər əkdim.
Hərdən qəhərim, hərdən fərəhim oldun.
Haqqım tapdalanda, ürək dolusu zəhərim oldun.
Xoşbəxt günlərimin sevinci,
Heç nəylə əvəz olunmayan bir inci,
Sənə çox göstərdilər küncü.
Küncdən çıxıb hayqırdın,
Buxovları, zəncirləri, qandalları qırdın,
Özünü qızmış şirtək düşmən üstünə vurdun,
Köləliyin qəsdinə durdun.
Dilinin yasağın unutma,
Yad havaları tutma.
Sən - ana laylasının qulağıma dolan pıçıltısı,
Sən - məzarına tələsən bir qocanın xırıltısı,
Sən - bir körpənin südlü dodaqlarının marçıltısı,
Sən - torpaq altından üzə çıxan bulaqların
sızıltısı,
Sən - sübhdən günəşin gözlərimdə qamaşan
sarıltısı,
Sən - ürəyimin dərdlərinə dözməyən zarıltısı…
Səndən vaz keçmək olmayır Vətən,
Zəhərin içimdə qalmayır Vətən.
Səndən yazmağı boğazdan yuxarı sandılar,
Ciblərinin çıxarı sandılar,
Sənsə mənim cib xeyirim yox, təb seyirim oldun,
Gilə-gilə, damla-damla qəlbimə doldun.
Səni doğmamdan doğmam sandım,
Gecə-gündüz eşqinlə yandım,
Mənim üçün güney-quzey,
qərb-şərq deyilsən,
Nə qədər parçalanıb əyilsən,
Bütöv Azərbaycansan,
Bədənimdə vurnuxan cansan.
Damarlarımdan axan qanım bunu deyir,
Səndə ötən dövranım bunu deyir!
Ey dədəmin yurdu,
Ey babamın içində ulayan qurdu,
Səndən keçə bilmirəm,
Başqa yurdu özümə məkan seçə bilmirəm.
Ey işğallar altında əzilən,

Kətan təki süzülən,
Nazilən Vətən.
Sən mənim damarlarımda axan qanıma
yürüdün,
Ruhumun bədən içində parlayan canıma
yürüdün,
Sən məni öz ağı-acınla yıxıb sürüdün,
İlan təki süründüm ayaqlarında,
Alışdım-yandım çıraqlarında,
Nə varında gözüm var,
Nə torpağında,
Sən mənim gəlir-çıxarım deyilsən,
Nə qədər də acgözlər önündə əyilsən,
O qədər ağrımsan,
Alışıb-yanan bağrımsan,
Bu sənə sağ ikən etirafım,
Hiyləylə qaynayır ətrafım.
Səni hiylələrdən qurtarmaq olmayır,
Dərdini sinədən qoparmaq olmayır.
Ey anamın dili,
Ey ürəyimin nazilən teli,
Atamın basılan səbri,
Çatdıyan qəbri,
Səni könlümdən uzaqda tuta bilmirəm,
Sənsizliyə bata bilmirəm.
Torpağı işğallarda itən,
Başı bəlalı Vətən,
Vətən…
Vətən…

26.07.2015

BİR PARÇA ODUM

Bir içim suyumsan, bir parça odum,
Sənինlə başlayır ağzımda dadım,
Sənə xor baxanın könlümə yadım,
Külü ocağına tökür hər yetən…
Allahım qorusun səni, ey Vətən!

28.04.2016

HEÇ KƏS SƏNİ ƏYƏ BİLMƏZ, TÜRKİYƏ

Sən şərəfli bir millətin ölkəsi,
Sən türklüyün pak döyünən nəfəsi,
Sən Turanın haqq hayqıran gur səsi,
Şər özünü öyə bilməz Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Şəhidinin al qanıdır Bayrağın,
İgidinə çoxdan bələd torpağın,
Daim hazır silah, sursat, yarağın,
Kimsə məğlub deyə bilməz Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Ey Bozqurdum, Böyük Hunum, Oğuzum,
Könül dadım, ürək odum, ulduzum,
Min illərdi türkü deyir Qopuzum,
Haqqını şər döyə bilməz Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Türkün sözü heç bir zaman boş olmaz,
Düşmənlərin yeri yurdda baş olmaz,
Türk olanın könlü, qəlbi daş olmaz,
Bilməm dünya niyə bilməz Türkiyə?!
Heç kəs səni əyə bilməz, Türkiyə!

Sən Sultanlar məkanısan, ey diyar,
Türk atının kişnərtisi can oyar,
Dəmir qollu igidlərin el duyar,
Vətəni yad yiyə bilməz, Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Boylanırsan canımızın içində,
Keçəcəkdir düşmənlərin biçindən,
Qurd ulayır millətinin içində,
Haqqını şər yeyə bilməz Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Yağıları hıçqırdacaq can ahı,
Hönkürtüylə çağıracaq Allahı,
Əsgərinin atəş saçır silahı,
Xəncər, biçaq, tiyə bilməz Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Qara dəniz hayqırtına oyanır,
Bağrındakı qasırğına boyanır,
Türk qəlbində şanlı adın dayanır,
Ordan onu kimsə silməz, Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

20.02.2016

BAXMAYIN ÖLÜ KİMİ

Baxmayın ölü kimi dünyada heç vaxt Şəhidə,
Deməyin ki, gülməyib fələk verən baxt Şəhidə.

Var adamlar yaşayır uzun ömür yoxdu özü,
Gəlib şəhidlik adı Rəbbidən bivaxt Şəhidə.

Vətəni olmayanın məzarı da itib-batır,
İlahidən qurulub ən uca bir taxt Şəhidə.

Tökməsin göz yaşını bu ölümə yaxın, yadı,
Deyir kim ki, ölüdü özüdü bədbaxt, Şəhidə!

Mənasız ömürlərin yoxdu sayı-hesabı heç,
Mənalı ömür yazıb Yaradan sərvaxt Şəhidə.

Deməsinlər öləcəm, ruhun özü yalan-filan,
Bütün ruhlar gələcək səcdəyə o vaxt Şəhidə!

Qucacaq sevgi ilə cismi Vətən torpağını,
Ruhu pərvaz edəcək, hönkürəcək vaxt Şəhidə.

Şadiman, çəkiləcək əməllərin haqq-hesabı,
Bil ki, baxır kainat aləmdə xoşbaxt Şəhidə!

03.04.2016

ƏSGƏRİM

Qalx ayağa titrət yeri, Əsgərim,
Vətənimin qorxmaz əri, Əsgərim!

Yurdlarımız çox talandı, yıxıldı,
Üstümüzə qara ləkə yaxıldı,
Üzümüzə təslimçitək baxıldı,
Düşmən üstə dimdik yeri, Əsgərim.
Vətənimin qorxmaz əri, Əsgərim!

Nərən düşsün əsir düşmüş ellərə,
İgidliklə dastan yarat dillərə,
Düşmən qanı dönsün axan sellərə,
Yağı görsün qızmış nəri, Əsgərim,
Vətənimin qorxmaz əri, Əsgərim!

Azərbaycan adlı bütöv yurd yarat,
Azğınlara ömürbillah dərd yarat,
Şahə qalxsın altındakı göy Qırat,
Görsün dünya qoy hünəri, Əsgərim,
Vətənimin qorxmaz əri, Əsgərim!

Əsir düşmüş qız-gəlinin imdadı,
İçimizdə qövr eləyir fəryadı,
Qaldır ərşə o qəhrəman mərd adı,
Qoy gəlməsin yağı bəri, Əsgərim,
Vətənimin qorxmaz əri, Əsgərim!

Atilladan qopub gələn ruhun var,
Döyüşlərdə nərə çəkən ahın var,
Saf qanında sərkərdəlik şahın var!
Tök bu yolda alın təri, Əsgərim,
Vətənimin qorxmaz əri, Əsgərim!

Biz hamımız ölümmüzü anlarıq,
Müvəqqəti gəlib gedən canlarıq,
Məğlub qalsaq özümüzə qanlarıq…
Vur düşməni, qopsun dəri, Əsgərim,
Vətənimin qorxmaz əri, Əsgərim!

Sən Vətənin boybuxunlu oğlusan,
Qeyrətinlə bu torpağa bağlısan,

Şəhid olsan el dilində nağılsan!
Yol gözləyir gözəl pəri, Əsgərim…
Vətənimin qorxmaz əri, Əsgərim!

Şadimanın canı qurban Vətənə,
Qoyma yurdlar əsir olsun yetənə,
Bizə gəlir hər ağızdan min tənə,
Tənələrin qopsun zəri, Əsgərim,
Vətənimin qorxmaz əri, Əsgərim!

Qalx ayağa titrət yeri, Əsgərim,
Vətənimin qorxmaz əri, Əsgərim!

04.04.2016

DƏRDİN İÇDƏ YANDI

Düşmənlərin kirli-kirli,
Kol-kosunda qandı bitən.
Hiylələri sirli-sirli,
Dərdin içdə yandı Vətən.

Min illərdi ağrıların,
Düzülübdü ağılara.
Tükənməyir sorğuların,
Diklənibdi yağılara.

Bayrağında qan izi var,
Torpağın da şəhid düşüb.
Qaranlığın gündüzü var,
Ürəyimiz ahdan şişib.

Ahlarından qopaq çıxaq,
Yurduna gün doğsun, Vətən.
Düşmənləri vurub yıxaq,
Qurdun şəri boğsun, Vətən.

28.04.2016

ŞANLI ORDUM

Yurdumuzda azğın yağı,
Vurur bizə sinə dağı,
Qoy kəsilsin dildən ağı,
Silahından çəkmə əli,
Şanlı ordum, get irəli!

Namusumuz sənə bağlı,
Qurd ürəklim işlət ağlı,
Düşmən qorxaq, dili yağlı,
Türk ruhlusan adın bəllli,
Şanlı ordum, get irəli!

Yağı dövran sürdü, bəsdi,
Təslimçilik nəfəs kəsdi,
Bitsin daha işğal qəsdi,
Qap bayrağı, qaldır eli,
Şanlı ordum, get irəli!

Pənahabad küsüb bizdən,
Ümidini kəsib bizdən,
Türk adımız düşüb gözdən,
İnləməsin qopuz teli,
Şanlı ordum, get irəli!

Sən xaqanlar nəsilisən,
Sənə bağlı Vətən bil, sən!
Dədələrin vurub, kəsən,
Qoy bükülsün düşmən beli,
Şanlı ordum, get irəli!

Boyunuza özüm qurban,
Vətən varsa sevir qurban,
Azərbaycan müqəddəs can,
Qələbəyə sal bu ili!
Şanlı ordum, get irəli!

Şadimandan qopsun bu ah,
Qələbəylə gəlsin sabah,
Yağı vurmaq deyil günah,
Düşməninin car əməli,
Şanlı ordum, get irəli!
Şanlı ordum, get irəli!

04.04.2016

QƏLƏMİM HÖNKÜRÜR

Bir gözüm ağrıdı, bir gözüm yaşdı,
Ürəyin içindən asılan daşdı,
Sənin əzabına köklənən başdı,
Başım yastıq olsun özünə, Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

Cihad istəyirsən cihada gəlim,
Asılı qalıbdı göylərdən əlim,
De, necə oxşasın səni bu dilim?!
Dərdini deyimmi üzünə, Vətən?
Qələmim hönkürür sözünə, Vətən.

Sənə layla deyən misram susmayır,
Göylər fəryadımı tutub asmayır,
Bizə İlahi də qulaq asmayır,
Vururuq min ildi dizinə, Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

Qurdunu öldürən ərin oyanıb,
Düşmənlə savaşa qalxıb dayanıb,
İçimiz acıya, dərdə boyanıb,
Al at ocağına, közünə, Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

Şəhidin göylərə çəkilib gedir,
Cismi məzarlara əkilib gedir,
Qanı torpağına tökülüb gedir,
İgidlər can qoyur izinə, Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

İçdə yağıların susub durubdu,
Çöldə əl-qol açıb meydan qurubdu,
Millət yuxusundan qalxıb durubdu,
Baxma xainlərin sözünə, Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

Ürəyim ahına süslənib qalıb,
«Cəngi»nin harayı qulağı alıb,
Şadiman mehrini tək sənə salıb,
Çəkib dərdlərini üzünə Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

28.04.2016

ƏSGƏR DÜRMA, İRƏLİ

Vətən səni çağırır,
Qəlb dözməyir çığırır,
Şəhid ruhu bağırır!
Düşmənin içi bəlli.
Əsgər durma, irəli.

Təslimə qol qoymayaq,
Məğlub kimi qalmayaq,
Ruhumuz bizə dayaq,
Silaha öyrət əli,
Əsgər durma, irəli.

İçində kin çağlasın,
Düşmən qəlbi dağlasın,
Yağı yolun bağlasın,
Coşdur ruhu, ol dəli,
Əsgər durma, irəli.

İgidsiz Vətən olmaz,
Bayrağa mehir salmaz,
Torpaqdan heçnə qalmaz,
Ər ölkənin təməli,
Əsgər durma, irəli.

Qarabağ qan içində,
Alışır can içində,
Ahdır vicdan içində,
Düşmən yapışan zəli,
Əsgər durma, irəli.

Qaçqın adı şərəfmi?
Biz günahkar tərəfmi?
Bu yağıya bir əfmi?
Qana bürüyüb eli,
Əsgər durma, irəli.

Bəsdir yurd bağışladıq,
Qəlbə qorxu aşladıq,
Haqqa dönüş başladıq!
Götürmə haqdan əli,
Əsgər durma, irəli.

Vətənçin qalx cihada,
Getsin yurddan qan-qada,
Şərəf versin övlada,

Qəlbə yaz haqq əməli,
Əsgər durma, irəli.

Torpaqsız Vətən olmaz,
Ona heçnə tən olmaz,
Güc göstər, yağı qalmaz,
Bükülsün şərin beli,
Əsgər durma, irəli.
Əsgər durma, irəli.

07.04.2016

DİLİNDƏ BATSIN

Biz elə öncədən ürəyi yumşaq,
Hamıya aldanan körpəcə uşaq,
Yağı əl-qol atır, tutursa qurşaq,
Susaq nə vaxtacan, o, ara qatsın?
Düşmənin harayı dilində batsın.

Torpaq qorunmasa, Vətən olmayır,
Acizin yurdundan heç nə qalmayır,
Tarix səhfəsinə bir iz salmayır,
İşğalın möhləti neçə il yatsın?
Düşmənin harayı dilində batsın.

Bizim kimliyimiz hamıya məlum,
Tökülən qanlara, ah-vaya məlum,
Bəsdir özümüzü göstərdik həlim,
İşğalçı etdiyi cəzaya çatsın,
Düşmənin harayı dilində batsın.

Mənəm deyənlərə hamı can deyir,
Dünya çaxnaşmada həyəcan deyir,
Vətənin eşqini içdə can deyir,
Fəğanı yatanı qəfil oyatsın,
Düşmənin harayı dilində batsın.

Biz dərs verməliyik qana hərisə,
Qapılsaq enərik hər müti hissə,
Ey Əsgər, yağılar qarşında əsə,
Susqun qürurumuz qanı qaynatsın,
Qoy düşmən harayı dilində batsın.

28.04.2016

ƏSGƏRƏ MƏKTUB

Eşqin ürəyimdə, gözüm yolunda,
Heç vaxt tükənməsin gücün qolunda,
Səni səhər-axşam düşünürəm mən,
Qələbə xəbərin tez ol yolla sən.
Ruhumla, canımla hər günümdəsən,
Varlığım uçunar mənə gəl desən.
Könlünə bağlıdır hər ötən çağım,
Qəhrəman igidim, ümid çırağım.
Sinəni düşmənə sipər etmə yar,
Bilirsən qəlbimdə sənə sevgim var.
Bu sevgi Vətənin odundan keçir,
Sənin bahadırlıq adından keçir.

15.05.2016

TİTRƏSİN DÜŞMƏNİMİZ

Titrəsin düşmənimiz Ordumuzun nərəsinə,
Çağlasın torpağımız Əsgərimizin səsinə.

Uğurumuz dikəlib Vətənə versin dəyərin,
Yerisin igidimiz bayrağının həvəsinə.

Nərəsi dağı, daşı lərzəyə salsın hər ərin,
Dönməsin oğulumuz yadların qul-köləsinə.

Analar saçın yolub ağlamasın əsir kimi,
İgidi doğan ana alov qatsın nəfəsinə.

Bu Vətən hər doğulan körpəyə qucaq kimidir,
Dönməsin hər yetənin öz xüsusi qəfəsinə.

Əsgərin ayaq səsi düşməni lərzəyə sala,
Doğula yavru, bala sevgimizin şöləsinə.

Şadiman, yurda sevgi keçsin qana, girsin cana,
Bir təbib dərmanıtək çarə etsin hər kəsinə.

17.06.2016

PARAM-PARÇA BU VƏTƏN

Ağrıları tükənməyir heç zaman,
Min bir yerə paramparça bu Vətən.
Başı üstən çəkilməyir ah-aman,
Qapısına daşlar atır hər yetən. **27.07.2016**

SINDIRMA ÖZÜNÜ

Sındırma özünü, sındırma ey Türk,
Uca keçmişini yandırma, ey Türk,
Bizi bu gedişlə qandırma, ey Türk,
Bu halla üzünə çıxa bilmirəm.
Sənin sınmağına baxa bilmirəm.

Sən axı Bozqurdun nişanəsisən,
Hunun, Atillanın qurd nəfəsisən,
Şəhid igidlərin cihad səsisən,
İçimdə Qurdum var, qorxa bilmirəm,
Sənin sınmağına baxa bilmirəm.

Sən niyə min yerə parçalanmısan?
Din-məzhəb içində haçalanmısan,
Ahla könlümüzə nə calanmısan,
Ey türk, dərd-qəmini yıxa bilmirəm,
Sənin sınmağına baxa bilmirəm.

Məhbəslər, zindanlar niyə beşiyin?!
Terrora düçardır evin, eşiyin,
Xain əllərdəmi qalıb keşiyin?!
Kirpiyi yaş əyir, sıxa bilmirəm,
Sənin sınmağına baxa bilmirəm.

Türkün yurd-yuvası hər yerdə qandır,
Bu nə müsibətdir, bu nə divandır?
Qəlbim tüstülənir, od vurub yandır!
Təslimi ağlıma taxa bilmirəm,
Sənin sınmağına baxa bilmirəm.

Yurdlar işğallarda bölüm-bölümdü,
Bu nə işgəncədi, bu nə zülümdü?
Onsuz da hamının sonu ölümdü…
Düşmənin hiyləgər, yaxa bilmirəm,
Sənin sınmağına baxa bilmirəm.

Ruhu qan ağlayır Dədəm Qorqudun,
İçində ölübmü hayqıran Qurdun?!
Niyə qan uddurmur yağına Ordun?!
Ruhunu bu qədər yuxa bilmirəm,
Sənin sınmağına baxa bilmirəm.

Sındırma özünü, sındırma, ey Türk,
Acizə dünyanın özü boyda sərk,
Şadiman soyundu, edir sənə ərk,
Sel olub hər səmtə axa bilmirəm,
Sənin sınmağına baxa bilmirəm.
Sənin sınmağına baxa bilmirəm.

02.07.2016

EY TÜRK OĞLU, TÜRK ƏSGƏRİ

Ey türk oğlu, türk əsgəri,
Qolu güclü, ruhu güclü yurdun əri,
Qardaşına dəyən güllə,
Cilalanıb xain əllə!...
O gecədən doğan ağrı,
Ruhu, canı boğan ağrı,
Səmalarda buludlanıb,
Dəhşətini necə danım?!
Bu ağrına, bu acına dayanmıram,
Bu düşdüyün durumuna inanmıram!

Ətrafında yağıların sipərlənib,
Atatürkə baxan gözün çəpərlənib,
Ankaraya, İstanbula dəyən zərbə,
Çevrilibdi düşmənində ruha, təbə,
Çanaqqala haray salır,
Ürəyimi qüssə alır,
Şəhidlərin qəbirləri sızıldayır,
Başı üstə qardaşının güllələri vızıldayır,
İçimdəki hönkürtülər tapmır aram,
Əzabına dözməyirəm, dayanmıram,
Bu düşdüyün durumuna inanmıram.

Türk əsgəri, sənինlə biz əsrlərlə qürur duyduq,
Bu qüruru könlümüzə zəfər saydıq.
Gözümüzün nuru bildik hayqırtını,
Yağılara çevirmə sən gəl sırtını.
Onlar səni parçalayıb didəcəklər,
Yavaş- yavaş qorxaq, tifil edəcəklər.
Ey əfəndim, ey igidim,
Varlığına baş əyməyim, bəs nə edim?!
O gecədən sızıldayır könül yaram,
Əzabına dözməyirəm, dayanmıram,
Bu düşdüyün durumuna inanmıram.

Türk əsgəri, həbislərə düşməməli,
Görüm sınsın, parçalansın xain əli!
Sənin ruhun QURD ruhudu,
Kim söndürüb atəşini, çat ocağı, yandır odu!
Ey Göy Tanrım, ey Allahım,
Parçalayır ürəyimi içdə ahım!
Türk əsgəri tutuqlanıb zindanlarda yatmamalı,
Kürəyinə xain yükün çatmamalı…
O gecədən dünya boyda ahu-zaram,
Əzabına dözməyirəm, dayanmıram,
Bu düşdüyün durumuna inanmıram.

Türk əsgəri,
özün boyda qürurun var axı bizə,
O gecədən ruhumuza dəydi nizə.
Kimdi xain, kimdi satqın?!
Bilməyirəm,
Pak adınla mən heç bu fikrə gəlməyirəm.
And verirəm Türk dədənin məzarına,
Sən çevrilmə satqınların azarına.
Qolumuzun quvvətisən,
Könlümüzün ülfətisən,
Sən Bozqurdlar nemətisən.
Kimdi düşmən, kimdi yağı özün ara,
Sağalmazsa millətinə dəyən yara,
Bil, o gündən bu dunyada biz də yoxuq,
Varlığınla bu dünyada hələ çoxuq.
Sənə olan pak sevdamdan usanmıram,
Əzabına dözməyirəm, dayanmıram,
Bu düşdüyün durumuna inanmıram.
Bu düşdüyün durumuna inanmıram.

18.07.2016

QƏRİBƏM, VƏTƏN…

Bir içim suyumsan, bir udum havam,
Dilimdən göylərə ucalan duam,
Köksümü sığdığım ən isti yuvam,
Ruhum ağuşunda bülbültək ötən,
Sənsiz yerdə, göydə qəribəm, Vətən.

29.04.2016

VƏTƏNDƏN QƏRİB DÜŞƏNLƏR

Güllərtək solub gedərlər,
Buludtək dolub gedərlər,
Məktubla peyman edərlər,
Xəyallarla yurd eşənlər,
Vətəndən qərib düşənlər.

Pul-para kömək eləməz,
Dərdini eli biləməz,
Qəlb istəyəndə gələməz,
Xəyallarla yurd eşənlər,
Vətəndən qərib düşənlər.

Hicrana möhtac olarlar,
Yurd həsrətində qalarlar,
Ürəyə ağrı salarlar,
Xəyallarla yurd eşənlər,
Vətəndən qərib düşənlər.

Yuxuda yurda köçərlər,
Qəm şərbətini içərlər,
Möhnət yolunu seçərlər,
Xəyallarla yurd eşənlər,
Vətəndən qərib düşənlər.

Canlar isitməz yuvanı,
Udduqca qərib havanı,
Bitirər dildə duanı,
Xəyallarla yurd eşənlər,
Vətəndən qərib düşənlər.

Evdən uzağa uçarlar,
Yuxuda yurda qaçarlar,
Özgə adətə düçarlar,
Xəyallarla yurd eşənlər,
Vətəndən qərib düşənlər.

Bir mesaj ümid çırağı,
İnternet verər sorağı,
Biçər hicranın orağı,
Xəyallarla yurd eşənlər,
Vətəndən qərib düşənlər.

Hər gün yollara baxarlar,
Canı yandırıb yaxarlar,
Öz kök-soyundan çıxarlar,
Xəyallarla yurd eşənlər,
Vətəndən qərib düşənlər.

Vallahi, ocaq istəyi,
Xəstə eləyər ürəyi,
Ruhun Vətəndir mələyi,
Xəyallarla yurd eşənlər,
Vətəndən qərib düşənlər.

Hər gün ocağı sorarlar,
Yuvanı qəlbdə qurarlar,
Limanda yatıb durarlar.
Xəyallarla yurd eşənlər,
Vətəndən qərib düşənlər.

05.08.2016

VƏTƏN MƏNİM İÇİMDƏDİ

Vətən mənim içimdədi,
Ondan necə qaça biləm?!
Qıfılı min biçimdədi,
Necə xeyrə aça biləm?!

O ürəkdə, canda çağlar,
Ürəyimlə könül bağlar,
İçim yanar, gözüm ağlar,
Onu candan necə siləm?

Vətən isti ocağımdır,
Cavanlıqda xoş çağımdır.
Atıb getsəm sorağımdır,
Qürbətlərdə qərib öləm.

12.09.2016

VƏTƏN

Vətən, onda Vətəndi,
Ağrı-acınla təndi.
Sən içində olasan,
Ona candan yanasan,
Dərdinə odlanasan.
Vətən – yaşadığın yer,
Dərdin daşıdığın yer,
Sahibsiz Vətən olmaz,
Qürbət ona tən olmaz.
Bayrağı kimliyimiz,
Yumruqtək birliyimiz!
O bizim varlığımız,
Milləttək yarlığımız.
Eşqi canda bitəndi,
Ruhumuzda ötəndi,
Vətən, onda Vətəndi…

09.11.2016

BİZ ENİRİK

Qiymət qalxır biz enirik,
Ahu-fəğana dönürük.
Səsimizə səs verən yox,
Öz-özünə deyinirik.

28.11.2016

OVÇULAR

Daraşdız canımıza,
Zəhərsiz qanımıza,
Dərd verdiz anımıza,
Şərdən nə vaxt qaçılar?
Şər yuvası uçular,
Yurda ziyan ovçular.
Cibnə həyan ovçular.

Xəzinəni taladız,
Sözə yalan qaladız,
Səs çıxartdıq uladız,
İçinizdə sancılar,
Yaralarla açılar,

Özünə uyan ovçular,
Cibnə həyan ovçular.

Kəsmisiz nəfəsləri,
Boğmusuz həvəsləri,
Udursuz haqq səsləri,
Göy qapısı açılar,
İçindən od saçılar,
Udar sizi acılar,
Yoxmu duyan, ovçular?!
Cibnə həyan ovçular.

Milləti coşdurmayın,
Qəzəbi daşdırmayın,
Yalan quraşdırmayın,
Yurda yaraşdırmayın,
Fitnə yolu haçalar,
El-obaya dərd calar,
Vətən soyan ovçular,
Cibnə həyan ovçular.

Ovçu ormanda olar,
Quş vurar, ocaq qalar,
Təbiətdən zövq alar,
Çadırda məskən salar,
Bizdə səhv düşüb yeri,
Uzun illərdən bəri,
Vəzifə kürsüləri
Üzlərinə açılar,
Nəfsi bəyan ovçular,
Cibnə həyan ovçular.

03.11.2016

SƏN OZAN OLDUN

Niyə ürəyimə sən ozan oldun?
Ağrını könlümə yazdın, ey Vətən.
Dərdini qaynadan mis qazan oldun,
Səni əlçimlədi hər yoldan ötən.

17.12.2016

ÖZÜMÜ AXTARIRAM

DƏRDİMİ BİLMİRƏM KİMƏ DANIŞIM?

Dərdimi bilmirəm kimə danışım?
Hər ağrı içində qaynayır başım,
Axır içərimə qanlı göz yaşım,
Açılmır ürəyim, açılmır eynim,
Mən belə ömürlə necə öyünüm?

Əzabım ağrımdan boylanıb baxır,
Girib ürəyimi yandırıb yaxır,
Göylərin şimşəyi könlümdə çaxır,
Bu qədər zülümü götürmür beynim,
Mən belə ömürlə necə öyünüm?

Ey Rəbbim, yaratdın məni ah üçün,
Doldurdun kədərlə qəlbimin için,
Qıydın dərdi-səri qəlbimə neçin?
Könlüm qəm libaslı, bəzəkli əynim,
Mən belə ömürlə necə öyünüm?

Fələk ixtiyarı əlimdən alıb,
Nəş‘əmi quyunun içinə salıb,
Hər bir istəyimə qələbə çalıb,
Saat əqrəbimi qəlbim, döyünüm?
Mən belə ömürlə necə öyünüm?

Şadiman ağrının içində batıb,
Lap özündən betər taleyi yatıb,
Ürəyi içində gileyi yatıb,
Boğazda ilişib qalıbdı ünüm,
Mən belə ömürlə necə öyünüm?
Mən belə ömürlə necə öyünüm?

02.01.2012

ÇÜRÜK ADAMLAR

Çürük adamlardan canım oylanır,
Başıma bu düzü dünya haylanır.
Ağrıdan keçirir ürəyi dən-dən,
Gedir ürəyim də ağrıyla əldən.

Sınır fikirlərim düz xətt boyunca,
Baxır əzablarım könlə doyunca,
Qəm anlardan düşüb qəlbi oyunca,
Düşürəm ürəklə bir yerdə dildən.

Fırlanıb çıxıram ahın içindən,
Günüm tarazlanır niyə, neçindən?
Gün qopub düşdükcə vida köçündən,
Saniyələr qırılıb qopur can teldən.

Çürük adamları yığın bir yerə,
Onlara insanlıq yedirsin hərə,
Onlardan qopmaq da olmur bir kərə,
Keçsin vicdanları qoy axar seldən.

Çürük adamları bəsləyən bizik,
Astarın qarasın gizlədən üzük,
Elə zənn etməyək hər işdə düzük,
Yaxşı da, yaman da doğulur eldən.

12.05.2012

ACI GÜMANLAR

Dolaşır içimdə acı gümanlar,
Dərdimin vergülü, nöqtəsi olmur.
Cumur dəli təki üstümə anlar,
Lal sükut içində diqtəsi olmur.

Çıxır ürəyimin sədası göyə,
Göyün min qatından başıma dəyə,
Tanrı da ağrıma hərdən can deyə,
Ağrının çevrəsi, qitəsi olmur.

15.02.2016

NİYƏ GƏLDİM MƏN?

Allah, bu dünyaya niyə gəldim mən?
Ruhumu ağladır bu bilməcələr.
Gəlib hər ağrını duyub, bildim mən,
İçimdən boylanır min bir necələr.

Hər sirrin özündən min sirr doğulur,
Can girib sirlərə birgə boğulur,
Dönüb zərrələrə ərşə dağılır,
Gündüzdən qoparıb alır gecələr.

Çökür qaranlıqlar duyğularıma,
Qandallar vurulur sayğılarıma,
Hörmüçək oluram qayğılarıma,
Elə zənn edərəm ahım incələr.

Mən dərddən qaçıram dərd məni tapır,
Götürüb canımı özüylə çapır,
Ruhu dustaq edən qalaça yapır,
Can çıxıb bədəndən orda gecələr.

Allah, bu dünyanın ahı boynumda,
Gəzişir qüssəsi bir-bir qanımda,
Mən yorğun düşmüşəm həyat oynumda,
Həyatın karvanı parlaq incilər.

12.05.2012

ÖMÜR

Keçib körpəlikdən düzəldin yola,
Günlər dolandıqca düşdün min hala,
Həyat bağçasına əkilən ömür,
Ağacdan yarpaqtək tökülən ömür,
Zaman boğçasına bükülən ömür.

06.07.2014

KİŞİLƏR

Kişilər…
Ey ruhumuzun tapındığı qüvvə,
Sizsiz xarabalıq girər evə…
Evimiz boş dəyirmana bənzər,
İçərisində şeytanlar, iblislər gəzər.
Qapımızda soyuqlar əsər,
Canımızı üşütməyə tələsər…

Kişilər – arxamız, köməyimiz, diləyimiz,
Sizsiz fəğan edər ürəyimiz.
Könlümüzün atəşi,
Evimizin günəşi.
Atamız, qardaşımız, can sirdaşımız,
Sizsiz xətalardan çıxmaz başımız.
Sinəmizə axar göz yaşımız,
Canımız ovunmaz,
Könül şamımız yanmaz.

Kişilər –
Siz Vətənimizin vuran nəbzi,
Dünyadan silinməz izi,
Gücümüz, qüvvətimiz,
Harayından boylanan cürətimiz,
Siz yox olan gündən biz də yoxuq,
Sizinlə yağı gözünə oxuq!

Kişilər –
Əsəblərinizlə,
Acı-şirin dillərinizlə,
Həyatımıza məlhəm əllərinizlə,
Tanrım sizləri qorusun,
Bütün həyatınız yarısın…
Amin…
Amin…
Amin…

04.11.2012

DÜNYANIN VƏFASI PARADAN KEÇİR

Diləkdən, sevdadan, həyatdan deyən,
Hər dərdin əlacı çaradən keçir.
Özünü, pulunu, varını öyən,
Dünyanın vəfası paradan keçir.

Adamın bədənlə can döyüşüdü,
Cahana gələnin an yürüşüdü,
Vicdanın idrakla vaxt görüşüdü,
Gələnlər haqq deyən sıradan keçir.

Həyat həm sevincdir, həm də kədərdir,
Gələn gəldiyitək çıxıb gedərdir,
Demə, taleyini yazan qədərdir,
Bax gör addımların haradan keçir?

Ağılın vəfası cibində gəzir,
Qanmayan həyatın dibində gəzir,
Yaradan bəndəni təbində gəzir,
Onun da yolları qaradan keçir.

Acizlik insanı əyər yay təki,
Qopar ürəyində ahu-vay təki,
Şadiman, duyğular coşan çay təki,
İdrak – can deyilən aradan keçir.

02.11.2012

BİR ACI YAŞAR

Hamının içində bir acı yaşar,
Bu acı dünyanı bələndən keçir.
Hisslər qıjıltıyla qaynayıb daşar,
Bədənin ağrısı ələndən keçir.

Doğulduq həyatdan kam almaq üçün,
Yıxılıb, büdrəyib, ucalmaq üçün,
Ən yüksək zirvədə iz salmaq üçün,
Bu eşqi dərindən biləndən keçir.

Andan-ana qaçır həyat köhləni,
Çapacaq sonadək bu at köhləni,
Yoxuşlar yoracaq min qat köhləni,
Zəfərlər əzaba güləndən keçir.

Mən də acılara uydum eşq təki,
Onlara alışdım min yol məşq təki,
Acını, şirini sandım fərq təki,
Nə varsa ağıla gələndən keçir.

Şadiman çox çəkdi ağıldan bəla,
Ruhuna səd oldu tikdiyi qala,
Zəkadır bədəni salan pis hala…
Bu, min bir doğulub gələndən keçir.

13.07.2013

EDİLƏN YAXŞILIQ QAYITMIR GERİ

Edilən yaxşılıq qayıtmır geri,
Sən onun yolunu gözləmə heç vaxt.
Göyün kişnərtisi ayıltmır yeri,
Özü ayılanda silkələnir taxt.

Hər kəsin ağlının öz taxçası var,
Canının içində qəm boxçası var,
Tərpənən yer kimi candan asi var,
Ani yaxşılıqdan cilvələnir baxt.

Odur ki, gözləmə kimsədən onu,
Min bir rəngə çalır hər üzün donu,
Xeyirə calansın addımın sonu,
Qaçır əlimizdən göyərçintək vaxt.

13.01.2012

ÖZÜMDƏ TAPDIM

Mən ruhun harayın özümdə tapdım,
Minib can atına göy-yeri çapdım,
Dəli fəryadıma zaman ağladı,
Zamanın əlindən canımı qapdım.

Qapıb tən evimə salmaq istədim,
Elə dərd-bəlasın almaq istədim,
O çıxıb bədəndən çəkildi getdi,
Onunla bir yerdə qalmaq istədim.

15.02.2016

KÜÇƏ UŞAQLARI – GÖZLƏRİ QƏMLİ

Küçə uşaqları – gözləri qəmli,
Baxışları doğar kədər yaşları.
Bütün ömürləri keçər ələmli,
Dərdləri onlarla can sirdaşları...

Kirli üst-başları gendən görünər,
Bir ana qucağın həsrətlə anar.
Dallarıyca acı tale sürünər,
Dözməyən ürəklər bu dərdə yanar.

Dilləri böyüktək danışar, amma
Yorğun üzlərində inciklik gəzər.
Onlar dilənçidi arzuya, kama,
Arzu, kam onlara salmaz bir nəzər.

Parkda dolaşarlar gündüzlər, gecə
Soyuq zirzəmilər evləri olar.
Yatırar qoynunda qaranlıq küçə,
Körpə baxışları yollarda solar.

Küçə uşaqları sahibsiz tifil,
Ana nəvazişi onlara yaddı.
Miskin həyat sürər künclərdə səfil,
Bəs kimlər onları küçəyə atdı?

Bir-birin döyərlər, vuruşarlar da,
Köhnə üst-başları cırılıb çıxar.
Yolçuluq etməkdə yarışarlar da,
Darda bir-birinə doğmatək baxar.

Bir qarın çörəyin dərdin çəkərlər,
Onlar böyüklərtək vurnuxar gündüz.
Bütün ağrıları qəlbə tökərlər,
Baxışlar dilənçi, heç vaxt gülməz üz.

Küçə uşaqları dünya yarası,
Fərqi yox hansı bir ölkə bitirib.
Onlar vicdanlara bir üz qarası,
Onları cəmiyyət özü yetirib.

16.01.2012

EY MƏNİM ƏLİMDƏN QAÇAN İLLƏRİM

Ey mənim əlimdən qaçan illərim,
Sizdə qövr eliyən amanım getdi.
Atəşin altında qalan küllərim,
Ömrümü yaşadan zamanım getdi.

Çıxıb boylanıram dalınızca mən,
Qayıdıb gələnə heç oxşamırsız.
Düşdüm min cövürə halınızca mən,
Dönüb gurşadlara vaxta damırsız.

Zaman pilləsindən enirəm hər gün,
Gələn saatıma süfrə açıram.
Bir ağrı-acıya dönürəm hər gün,
Cismidən silkinib, candan qaçıram.

Mənim taleyimə dönük illərim,
Üzə gülə-gülə ömrümü aldız.
Dindi hər havada könül tellərim,
Siz onu mizrabla kökündən saldız.

Durub boylanırsız candan havalı,
Ötən günlərimə ağı tutursuz.
Məndən qaçanlarım düşünün halı,
Qəlbi ağrılara yağı tutursuz.

Asılıb kirpikdən zaman ağrısı,
O da Şadimanın qanından keçir.
Məni tərk edirsiz, bilməm doğrusu,
Kim kimin üstündə canından keçir?!...

21.03.2012

BİLMİRƏM SƏNİ

Ağrısan, acısan bilmirəm səni,
Hicran əlacısan bilmirəm səni.
Bir şirin yuxuya dönüb qalmısan,
Ömrüm, həyatımdan silmirəm səni.

15.02. 2016

ÖMRÜMÜ HƏSR ETDİM

Acı çəkən qadınlara diləkçəm…

Sənə bütün ömrümü həsr etdim.
Duyğularımı ruhuna qəsir etdim.
Həyatımı ayağına həsir etdim…
Sənsə hər axşam,
hər səhər,
Doldurdun boğazıma qəhər…
Qəhərə qul etdin ömrümü,
Çıxarda bilmədim səs-səmirimi.
Çıxardanda qadınsan dedin,
Ruhumu kor etmək üçün
hər gün zəhər buraxdı ödün.
Bu zəhəri bala qatıb uddum,
Kin-küdurətimi
İçimdə boğulan qüdrətimi,
Sənə əmənət etdim,
Sənə kəramət etdim.
Sən isə əmanət etdiyim
haqqımı öldürdün,
Özünü də, məni də
aləmə güldürdün…
İndi ruhum qəhqəhələr
içində bayılır,
Bir zaman kor olmuş
ağılım ayılır,
Əmanət etdiyim ömrümü
laylaya tutmaq üçün,
Özümü də bu laylanın
içinə qatmaq üçün…
Əgər içində bir damcı
mərhəmət varsa
qulaq kəsil bu səsə!
Düşmə ağrımı artırmaq
üçün yeni bir həvəsə…

06.11.2012

DÖVRAN SULAYIR

Məddahlıq ətrafda dövran sulayır,
Girir qəlb içinə orda ulayır.

Gözün gördüyünə ürək oylanır,
Ağıl dərk eyləyir bədən vaylanır.

Hamı tərifləyir məddah olanı,
Məddahlıq içində batıb qalanı.

Adam heyrət edir böylə işlərə,
İnsan ağlındakı pis vərdişlərə.

Məddahın öyürlər başın, bədənin,
Sonra da vururlar dişə gödənin.

Ənnamlar artıqca məddah dikəlir,
Ağlı vüs‘ət alır, cismi kökəlir.

Çoxalır cibinin pulu, parası,
Düzəlir yekəylə, çünki arası.

Çatır güzərana oğul-uşağı,
Yetişir umduğu ömrə xoş çağı.

Təkcə ləyaqəti yada salmayır,
Məddah olduğunu vecə almayır.

Dürüst olmayanlar kamala yetməz,
Kamala yetməyən amala yetməz.

Budur məddahlığın aşkar siması,
Batırır çirkində parlaq almazı.

05.03.2013

BƏND OLUB QALDIM

Bir damla ümidə bənd olub qaldım,
Onu ürəyimdən keçirtdim min yol.
Ağrıma-acıma dərd olub qaldım,
Ruhuma göz yaşı içirtdim min yol.

18.12.2016

HƏYAT MƏSUM BİR KÖRPƏ

Həyat məsum bir körpə,
Biz onu öpə-öpə
bəsləyirik ömürlə,
Bağlanırıq əmirlə.
Səsi-sədası bizdən,
Ağrı-acısı dizdən,
Gecələr canla yatar,
Səhər aləmi qatar.
Arzu-istəyi bitməz,
Çoxuna əli yetməz.
Hər şeydən bir az dadar,
Gah sevinc, gah qəm udar.
Duyğularla öcəşər,
Bütün günü əlləşər.
Hərdən düşüb yorular,
İşdən bağrı yarılar.
Çəkilər bir guşəyə,
Üz verər əndişəyə.
Candan doğar həvəsi,
Bu həyat fəlsəfəsi.

21.01.2013

KEÇMİŞDƏ QALAN GÜNLƏRİM

Ey mənim keçmişdə qalan günlərim,
Mənim xəyalıma baş vurursunuz.
Xatirələrdə yurd salan günlərim,
Bəbəyə qəm dolu yaş vurursunuz.

Atalı-analı çağlar ötdülər,
Qoşulub zamana yaman itdilər,
Dadlı uşaqlıqtək gözdən itdilər,
Ömürün ağzına daş vurursunuz.

Həsrətə bürünüb uçur saat da,
Ətcə quşlar təki bitir qanad da,
Qoparır içimdə min bir imdad da,
Dərdi sevinc bilib baş vurursunuz.

Siz də mənim kimi olaydız nalan,
Xəzan küləkləri qəlb edir talan,
Təkcə xatirədir Şirinə qalan,
Yaşımın üstünə yaş vurursunuz. **24.05.2013**

GƏLİRSƏN SƏADƏT GƏTİR

Yeni il, gəlirsən səadət gətir,
Dünyanı saflığa, paklığa yetir,
Bütün insanların üzləri gülsün,
Hər kəsin gözündən sevinc tökülsün.

31.12.2013

BİR ÜRƏYİN İKİ YERİ

Bir ürəyin iki yeri,
Biri qandır, biri candır.
Tökmə qəlbə dərdi-səri,
Onu yıxan həyəcandır.

Ömür keçir çox əzabdan,
Ölçüsü var haqq-hesabdan,
Ələyi bir həsir qabdan,
Ordan düşən qaçan andır.

Üyür-keçir saatları,
Atır-tutur büsatları,
Acı-şirin can qatları,
Bu da bədənə ünvandır.

06.11.2013

EY YENİ İL

Gəlirsən, ey yeni il,
Könülləri şad elə,
Hər qəlbdən kədəri sil,
Xoş müjdəylə yad elə.

Hamının üzü gülsün,
Gözlərdən nur tökülsün,
Dərdin bağrı sökülsün,
Dünyanı abad elə.

30.12.2012

HƏR GÜN GƏLİB KEÇİRSƏN

Hər gün gəlib keçirsən bu küçədən sükutla,
Sükutun bu yollara ağ-qara cığır salıb.
Sən daha isnişirsən, yollaşırsan həyatla,
Yəqin ki, başın üstün qorxunc qayğılar alıb.

O nimdaş pal-paltarın xeyirdən xəbər vermir,
Üzünün sarıltısı gözə xəzan ələyir.
Sənin arzu-diləyin donub daha, yerimir,
İçində diləklərin quzu təki mələyir.

Milyonların üstündə oturanlar kefdədir,
Sənsə qəpik-quruşu arayırsan cibində.
Sənin diləklərini yatıranlar kefdədir,
Sənsə çapalayırsan bu həyatın dibində.

Uşaqların gözünün dikib yəqin yoluna,
Deyirlər, açacaqdır indi atam qapını.
Sənsə çoxdan dönmüsən ümidsizlik quluna,
Bütün qonum-qonşular çəkir iztirabını.

Həyat çarpışmaları sevən div oğlu divdi,
Acizləri itirib batırır öz selində.
O daima güclünü basıb bağrına sevdi,
Xeyirlə şər çarpışır həm sağ, həm sol əlində.

Bunu duyan özünü, sanki ucada görür,
Heç zaman əyilməyir heç bir kəsin önündə.
Hər bir doğulan insan bir dəfə ömür sürür,
Günü özünə bənzər, həyatı öz günündə!

06.05.2014

ÖMÜR ELƏ KEÇİR

Ömür elə keçir ki…
Su kimi axıb gedir,
Gedərkən ürəyinə
od-atəş yaxıb gedir.

Dünən olan saatlar,
sanki bir nağıl olur.
Qəlbə çox salır çatlar,
Əzabda ağıl olur.

Ömür həyat elçisi,
İlahinin sirridir.
Səliqəli biçisi,
Sağ olanla diridir.

05.11.2013

ÜRƏYİMƏ GÖMÜLTDÜM

Çox arzumu ürəyimə gömültdüm,
Diləklərim fəryad etdi, ay Allah.
Bülbül təki harayımla bir ötdüm,
Ahım candan qana yetdi, ay Allah.

Bu nə zaman alıb məni sümürdü?
Güman etdi, bədən deyil, dəmirdi.
Bəlkə bu da haqdan gələn əmirdi?
İllərimlə birgə getdi, ay Allah.

Dünya içi yarı kindi, yarı din,
Düşünəndə çalxalanır lap beyin.
Çox deyirəm, bu gününlə gəl öyün,
Günüm dərdlə birgə ötdü, ay Allah.

Çalışdım ki, əzabdan can qaçırdım,
Ruhu tapım bəxtimlə bir uçurdum.
Kədərimin dərd sarayın uçurdum,
Əfsus, gəlib qəlbdə bitdi, ay Allah.

Bu Şadiman ömür-günün yorğunu,
Çox çalışdım heç bulmadım doğrunu.
Tanımayan yoxdu zaman oğrunu…
Ömrü alıb gözdən itdi, ay Allah.

11.12.2014

NİŞANLARIM VAR

Mənim də dərd dolu nişanlarım var,
Onu hər saata peyman edən var.
Fərəhli, kədərli çox anlarım var,
Zaman qapı açır, candan gedən var…

15.02.2016

İNSAN KİMDİR?

İnsan kimdir?
Qurduğunu dağıdan,
Öz-özünü cəfalarla ağrıdan.
Yalanlara üz tutaraq
çox vaxt qaçan doğrudan.
Kəşfi ilə zirvələri fəth edən,
Bəzən çaşıb, varlığını mədh edən.
Aslanları, pələngləri qaçırdan,
Yeri-göyü nərəsiylə uçurdan,
Acıları içdən çölə tökəndi,
Yaratdığın bircə anda sökəndi.
Duyduğutək yaradıcı,
Varlığına aldadıcı.
Görünməyir hiyləsinin,
yalanın heç vaxt ucu…

***

İnsan kimdir?
Dərdlərinə bir həkimdir,
Əzabına can təhkimdir!
Ölənədək çarpışmada,
Adı ilə, özü ilə min illərdi
Azarıyla,
Məzarıyla,
Baş daşıdı bu dünyada.
Atıb,
Atır,
Atacaqdı əsrlərlə özün oda.

16.11.2014

ƏLİ-QOLU BAĞLILARIN

Əli, qolu bağlıların,
Qolların güc açа gərək.
Haqq parlada ağılların,
Sözləri od saça gərək.

Gün getməyə boş-boşuna,
Bürünməyə göz yaşına,
Ömür düşsə sərt qışına,
Qışdan yaza qaça gərək.

Əyilmə heç çətinliyə,
Əyildinsə can inləyə,
Qəlb zəkanı çox dinləyə,
Qanad açıb uça gərək.

Hər möhnətin xoş günü var,
Hər kələfin düyünü var,
Hər canlının beyini var,
İnsan ağlı uca gərək.

Doğum-ölüm bir möhlətdi,
Can bədənə əmanətdi,
Ömür bizə zəmanətdi,
Can ruhunu quca gərək.

Bu Şadiman təb təşnəsi,
Girib qəlbə çox rişəsi,
Gah acısı, gah nəş‘əsi,
Layiq edək taca gərək.

23.12.2014

ÖMÜR KİNOLENTİTƏK

Ötüb keçir gözümdən
Ömür kinolentitək,
Tökür xəyallarımı
Qarşıma ətək-ətək.
O duyğulu çağlarım
Ömrümdə cilalanır,
Şirin-acılı günlər
Dil içində hallanır.
Diləklər sellər təki
Heç məcraya sığmayır,
Ümid qığılcımları
Günəş təki doğmayır.
Saatın vaxt əqrəbi
Qapımı tıqqılladır,
Hər gələn gün gah şəkər,
Gah da ki, zəhər dadır.

15.11.2014

KƏSİRLƏR DOSTA QURBANI

Deyirlər: «Kəsirlər dosta qurbanı,»
Kəsilən heyvanın günahı nədir?
Eylə ürəyini dost mehribanı,
Sonra söyləmə ki, bəs ahı nədir?
Bir çoxu dostluğu səbatsız edir.

15.02.2016

HƏRƏ BİR QƏLƏM GÖTÜRÜB

Bir çoxu qələm götürüb,
Yazır boşuna-boşuna.
Qələm də gəzir adamdan
Daha yaşına-yaşına.

Mənəvi dünya puç olur,
Pak dünənimiz heç olur,
Sonunda bunlar suç olur,
Candan daşına-daşına.

Dün içimizdən doğulan,
Canı boğaza yığılan,
Gedib yad elə dağılan
Döyər başına-başına.

Çox kök-soyuna xor baxan,
Durub aləmə zor baxan,
Qərbi içinə buraxan,
Dönər qışına-qışına.

Budur millətə qərəzi,
Səhv ölçüb-biçər tərəzi,
Kökə çirkabdı mərəzi,
Qalar qaşına-qaşına.

Şadiman, öldür həvəsi,
Yada eşq kəsər nəfəsi,
Udar tarixin səhnəsi…
Gedər aşına-aşına.

27.12.2014

GƏRƏK DÜRÜST OLA

Gərək dürüst ola qonşu qonşuya,
Hər ağrı-acısın özünün saya.
Qonşuluq adını sərrast daşıya,
Yetişə o evdən hər qopan haya.
Toyunda, vayında gələ haraya.

15.02.2016

DÜZGÜN OLMAYAN HƏYAT

Düzgün olmayan həyat,
Gətirər qəlbə infarkt,
Verər ürəyə min çat,
Canda tufan qoparar,
Faciyəyə aparar.

Ömür hər kəsə bir yol,
Eyləmə könlünü qul,
Dünyada haqqını bul.
Hiylə qapında durar,
Faciyəyə aparar.

Dünya içi mərəkə,
Düşməyəsən kələkə,
Düşdün gərək can çəkə.
Vücudunu qəm sarar,
Faciyəyə aparar.

Düşün-daşın öncədən,
Tutma niyə-necədən.
Yığ ağlını küçədən,
Düşüncə oldu ki, dar,
Faciyəyə aparar.

Yapışma bəxt-taledən,
Nə çıxacaq gileydən.
Keçir fikri ələydən,
Verməsən dürüst qərar,
Faciyəyə aparar.

Bax əzilən hallara,
Artan qeylü-qallara,
Hönkürən vüsallara…
Ömür canını yorar,
Faciyəyə aparar.

Şadimanın qəm bağrı,
Yaxıb-yandırır ağrı.
Olsan canına oğru,
Toy yerinə yas qurar,
Faciyəyə aparar. **13.01.2015**

BİR İL DƏ GETDİ ÖMÜRDƏN

Yeni il, bir il də getdi ömürdən.
Gəlirsən xeyirlə qapıları aç.
Zaman ötəridi, çıxmaz əmirdən,
Düzəlməz işlərə özün tap əlac.

Hamı diləyini eşqə calasın,
İnsan bir-birinə kinlə baxmasın,
Ağıla səadət odun qalasın,
Heç kəs ürəyinə dərd buraxmasın.

Yeni il, dünyanı qanda boğanlar,
Unutsun qəzəbi, sülh əhli olsun.
Döysün qapıları, hər gün xoş anlar…
Bütün qan-qadalar dünəndə qalsın!

31.12.2014

QAPIMDA DURAN ZAMAN

Qapımda duran zaman
gülmüsünüb baxırsan.
Çağrılmamış qonaqtək
sözçün gəzirsən zaman.
Üzündəki yorğunluq
qəlbimi parçalayır,
Qırılmış könül simin
misralara calayır.
Uzaq yoldan gəlmiştək
əsaya söykənmisən,
Sanki uca dağların
zirvəsindən enmisən.
Üst-başında dumanın
nəmişliyi görünür,
İlantəki ömürüm
Yollarınla sürünür.
Sən hər gün öz işində,
Ürəyimin telini
gəzdirirsən dişində!
Niyə durub baxırsan
qapımdan gizli-gizli?
Çağrılmamış qonaqtək
yaman üzlüsən, üzlü.

Bilirəm günlərimi
aparmağa gəlirsən,
İstədim, istəmədim
qoparmağa gəlirsən.
Elə isə, tələsmə,
qoy mən də ömürümlə
yığışıb birgə gedim.
Səni də özümü də
bu işdən azad edim.

26.12.2014

HAQQ YOLA GƏLƏNDİ

Sanki ulduzlar asıb özünü
göylərin yeddi qatından,
Kainat yorğun düşüb öz göy atından.
Gecənin pənbə buludları üzünə sığal çəkir.
Ayı-ulduzları pərdələmək üçün göz yaşı tökür.
Kədərin göz yaşında yuyunur sanki,
Dəli qəh-qəhə çəkib uğunur sanki.
İçimdə cücərir sevincim,
Ömrə həyat incim
yaşamağa sövq edir məni…
Qaytarmaq istəyirəm həyata dünəni.
Ayın işığı günəşin varlığı demək,
Buna görə Yaradan işlədib əmək.
Ey Adəm övladı, biz də bir-birini sevə bilərdik,
Bir-birinin üzünə içdən gülə bilərdik.
Onda bütün pisliklər ölə bilərdi,
Başımızın içində ağlımız haqq yola gələrdi…

15.02.2015

ADAM ƏMƏLİYLƏ HƏR GÜN YEKƏLİR

Adam əməliylə hər gün yekəlir.
Əməllər ya yaxşı, ya da pis olur,
Heyrətin sütünu gözdən dikəlir,
İnsanı çalxadan dəli hiss olur.

Hiss öz açarını ağıla verə,
İnsanı irəli aparan odu.
Onda heç bir zaman gəlməz göy yerə,
Bürüməz aləmi heç dedi-qodu. **15.02.2016**

GİZLİ KÖNÜL NAĞILI

Gizli könül nağılı,
Alır başdan ağılı.
Röyalar aləmində
Çapırsan sağa-sola,
Çıxırsan xoşbəxt yola.
Ürəyə qida verir
Şirin yuxular sayaq,
Bə‘zən dünya sənin çin
Düşüb olur baş-ayaq.
Sən də onun içində
Boylanan tənha mayaq.
Heç özündə olmursan,
Bu ömürlə qalmırsan.
Bədən qalır dünyada,
Canın gəzir röyada.
Ulduzlar nurun olur,
Ürək qürurun olur.
Səyyarələr çırağın,
Ay işığı varağın.
Könül duyğularını
tökürsən gecələrə,
Hislərini dəlitək
Sökürsən gecələrə.
Bütün şəhər yuxuda,
Duyğu çılğın qoxuda.
İşıqlar sönüb artıq,
Can tənə dönüb artıq.
Göyün bilməcəsini,
Ruhun şaqraq səsini
Sükut qəlbə oxuyur,
Dünya şərqi qoxuyur…
Sabah günəş doğacaq,
Cahana nur yağacaq.

06.02.2015

ACLIĞI OLAN BİR KƏSİN

Genində aclığı olan bir kəsin,
Doydurmaq olmayır gödənin heç vaxt.
Tamahı öldürə bilməz həvəsin.
Yemək doldurmayır bədənin heç vaxt.

15.02.2016

KƏDƏR BULUDLARI

Kədər buludları çökür üstümə,
Zaman sanyələri durub qəsdimə,
Ruhum ocaq çatıb, baxır tüstümə!
Hər yerdən həsrətin qoxusu gəlir.
Könlümün qorxudan yuxusu gəlir.

İşığa həvəsli zaman keçici,
Ağlayır qüssədən qəlbimin içi,
Bağlayıb əl-qolu çox ölçü-biçi,
Hər yerdən həsrətin qoxusu gəlir.
Könlümün qorxudan yuxusu gəlir.

Göylər də sisini ruhuma tökür,
Dünyanın əzabı canımı sökür,
Hər yerdən boylanır hiylə, kin, məkir,
Hər yerdən həsrətin qoxusu gəlir.
Könlümün qorxudan yuxusu gəlir.

Niyə bu dünyanı şən etməyək biz?
Bülbültək şadlanıb heç ötməyək biz?
Haqqın qapısına pak getməyək biz?
Hər yerdən həsrətin qoxusu gəlir.
Könlümün qorxudan yuxusu gəlir.

Gəlin, ey adamlar, kindən qurtulaq,
Qəlbə savaş edək, xeyrə qatılaq,
Vaxtımız az qalıb, haqqa çatılaq,
Hər yerdən həsrətin qoxusu gəlir.
Könlümün qorxudan yuxusu gəlir.

Siz də Şadimanı qınaq etməyin,
Onun ürəyini sınaq etməyin,
Dərdi ürəyinə qonaq etməyin,
Hər yerdən həsrətin qoxusu gəlir.
Könlümün qorxudan yuxusu gəlir.

05.02.2015

GECƏDƏN DOĞAN SƏHƏR

Gecədən doğan səhər,
Boğmasın könlü qəhər.
Zülməti boğazlayaq,
Sübh ilə qalaq oyaq.
İşığa doğru gedək,
Birlikdə nahar edək.
Süfrəmiz eşqlə dolu,
Bitməsin həyat yolu.
Arzular qatar-qatar,
Yerdən göylərə çatar.
Üzülməsin əlimiz,
Tutulmasın dilimiz.
Vaxtda ömür naxışı,
Hərənin öz baxışı.
Diləkdən həyat quraq,
Qəm ağzına daş vuraq.
İşığımız çoxalsın,
Ürəyimiz yuxalsın.
Bir-birinə can deyək,
Ağırdır hicran deyək.
Hər ömür axar sudur,
Kim ki ondan asidir,
Sevinci olmayacaq,
Ürəyə dolmayacaq.

***

Gecədən doğan səhər,
Sübhün qaçağan kəhər.
Qoyma ki, gün tələssin,
Başında hicran əssin.
Qapıları xeyirə aç,
Günəşinlə işıq saç.
Ömrümüz təzələnsin,
Üstünə nur ələnsin.

***

Gecədən doğan səhər,
Yaşamayaq birtəhər.
Titrəməsin qəmdən yer,
Dünyamıza həyat ver.

02.06.2015

CAHAN İÇİNDƏ

Mən elə tənhayam cahan içində,
Dərddən gizlənməyə bir dam tapmıram.
Can batıb qalıbdı röya içində,
Onu ovutmağa heç kam tapmıram.

Adamlar sağımdan, solumdan keçir,
Onların kədəri qanımı içir,
Dolanır ağrılar, tək məni seçir,
Onlardan sevdalı ehkam tapmıram.

Ümid qığılcımı şimşəktək çaxır,
Seyriylə könlümü yandırıb yaxır,
Yenə də qəlbimi tənha buraxır,
Cahanda özümtək nakam tapmıram.

Hanı dərdlərinə məntək vəfalı?
Kimim var, kimimə ərz edim halı?
Qarışıb təbimin yenə əhvalı,
Onu ovutmağa adam tapmıram.

02.07.2015

ARASINA DÜŞMÜŞƏM

Dörd divarın arasına düşmüşəm,
Divar qaçır, mən divardan qaçmıram.
Taleyimin qarasına düşmüşəm,
Qapı döyür, durub qapı açmıram.

Bu minvalla danlayıram gözümü,
Göz də könül aynasıdır deyirlər.
Gah başımı, gah döyürəm dizimi,
Bədən canın mənasıdır deyirlər.

Əlim, qolum ağrımağa öyrəşib,
Ağıl qəlbə, qəlb ağıla yox deyir.
Can varlığa bağırmağa öyrəşib,
Vaxt ömürdən iştahayla gün yeyir.

Mən də baxıb oylanıram uzaqdan,
Səsim qəlbdən çıxıb bağrı dağıdır.
Kim nə deyir desin mənə sazaqdan,
Ürəkləri qəfil ağrı dağıdır.

Ey Şadiman, yol yoldaşın zamandır,
Tayı bilib o sənինlə bir gedir.
İlahidən qəfil gələn fərmandır,
Bu dünyanı tərk eləyən sirr gedir. **03.07.2015**

DUYĞULARIM VAR

Dostum, ürəyimdə duyğularım var,
Könül qədəhinə süzək sənlə.
Həyat dolanbacdı, qayğılarım var,
Onları birlikdə çözək, sənlə.

Həyatın bir üzü qəmdi, kədərdi,
Bir üzü səadət yazan qədərdi,
Hər gələn dünyadan bir ömür dərdi,
Biz də o meyvədən üzək, sənlə.

Çaxnaşma, vuruşma, döyüşmə gedir,
Məğlub vicdanlarla əyişmə gedir,
Haqqın ayağına ilişmə gedir,
Demirəm bunlara dözək, sənlə.

Mən məğlub durumda qala bilmirəm.
Könlü qəm əlindən ala bilmirəm,
Qəlbi eşq evinə sala bilmirəm,
Bu dərdə əlacı gəzək, sənlə.

Dostum, olduğuntək görün dünyada,
Keçirmə ömrünü yalnız röyada,
Anlamaqdan gəlir insana fayda,
Edək ömrü cana bəzək, sənlə.

Şadiman sevdanı dəvası sandı,
Gah kül oldu ürək, gah da ki yandı,
İçimdə fırtına qalxdı, oyandı,
Misranı misraya düzək, sənlə!

03.07.2015

YANDIRIB YAXIR

Acı həsrətlərə boyun bükəli,
Dərdim oyuq-oyuq gözümdən baxır.
Kəsilmir qapımdan həsrətin əli,
Ürəyi ağrılar yandırıb yaxır.

Mən sitəm içində can üyüdürəm,
Acı taleyimi özüm güdürəm,
Hər gecə ruhumdan qopub gedirəm,
Canım ah içində bədəndən çıxır.

Heç kim yandığımı görmək istəmir,
Gəlmir ki, göylərdən biryolluq əmir,
Nəyi çəkdiyimi ürəyim demir,
Sükutun harayı evimi yıxır.

15.11.2014

GETMƏK İSTƏYİR

Canım bədənimdən getmək istəyir,
Ruhumu göylərə aparmaq üçün.
Gedib kainata yetmək istəyir,
Məni ağrılardan qoparmaq üçün.

Can bədən içində qonaq kimidir,
Dünya imtahanı sınaq kimidir,
Büdrəsən ömür də qınaq kimidir,
Onun əzabına qul olmaq neçin?

Ağılı bağlama vara, sərvətə,
Doğulan möhtacdır təmiz niyyətə,
Durub heyran olma sən səadətə.
Gələn bir gün sürür dünyadan köçün.

Bir göz qırpımı ömür zamana,
Can boyun əyəndi gələn fərmana,
Könlünü dürüst tut haqqa, imana,
Tanrı yaxşı görür hər kəsin suçun.

Şadiman, hönkürtmə ürəyi vaxta,
Baxışlar yorucu, ürəklər saxta,
Elə də vurulub əyilmə baxta,
Onsuz da hıçqırır ələmdən için.

03.07.2015

DOĞMANIN AĞRISI

Doğmanın ağrısı ürəkdə gəzir,
Sevgisin qəlbindən çıxartmaq olmur.
Onun səadəti diləkdə gəzir,
Yapışır könülə qopartmaq olmur.
Doğmalar şirindi, heç atmaq olmur.

15.02.2016

TALEYİMİN QULUYAM

Mən öz taleyimin quluyam, Allah,
Qulun hakiminə sözü olmayır.
Ömrümün ağrılı yoluyam, Allah,
Ağrının dünyada gözü olmayır.

Günümün gecəsi, gündüzü yoxdu,
Bu yaşam eşqindən ürəyim qorxdu,
Bəxtimə qazılmış uzun bir arxdı,
Arxın selə çıxan üzü olmayır.

Saatım hıçqırır hicran əlində,
Günlərim ağlayır könül telində,
Həyatım ağıdı ömrün dilində,
Heç dərdin bükülən dizi olmayır.

Yaddaşım əsgiyə baş vurur gəlir,
Orda ötənlərin ahı yüksəlir,
Xəyallar şaqqanaq çəkərək gülür,
Kim deyir yaddaşın közü olmayır.

İllərim günlərə cığırlar çəkib,
Yaşımı cığırlar içinə büküb,
Ömür ağacından yarpaqlar töküb,
Yarpaqlar çürüyür izi olmayır.

Xatirə xatirə üstə ələnir,
Ürək paramparça, aha dillənir,
Gözlərim yaş tökür, bəbək lillənir,
Deməyin xəyalın özü olmayır.

Şadiman ağrıya can qurban etdi,
Könlünü əzaba mehriban etdi,
Əsən yellər ömrü biyaban etdi,
Hər yoxuş ömürün düzü olmayır.

06.07.2015

KEÇDİ ÖMÜRDƏN

Bir gün də şığıyıb keçdi ömürdən,
Saatlar sanyəni qovaqovdadı.
Zaman bir günü də biçdi ömürdən,
Arzular ürəyi tovatovdadı.

Səhərin işığı keçməmiş hələ,
Gecə zülmətini götürüb gəlir.
Günəş göy qübbəsin tutaraq dilə,
Göylərə köksünü ötürüb gəlir.

Mən də qollarımı qoltuğa sığıb,
Fikrin ümmanına düşüb qalmışam.
Dərdləri ürəyin içinə yığıb,
İçdəki dünyama mehir salmışam.

Həzin pıçıltılar gəlir qulağa,
Qulaqlar öyrəşib nağıla daha.
Gah sola baxıram, gah da ki sağa,
Bir kimsə gəlməyir ağıla daha.

Mənim içimdəki dünya möcüzə,
Duyğular qalalar yapır orada.
Batırıb könlümü alova, közə,
Məni əzablarım tapır orada.

Tufanlar qoparan duyğular atlı,
Çapırlar könlümdə o baş, bu başa,
Zamanın əlində qurğu saatlı,
Hər an öz xoşuyla gəlməyir başa.

Şadiman, içini ağrıya köklə,
Ağrısız insanın günü olmayır.
Dinlət ürəyini, çəkinmə ərklə,
Dinməz ürəklərin ünü olmayır.

06.07.2015

DÜŞÜB CANIM TƏLATÜMƏ

Düşüb canım tələtümə,
Selləri çox iti axır.
Buz içində qəlbim üşüb,
Dərdim durub mənə baxır.

Ha deyirəm, yanma belə,
Salma məni dildən-dilə,
Dərd əridir gilə-gilə,
Gözümdəki çənə baxır.

Gecəsi ruh harayında,
Ah bəzəyir sarayında,
Batıb qaldım mən vayında,
Düşdüyüm bu günə baxır.

Yox canıma etibarım,
Əldən gedib, yox baharım,
Ey Sadiman, ömür varım,
Ötən səsə, ünə baxır.

12.07.2015

ÜRƏYİ ETDİM NİŞAN

Ey sabahım, mən sənə,
Ürəyi etdim nişan.
Nişanı salma çənə,
Çünki olub pərişan.

Zamana dərd yükləmə,
Yükünü mən çəkirəm.
Ürəyimi təkləmə,
Ora kədər tökürəm.

Bax üzümdən halıma,
İnsafın olsun barı.
Şəkər qat əhvalıma,
Ömür keçib, yaş yarı.

Mən hələ çox işimi
Yoluna qoymamışam.
Sənինlə görüşümü
İllərdir saymamışam.

Ey sabah, muradımı,
Yetir haqq dərgahına.
Yetişən fəryadımı
Yazma hicran adına.

Mən axı zülmətlərə
Heç zaman əyilmədim.
Qəlb verdim niyyətlərə
Lal dilini bilmədim.

Ey sabah, Şadimanın
müjdəylə aç qapısın.
Bürüyüb qüssə yanın,
Qoy sənə can tapınsın.

12.07.2015

DÖNÜK ÜZLÜM

Ey taleyim, üz çevirib gedirsən,
Döy qapımı, ruh evimə gir də, gəl.
Qılıncını nə sivirib gedirsən,
Dönük üzlüm, bir gəlmisən, bir də gəl.

Yaman eşqlə dilləşirsən hər gecə,
Ürəyimlə əlləşirsən hər gecə,
Düşüb aha selləşirsən hər gecə,
Dönük üzlüm, bir gəlmisən, bir də gəl.

Mən evinin qapısına gəlmədim,
Sirrin çoxdu, bircəsin də bilmədim,
Adını heç ürəyimdən silmədim,
Dönük üzlüm, bir gəlmisən, bir də gəl.

Deyirlər ki, yalan imiş bu tale,
Özün dilə salan imiş bu tale,
Rəbbim bilir, ilan imiş bu tale,
Dönük üzlüm, bir gəlmisən, bir də gəl.

Durub qapı ağızında gülürsən,
Bilirəm ki, hər dərdimi bilirsən,
Təkcə mən yox, sən də mənçin ölürsən,
Dönük üzlüm, bir gəlmisən, bir də gəl.

İşığını yandır, könlüm zülmətdi,
Ömür yarı, hər bir günü zillətdi,
Aramızda nə ayrılıq, möhnətdi?
Dönük üzlüm, bir gəlmisən, bir də gəl.

Şadimanı çək-çevirə salırsan,
Gündə min yol sən canımı alırsan,
Kimin ilə yola gedib qalırsan?
Dönük üzlüm, bir gəlmisən, bir də gəl.

12.07.2015

DÖYƏSƏN TALE QAPIMI

Yenə yollarına baxıb dururam,
Həsrət dolaşdırıb könül sapımı,
Ürəklə aramı min yol vururam,
Bir gəlib döyəsən tale qapımı.

Kipriklər üstündən yük olub yaşlar,
Dolaşır bağrıma dolan təlaşlar,
Ələnir içimə boranlar, qışlar,
Bir gəlib döyəsən tale qapımı.

Gecəni hicrana təslim edirəm,
Hər ürək telini min sim edirəm,
Adını dilimə isim edirəm,
Bir gəlib döyəsən tale qapımı.

24.05.2015

BU UŞAĞIN GÖZLƏRİNDƏ QƏM

Bu uşağın gözlərində qəm qala,
Uşaqlığı itib batıb ağrıda.
Deyirlər ki, qədər salır bu hala,
Qədərdə də mürvət, insaf bol ola.

Bu gözlərin ağrısına baxıram,
Hər baxanda ürəyimi yaxıram,
Üsyan edib insanlıqdan çıxıram,
Doğulanda insan əhli saf ola.

Daim boynu bükük gəzir bu uşaq,
Duyanların könlün üzür bu uşaq,

Sərt həyata necə dözür bu uşaq?
Ata-ana salıb onu pis hala.

Bacarmırdız niyə onu yaratdız?
Yaradıban sonra dünyaya atdız,
Cahandaki aca, yoxsula qatdız,
Haçan gələr başda ağıl haqq yola?

Ac mədəsi həsrət qalıb çörəyə,
Kasıblığı çoxdan salıb ürəyə,
Ehtiyacı var onun da görəyə,
Deyirlər ki, çox şirindir bəs bala?

Yaşıdıtək xoşbəxtliyə həsrətdi,
Doğulandan ona həyat zillətdi,
Çoxlarına uşaq evdə alətdi!
Körpə könlün belə evdə kim ala?

Axı onu siz həyata gətirdiz,
Sevgi bitdi, tez vicdanı itirdiz,
Bu dünyaya bədbəxt uşaq yetirdiz,
Bacarmırdız niyə qoyduz doğula?!

Boşanmağı əldə bayraq edirsiz,
Körpə varkən boşanmağa gedirsiz,
İnsanlıqdan daşınmağa gedirsiz,
Evliliklər dönübdü pis nağıla.

Bu uşağa mərhəmətli olun siz,
Ata-ana kürsüsündə qalın siz,
Uşağnıza yaxşı nəzər salın siz,
İnsaf sözün yazıb qoyun ağıla.

Bu uşağın gözlərinin kədəri,
Döyür gündə min bir dəfə qədəri,
Ay adamlar, bilin ölçü, qədəri,
Bilmirsizsə, onda dünya dağıla.

12.07.2015

KÖNÜLDƏN KEÇİR

Hər kəsin qayəsi könüldən keçir,
İnsan etdiyinin bəhrəsin dadır.
Ocağın sübutu boz küldən keçir,
Odun atəşini tüstü aldadır.
Dili yağ tutanın, ağzı bal dadır.

Onun da məramı bədən içində,
Toxluğun neştəri azarla başlar.
Adam başdan-başa gödən içində.
Hərə bildiyitək bir-birin daşlar.
Dünyasa, hey gəlib-gedən içində!

15.02.2016

DİL DEYƏ BİLMİR

Ürəyə gələni dil deyə bilmir,
Hıçqırır sözlərim ağız içində.
Qəlbin xatirinə söz dəyə bilmir,
Misralar ağlayır kağız içində.

Vicdanı qəfəsə salan adamlar,
Məddaha, yaltağa boyun əyirlər.
Yanır cızhacızla könüldə kamlar,
Vaxt dəyirmanında ömür üyürlər.

Zamanın köhləni çapdıqca çapır,
Zalımlar işləri tərsə çevirir.
Bir qarın çörəyə kim yoldan sapır,
Kimi də fələyin taxtın devirir.

Başı boş nadanlar mənlik bilməyir,
Mənlik də ayaqlar altında inlər.
Bir çoxu matəmdə, şənlik bilməyir,
Çatılıb bəxtlərə min bir düyünlər.

Özünü Allahdan yuxarı sayan,
Allahın damına çıxıb düşməyir.
Zalımdan məzluma olmayıb həyan,
Vicdan Yaradanla heç görüşməyir.

İpini yığan yox harınların heç,
Dəbdəbə içində zirvə tutarlar.
Toxundan partlayan qarınların heç,
Çarəsi bulunmaz röya qatarlar.

Bir tikə çörəyə həsrət olanlar,
Səfil həyatıyla baş-başa qalıb.
Dünyanı fırlanır, gəzir yalanlar,
Dünya bu işlərə tamaşa qalıb.

Boğazı quruyub haqqın şivəndən,
Quruyan boğaza su tapılmayır.
İlahi mat qalıb boylanır gendən,
Ömrünə hönkürən yerində sayır.

Vicdanlar lal olub, dil topuq çalır.
Ürəyi partlayan məzara köçür.
Zalımlar hallanır, məddah əl çalır,
Utanan üzlərdə tər puçur-puçur.

Hamı gəldi-gedər deyir dünyanı,
Dünya öz yerində, ağrı çəkən biz.
İtirib bir çoxu çoxdan həyanı.
Dərdini şumlayıb bostan əkən biz.

Zindanlar dustağa yox deyir daha,
Yoxsula rahat yer həbisxanadır.
Şər nərdivan qoyub çıxır Allaha,
Həyasın itirən yekəxanadır.

Kimi öz ömrünü aclıqla sürür,
Kimi də sərvətlə bilmir neyləsin?
Tərəzi əyilir, Yaradan görür,
Azğınlar haqq yola gəlmir, neyləsin?

Ürəyin çəkdiyin dil deyə bilmir,
Dilin də ağrısı candan keçirmiş.
Çəkdiyi zülümü bəs niyə bilmir?
Bilirsə, qanını özü içirmiş.

Şadiman dərdlərə olub mübtəla,
Məzlumun acısın gəzdirə bilmir.
Göydəmi? Yerdəmi? Bilməm, Haqq-tala,
Bu acı dərdləri çözməyə gəlmir!

07.07.2015

HİKMƏTİN MƏKANI

Əzəldən hikmətin məkanı başdır,
Durmadan zirvədən zirvəyə qalxar.
Onun da köksünə yatan təlaşdır.
Özü etdiyinə tanrıtək baxar.

O uçar mənəvi saflıq içində,
İşığa qərq edər olduğu yeri.
Varlığın duyğusu yanar içində,
Qidadır dünyaya adəmdən bəri.

15.02.2016

CAN QONUB ZAMAN TELİNƏ

Can qonub zaman telinə,
Zaman məndən keçib gedir.
Qədəh alıb sərt əlinə,
İllərimi içib gedir.

İşıq saçır ruhum kimi,
İçdən qopan ahım kimi,
Qova bilmir baxım kimi?!
Hər ömrü biçib gedir.

İnsan özü bir işıqdır,
Yerə-göyə yaraşıqdır,
O həyata çox aşiqdir,
Məzar evin seçib gedir.

Günəş təki ürək yanır,
Özünü çox güclü sanır,
Kimliyini çox az qanır,
Qığılcımtək saçıb gedir.

Zaman anın sürətidir,
Saatların riqqətidir,
Ömür canın diqqətidir,
Canı alıb qaçıb gedir.

Zamana eşq eyləmişəm,
Onu yoldan əyləmişəm,
Heç bilmirəm neyləmişəm?
Qəlb qapımı açıb gedir.

Ey Şadiman, etmə güman,
Vaxt eləmir haqqa iman,
Gözləməyir zalım zaman,
Ruhla birgə uçub gedir. **25.07.2015**

ÖZÜNƏ VURĞUNSAN

Özünə vurğunsan, özünə zalım,
Tərifi tərifə qoşursan yaman.
Halımı pozursan, dərdlərlə qalım,
Məddahlar önündə coşursan yaman.

Özünü Allahdan yuxarı sanma,
Üzün maskalanıb, harda gizlənib?
Qapılar bağlayıb, yolda dayanma,
Hirsim dağı aşır, içim közlənib.

Sən mənim yoluma çəpər çəksən də,
Çəpəri ruhumla sökəcəyəm mən.
Oraya tikanlı qanqal əksən də,
Üstünə daş-qənbər tökəcəyəm mən.

Sən mənim izimə düşüb, izləmə,
İzimin cığırı yandırar səni.
Tikanlı sözlərlə qəlbi bizləmə,
Zaman özü bir gün qandırar səni.

Hiylə toxumunu səpmə ürəyə,
Səpdiyin toxumlar cücərər bir gün.
Arxadan zərbəni vurma kürəyə,
Haqq gəlib, qolunu sərt gərər bir gün.

Durub özgəsinə quyu qazıma,
Qazdığın quyuya özün düşərsən.
Baxıb hırıldama tale yazıma,
Sənin ürəyin var, sən də bəşərsən!

Mən hesab çəkmirəm daha dilimdən,
Adam dost-düşməni tanısın gərək.
Sənə pislik etmək gəlmir əlimdən,
Allah verən ömrü qoysana sürək.

26.07.2015

İTİRMƏK İSTƏMİRƏM

Səni belə itirmək istəmirəm, ürəyim,
Sənə olan eşqimi bitirmək istəmirəm.
Nə çırpınırsan içimdə,
Ağlım həyatı seçimdə,
Qoy ömrü yaşayım bir içimdə.
Hələ tökülüb qalan işlərim var,
Gündəlik vərdişlərim var.
Hələ vərəqlərə düzülməmiş sözlərim,
Hələ yollarda bitib qalan gözlərim.
Arzü arzudan doğur,
Sənin çırpıntıların, qəhər təki kilidlənim,
boğazımı boğur.
Məni həyəcan içində saxlama,
Canımı bu cür yoxlama.
Ürəyim, heç bilirsən həyat necə şirin?
Qara məzar verərmi onun yerin!
Bir az da səbir et,
Acı hislərini qəbir et.
Tələtümə salma məni,
Canımdan artıq sevirəm səni.
Yumruq boyda çəkin,
Bütün bədənə çatır ərkin.
Çox silkələyirsən vücudumu,
Bilirsən necə zinətli ömrün hər udumu?
Özünü ələ al,
Məni qorxudur bu hal.
Sən ruhun bağçasına qonan göyərçin,
Dərdlər qoşun çəkir üstünə çin-çin,
Sənsə yumruğa sığışan bir parça cism,
Dillərdə sevgiyə dönüb bu isim.
Adın misralarımda dolaşır,
İçimdə diləklər qaynayıb daşır,
Möhlət qapısını üzümə bağlama,
O nazik tellərini mərəzlə sızlama,
Səni sevdiyimi bilirsən, ürəyim,
Sən də mənimçin ölürsən, ürəyim.
Bədən balaca meşə,
Sənin yerin orada sevdalı guşə.
Ey bədən hissələrinin bağbanı,
Belə tez qaçırma canı.
Mən sənə istəkli bəndə,
Sənin tıqqıltılarına daməndə.
Bunu heç unutma, ürəyim,
Belə tezkən məni atma, ürəyim.
Min ilin ölülərinə qatma, ürəyim,
Ürəyim… Ürəyim… **13.07.2015**

BATIB QALMIŞ KÖNLÜMÜ

Batıb qalmış könlümü qəmdən çıxarda bilməm,
Bəxtim qanadın açıb uçur harada, bilməm.

Şığıyır gəlir üstə acı məqamlar hər gün,
Hıçqıran əhvalıma kim saldı qada, bilməm?

Qəmim məğmun olubdu başıma gələnlərdən,
Haçan xoş gün görərəm, allah, dünyada,
bilməm?

Zamanın oxu iti, sancılır ürəyimə,
Yarasından qan sızır, kim gələr dada, bilməm?!

Mən də həyatı sevdim çocuq ikən bilmədən,
Bu sevginin xəyalı qalıb röyada, bilməm.

Saxlayan bir kimsə yox, qəmimin qabağını,
Şüurun saxlancları çatlar həyada, bilməm.

Şadimanı etməyin ağrıların möhtacı,
Vurğunmu özü qəmə həddən ziyada, bilməm?

03.08.2015

ÜRƏYİN AYNASI

Deyirlər ürəyin aynası gözdür,
Gözün də bəzəyi içində yaşdır,
Bacarsan həyata canını dözdür,
Kim deyə bilər ki, can evi daşdır?

Ömrün hər döngəsi keçilməz olur,
Doğulan günündən bədən əzabda.
Hər qazılan quyu içilməz olur,
Gələn iztirabda, gedən əzabda.

15.02.2016

YALTAQLIQ SƏNƏTİ

İndi ötüb keçib hər bir sənəti,
Hamıdan başdadır yaltaq olanlar.
Əyilib qalxmaqdır yalnız niyyəti,
Şərəf qarşısında bataq olanlar.

Hərə bir peşəni seçir özünə,
Yaltaqlıq peşəsi yaman yayılır.
Çevrilib ölçünün ucuz bezinə,
Ona sevdalılar eşqdən bayılır.

Unudub varlığın adam sayılan,
Çəpiki, tərifi könül peşəsi.
Onun həyatına yaltaqlıq həyan,
Səcdəyə daməndə ürək guşəsi.

Yalanı dilinə körpü salıbdır,
Mənsəbi üstündə qeyrətdən keçir.
Başdan ayağadək ilginc qalıbdır,
Diləyə yetməkçin bu yolu seçir.

Dünən əyilənə, bu gün tüpürər,
Yaltağın siması, vəfası olmur.
Buyruğun yiyəsi ensə, süpürər,
İyrənc düşüncəsi bundan oyulmur.

Yaltaq pillələri qalxdıqca, enər,
Bu enmək şərəfi təhqirdən keçir.
Kürsülər tutanda aslana dönər,
Hər pillə əzdiyi fəqirdən keçir.

Əski günlərini unudar tamam,
Ayaqlar göylərin üstünə gedər.
Daxildə kirlidir, üzdəsə imam,
Hər işi məzlumun qəsdinə gedər.

Yaltaqlıq sənəti indi bahadır,
O yerə yetənlər yaltaq böyüyür.
Hərə bu peşəni bir cürə dadır,
Ona yetmək üçün min qapı döyür.

Bu iyrənc peşənin sahibi bə‘zən,
Dilin də çaşdırır başqa bir dillə,
Şərdən donun biçib qəlbləri əzən,
Yeyir başdakının sözüylə sillə.

Yaltaqlıq yarışı başlayıb indi,
Kimin atı iti yeridi – uddu.
Bu yarış hər kəsə gələn ağ gündü…
Kitabı bağlanıb, kim ona yaddı.

14.07.2015

SİRR DEYİL HƏYAT

Kimsəyə sirr deyil həyat,
O ağıldan hissə gedir.
Ömürə edir meyil həyat.
Qəlb içinə qüssə gedir.

Atır-tutur oda canı,
Alışdırır qada canı,
Hər zamançın həyəcanı,
Mükafatı pisə gedir.

Deyən varmı? Həyat kamdı,
Çox düşünən baş nakamdı,
Bu ömrümüz yanan şamdı,
Gün alışır, hisə gedir.

Çoxu canın ələşdirir,
Cibi ilə dilləşdirir,
İçində ah yerləşdirir,
Şadlıq kisə-kisə gedir.

Hamımızın bircə canı,
Can içində həyacanı,
Torpaq udur tez acanı…
Bir gün küsə-küsə gedir.

Bazar bədən satır məgər?
Vermək lazım cana dəyər,
Şadimandan sorsaz əgər,
Ömrün çoxu hissə gedir.

17.10.2015

KEÇDİK SƏNİNLƏ

Həyət yoldaşıma

Səadət heç kəsə minnətçi deyil,
Onun qədəhini içdik səninlə.
Ömrün anlarına zinətçi deyil,
Çox uzun illəri keçdik səninlə.

Ağrı qapımızın ağzın kəsəndə,
Bədən üz döndərib candan küsəndə,
Başımız üstündə hicran əsəndə,
Dərdi üstələyib, biçdik səninlə.

Bu həyat elə də asan deyilmiş,
Hər addım qulağa usan deyirmiş…
Dünya gözə şirin, sanki seyirmiş,
Biz onun düz yönün seçdik səninlə.

Birgə hər acıya, qəmə qatlaşdıq,
Sıldırım adlayıb, keçilməz aşdıq,
Bə‘zən canbir olub, bə‘zən dalaşdıq,
Hiddətə düşəndə suçduq səninlə.

Möhnətin üzünü görəndə, susduq,
Əzabı ikəli yapışıb asdıq,
Ağlın öyüdünə çox qulaq asdıq,
Qoşulub zamana uçduq səninlə.

Heç zaman danmadıq əhdü-peymanı,
Arzuya yol açdıq, verdik səhmanı,
Boşa ötürmədik ömürdən anı,
Diləkdən-diləyə qaçdıq səninlə.

Mən necə unudub etdiklərini?
Misrama can deyib ötdüklərini,
Təbimin evinə getdiklərini,
Bağlı qapıları açdıq səninlə.

Mənlə kitablara ömrü şam etdin,
Könlümdə hər addım bir ilham etdin,
Mənimlə sevinib birgə kam etdin,
Sanki ayrılıqda heçdik səninlə.

Kitablar çıxdıqca ruhum şad oldu,
Yıxılıb büdrəmək ömrə yad oldu,
Sayəndə həyatım, yar, abad oldu,
Günəştək şəfəqlər saçdıq sənlə.

Əsən küləklərlə əridi ahım,
Sənin təmasınla güldü sabahım,
Şadiman can deyir, ey xeyirxahım,
Ömür bağçasında açdıq sənlə.

Birgə bu həyatı seçdik sənlə,
Çox uzun illəri keçdik sənlə.

12.08.2015

HƏYAT BEŞİYİ

Elə yırğalanır həyat beşiyi,
İmkanı məhduddur çəkə keşiyi.
İçində ömürlər qaçır sağ-sola,
Bədən dözə bilmir bu müdhiş hala.
Ürəklər ağrıyır qayğı içində,
Çapalar beyinlər duyğu içində.
Hərə itiyini gəzir dünyada,
Bəzən arzuların tapır röyada.
Röyanın da ömrü səhərə qədər,
Ömür də mənalı bəhərə qədər.
Ömür bəhərini yeyənlər xoşbəxt,
Hər kəsi yetirmir bu məqama bəxt.
Onun da əsiri olanlar nalan,
Bəxtin də sarayın can edir talan.
Bizi yırğaladan həyat tapmaca,
Kim bu kilidlərin sirrini açа?
Açılan qıfıllar xeyrə səsləyir,
Hər kəs öz içində ümid bəsləyir.
Bütün ümidlərin çırağı yansın,
Ömür keçicidir, yatan oyansın!
Elə yırğalanır həyat beşiyi,
İmkanı məhduddur çəkə keşiyi.

17.10.2015

HƏYATIN NƏBZİ

Həyatın nəbzini tutasan gərək,
İçindən kədəri atasan gərək.

İşığa möhtacdı içdə diləklər,
Hər ruhun göyündə uçan mələklər,

Yorulmaq bilmədən çarpışır canla,
Titrədir ürəyi çox həyəcanla.

Yaşamaq eşqiylə çarpışır ağıl,
Ömür həm kədərli, həm şirin nağıl.

İnsan yaşamağa alüdə olur,
Payızı yetəndə saralıb solur.

Hicran çiçəkləri əkir könlünə,
Keçilməz körpülər tikir könlünə.

Ağrını, acını cövürlə yenir,
Qəlbində həyatın eşqi döyünür.

Həyatın nəbzi vuran ürəkdi,
Nə qədər ki, sağsan cana gərəkdi.

Sağından, solundan köçür insanlar,
Əcəlin qədəhin içir insanlar.

Ömürdən heç şirin-acı getməyir,
Asana hər kəsin əli yetməyir.

Odur ki, çarpışıb vuruşmaq lazım,
Heç kəs deməsin ki, qəm alın yazım.

Tənbəlin qarını səslə bağırar,
Aclığı mədədə tufan doğurar.

Gənclikdə ağlını işə salanın,
Səadət bürüyər sonra hər yanın.

Atanın, ananın tumarı bitər,
Uşaqlıq sürətlə tez gəlib ötər.

Onun şirinliyin xəyalda yaşat,
Sevmir tənbəlləri heç zaman həyat.

Tənbələ, acizə ömür fırtına,
Heç kəsi götürmür dünya sırtına.

Onun qaydaların pozana yazıq,
Həyatın səmtini azana yazıq.

İşıqla zülmətin arası qısa,
Özünü azdırsan batarsan yasa.

Unutma sağ ikən bu həqiqəti,
Addımın düz olsun, niyyətin qəti.

Qaliblər dünyadan keçdi şah kimi,
Məğlublar boğuldu bir günah kimi.

Bunu anlayanın işi rəvandı,
Hər bir doğulana bir ömür andı…

Bu andı unudan batır dünyada,
Özü də yük kimi yatır dünyada.

Şadiman, boşuna sanma həyatı,
Unutma dünyayla bu iltifatı.

25.08.2015

BOYLANAN ADAM

Ruhumun içindən boylanan adam,
Ruhum sənin üçün ov yeri deyil.
Xəyalım başına haylanan adam,
Əlindən ruhum da olubdu veyil.

Gecəni gündüzə qatıb gəlirsən,
Gündüz də gecətək qaranlıq olur.
Bütün gerçəkliyi atıb gəlirsən,
Gəlişin xəyaltək bir anlıq olur.

18.09. 2016

ÖMRƏ XOŞ GƏLMİSƏN

Durmusan qapımın ağzında kövrək,
Titrəyir önündə bu yorğun ürək,
Ömrün illərini adladın yüyrək,
Nədən nigaransan, bir söylə yaşım?
Ömrə xoş gəlmisən, ay altımışım.

Sənin yollarına çiçəkmi düzüm?
Sənimi oxşasın gecəm-gündüzüm?
Qəhərə bürünüb hönkürür dözüm,
Artır duyğulara çökən təlaşım,
Ömrə xoş gəlmisən, ay altımışım.

Pəncərəm önündə payızım durub,
Məsum uşaqlartək boynunu burub,
Məni də yolların enişi yorub,
Usanıb ağıla yurd olan başım,
Ömrə xoş gəlmisən, ay altımışım.

Gəl səni körpətək bələyə salım,
Qoparım zamandan ürəyə salım.
Sən qaçan ömrümə qonan vüsalım,
Müddət ver çeşmətək qaynayım daşım,
Ömrə xoş gəlmisən, ay altımışım.

Vaxtın anlarına sığa bilmirəm,
Könlümü aləmdən yığa bilmirəm,
Bu dəli hisləri boğa bilmirəm,
Təzə yola çıxan ey ömrə naşım,
Ömrə xoş gəlmisən, ay altımışım.

Baharım günlərdən gen düşür daha,
Gələn sabahıma çən düşür daha,
Ömrümün saçına dən düşür daha,
Qarşıdan boylanır boz məzar daşım…
Ömrə xoş gəlmisən, ay altımışım.

Mənim də içimdə tələtüm yatır,
Könlü gah tufana, gah oda atır,
Təbimin atəşi bağra od çatır,
İtirmə özünü yollarda naşım,
Ömrə xoş gəlmisən, ay altımışım.

Gəl ol Şadimana ana qucağı,
Ürəyim ruhumun səma ucağı,
Qarşıdan boylanır bax qürub çağı,
Kədərlə sevinci öpür göz yaşım,

Ömrə xoş gəlmisən, ay altımışım.
Ömrə xoş gəlmisən, ay altmışım.

02.09.2015

ŞİKAYƏT EDİR

Çox vaxt yolu açıq hər bəd niyyətin,
Hamı ürəyindən şikayət edir.
Bir kimsə görməyir öz səadətin,
Ürəyin dediyin hekayət edir.

Ürək də atılmış bir can kimidir,
Bədəndən küsəndə hicran kimidir,
Hər doğulan insan bir an kimidir,
Gəldiyi dünyanı səyahət edir.

Adam da planet təki parlayır,
Özünü cahana bir sakin sayır,
Canından bezəndə hər şeydən doyur,
O da ətrafına sirayət edir.

İnsan özlüyündə, sanki möcüzə,
Bə'zən varlığımız adidir bizə,
Hər için çamuru kölgədir gözə,
Hər canın yiyəsi qəbahət edir.

Biz də Allah deyib yapışdıq göydən,
Düşdü əl-qolumuz min illər heydən,
Səma da bezibdi başları keydən!
Bir-birin öldürən cinayət edir.

Hamının can evi haqqına açıq,
Birində xeyirdi, birində acıq,
Biz dünya mülkündən doymuruq, acıq,
Hər kəs nəfsinə xəyanət edir.

Kim ki, öz şərini canından qovur,
Hesab et pisliyi içindən sovur,
Həyatın dincliyin tapar bir hovur,
Hisləri önündə dəyanət edir.

Şadiman, hər kəsin bəlası özü,
Tükənir ağrıdan ürəyin közü,
Görünəntək deyil həyatın üzü,
Hər can yiyəsini o alət edir.

28.10.2015

QƏLBƏ MƏKTUB YOLLADIM

Qəlbə məktub yolladım,
Göz yaşımla qolladım.
Dedim: Ürək, halıma,
Məhv olan əhvalıma,
Daşı atıb başı tutma,
İstəyimi unutma.
Sən məni oda atdın,
Hislərimi oyatdın,
Yaramı çox qanatdın,
Axır arzuna çatdın.
Məni Məcnun eylədin,
Eşqə cunun eylədin.
İçimdə yanan ürək,
Vermədin ürək-dirək.
Baxmadın tələşıma,
Bu ağrıyan başıma.
Alışdın eşq oduna,
Heç düşmədim yadına.
Hey qəmi əzizlədin,
Xəyalımı izlədin.
Günüm ah-vayla keçdi,
Canım qəmdən qan içdi.
Heç məni düşünmədin,
Harayıma dinmədin.
Həsrət telefon teli,
Uçurtdun əsən yeli.
Qaçdım izimi tapdın,
İttək dizimi qapdın.
Utanmadın halımdan,
Məhv olan vüsalımdan.
Hər gün qapımı döydün,
Lovğa-lovğa can öydün.
Duyğumu pərvazladın,
Çox özünü nazladın.
Ağrıları çoxaltdın,
Bədəni oda atdın.
Artırdıqca eşqini,
Azaltmadın məşqini.

Günlərlə yordun məni,
Dərdlərə sardın məni.
İlhamımı hovladın,
Canı təndən qovladın.
Gecələrim yuxusuz,
Sən ədalı, qorxusuz.
Heç canımı tutmadın,
Heç onu ovutmadın.
Açdın başıma kələk,
İçimdə yanan ürək.

29.10.2015

ÜRƏYİMİN İÇİNDƏ DAŞ

Ürəyimin içində daş,
Gözümdə yaş.
Bu daş həyat nağılı,
Aparır ağılı.
Nağılın da öz sehri var,
Ürəyi ovsunlayan mehri var.
Mehirdən sehirə qədər yol qısa,
İnsanı salır yasa.
Yasa gedən ömrü çoxdu daşlayan,
Həyatdı bizə öz dərslərini aşlayan.
Həyat dərslərindən öyüd götürməyən,
Övladına ötürməyən,
Büdrəyəndə ayağa qalxmaz,
Heç zaman düz yola çıxmaz.

21.10.2015

ÖMRÜMÜZ QAÇIR

İndi bədən canla qarşı-qarşıyıq,
Gözümüzdən axan kədər yaşıyıq.
Dağlar dumanıtək bir az sisliyik,
Qönçə ləçəyitək, sanki süslüyük,
Açan çiçəklərtək boynu bükülü,
Yanır ürəyimiz, sovrulur külü.
Hicran ruzgarı durmadan əsir,
Ömrümüz harasa qaçır, tələsir.

31.10.2015

CAN YATIRAN

Gecə can yatıran, gündüz çarpışma,
Hərə öz işığın yandırsın gərək.
Gedir hər insanda günlə qapışma,
Adam hər əzabı sındırsın gərək.

Qapısı bağlanmaz doğru olanın,
Hansı çətinlikdən keçirsə keçsin.
Hamı qulu olub çürük yalanın,
Heç bilməyir haqqı, nahaqqı seçsin.

Şadiman, bir çoxun canı şüşədə,
Onun sınmasına sanyələr qalıb.
İnsan çal-çağırda, ruh əndişədə,
Nələri məhv etdik, bəs nələr qalıb?!

15.02.2016

EHTİYACIM VAR

Mənim can sözünə ehtiyacım var,
Ona iç evimdə istək sayıram.
Mənim ürək adlı bir möhtacım var,
Onu duyğulara mələk sayıram.

Bütün ağrı-acı qəlbdə közlənir,
Könül dərdə girir, dərddə gizlənir,
Ağrılar köhnəlir, vaxtla üzlənir,
Sinəmdə onları ürək sayıram.

Mənə can deyənə könül açıram,
Quş təki çırpınıb qanad açıram,
Yerdə pərvazlanıb, göydə uçuram,
Bu eşqi ruhuma dilək sayıram.

Ey allah bəndəsi, can söylə mənə,
Nə gərək aldanış, min hiylə mənə,
Gözəl sayğıları bəxş eylə mənə,
Səni varlığıma dirək sayıram.

Mənim ehtiyacım canda gizlənir,
Ürəkdə, könüldə eşq əzizlənir,
İçimdə sevdalı duyğu gözlənir,
Onu həyatıma kələk sayıram.

Dildən can çıxanda fərəh gətirir,
Ayrılıq ağlayır, qəm köks ötürür,

Bütün ağrıları qəlbdən itirir,
İtən ağrıları ələk sayıram.

Şadiman hicranlar içində yanır,
Yataqdan ahlarla sübhə oyanır,
Qarşımda əcayib ömür dayanır,
Bədəni bu yolda həlak sayıram.

04.07. 2015

ÖMRÜMÜ ƏLİMDƏN APARAN SAAT

Ötür zamanlarım axar su kimi,
Məni həyatımdan qoparan saat.
Edirsən canımı bir asi kimi,
Ömrümü əlimdən aparan saat.

Bilirəm, anlarım gəldi-gedərdi,
Gəncliyim hər şeyi eşqlə edərdi,
Artıq tükəndirir məni can dərdi,
Yoxdur yorulmaqla heç aran, saat.

Mən ki, taleyimə bağlanıb qaldım,
Dünən diləklərlə oynar vüsaldım,
Usanıb yollarda yıxılıb-qaldım,
Zəngi bəxt qapıma tərs vuran saat.

Aramsız cingiltin qulaq ovxalar,
Zaman da diksinib başını bular,
Saniyələr içində, sanki qurd ular,
Ömrün günlərinə toy quran saat.

İçimdə səksənib aylır dilək,
Elə sənin təki döyünür ürək,
Ruhum əsib keçən dəli bir külək,
Olubmu can sirrin heç soran, saat?

Şadiman bulmadı heç vaxt vəfanı,
İçimdən boylanan dərdimi tanı,
Üyüdüb tökürsən sanyəni, anı,
Səni tapılmadı heç yoran, saat.

28.10.2015

YAMAN ÇƏKDİN DAĞI BİZƏ

Yaman çəkdin dağı bizə,
Saldın eli oda, manat.
Oldun sinə dağı bizə,
Heç yetmədin dada, manat.

Arvad-uşaq evlərdə ac,
Oğru-əyri başında tac,
Nədən verdin dollara bac?
Yaraşırmı ada, manat?

Səni göyə sovurdular,
Can yandırıb qovurdular,
Dollarla üz yuvurdular,
Satdın eli yada, manat.

Üstündə yasinin oxunur,
Ahın qəlbə çox toxunur,
Sənə hiylə, şər toxunur,
Dəyir bizə qada, manat.

Gəl ağlaşan millətə bax,
Bu çəkdiyi zillətə bax,
Düşdüyümüz halətə bax,
Dilimizdə nida, manat.

Kreditdə batanlardan,
Ahı ərşə çatanlardan,
Səni neftlə tutanlardan,
Gəlmir indi səda, manat.

Sovurdular səni göyə,
Millimizsən deyə-deyə,
Özün millət necə öyə
Batdın qaldın suda, manat.

Biz ki, sənə can demişdik,
Halımıza yan demişdik,
Dərdimizi qan demişdik,
Deməkdik dərd uda manat.

Sənə yoxdur heç bir sözüm,
Döz deyirsən, necə dözüm?
Qalmayıbdı daha dözüm,
Ömür getdi bada, manat.

22.12.2015

***

Məndən yazdıqlarıma cavab istəmə, dostum,
Dərdin dar ağacından min dəfə canı asdım.
İnsanlara acılar bəxş edənlər kar-kormu?
Mənim günahımmıdı haqq yola qədəm basdım…?

04.02.2016

DAM DEYİLƏM

Baş gizlədən dam deyiləm,
Damımı uçurtmayın siz.
Mən yerə adam deyiləm,
Yetənə tay tutmayın siz.

Hər insanın öz ömürü,
Haqdan gələn can əmiri,
Bulamayın qəlbə kiri,
Heç vaxt ara qatmayın siz.

Demin dünya gəldi-gedər,
Nə istəsə, kimsə edər,
Hər addımda ölçü qədər,
Şər könlünə yatmayın siz.

Nazik könül yiyəsiyəm,
Haqq sözümü deyəsiyəm,
Təmizliyi öyəsiyəm,
Qəlbə kədər çatmayın siz.

Hər kəs haqdır mən evində,
Sevinc, kədər tən evində,
Bir canım var tən evində,
Bədəndən qaçırtmayın siz.

Şadimanı verin yelə,
Döndərin bir sınıq telə,
Ürəyimi bilə-bilə,
Qırmağa can atmayın siz.

18.06.2016

SƏNƏ DOĞRU

Bir uzun yola çıxıb,
Sənə doğru gəlirəm.
Ürəyimi qəm sıxıb,
Ağrısından ölürəm.

Bilirəm ki, hardasa,
Elə yaxınımdasan.
Ömür kədərdən qısa,
Həyat olmur çox asan.

Sənin adın ölümdü,
İzləyirsən kölgəmi.
Tutma, burax əlimi,
Çalxalanır vaxt gəmi.

Başımı gicəllədən,
Dünya bir yellənçəkdi.
Taleyimi yellədən,
İpin ucun bərk çəkdi.

Yellənçək ipi nazik,
Az qalıb qırılmağa.
Gün gəlir əzik-üzük,
Ömrümə sarılmağa.

Gah qapımdan girirsən,
Gah da ki, pəncərəmdən.
Öz vaxtını görürsən,
Yapışmısan ələmdən.

Çılçırağım yellənir,
Sən işıqdan qaçırsan.
Gözümdən yaş sellənir,
Başım üstə uçursan.

Sən özün də görürsən,
Can alandı ömürün.
Karvanını sürürsən.
Bir gün gələr əmirin.

Sən ölümsən, mən qadın,
Aramızda yel əsir.
Bəllidir mənə adın,
Ruhum cana tələsir.

13.06.2016

YAĞAN YAĞIŞ

Narın-narın yağan yağış,
Kirpiyimə qonma belə.
Buludlardan doğan yağış,
Göz yaşımtək dönmə selə.

Mən bir ümid itirmişəm,
Onu dərddə bitirmişəm.
Hicran əkib, qəm yemişəm,
Ruhum uçub dönüb yelə.

Rast gələndə ruhum sənə,
Xəbər eylə nolar mənə.
Düşüb batar çiskin çənə,
Mən də yanıb dönəm külə.

23.06.2016

EY GÖZ YAŞIM

Ey göz yaşım,
ürəyimdə sızlayırsan,
səni içimə çəkirəm.
Kədərimi nazlayırsan,
Mən də nazını çəkirəm.
Kirpiyimdə yuxlayırsan,
Ayılırsan sabah kimi,
Boylanırsan gözlərimdən
qorxu bilməz gunah kimi.
Ürəyimin atəşindən
bulaq təki qaynayırsan.
Gülüşümə qonub şehtək,
Ruhumu dəli sayırsan.

Ey göz yaşım,
Həm kədərim, həm sevincim,
Qüssə könlə üst gələndə,
Qapımı döyən birincim
Yəqin ki, bir gün ölləndə,
Bəbəklərdə donan incim.
Çıxacaqdır onda dincim…

23.07.2016

ÜRƏYİMDƏN DAŞ ASILIB

Ürəyimdən daş asılıb,
Dərdi bişirib yeyirəm.
Canım ağrıma qısılıb
Könül yolumu əyirəm.

Sevdalı günlər azalıb,
Həyat işığım sozalıb,
Ürəyim təzə söz alıb,
Ruhuma ağı deyirəm.

İçərim közə bürünüb,
Hər közü sözə bürünüb,
Sevincim üzə bürünüb,
Xətrinə qəmlə dəyirəm.

Günlərim qaçır ömrümdən,
Hər işim keçir səbrimdən,
Ruhum boylanır qəbrimdən,
Hələ istəyin üyürəm.

Yaşadığlarım qazancım,
Yaradanımdır inancım,
İtirdiklərim utancım,
Yetdiklərimi öyürəm.

Var doğulmağın sınağı,
Qüssə isladır yanağı,
Yamandır canın qınağı,
Ağrımı ahla döyürəm.

Vaxt udur can vüsalını,
Aparır ömür malını.
Bu Şadimanın halını,
Yuntək cəhrədə əyirəm…

24.06.2016

FİKİRİNDƏN DAŞINDIRMA

Haqqı fikirindən daşındırma sən,
Fikirlər insana ölçü təkidir.
Duyğunu ruhunda aşındırma sən,
Hər addım, hər yeriş ağla çəkidir.

Elə bu çəkiylə yollaş həyatla,
İnsan pillə-pillə qalxır arzuya.
Şadlığa tumar çək, kədəri qatla,
Əyilmə, alçalma bəxtə, yazıya.

Əyildin yıxacaq səni kədərin,
Hər bir çətinliyi ağlında ara.
Heç bir dəva-dərman etməyir çara,
İnsanın özünə vurduğu yara.

25.06.2016

CANIM DEMİŞƏM

Mən səni özümdən çox istəyirəm,
Gündə milyon dəfə canım deyirəm.
Bütün uğurları sənə bağlaram,
Sənsiz qərib ollam, sənlə çağlaram.
Buraxma içinə heç acılığı!
Çəkər ürəyinə gündə min dağı.
Hara fırlanıram sənsən yanımda,
Sənin istəklərin gülür canımda.
Sözüm-söhbətim də bağlı ruhuna,
Özün yox, idrakın gəlir yaxına.

***

İnsanı ağıldır yaxıb-yandıran,
Fırtına çalxadıb, dərd oyandıran?!
Zəhmətdir ürəyin sultan üstündə,
Odur çətinliyin duran qəsdində.
Ürək acılara olsa mübtəla,
Bədən dözə bilmir düşdüyü hala.
Həyat xatirinə qoruyaq təni,
Odur can evinin əziz vətəni!

21.07.2016

AÇILAN DİLDİ

Vicdan sahibinə yalvaran dildi,
O, hər bir insana qəlb açan deyil.
Oğrunu, əyrini yolundan sildi,
Düzlükdən, saflıqdan heç qaçan deyil.
Hər kəsin içini üzündən bildi.

18.12.2016

DƏRD YÜKÜM

Elə ağırdır ki, mənim dərd yüküm,
Sərvəti talanan Vətənəm özüm.
Bu qədər dəhşəti mən necə çəkim?
Əzablar içində itənəm özüm.

Zülmətin bağrında işıq gəzirəm,
Ulduz parıltısı yetmir gözümə.
Ruhuma qoşulub göydə süzürəm,
Necə heyran olmum canda dözümə?!

Çıxıram gecənin qaranlığından,
Düşürəm sabahın parıltısına.
Bezirəm xəyalın viranlığından,
Dönürəm ümidin pıçıltısına.

Ağrım qol götürüb oynayır mənə,
Qoşulub onunla rəqs eləyirəm.
Qapımı açıram şadlığım dönə,
Onun gəlməyin çox diləyirəm.

Şübhəylə baxırlar əqrəblər düzü,
Sanki sağlığıma əmin deyillər,
Hönkürdür ürəyim gecə-gündüzü,
Kədərlər Allahsız mömin deyillər.

Bir şirin yuxutək ötəri ömür,
Nə vaxt düşürəcək canı taxtından?
Bütün həsrətlərin betəri ömür,
Sən də gileylisən məntək baxtından.

Nə edim, ümid də diləyə bağlı,
Ağladıb güldürür adamı hər an.
Şadiman, aparma uzağa ağlı,
Tanrı töfhəsidir bədənindən can.

31. 07 2016

HƏYAT EŞQİ

Çəkirik ağrı-acı,
Vaxt varlığa baş tacı,
Hərəkətdir əlacı,
Ömür zamanın məşqi,
Heç bitməz həyat eşqi.

Hamını ovsunlayır,
Hər gün bizi danlayır,

Özünü qalib sayır,
Ömür zamanın məşqi,
Heç bitməz həyat eşqi.

Dünya seyir, tamaşa,
Bürünsən də qumaşa,
Sığınsan can sirdaşa,
Ömür zamanın məşqi,
Heç bitməz həyat eşqi.

İnsanı canlandıran,
Haqla qidalandıran,
Həqiqətlə qandıran,
Ömür zamanın məşqi,
Heç bitməz həyat eşqi.

Bu bir dünya sevdası,
Var adama qadası,
Gəlir candan sədası,
Ömür zamanın məşqi,
Heç bitməz həyat eşqi.

03.08.2016

GECƏYƏ DEYİLƏCƏK AĞIM

Mən qürbətlərdən gələn
səsə bənzərəm.
Sükutun içinə haray bəzərəm.
Kimsəsiz bir kahatək boşam,
Asimandan asılan ən ağır daşam.
Yerdən göyədək tarazlanıb ruhum,
Asılıb göylərdən ahım.
Kainatın içində uçur ağ varağım,
Yazılır göz yaşımla
gecəyə deyiləcək ağım.
Mən də gecənin gününə
düşmüş bəndəyəm,
Elə gecəylə bir gündəyəm.
İnanmırsız? Baxın halıma,
Dünyanın əzabı bulaşıb əhvalıma.
Sözüm canıma yağım,
Elə mən özüməm
gecəyə deyiləcək ağım…

13.08.2016

UŞAQLIĞIN NAĞILI

Uşaqlığım yuxutək
Ötüb keçir gözümdə.
Şirin-acı qoxutək
Çizgilənir üzümdə.

İstəkli xatirələr
Yenə düşdü yadıma.
Könlümə eşqlə gələr
Yetişər imdadıma.

Anamın pıçıltısı
Qulağımı doldurdu.
Ruhu xəyal misallı
Yenə qarşımda durdu.

Yetişdi sorağıma
Sehirli körpəliyim.
Qoy basım qucağıma,
Özüm tutum bələyim.

Söyləyim olanları
Oxuyub avazlanın.
Unudulmaz anları
Mənimlə birgə anın.

***

Evimizdə daima
Biri vardı, biri yox.
Anam deyərdi amma,
Fikir eləməyin çox.

Qonşu qızın paltarı
sizinkindən köhnədi.
Deyinməyin siz barı,
Deyingənlik heç nədi.

Baxın toyuq-cücəyə,
Dən üçün qışqırırlar,
Yeməyə başlayanda
bir-birini qırırlar.

Bütün günü cücətək
cik-cik eləməyin siz.
Anasız bir sərçətək
Yemək diləməyin siz.

Bizim fikir-zikrimiz
Ancaq sizi böyütmək.
Dildə olsa şükürmüz,
Asan arzuya yetmək.

Soğansuyu bişəndə
tez dodağı büzərdik.
Xörək bişənə qədər,
Çöl-bayırda gəzərdik.

Süfrəmiz salınanda
Biri vardı, biri yox.
Nə isə alınanda
Kiməsə düşərdi çox.

Gözümüz toqquşardı,
Özümüzü qınardıq.
Artıq düşən pay üçün
Gizli-gizli yanardıq.

Arada fürsət tapıb,
Dalaşardıq doyunca.
Bir-birin odtək qapıb,
qaçardıq kənd boyunca.

Ayaqqabını yayda
çıxardıb tullayardıq.
Kol içində hay-hayda
Qurd təki ulayardıq.

Ayağımız çox zaman
Tikanlarla dolardı.
Anam qışqırıb yaman,
Aləmə hay salardı.

Deyərdi, atanıza
Hər şeyi deyəcəyəm.
Od düşsün canınıza
sakit olmazsız bəyəm?!

Biz kiriyib günahkar
Baxardıq anamıza.
Deyərdi, eyləyin ar,
Hay-küy yaraşmaz qıza.

Əgər olsanız belə,
Kim alacaqdır sizi?!

Hərdən tutardı dilə,
Oxşayırdı çox bizi.

Deyərdi, kitabları
Qoymayın əlinizdən.
Odur insanın varı,
Dürr axsın dilinizdən.

Arzular içimizdə
Gündən-günə daşardı.
Duyğu qaynardı gözdə,
Günümüzlə yaşardı.

Əski məktəb çantasın
Anam özü tikərdi.
Söyüb pul qarasına
köhnə paltar sökərdi…

Uzun hörüyümüzü
Oxşayaraq darardı.
Qucardı eşqlə bizi,
Ruhumuza vararadı.

Sonra qardaşımıza
Qışqırardı, qovardı.
Çirklənmiş paltarını
İsladaraq yuyardı.

O sehirkar uşaqlıq
Ötüşdü bir yel kimi.
Olub bizlə xoşqılıq,
Axıb getdi sel kimi.

İndi dönüb baxıram,
Ötənlər bir nağıldı.
Tutub köksə sıxıram,
Dadı nabat, noğuldu.

Elə bil dünən olub
Ata-analı günlər.
Hicrantək cana dolub,
Düşüb ürəyə inlər.

Bu sirrin açmasını,
Oturub düşünürəm.
İlahi təmasını
Duyub, eşqə enirəm.

Deyirəm ki, uşaqlar,
Ata, ana nemətdi.
Unudulmaz o çağlar
İçdə qalan heyrətdi.

Valideyin zəhmətin
Heç zaman danmayın siz.
Onların əziyyətin
Necə unudarıq biz?!

Həyat keçir düyündən,
Bilən az, bilməyən çox.
İnsan doğulan gündən
Biri varmış, biri yox.

03.08.2016

ÖMÜR YAXŞI

Düşmən olma bu aləmə,
Ürəyinə ah bələmə,
Boş yerə olmur dələmə,
Zaman özü vurur naxşı.
Ağıllıya ömür yaxşı.

Dil içində sözü qaynat,
Ruh evindən kinini at,
Dayanmayır, gedir həyat,
Zaman özü vurur naxşı.
Ağıllıya ömür yaxşı.

Biz də gəldik gedəsiyik,
Təfil-təslim edəsiyik,
Ruhumuzu güdəsiyik,
Zaman özü vurur naxşı.
Ağıllıya ömür yaxşı.

Şadiman da can dustağı,
Hər gün qopur günün tağı,
Dünya görür, ancaq sağı,
Zaman özü vurur naxşı.
Ağıllıya ömür yaxşı.

12.08.2016

TİKANLI SÖZLƏR

Ürəyi parçalarsız,
Ora ağrı calarsız,
Bir mərəkə salarsız,
Qəmə imkanlı sözlər,
Ah, bu tikanlı sözlər.

Qəlblərə keçənsiniz,
Zəhəri içənsiniz,
Dumansınız, çənsiniz,
Qəmə imkanlı sözlər,
Ah, bu tikanlı sözlər.

Kindən doğulmusunuz,
Ruha yığılmısınız,
Cana dağılmısınız,
Qəmə imkanlı sözlər,
Ah, bu tikanlı sözlər.

Ürəkdə qaynarsınız,
Dodaqda oynarsınız,
Qəzəblə yanarsınız,
Qəmə imkanlı sözlər,
Ah, bu tikanlı sözlər.

04.08.2016

RUH ƏZABI

Ruh əzabı min illərdi qəlb gərir,
Bu ağrını çəkdirənlər çəkdirir.
Can ruh olur, bədən yerə tez girir,
Göz yaşların yanaqlara tökdürür.

Səmalar da ahımıza çatlayır,
Qulağımız fəryadlardan partlayır,
Könül qəmi dizimizi qatlayır,
Can bədənlə çarpışmada tək durur.

Ey Şadiman, çəkdin dünya acısın,
Ürəyindən keçirtdin can sancısın,
Çox dadmısan şərab təki acısın,
Şükür, Tanrı, yaxşı hələ qəlb vurur.

13.09.2016

VARLIĞININ SÜBUTU

Həyat yoldaşıma

Doğum günün varlığının sübutu,
Tüğyan edir xatirələr içində.
Ürəyinin sevda dolu sükutu,
Suallara ünvanlanan neçində?!

Gəl, əzizim, hər ağrını unudaq,
Bu sevginin qaşığıyla bal udaq,
Sevdamızı aləmlərə tanıdaq,
Tutmaq olmur ömür köçə-köçündə.

Sən ürəyin həyat dolu kamısan,
Elə bilmə mənim üçün hamısan,
Valığımın haqdan gələn tamısan,
Hər doğum gün yaşımızı biçində!

Bu gün sənə doğma olan biriyəm,
Şükür Rəbbə, hələ sağam, diriyəm,
Necə qəmi ürəyindən kürüyəm?
Xoş dəmi var il deyilən köçündə!

Gözlərində həyat eşqi parlasın,
Günümüzdə sevincimiz gurlasın,
Səninki bil, ürəyimin parasın,
Bu əmanət nə zamandı içində.

Dördü avqust sən doğuldun dünyaya,
Mən tuş oldum, bu gəlişdən xülyaya,
Günlərimiz karvan tutub röyaya,
Bilirik ki, var olan da heçində.

Əllərimin təmasında odun var,
Hər günümün gəlişində dadın var,
Mən qadınam, üstümdə pak adın var,
Duan gəzir, həm imanda, həm dində!

Şadimanı can oduna isitdin,
Əhvalını hər gələn gün xoş etdin,
Sevdamızı qanad açan quş etdin,
Çırpınırıq, yaradan ruh seçimdə. **04.08.2016**

İŞIQ DOLU

İşıq dolu günlərimin sorağında,
Axşam gedir, səhərimlə dolaşıram,
Gah can dərdi, gah ürəklə,
Taleyimdən ötüb keçən
günlərimlə yollaşıram.
Ümid çıraq təki yanır,
Yatıb qalmış arzularım
tez canlanır…
Sevda dolu günlərimə qucaq açır,
Qoşulub gecəyə qaçır.
Yenə səhər diləyilə yuxum gəlir.
Gecələri yuxulardan doğan həyat,
Bozbulanıq sular kimi çalxalanır.
Qanım donur, damarlarda laxtalanır,
Ayılmağa cəhd edirəm.
Öz ruhumla əhd edirəm.
Lap səhərdən ömrümə baş əyəcəm,
Tənbəliyimi döyəcəm.
Arzuları ürəyimə şah edəcəm,
Baxtlarını ağ edəcəm.
Dünya üzü işıq dolu,
Bizdən aslı həyat yolu.
Halallıqla qazandığım,
Oduna candan yandığım,
Cana nuşdu.
Haramlığın sonu boşdu.

***

Aqil insan işıq dolu,
Yolu zəhmət,
sonu rəhmət.

07.08.2016

NAĞLINA DÜŞDÜM

Mən nağlına düşdüm ömür,
Nağılın da bitməkdədi.
Allahımdan gəlsə əmir,
Can bədəndən getməkdədi.

Sənlə keçən zamanımda
Sevgi-nifrət qoşalaşdı.
Hansı oldu çox canımda
O da içdə aşıb-daşdı.

Arzuları çin-çin etdim,
Yatıb durdum istəyimlə.
Qapındaca elçin etdim,
Çox oynadın ürəyimlə.

Nağılların çox qorxulu,
Hesabını sormadım heç.
Yorğun gözlər lap yuxulu,
Mətləbinə varmadım heç.

Günahımı duysan əgər,
Günahımdı doğulmağım.
Düşmənimi saysan əgər,
Öz dilimdi başa yağım.

Ömür vaxtın bitən zaman
Məzarımı bəlliyərsən.
Haqq yolunu edib səhman
Ruhuma əl eyləyərsən.

07.08.2016

AĞLAR QALAN

İçdə ağlar qalan dilək,
Necə səni mən kiridim?
Ah-zarına dözmür ürək,
Atım oda qoy əridim.

Həyat yolu eniş-yoxuş,
Çalxalama gündüzümü.
Üzə durur min bir baxış,
Yalan sayma gəl sözümü.

İçdə ağlar qalan dilək,
Varım-yoxum nə var budu.
Çaş-baş olub mənlə ürək,
Ömür çaya axan sudu.

12.08.2016

KEÇİB GEDƏN

Ay qarşıdan keçib gedən,
Bəs salamın harda qaldı?
Öz-özünü çaş-baş edən
Səni kim bu günə saldı?

Salam Allah kəlamıdır,
Günümüzə nur şamıdır,
İçində nə kin damıdır?!
De düşdüyün bu nə haldı?

Üz-gözündə qəzəb daşır,
Şeytanınla pıçıldaşır,
Əməlinlə can yollaşır,
İçindəki nə zavaldı?

Ruhunu bir az təmizlə,
Baxışları xoş əzizlə,
İnsanı sev, kini bizlə,
Desinlər ki, dili baldı.

Dayanmayır, ötüşür vaxt,
Ömrə çatıb bitişir vaxt.
Deməsinlər sənə heç vaxt,
Baş yerinə boş qavaldı.

Ay qarşıdan üz turşudan,
Dil içində söz turşudan,
Xeyir tapmır can turşudan,
Başın tərs fırlanan valdı.

12.08.2016

EY SAFLIQ QUŞU

Gəl ey saflıq quşu, qon başımıza,
Qoy insan insanı anlasın bir az.
Dön ürəyimizlə sirdaşımıza,
Adam öz-özünü danlasın bir az.

Ağılla ürəklər birliyə gəlsin,
Ömür ağacları barını versin.
Diləklər axışıb dirliyə gəlsin,
Sevən ürəklərə yarını versin.

18.12.2016

MÜNƏVVƏR

Türkiyəmizin tanınmış yazarı
Adanalı Münəvvər Düver
xanım əfəndiyə...

Yolladığın çiçək diləyim oldu,
Ey Türkün sevdalı qızı, Münəvvər.
Sevginə söz qoşan ürəyim oldu,
Dinlətdin sinəmdə sazı, Münəvvər.

Tanrı tükətməsin ocağımızı,
Eşq ilə doldursun qucağımızı,
Artırsın gün-gündən xoş çağımızı,
Könlümüz qoxlasın yazı, Münəvvər.

Türk olan yerlərdən getsin dumanlar,
Bizim haqqımıza gülsün imanlar,
Qapısın xoş üzlə açsın zamanlar,
Duyğular eyləsin nazı, Münəvvər.

Yuvalar eşqiylə coşğumuz artsın,
Yatmış qurdumuzu qəlbdən oyatsın!
Bütün ellərimiz muraza çatsın,
Ocaq yurddan olsun razı, Münəvvər.

Sən də gözəllikdə dürdanə oldun,
Ər təki hər işdə mərdanə oldun,
Narahat ömrümə sevgiylə doldun,
Sevgidən bulmazlar azı, Münəvvər.

Köksünün paklığı üzündə gəzir,
Şeyrinin ovqatı sözündə gəzir,
Təbin sonalartək göllərdə üzür,
Bitməsin ilhamın düzü, Münəvvər.

Şadiman Türkliyə eşq ilə coşur,
Onun sinəsində bu ülfət daşır,
Bəy, xanım, əfəndi sənə yaraşır!..
Həsrətə bir məzar qazı, Münəvvər.

13.06.2012

SƏN MƏNİM CANIMSAN

Türkiyənin Adana şəhərindən
Şair yazar araşdırmaçı, can dostum
Münəvver Düvere

Diləklər içində dilək tapmışam,
Şəninə söz qoşur anım, Münəvvər.
Bir həyat eşqili ürək tapmışam,
Sən mənim canımsan, canım, Münəvvər.

İlahi qorusun Türkiyəmizi,
Dərd ilə sınağa çəkməsin bizi,
Gəzdiyin yerlərdə qəlbimin izi…
Sən mənim canımsan, canım, Münəvvər.

Burada Vətəndi, orada Vətən!
Bir də ayırmasın yağı bizi tən,
Dəli ilhamımdı bülbültək ötən,
Sən mənim canımsan, canım, Münəvvər.

Könüldən könülə yollar görünür,
Sevgili, sevdalı hallar görünür,
Dostuna sarmaşan qollar görünür,
Sən mənim canımsan, canım, Münəvvər.

Şeirim dostdan çox düşmən çoxaltdı,
Məni gah alova, gah közə atdı,
İçimdə ağrılı dünya yaratdı,
Sən mənim canımsan, canım, Münəvvər.

İllərlə həsrətli olmuşuq sizə,
Soy kökü ögeylər hökm etdi bizə,
Doldurdu yadları bu evimizə,
Sən mənim canımsan, canım, Münəvvər.

Sanki çox illərin tanışıyıq biz,
Vüsal üzüyünün dürr qaşıyıq biz,
Türkliyin həsrətli göz yaşıyıq biz…
Sən mənim canımsan, canım, Münəvvər.

Qovuşsun həsrətli canlılar cana,
Gəlsin Türkiyədən Azərbaycana,

Mən misra tapmıram bu həyəcana,
Sən mənim canımsan, canım, Münəvvər.

Qoşa bayrağımız bir dalğalansın,
Gözü götürməyən düşmənlər yansın!
Yatmışımız varsa, qalxsın, oyansın,
Sən mənim canımsan, canım, Münəvvər.

Şadimanın könlü könlünə oda,
Doğulan günündən düşübdü oda,
Sənə Pirallahi bir ev, bir oda,
Sən mənim canımsan, canım, Münəvvər.

08.10.2012

GÜLLƏRDƏN GÖZƏLSƏN

Dolu nahar vaxtı bir gül yolladın,
Güllərdən gözəlsən özün, Münəvvər.
Könül sevincini eşqlə qolladın,
Bitməsin ülfətin, közün, Münəvvər.

Xoş ətri Adana elindən gəlib,
Hansı irmağ üstü çölündən gəlib?
Payızın titrəşən yelindən gəlib,
Sezməsin möhnəti üzün, Münəvvər.

Bir gün qanad açıb, uçub gələrəm,
İllər möhlətini birgə bölərəm,
Sənə də bu vüsal günün dilərəm,
Bu əhdlə çağlasın sözün, Münəvvər.

Şadiman qırarmı dost ülfətini?
Salıbdı qəlbinə məhəbbətini,
Görür sədaqətdə ibadətini…
İtməz ürəyimdən izin, Münəvvər.

07.12.2012

KÖNÜL

Könül Səidə

Ey tovuz misallı, ey sona hallı,
Nazlı gözəllərin mələyi, Könül.
Sözləri avazlı, xoş dili ballı,
Coşan duyğuların ürəyi, Könül.

Səhərlə oynasın ömrün anları,
Tanrım sənə yazsın xoş zamanları,
Dünyanın ən zərif əhd-peymanları,
Çağlatsın ruhunda diləyi, Könül.

Vaxtın haqq qapısı bəxtə açılsın,
Günəşi aləmə nurtək saçılsın,
Ümidin yoxuşa qələbə çalsın,
Boğsun şərdən əsən küləyi, Könül.

Qəlbin məhəbbəti gözlərdə gülsün,
Kirpiklər üstündən kədəri silsin,
Dostların dostluğun qədrini bilsin!
Bu amal həyatın gərəyi, Könül.

Səidin sevdanla coşsun, çağlasın,
Ananın eşqinə ülfət bağlasın,
Anlar sevincinlə bir növrağlasın,
Uçmasın ruhunun dirəyi, Könül.

Gənclik də gözəldi, həyat da gözəl,
İnsan mətin olsa, titrəməz təməl,
Yaddaşdan silinib getməz pak əməl…
İtməsin ağlının əməyi, Könül.

Cavanlıq ömürün sultan zamanı…
Yaman çalxatmısan bu Şadimanı,
Təbimin dilində gəzir fərmanı,
Fələyin əlində ələyi, Könül.

14.11.2012

İTİRDİK DÜNƏN

Nurəngiz Günə ithaf

Bir gözəl xanımı itirdik dünən,
Deyirlər, dilindən söz tökülürmiş.
Təbəssüm üzərdi baxışlarında,
Kirpiklər üstündən köz tökülürmüş.

Misralar içində gəzərdi canı,
Vərəqə iltifat könül həyanı,
«Günəşə Duası» ruhun fəğanı,
Üzündən xoş bahar, yaz tökülürmüş.

Baxışı gülüşə süfrə açardı,
Qəm onu görəndə durub qaçardı,
Ruhu qanad açıb göydə uçardı,
Bütün vücudundan naz tökülürmüş.

O, gülə, çiçəyə dəymə deyərdi,
Onun həyatını əymə deyərdi,
İşığı, günəşi, nuru öyərdi,
Qəlbindən kədərə buz tökülürmüş.

Bir gözəl xanımı torpaq apardı,
Şeriyyət bağından yarpaq qopardı,
İçimiz sızladı, tufan qopardı,
Göz yaşı donanda az tökülürmüş.

Ölüm hardan tapdı «İşıldaquşu»?
Bir masa üstündən uçdu təb quşu,
Baxışı alardı ağılı, huşu…
Tel haray çəkəndə saz sökülürmüş.

Məzar bağra basdı Nurəngiz Günü,
Günəşdən xəlvətcə gəldi yas günü…
Səmanın köksünə çəkildi ünü,
Göydən yaş içində duz tökülürmiş.

Şadiman, hönkürən təbini dinlət,
Bu qara xəbərin özünü inlət,
Ayrılıq elə də, belə də zillət,
Qapını döyəndə diz bükülürmüş. **21.12.2014**

DÜNYADAN KƏSİLMİR QIRĞIN

Hüseyn Cavidə məktub

Nə vaxtdı dünyadan kəsilmir qırğın,
Onu törədənlər pardaqlayırlar.
Ölkələr dağılır, hər yerdə yanğın,
Zülmə qol qoyanlar budaqlayırlar.

Ey böyük sənətkar, ey dahi şair,
«İblis»i yazanda könlün ağladı.
Dünyanın düşdüyü bu aha şair,
Sözünün təşnəsi çələng bağladı.

Dünya dəyişməyib, həmən dünyadı,
İblislər əlində paramparçadı.
Göylərə yüksəlir məzlum fəryadı,
Fikirlər, vicdanlar haça-haçadı.

Sən iblis söylədin qoluzorluya,
İblislər getdikcə artır ilbəil.
Cəhd edir naqislər haqqı korluya,
Şeytanlar ulaşır, haray çəkir dil.

Ağlayan gözlərin yaşı sel təki,
Əzən əziləni güdaza verir.
İnsanın həyatı olub yel təki,
Haqqın qollarını zalımlar gərir.

Getdikcə pisləşir dünyanın halı,
Onu çalxadanlar zülmə bac oldu.
Ey şair, yazdığın fikirlər ali,
İblislər getdikcə ətrafa doldu.

Yurdumuz, yuvamız işğal içində,
Yaxşı ki, ey Cavid, cismin sağ deyil,
Sən ağrı-acını doğdun içində,
Demə ki, şairim, həmən çağ deyil.

Məzlumun naləsi öldürür məni,
Qınayır hər yetən bu Şadimanı.
Elə yaxın bildim könlümə səni,
Ruhuna sarıdır könül limanı.

15.02.2016

XƏZANA DÖNƏN

Ürəkdə xəzana dönən,
Kirpikdə yaşa çevrilir.
Ruhuna baharla enən,
Sonradan qışa çevrilir.

Dünyanın bitməz nağılı,
Başmıza qoymaz ağılı,
Aldadır qızı, oğulu,
Qəlbi daş başa çevrilir.

Dağıtma könül xanəsin,
Uçurtma eşq pərvanəsin,
Qəlbinə can divanəsin,
Duymasan daşa çevrilir.

Kim daddı, kimsə taladı,
Kimsə qabları yaladı,
Canından şirin baladı,
Hərdən çaş-başa çevrilir.

13.09.2016

KÖÇ EDƏN

Qışı payıza köç edən,
Yaltağı qorxub suç edən,
Hakimi qanun puç edən,
İnsan adını daşıyar,
Kim belə yerdə yaşıyar?

26.10 2016

SEVGİDƏN YAZIR

Hamı sevgidən yazır,
Sevgi yazıq neyləsin?!
Çoxu yolunu azır,
Tökür eşqə hiyləsin…

28.10.2016

MƏHƏBBƏTDƏN DƏM VURMA

Mənə məhəbbətdən dəm vurma heç vaxt,
Məhəbbət özü də azar kimidir.
Hamıya xoş üzlə yarımayır baxt,
Bəzən həyat özü məzar kimidir.

Ötən günlərini çıxdaş eyləsən,
Hər biri qəm adlı ortaqla gələr.
Tutub ürəyini sən daş eyləsən,
Daş nədir? İçində min dağla gələr.

Salma qəlb içinə dərdi, qüssəni,
Onun ağrısına dərman tapılmır.
Bir kimsə sevməyir candan küsəni,
Onsuz da dünyaya səhman tapılmır.

İçi mən qarışıq, hamı tələşda,
Gəldiyi kimi də gedəsiyik biz.
Hissimiz ağılla çarpışır başda,
Hansı əmir versə edəsiyik biz.

Odur ki, dünyaya tor toxuyanlar,
Özü də o tora düşəcək bir gün.
Başdan ayağadək şər qoxuyanlar,
Ahı məzarını eşəcək bir gün.

04.11.2016

AY ADAM

Ay adam, bilirəm amacın nədir?
Sən özün olmaqdan qorxursan daha.
Sənə yaraşmayan bəs tacın nədir?
Yəqin adamlıqdan çıxırsan daha.

Meydan sulayırsan yalquzaq təki,
Dişinə vurmusan min bir diləyi.
Qonmusan bəxtlərə bir sazaq təki,
Hardan qazanmısan belə ürəyi?!

18.12.2016

TƏB DİLƏ GƏLƏNDƏ

ANAMIN RUHUNDAN GƏLİBDİ HECA

Anamın ruhundan gəlibdi heca,
Bu ruha göz dağı olma, sən allah.
Ondan dikəlibdi Rəbbimə rica,
İlhamsız qəlb telin yolma, sən allah.

O təbi olana çağlayan bulaq,
Ondan saz ruhunu duyur hər qulaq,
Heca sevdasında gəlin bir olaq,
Çətinsə, sənətdə qalma, sən allah.

Onla cilvələnib sazın telləri,
Gəzib addım-adım eşqi elləri,
O vəcdə gətirib yanan dilləri,
Kam ala bilmirsən, alma, sən allah.

Heca könlümüzün nazlı afəti,
Onun sərvə bənzər qəddi-qaməti,
Oxşar qəlbimizi eşqlə xəlvəti,
Bu eşqi ilantək çalma, sən allah.

Oxşama yağıtək yaddan gələni,
Yad eşqlə çox gördük millət dələni,
Hiylə torlarına düşüb öləni…
Acıqlı buludtək dolma, sən allah.

Vətəntək, anatək heca canımız,
Ruha köklənməli bu vicdanımız,
Doldu düşmənlə dörd-bir yanımız…
Sən də onlarla bir, olma sən allah.

Yazın ağır olub bu Şadimana,
Dağın mehləri var gələn dumana,
Şe'rə dəb gətirib azğın zamana,
Çalış ondan dala qalma, sən allah…

08.08.2010

DOĞULAN ŞEİR

Bu gecə ruhumdan doğulan şeir,
Məni ağlatmağçın çox can atırsan.
Bağrımın içində boğulan şeir,
Çaxnaşma içində əl-qol atırsan.

Yuxumu qovursan gözüm içindən,
Təlaş axtarırsan sözüm içindən,
Canımı gəzirsən dözüm içindən,
Yorğun kürəyimə şələ çatırsan.

Mən də dilsiz-dilsiz baxıram sənə,
Düşürəm zülmətə, batıram çənə,
Yenə oğrun-oğrun dil olma mənə,
Könlüm elə bilir sən də yatırsan.

Yoruldum, tükəndim səadətindən,
Vaxt, zaman bilməyən söz-söhbətindən,
Daha usanmışam məhəbbətindən,
Girib ürəyimə aləm qatırsan.

Bu gecə ruhumu burax, dincəlsin,
Bir hovur özünə, közünə gəlsin,
Verdiyin ağrının odu incəlsin,
Bəsdir ürəyimi atıb-tutursan.

23.11.2011

ƏGƏR QULAQ ASIRSANSA MƏNƏ

Söz qurbanı Rafik Tağıya…

Ağrını haqqa çatdın,
Qəlbini ora atdın,
Cızha-cızla yandı ürəyin,
Bu yanğı alova çevrildi
vərəqlər üstə…
Ruhları xəstə
bunu duya bilməzlər,
Heç bir haraya gəlməzlər…
Sən mövhümata,
xürafata,
Qəlbləri zəhərləyən

çirkli həyata yox dedin.
Qələmindən boylandı harayların,
Ürəyində əlçimləndi vayların,
Təbibin, dərmanın əlac
etmədiyini sözdə tapdın,
Ruhunun içində ona qala yapdın.
Kağızlardan boylanan
sözlər təsəllin oldu,
Evində səni gözləyən
gözlər təsəllin oldu.
Bu təsəllini çox gördülər sənə,
Pislik beyinlərdə olub bir ənənə.
Söz yarası qılıncdan itidi dedilər,
Ona görə başını yedilər…
Sözün düzün demək cana bəladı,
Ölümə yuvarlanmaqdı adı…
Onu demək istəyirdim,
Düz danışanın işi, bə'zən
qanlı dişlərdən keçir,
Şərə xidmət edənlər
pis vərdişlərdən keçir.
Sən özündə bilməmiş deyildin,
Yamanlığa əsənlər,
Haqqın dilini kəsirlər…
Həkim adını sözə dəyişdin,
Bu minvalla ədalətsizliklə döyüşdün…
Nə həkimliyi atdın, nə də qələmini,
Yazdıqlarınla bəzədin könül aləmini.
Döyüşünü yarıda qoydular,
Bununla səni məğlub saydılar.
Məğlub sən yox, onlardı,
Diri ikən ölü canlardı…
Bunu istəyirdim deyəm sənə,
Əgər qulaq asırsansa mənə…

14.11.2012

RUHUMUN ÖZÜNDƏN

Ruhumun özündən qopur sözlərim,
Girir ürəyimə tufan qoparır.
Göylərdə, yerlərdə çapır sözlərim,
Məni kainata alıb aparır.
Təbimə imarət yapır sözlərim.

16.02.2016

KİPRİKPƏRİM DAŞ ALTINDA

Kirpiklərim daş altında,
Daşı ovur gurşad ilə.
Göz boğulur yaş altında,
Oyna qəlbim dur, şad ilə.

Çəkir dağı səd könlümə,
Dünya ağlar mərd könlümə,
Gör neyləyir dərd könlümə?
Necə qalım fəryad ilə?

Ah dolaşır sinəm içrə,
Batıb qalıb can qəm içrə,
Bəbək baca nəmlər içrə,
Dilə düşür imdad ilə.

Şadimanı tutun dilə,
Alın canın verin yelə,
Qoymun, gəzə eldən-elə,
Düşüb qala hər yad ilə.

25.02.2012

GUR ÇAY KİMİYƏM

Yamanca incitdiz ruhumu mənim,
Yığılıb açılan bir yay kimiyəm.
Ağrıma batırdız ahımı mənim,
Sinədə boğulan ah-vay kimiyəm.

Ağlımda qapı var lap çaş-başlığa,
Könlümdən harayım düşür boşluğa,
Sellərdə boğulur, dəyir daşlığa,
Bənd-bərə dağıdan gur çay kimiyəm.

Siz qəmdə üzülən qanı qaynatdız,
Canımı qaynayan qanlara atdız,
Yatmış vulkan idim, yaman oyatdız,
Yer-göyü çalxadan gur, hay kimiyəm.

Ruhu incitməyin, cəzası böyük,
Vicdanlar hönkürdən qəzası böyük,
Mən ki, doğulandan olmamışam yük,
Günəşin parası pak Ay kimiyəm.

Ruhuma qəm çatıb oynadanlarım,
Çatladıb səbrimi qaynadanlarım,
Qüssəmdən min cürə eşq udanlarım,
Sanmın, mən də qəmə lap tay kimiyəm.

12.05.2012

HECA

Şirin laylaların ana dilində,
Könlümün içinə dağılan heca.
Düşüb yuyunuram şaqraq selində,
Zərif çiçəklərtək yığılan heca.

O tuti ləhcənə vurulub qaldım,
Kövrək zəngulənə mehrimi saldım,
Evinə təb adlı sehrimi saldım,
Ruhumdan, canımdan doğulan heca.

Səndən qopub gəlir hər ağı, layla,
Dolmuşam küləyi, buludu hayla,
Ahımın təşnəsi sovrulsun vayla,
Doğma kəlmələrlə yoğrulan heca.

Sazımın, tarımın közü səndədir,
Min illik qopuzun izi səndədir,
Səndə bu məhrəmlik, doğmalıq nədir?!
Ögey baxışlardan boğulan heca.

Zərif çiyinində dastanlar gəzir,
Sən türk doğulana Tanrıdan nəzir,
Sənə xor baxanlar ruhumu əzir,
Ey heçdən var olan, doğrulan heca.

Anamın nəfəsin səndə duyuram,
Dəli istəyinə yartək uyuram,
Səni varlığımdan necə ayıram?!
Çocuqtək bağrıma sığılan heca.

Qolların boynuna dolar Şadiman,
Hissimin allahı, eşqimə iman,
Ağlayan könlümə bir təkcə dərman,
Təbsiz şe‘r əhlindən sıxılan heca…

Əzəldən layiqsən ən yüksək taca,
Yerin zirvələrdən ucadır, uca!

04.10.2013

DÜŞÜR YADIMA

Yenə uşaqlığım düşür yadıma…
Çiçəklər içində gül axtarıram.
Xəyallar keçmişdən gəlir dadıma,
Qəlbimə bir şirin dil axtarıram.

Könlüm zamanlarda atılıb qalıb,
Bağrıma ötənlər çatılıb qalıb,
Ruhumun içinə qatılıb qalıb,
Çocuqluqda qalan, il axtarıram.

Ağrıya qatmışam şad həyatımı,
Qəmdə islatmışam can büsatımı,
Keçmişdən almışam xatiratımı,
Sönmüş ocağında kül axtarıram.

06.03.2013

GECƏLƏRİN SÜKUTUNU ÇOX SEVİRƏM…

Gecələrin sükutunu çox sevirəm…
Orda qəlbin ağrıması,
Orda ruhun bağırması,
Orda gözün yola düşüb yol getməsi,
Orda xəyal çeşməsi var,
Orda canın tələtümə düşməsi var…
Orda ağlın dincəlməsi,
Orda qəmin incəlməsi,
Orda həyat nişanəsi,
Orda təbin pərvanəsi,
Hey dolanır qərib-qərib can başına,
Hərdən batır bəbəklərdə göz yaşına.
Gecələrin sükutunun hücrəsi var,
Mənə düşən otağı dar.
Duyğularım bu otağın tavanında qaçışırlar,
Kəpənəktək səssiz-səssiz uçuşurlar.
Şirin-şirin hekayətlər danışırlar,
Mələklərtək bir-biriylə yarışırlar.
Əlim gəlmir səssizliyi tez devirəm,
Bu kiçikcik varlığları üzü üstə mən çevirəm.
Budur bəxtə düşən çevrəm…
Gecələrin sükutunu çox sevirəm…
Gecələrin sükutunu çox sevirəm. **18.08.2012**

DOLANIRSAN CAN BAŞINA

Nədir belə dolanırsan can başına?
Nə səbəbdir məlul, məhzun təlaşına?
Qərib-qərib ətrafımda ötən xəyal,
Ağılımın ətəyində bitən xəyal.
Mürgü vuran yuxuları hara qovdun?
Ürəyimin müjdələrin satıb-sovdun.
Dolaşırsan gözlərimin qarşısında,
Dinməyirsən sözlərimin qarşısında.
Qara-qara kölgələrə bənzərin var,
Nə xatalı, nə davalı nəzərin var.
Dodağının pıçıltısı harayındır,
Qapıları kilidlənmiş sarayındır.
Aç qapını, ürəyimi burax ora,
Mən də bilim qopub düşüb canım hara.

***

Qərib-qərib ətrafımda ötən xəyal…
Ağılımın ətəyində bitən xəyal…

26.08.2012

NİYƏ BELƏ ZALIM OLUR

Niyə belə zalım olur,
İnsanlar biri-birinə?
Sirindən qəm alim olur,
Çəkilib gedir dərinə.

Uf demədən pislik edir,
Hər addım xəbislik edir,
Dost-dostu həbslik edir,
Adam utanır yerinə…

Ev yıxıb qapı bağlayır,
Sonra düzlük soraqlayır,
Baxtı tərsə varaqlayır,
Çəkilib getmir yerinə.

Adamı yaradan Tanrı,
Götürmür aradan Tanrı,
Təmizlər sıradan Tanrı,
Hər kəsin yeri görünə…

23.11.2012

ADAMLARDAN QAÇIRAM

Ruhu olmaz, qəlbi olmaz adamlardan qaçıram,
İnsanlıqda adı qalmaz adamlardan qaçıram.

Çəkir məni ağrılarım hicran dolu günlərə,
Həyatıma güzgü olan ömür yolu günlərə,
Düşüb qalır duyğularım açılmaz düyünlərə,
Düyünlənən saatımın məkanında uçuram,
Ruhu olmaz, qəlbi olmaz adamlardan qaçıram.

Əzabların o tayında duyğularım görünür,
Yazıq canım dallarınca ilan təki sürünür,
İstəklərim ətək-ətək dumanlara bürünür,
Onların kor bəxtlərinə bir müdriktək acıram,
Ruhu olmaz, qəlbi olmaz adamlardan qaçıram.

Qapıların arxasında ürəyim qopub düşür,
Öz hissimlə, öz ağrımla uşaq kimi əlləşir,
Qəlb içində taxtın quran ümidimlə dilləşir,
Zülmətlərin bağrından Aytək işıq saçıram,
Ruhu olmaz, qəlbi olmaz adamlardan qaçıram,

Şadimana deyin gəlsin sədasının üstünə,
Aləmlərə haray salan nidasının üstünə,
Baxsın-görsün necə durub canım şərin qəsdinə,
O cümlədən mən də onu munis bilib qucuram,
Ruhu olmaz, qəlbi olmaz adamlardan qaçıram.

Ruhu olmaz, qəlbi olmaz adamlardan qaçıram,
İnsanlıqda adı qalmaz adamlardan qaçıram.

21.05.2012

A TALE

Yaman məni qoydun qara günlərə,
Harda idin, hara düşdün, a tale.
Saldın ömrü min cürə düyünlərə,
Dərdim ilə nə sevişdin, a tale.

Heç açarın bəxt qapımı açmadı,
Yan-yörəmdən kölgən heç vaxt qaçmadı,
Göylərimdə al günəşin saçmadı,
Ürəyimlə çox döyüşdün, a tale.

Elə minib hicran atın çapırsan,
Can deyirəm, quduz təki qapırsan,
Hərdən-birdən yolunu da sapırsan,
Niyə belə sən dəyişdin, a tale?

Şadimanı onsuz kimsə duymadı,
Yamanlıqlar məni gözdən qoymadı,
Bilən bilir, əqlim şərə uymadı,
Sən də şərtək cana düşdün, a tale.

07.03.2013

ÜRƏYİMLƏ GÖRÜŞƏCƏM…

Hünərim çatmır gecənin sakitliyini pozam,
Bu dəli hisslərin pərakəndliyindən yazam,
Və yaxud onların cığırına düşüb azam.
Qaranlığın içindən gələn qəfil səslər
qulağlarımı dəlir,
Hər tərəfdən üstümə bir hənirti gəlir.
Demə sükutun da adam kimi beyni varmış,
Ona da həyatın hər üzü yarmış…
Yatanlar öz yuxu dünyasında,
Kim bilir nələri görür röyasında…
Mənsə mürəkkəbi tükənmiş
qələmimi tumarlayıram,
Təbimdən doğan misraları hamarlayıram…
Bir azdan səhər açılacaq,
Zülmətin qurduğu qəsir uçulacaq…
Qaranlıq öz çadrasını götürüb qaçacaq.
Şəhərin küçələri yenə adamla yarışacaq,
Üzlərində kədəri sevincə qarışacaq,
Baxışları gah sevişəcək,
Gah da bir-biriylə vuruşacaq.
Kimi haqsız olacaq, kimi haqlı,
Hamı ümidinə bağlı.
Yaxşı yaxşılıq, pis pislik edəcək,
Gah adamlar bir-birini güdəcək,
Gah da hərə öz işinin dalınca gedəcək,
Yenə qara örtüklü axşam gələcək,
Gecəm üzümə güləcək,
Sükutun içinə düşəcəm,
Ürəyimlə görüşəcəm… **30.10.2012**

İZİMƏ SARI

Bir dərin quyuya düşüb qalmışam,
Ruhum qanad açır dözümə sarı.
Qələmi-kağazı ələ almışam,
Ürəyim çırpınır sözümə sarı.

Zamanım taxtında çıxıb oturub,
Canı ovundurub, gözü yatırıb,
Tutub ürəyimi qəmə batırıb,
Alov itələyir közümə sarı.

Ağlım sərxoş təki qəh-qəhə çəkir,
Körpə quşcağaztək başımda səkir,
Bütün vücudumu dalınca çəkir,
Əyir qamətimi dizimə sarı.

İlantək qıvrılıb yatan xiffətim,
Hissimə qul olan nazlı afətim,
Könüllə qol-boyun qalan xilqətim,
Arzumu dikəldir əzimə sarı.

Zamanın xəlbiri öz işindədir,
Can-bədən ayıran vərdişindədir,
Ömürlər birbəbir sərt dişindədir,
Hövlanak qaçıram özümə sarı.

Siz də Şadimanı bilməyin naşı,
Bədəndən son çıxır canın təlaşı,
Fələk fırlandırır ömürdə yaşı,
Məni də qaytarır izimə sarı.

06.01.2013

QƏH-QƏH ÇƏKDİN

Qəh-qəh çəkdin göz yaşıma,
Göz yaşım da güldü keçdi.
Ümidləri bircə-bircə,
Ayrılığın böldü keçdi.

Hicran günün yaxınlaşdı,
Qəm püskürdü canda daşdı,
Əhd peymanla vidalaşdı,
Ümidlərim öldü keçdi.

Zaman özü çapar kimi,
Günlər qurdtək qapar kimi,
Hərdən yolu sapar kimi,
Açan-solan güldü, keçdi.

Min mə‘na var hər bir anda,
Günəş təki doğur canda,
Vaxtın közü od, imanda,
Hər dərdimi bildi keçdi.

Biz də möhlət yolçusuyuq,
Bəd əməlin gen suçuyuq,
Kim etdisə haqqa buyruq,
Haqq adını sildi keçdi.

07.03.2013

MƏN MİNNƏTÇİ DÜŞDÜM

Mən minnətçi düşdüm baxta,
Minnətimi vurdu keçdi.
Şad ömrümü qurdum vaxta,
O, üzümə durdu keçdi.

Hay eylədim, hayım batdı,
Onla haqqı-sayım batdı,
Yol gözləyən ayım batdı,
Ömrə tələ qurdu, keçdi.

Öyrəşmədi ona üzüm,
Yollarında qaldı gözüm,
Harayladım, yandı dözüm,
Könlümə qəm sardı keçdi.

08.05.2013

MİSRALARIM

Misralarım bu gecə,
İlahiylə danışır.
Sıxır yuxumu küncə,
Elə bil ki, yarışır.

Sətirlərin işığı,
Gözlərimə nur imiş.
Evimin yaraşığı,
Təbim mənə can demiş. **16.02.2016**

BƏS EDƏR

Göz yaşımı çağlatmağa,
Bəbək bəs edər, bəs edər.
Dərdlərimi ağlatmağa,
Ürək bəs edər, bəs edər.

Bir sevdanın min havası,
Ruhu sevən can yuvası,
Hər ağızın öz duası,
Dilək bəs edər, bəs edər.

Kimi haqqa çata-çatda,
Hər sevinci min qanadda,
Ömrü güdən zaman atda,
Külək bəs edər, bəs edər.

Həyat adama sarğıdır,
Sarğı altda can ağrıdır,
Sızlayan insan bağrıdır,
Kələk bəs edər, bəs edər.

Söz gəlir ağız içinə,
Çəkir misranı içinə,
Şeirsiz necə keçinə?
İlham bəs edər, bəs edər.

Ey Şadiman, gün tapmaca,
Kim bağlaya, kimsə açа,
Güman qalıb tək əlaca,
Fələk bəs edər, bəs edər.

23.05.2013

YUXUSUZ GECƏLƏRİM

Saniyələrin ağrıları bəbəklərimdən
süzülən yaşlarım,
Gecənin pıçıltıları sirdaşlarım,
İncə pərvanələr dolaşar
çilçırağın yan-yörəsinə,
Eşqin ucundan düşər yanmaq həvəsinə...
İçimdən bir həvəs oyanar
bu sükutun səsiylə oynamağa,

Könlüm atdanar bu hiss ilə alışıb yanmağa,
Başlayaram özüm-özümü qınamağa,
Cilvələnən işıq telləri
sapsarı simləri xatırladar mənə,
Dolaşar ürəyimə min bir yerdən yenə.
Qoynuma sığınar əllərim,
Ahımı bələklər yuxusuz gecələrim...
Saat əqrəblərinin taqqıltısı sükutu pozar,
Uyğularım zülmətin içində azar.
Mən də qaranlığın gözlərindən süzülən
işığa doğru boylanaram,
Anların başına haylanaram.
Beləcə sükutla mən
bir-birimizlə pıçıldaşarıq,
Gələn sabahın açılması müjdəsilə yaşarıq...

13.02.2012

MƏNƏ BİR İMKAN VERİN

Yenə də qanadlanan ruhum durna köçüdür,
Ağlayan ürəyimin görünməyən içidir,
İlan təki sürünən yamanlıqlar neyçindir?
Zəka səltənətinin eşqi dərindən dərin,
Duyğumu qaynatmağa mənə bir imkan verin.

Titrəyən diləklərim ürəklə qol-boyundur,
Ömür hər bir insana Tanrı yazan oyundur,
Ruhumu çağıran el, sənin kökün-soyundur,
Bülbültək çağlamağa çiçəkli məkan verin,
Duyğumu qaynatmağa mənə bir imkan verin.

Bax baharın nəfəsi duyulur yerdə, göydə,
Yaşıllaşır çinarlar, buta bağlayır iydə,
Şəbnəmlər nur ələyir bir saçaqlı söyüdə,
Şimşəktək alışmağa ruhuma təkan verin,
Duyğumu qaynatmağa mənə bir imkan verin.

Bir az dəli kimiyəm, bir az coşğun irmağam,
Az qalıram buluddək dolub şıdırğı yağam,
Canım bədəndə durur, şükür ki, hələ sağam,
Şadimana bir dəniz qayıqlı yelkən verin,
Duyğumu qaynatmağa mənə bir imkan verin.

12.05.2013

RUHUMU ƏLİNƏ ALDIN

Sən mənim ruhumu əlinə aldın,
Duyğumu duyğuma caladın, ilham.
Titrətdin içimi, alova saldın,
Sönməyə qoymayıb qaladın, ilham.

Mən soyuq baxışlar içində dondum,
Özümə ümiddən bir heykəl yondum,
Yazdığın nağıla özüm oyundum…
Damağdan getmədi xoş dadın, ilham.

Səni ürəyimdən qovmaq istədim,
Səndən gələn eşqi ovmaq istədim,
İnciyib bir kərə doymaq istədim,
Yadımdan çıxmadı heç adın, ilham.

Qapımı, bacamı bağladım bərk-bərk,
Ruhuma eylədim mən eşqini sərk,
Yalvarıb ürəyə çox eylədim ərk,
Qonağı olasan sən yadın, ilham.

Gecələr yorğanı çəkdim başıma,
Gəlib baxmayasan sən göz yaşıma,
Yatdım, yuxumda da çıxdın qarşıma,
Qəlbdə yara açdı imdadın, ilham.

Sözlər misra-misra axdı könlümə,
Şıltaq uşaq kimi çıxdı könlümə.
Dönüb şimşəklərə çaxdı könlümə,
Bağrımı gurşadla suladın, ilham.

Özün də bilirsən vurğunluq nalan,
Səndən gələn eşqi sanmışam yalan,
Sətirlər içində qəlb etdim talan,
Demə ki, sən mənə qaladın, ilham.

Qələmə, kağıza ömrü yar etdin,
İllərin içində can ögar etdin,
Sən bu Şadimanı yoxdan var etdin,
Söylə kimdir sənin ustadın, ilham?!

04.10.2014

ÖMRÜMƏ YAĞAN YAĞIŞ

Ömrümə yağan yağış,
Canımda doğan yağış,
Vücudumda sel yarat,
Ruhumu da ora at.
Qoy çırpınsın quş kimi,
Cəlsin başa huş kimi,
Yusun qəlbdən qəmimi.
Bu sevda aləmimi,
Əlvan güllərə tutsun,
Dərdi biryol unutsun.
Ondan gəlir həyatım,
Büdrəməsin can atım,
Çapsın dərəni, düzü,
Ram eləsin gündüzü.
Bağımın bağbanı ol,
Damarımın qanı ol,
Ürəyimə qida et,
Ya ona əlvida et.
Gəlib dumanı ovla,
Onu qapımdan qovla,
Başın atıb yatsın qış,
Ömrümə yağan yağış.

23.04.2011

QƏLBİMDƏN YUXARI HƏSRƏTİN BAXIR

Qəlbimdən yuxarı həsrətin baxır,
Qəlbimdən aşağı canım ovlanır.
Gözümün içindən surətin baxır,
Elə bu surətə ağlım tovlanır.

Susqun dodaqların nazlayır şərqi,
İncə təmasına sözlər oynayır.
Baxışın olarmış baxışa qərqi...
Dərin dəryasından gözlər oynayır.

İltifat eyləsən, qəlbi açaram,
Orda fəğanım da, həsrətim də var.
Ürək qapısını gəlib açaram,
Mənə söyləmə ki, dərdi dərd yuvar...

23.04.2011

YENƏ ÜRƏYİMƏ MÖHNƏT ÇATMISAN

Yenə ürəyimə möhnət çatmısan,
Bu eşqlə haraya gedirsən, ey dost.
Könlümdə nəş‘əylə dərd qaynatmısan,
Yamanca təcrübə edirsən, ey dost.

Hicran əzabının üzü qaradır,
Ürəyin içində sağ yer haradır?
Sağalmaz könlümə bəs nə çaradır?
Onu yükləməkçin güdürsən, ey dost.

Ruhum can hayında yol ayrıcında,
Ömrün çəkişməsi anlar ucunda,
Hərə öz ağlının sərsəm bacında,
Bacların içində lap dürsən, ey dost.

İnsan əməliylə canlar çəkişir,
Zaman cədvəlindən vaxtların düşür,
Fikir çovğununda sözlər sürüşür,
Onu dil ucundan tez sürsən, ey dost.

Mən də hicranımın dustağıyam, bil,
Qəlbimin dilimə gözdağıyam, bil,
Ağlım hönkürəndə bir ağıyam, bil,
Dadıma yetəndə qədirsən, ey dost.

Əzəldən taleyim bir bilməcədir,
Həyat çarpışmadır, ömür incədir,
Məndən soruşma ki, halın necədir?!
Halıma minnətçi xətirsən, ey dost.

Şadiman əzabla çarpışmadadı,
Başının düşdüyü tənha adadı,
Ordan əsən külək cana qadadı,
Əsən küləklərlə sən birsən, ey dost.

30.04.2011

MƏNİ İNCİTMƏYƏ FÜRSƏT GƏZİRSƏN

Başım bilməcədir, ağlım tapmaca,
Sənin çıxdığın dam ağlımdan uca,
Hünərim çatmayır əllərim quca,
Can, göylər içində sürət gəzirsən,
Məni incitməyə fürsət gəzirsən.

Uçursan bədəndən gündə yüz kərə,
Gurşadları boğur düşdüyüm dərə,
Bir bənzərin vardır parlayan zərə,
Mələklər qismində surət gəzirsən,
Məni incitməyə fürsət gəzirsən.

Hesabın çəkməyə iqtidarım yox,
Sən təki dəfinəm, dürlü varım yox,
Səndən də sevdalı vəfadarım yox,
Vəfanı üzməyə möhlət gəzirsən,
Məni incitməyə fürsət gəzirsən.

Can, niyə ürəklə güləş edirsən?
Onu öldürməkçin lap qəş edirsən,
Yandırıb içini küləş edirsən,
Küləşin içində nemət gəzirsən,
Məni incitməyə fürsət gəzirsən.

Elə kəc baxırsan bu Şadimana,
Onu tuş etmisən dava-dərmana,
Bənzədib tənini solğun samana,
Sanki çürütməyə illət gəzirsən,
Məni incitməyə fürsət gəzirsən.

30.04.2011

BƏS BU NƏDİR, İLAHİ

Bəs bu nədir, İlahi,
Sözüm közümə aşiq?
Püskürür könül ahı,
Dadıram qaşıq-qaşıq.

Özümdə olmayıram,
Bədən ayrılır candan.
Yuvamda qalmayıram,
Doğuluram hər andan.

16.02.2016

BAŞIMA DƏRD AÇAN GECƏ

Başıma dərd açan gecə,
Canı alıb qaçan gecə.

Röyalara çatmayıram,
Yuxuları qatmayıram,
Sübhə təki yatmayıram,
Dost olarıq haçan gecə?

Kirpiyimə daş tökürsən,
Gözlərimə yaş tökürsən,
Əjdahatək qəlb sökürsən,
Ağzından od saçan gecə.

Sükutumla oynayırsan,
Ürəyimlə qaynayırsan,
Söylə, məni nə sayırsan?
Yuxumla bir uçan gecə.

Ver uyğumu, al axşamı,
Gir otağa söndür şamı,
Görürsən ki, yatıb hamı,
Könlü alıb qucan gecə.

Bədənimi ağrı alıb,
Məni dərdə tutub salıb,
Aramıza düşüb qalıb,
Ah-vayilə bu can gecə.

Zaman andan durğun düşüb,
Saniyələrə sorğun düşüb,
Bax Şadiman yorğun düşüb,
Bumu səcdən ucan gecə?
Könlü ünvan tutan gecə,
Ona divan tutan gecə.

19.01.2012

DADLI BİR HƏZDİ

Şeir – dadlı bir həzdi,
Doğulur ilhamımdan.
Canla bədəndə gəzdi,
Eşq istəyir hamından.

O dəniztək coşqundu,
Fırtınası tükənmir.
Ruhum təki çaşqındı,
Qalxıb, göylərdən enmir. **16.02.2016**

RUHUMDA TİTRƏYİŞ VAR

Ruhumda bir vəsvəsə,
Ruhumda titrəyiş var.
Qəlblə ağıl arası
Hər an qanlı döyüş var.
Çarpışan acılarım
Bitməyir zaman təki,
Döyür qapı-bacamı
Bir qəfil fərman təki.
Hər gün körpə uşaqtək
Ürəyi danlayıram,
Ötən günün acısın
Gələn gün anlayıram.

15.11.2014

ƏSİB KEÇƏN KÜLƏKLƏR

Ürəyimdən əsib keçən küləklər…
Harayımın dərdin içən küləklər.
Alır üstü hərdən ağır bir yuxu,
Ayılanda qəlbi seçən küləklər.

24.12.2014

GÖZLƏRİ UYĞUDA OLANLARI

Gözləri uyğuda olanları
şirin yuxu tərk etməsin,
Qapımı döyüb mənə ərk etməsin.
Ruhum göylər içində çapmada,
Ayı, ulduzları yığıb
bir şahanə saray yapmada.
Canım bədən içində sapmada,
Göz yaşlarım dərya,
Ruhumun bərəsini batıran röya…
Ağlım ürəyimdən qaçır,
Ürəyim ağlıma yol açır.
Bir-birinə sevgidən bəhs edirlər,
Uzaq səyyarələrə gedirlər.
Bədənim qalıb yerdə,
Bəs necə dözüm bu dərdə?!

06.01.2015

GÜCÜM QALMAYIB

Bir şam işığıtək gücüm qalmayıb,
Ələnir vüqarım ömür üstünə.
Yaxşıya, yamana seçim qalmayıb,
Bilmirsən kim durub canın qəsdinə?

Hamı varlığından ucalıq umur,
«Heç kəs ayranına turş deməyir» ki.
Hamı bir-birinin üstünə cumur,
Dil zəhər axtarır, bal yeməyir ki.

Hicran ağrıları bəstəkar olub,
Yeni nəğmələri oxur qulağa.
Bu gün ağu deyən, dünən yar olub,
Min bir tənələri yaxır qulağa.

Dözməyin özü də – qul vərdişidi,
Bizə döz deyirlər ətrafdan hamı.
Yəqin ki, zamanın tərs gərdişidi,
Uçular bir gün də fələyin damı.

06.01.2015

ÇIXIB GƏLMİŞƏM

Mənə heyranlıqla baxma, ey ürək,
Dərdimin içindən çıxıb gəlmişəm,
Sinəmdə şimşəktək çaxma, ey ürək,
Bütün ağrıları yıxıb gəlmişəm.

Bilirsən, həyatın boz üzü də var,
Uzun gecələrin gündüzü də var,
Sovrulan günümün can közü də var,
Hamıya xoş gözlə baxıb gəlmişəm.

Gəl mənim eşqimə biməfa olma,
Dərdi xəstə sanıb sən şəfa olma,
Onun bədəninə qiyafa olma,
Mən onun evini yıxıb gəlmişəm.

Şadiman əlbət ki, sənin əsirin,
Nə vaxtdı üsulca göynəyir sirrin,
Bədənin içində tacı-taxt yerin,
Qapına ağ bayraq taxıb gəlmişəm.

06.01.2015

MƏNƏ İLHAM VERDİN

Mənə ilham verdin, bu gecə, ey yar,
İlhamı könlümdən necə qaçırım?
Tikdiyin sarayın səcdə yeri var,
Söylə rəvadırmı onu uçurum?

Məhəbbət karvanı yol alıb gəlir
Canımın boynuna qol salıb gəlir,
Qartaltək zirvəyə ucalıb gəlir,
Niyə yollarını kəssin uçurum?!

Mən axı onunçün gün əritmişəm,
Mən ona qəm oldum, o mənim nəş‘əm,
Qoyma çilik-çilik olar can şüşəm,
Qoy onun yolunda toy-büsat qurum.

Töküm qədəhinə könül şərabın,
Ağladım, hönkürdüm can iztirabın,
Ruhumla birləşsin, tükədim tabın,
Boğulan köksümün sinəsin cırım.

Mənə ilham verdin, bu gecə, ey yar,
Nə yaxşı sən varsan, nə yaxşı can var,
Gecənin zülmətin ağ səhər qovar,
Şükür ki, ruhuma hakim bu durum.

07.01.2015

SEVGİLİ SÖZLƏRİM

Sevgili sözlərim gəl,
Dolaşaq bu gecəni.
Çıxardaq taxtı-taca,
Ruhumuzdan keçəni.

Hələ çjxmayır günəş,
Duraq şam işığına,
Sən pərvanə, mən atəş,
Dönək Rəbb aşığına.

Ağrı bizi ovlasın,
Çalxalansın qəlbimiz.
Söz-sözü cilovlasın,
Aşıb daşsın təbimiz.

16.02.2016

PƏRVANƏ

Zərif qanadların titrər küləktək,
Hönkürüb çoşursan sən də fələktək.
Dəli duyğuların coşur diləktək,
Sala bilməyirsən eşqi səhmanə,
Özünü odlara vuran pərvanə.

Şam yanır, isidir eşqilər canı,
Artırır içində hiss-həyacanı.
Kim göstərib sənə bu od ünvanı?
Tənin kül olacaq, ömrün viranə,
Özünü odlara vuran pərvanə.

Axşamın gəlişi sənə toymudur?
Sevgin dəli kimi candan qan udur,
Şölələnən alov ömrə taymıdır?
Ütülür qanadlar qalmır nişanə,
Özünü odlara vuran pərvanə.

Eşqə dönüklərə addımın hünər,
Gecələr başına dolanıb dönər,
Sənin də həyatın alova yenər,
İzin ver ürəyim cismintək yanə,
Özünü odlara vuran pərvanə.

09.07.2014

ARAMIZDA YOLLAR VAR

Aramızda yollar var,
Bitib-tükənməyir heç.
Can ağrıdan hallar var,
Zirvədən enməyir heç.

Könlümüz aha bağlı,
Doğan günaha bağlı,
Ağıl xoşbəxt, can dağlı,
Arzular enməyir heç.

Bir ömür yaşayırıq,
Özünü haqq sayırıq,
Xəzanı tez duyuruq,
Zaman diksinməyir heç.

Yol birləşir, ayrılır,
An vaxtından sıyrılır,
Gün küləştək sovrulur,
Yerinə dönməyir heç.

Ey Şadiman nəçiyik?
Canda ölçü-biçiyik,
Zamana yol içiyik,
Gedənə dinməyir heç.

06.02.2015

GƏZİRSİZ OTAQDA

Gəzirsiz otaqda o baş, bu başa,
Möhtəşəm xəyallar, gözəl xəyallar.
Yorğun bəbəklərdə dönüb göz yaşa,
Qəlbdə törədirsiz min cürə hallar.

Vallah, sizin üçün əsir ürəyim,
Gəlib gecələrə hökm edirsiniz.
Sizinçin tikibdi qəsir ürəyim,
Qapımı açmamış tez gedirsiniz.

Yığışın yörəmə, içim yalqızdı,
Mənə pıçıldayın can sevdanızı.
Ürəyim min kərə qəmə uduzdu,
Gəlin, kəsim-durum mən yanınızı.

Mən can sevdalısı, üzdə gülürəm,
Mənim ürəyimi söz qələm etdi.
Sizinlə dəliyəm, sizsiz ölürəm,
Mənə acrıları bu aləm etdi.

Gəzirsiz otaqda incikə oxşar,
Ey gözəl xəyallar, üzməyin məni.
Qüssə qarışqatək qəlbə daraşar,
Gəlib yuxularda, gəzməyin məni.

25. 04.2015

ŞAM İŞIĞI

Bir anlığa ruhun için nə titrətdin şam işığı?
Alovunla qaranlığa üsyan etdin, şam işığı.

Ağrım canda ah qoparır, ürəyimi didir tökür,
Nədən könül sarayımın kərpiclərin bir-bir sökür?

Ömür zaman qarşısında heç durmadan dizin bükür,
Sıralanıb saniyələr, gün önündə bir-bir çökür,

Hər insanın həyatıtək yanıb sönən şam işığı,
Atəşinin dilləriylə haqqa dönən şam işığı.

Alovunun hərarəti ürəyimdə şölə saçdı,
Bağırımdan qopan səda yerdə, göydə eşqlə uçdı,

Durdu yatmış məhəbbətim pərvanətək qanad açdı,
Özün vurdu atəşlərə, alovların üstdə qaçdı,

Nə möcüzə söyləsənə bu hikmətin şam işığı?
Atəşlərdə alışmaqmı səadətin, şam işığı?

Şadimanın ürəyində niskilləri baş-başadır,
Sənin təki onun qəlbin atəş dolu od yaşadır,

Doğulana həyat özü bir oyundur, tamaşadır,
Kimi şəkər, kimi isə ömrü boyu zəhər dadır,

Hər bir kəsin ömrü kimi sönüb keçən şam işığı,
Qədəhində su yerinə alov içən şam işığı.

02.01.2015

QƏFƏSLƏRDƏ SAXLAMAQ OLMUR

Ruhu qəfəslərdə saxlamaq olmur,
Titrəyir, çırpınır bir quşcağaztək…
Onun sirr yuvasın yoxlamaq olmur,
Bədəndən püskürür dolan avaztək.

O həyat çeşməsi, ömür təşnəsi,
Tənlərdə olarkən sönmür həvəsi,
İşığa bürüyür gedən nəfəsi,
İnləyir, çırpınır qəlbə nəvaztək.

Onun anlayışı cisimdən keçir,
Məqamı insandan, isimdən keçir,
Varlığı kimsədən, hər kimdən keçir,
Bir dəfə ağuşa atılar naztək.

Ruhun nə ölçüsü, nə çəkisi var,
İnsandan qorxusu, nə hürküsü var,
Yatağa düşəndə can bürküsü var,
Bürkü də sozalır gələn ayaztək.

Ruhun ehtiyacı azad olmaqdı,
Bədənin içində abad olmaqdı,
Vəfasız ömürə çox yad olmaqdı,
Adam anlamasa olur dayaztək.

Şadiman ruhunla çarpışma belə,
Onun duyğuları gəlməyir ələ,
Ürəyi qurban ver bir coşqun telə,
İnləsin, çırpınsın duyğuda saztək.

03.07.2015

QOPARA BİLMƏZ

Heç kəs ürəyimdən qopara bilməz,
Qəlbə atəş verən bu məhəbbəti.
Alıb əllərimdən apara bilməz,
Könlə duyğu sərən bu məhəbbəti.

Hər kəsin içində bir sevda yaşar,
Gecəli-gündüzlü eşqlə dolaşar,
Qoşulub könlümə dəlitək coşar,
Sehir sanar görən bu məhəbbəti.

Qalayıb Şadiman qəlbində ocaq,
Onun sevdalısı zaman olacaq,
Yaşadır misraya suzuyan varaq,
Canda ömür sürən bu məhəbbəti.

11.12.2014

ŞAİRİN GÜNÜ

Dünyada şairin günü olmayır,
Onun sözləridi həyat nağılı.
Qəlbi heç yuvada məskən salmayır,
Misralar savaşır, hönkürdür ağlı,
Şairin xoşbəxtlik qapısı bağlı. **16.02.2016**

GECƏNİN YASTIĞI

Mən gecənin yastığına
Baş qoymağı unutmuşam.
Zülmət açıb qucağını
Ona sarı üz tutmuşam.

Pıçıltılar qulaq oyub,
Yatanları çoxdan uyub,
Mənim könlüm, gözüm doyub,
Fikrə girib lap batmışam.

Ay işığın səpələyir,
Göydən yerə nur ələyir,
Qəlb içinə eşq bələyir,
Duyğuları oyatmışam.

Ruhum gəzir gen dünyanı,
Yada salmır heç röyanı,
Bilinməyir can ünvanı,
Fikirləri çox qatmışam.

Mən gecənin tələşıyam,
Ağrıların göz yaşıyam,
Ruhumun elçi daşıyam,
Daşın üstə daş atmışam.

06.07.2015

DOLDUN KƏDƏRLƏ

Bilirəm, ürəyim, doldun kədərlə,
Kədəri ürəkdən silmək çətindir.
Hər gün döyüşürsən sən də qədərlə,
Qədərin sirlərin bilmək çətindir.

Ağrılı ömrümlə dərdi böyütmə,
Dərdlər böyüyəndə yük ağır olur.
Sən də çəkdiyini cana üyütmə,
Can qəmə düşəndə çox fağır olur.

Mən möhnət quşunu başdan uçurtdum,
Zənn etdim gedəcək, qayıtmayacaq.
Hər şeyi unutdum, tək səni tutdum,
Ağrılı gün səni ovutmayacaq.

Sən ağıl yükünü daşımaqdasan,
Onun ağırlığı çökdürür səni.
Dincəlmək bilmirsən, hey ayaqdasan,
Vərdişin sitəmə bükdürür məni.

Ürəyim, çırpınma quşcağaz təki,
Sənin qidan, suyun əlimdən keçir.
Axı bədən cana eyləyir ərki,
Sənə yalvarışım dilimdən keçir.

Mən yaxşı bilirəm ruh ağrısını,
Ona dəva-dərman etməyir əlac.
Deyim sözün sənə, lap doğrusunu,
Heç zaman başına qoymayacam tac.

Sırğatək sözümü qulağından as,
Sən olmayan yerdə bədən də yoxdu,
Şadiman səninlə qurubdu təmas,
Dostum ol, düşmənim onsuz da çoxdu.

12.07.2015

İÇİMDƏN HAYQIRAN AĞRI-ACILAR

İçimdən hayqıran ağrı-acılar.
Mənim dərdlərimə saray kimidir,
Dilimdən göylərə səda açılar,
Açılan sədalar haray kimidir.

Bir kimsə bilməyir nədir qüssələr,
Ömrüm parça-parça, ömrüm hissələr,
Vaxtın ocağında anlar his elər,
Tüstüsü dodaqda ah-vay kimidir.

Mənim də bəbəkdə buludum ağlar,
Bağrıma köklənən can udum ağlar,
Ruhum için çəkər bir udum ağlar,
Gözdən axan yaşım gür çay kimidir.

Gəlin Şadimanı çəkmin sınağa,
Bəxtim selə dönüb axır yanağa,
Məni də, onu da tutmun qınağa,
Bəxtim də özümə bir tay kimidir.

09.05.2011

MƏNİM TƏNHA YELKƏNİM

Mənim tənha yelkənim,
Üzülmür hicran çənim,
Gecənin zülmətində
Bu ömür qismətində
Üzürsən sular üstə,
Mənimtək ruhun xəstə
Fırtınalar qorxusu,
Çıxmır candan qoxusu…
Gəlmir gözün yuxusu.

***

Mənim tənha yelkənim,
Qoyma qorxum, ürpənim.
Fırlanır başın üstə,
Layla çalır ahəstə
Nəfəsi kəsən gecə,
Kabus kimi indicə
şığıyacaq üstünə,
Sanki durub qəsdinə.
Dənizdə parıllayan
zümrüd sular bərq vurur,
Sükut qarşımda durur.
Bu balaca qayığı
Qoyma gömülsün suya,
Dəli fırtına duya,
Külək felinə uya,
Coşa dəniz içində,
Nə var tufan gücündə!

***

Mənim tənha yelkənim,
Əlində bəxt sükanım.
Mənim kimi alışma,
Taleyinlə barışma,
Gur sularla öpüşək,
Qoy mənzilə yetişək.
Səndən istəyim budu,
Sənə diləyim budu.
Ürəyin sükutunu
pıçıltılar pozmasın,
Ləpələrin səsini
Min bir yerə yozmasın.
Gecənin ehtirasın
qayığınla ovsunla.
Dalğalar şahə qalxıb
Oynamasın yosunla.

***

Mənim tənha yelkənim,
Kədər könlümə qənim.
Hər ikimiz sükutda
can gizlənir hər qatda.
Bitmir xəyal dənizi,
Hara aparır bizi?
Ümidim sənə bağlı,
Bitirməyək nağılı.
Mənim tənha yelkənim,
Əlindədir örkənim…

02.06.2015

GETMİSƏN MƏNDƏN

Yaman üz çevirib getmisən məndən,
Duyğumu sərgərdan etmisən məndən.
Mən ki heç əlimi üzmədim səndən,
Bir dönüb gələydin aha, ruhdaşım.
Hardasan? Gəlmirsən daha, ruhdaşım.

Günlərim axarın dəyişir sənsiz,
Ürəyim həsrətlə döyüşür sənsiz,
Qəlbimin içinə qəm düşür sənsiz,
Ağrın istəyindən baha, ruhdaşım.
Hardasan? Gəlmirsən daha, ruhdaşım.

Mən könül içində məzar qazmışam,
Məzara yetməkçin yolda azmışam,
Götür baş daşımın, üstə gətir şam,
Salma istəyimi gaha, ruhdaşım,
Hardasan? Gəlmirsən daha, ruhdaşım.

Məni xəyallara möhtac eyləmə,
Qəlbimi həsrətə baş tac eyləmə,
Hissimi duyğuya lap ac eyləmə,
Mən səni bilmişəm düha, ruhdaşım,
Hardasan? Gəlmirsən daha, ruhdaşım.

Şadiman qəflətdə naçar olubdu,
Bu acı möhnətə düçar olubdu,
Dərdin qəlb qapıma açar olubdu,
Sən mənə canımdan baha, ruhdaşım,
Hardasan? Gəlmirsən daha, ruhdaşım.
Hardasan? Gəlmirsən daha, ruhdaşım.

07.07.2015

SEVGİLİ YOXMUŞ

Mən də könül için çox gəzdim, fələk,
Könüldən qüdrətli sevgili yoxmuş.
Ömür bağçasından gül üzdüm, fələk,
Bundan möcüzəli eşq gülü yoxmuş.

Mənim də ürəyim həsrət yuvası,
Onu dindirəndə qan-yaşı tökür.
Dilimdə oynayır hicran duası,
Duam təntiməmiş çalçəpər sökür.

Yerdə də, göydə də ruhum uçuşur,
Kəpənək sevdalı duyğusu vardır.
Onunla sərgərdan ahım uçuşur,
Ahın da özütək qayğısı vardır.

Ömrüm təntiyəndə yorulub qaldım,
Özümdən xəbərsiz zaman aradım.
Ağrıma, acıma sarılıb qaldım,
Kədərə sevdalı çəkildi adım.

Bütün işıqları durun söndürün,
Ruhumun işığı göylərdən sızır.
Əliniz çatmasa, vurun söndürün,
Taleyim ömrümə yeni gün yazır.

Mən qara bəxtimi çox yamanladım,
Onun güzgüsünə baxanda çaşdım.
Baxıb üz-gözümə ömrü anladım,
Ötüşən günlərlə birgə tələşdım.

Deməyin Şadiman gəldi boşuna,
Yazdığı kağızlar ah-vay eyləyir.
Doğulan yol gedir ömrün qışına…
Ötüşən günləri Rəbb say eyləyir.

08.07.2015

KÖNÜL DOSTUM

Könül dostum, gözləyirəm yolunu,
Səhər-səhər xoş ovqatı ver mənə.
Dur gəl, bir sor ürəyimin halını,
Eşq bağından duyğuları dər mənə.

Həyat hələ göstərməyib üzünü,
Qatla onun şərə çapan dizini,
İlhamımsan, tök könlümə közünü,
Ağrıların qollarını gər mənə.

Müdhiş olur sözlər seltək axanda,
Qəlbin için çox yandırıb yaxanda,
Yolum üstə sən qəfildən çıxanda,
Çiçəklərdən şehlə gətir tər mənə.

Təb də Allah vergisidir deyirlər,
Keçən ömrün güzgüsüdür deyirlər,
Ötənlərin əsgisidir deyirlər,
At üstündə bənzəyirsən ər mənə!

Mən vərəqi açıb sərdim dizimə,
Səndən necə soraq verim özümə?
Fərəh, ya qəm qatacaqsan sözümə?
Bu tilsimi özün ara, gör mənə.

Sən coşanda qəlb içində çapırsan,
Qapım açıq, dar bacamda sapırsan,
Yuxuda da gəlib məni tapırsan,
Mən zərgərəm, sən də oldun dürr mənə.

Şadimanı eşqə saldın əzəldən,
Sənsən könlü tələtümlə düzəldən,
Götür vərəq, qələmimi üz əldən,
Kainata qala yapıb, hör mənə.

12.07.2015

HAMI QAPANIB İÇİNƏ

Hamı qapanıb içinə
İçindən çölə çıxmayır.
Gedir ürəklər biçinə,
İnfarktı dərman yıxmayır.

Baxışlar çətin anlayır,
Adamı dərdlər yanlayır,
Dərd bədənlərdə can sayır,
Heç kim heç kimə baxmayır.

Tə‘nəyə batıb qalmışıq,
Ürəyə çatıb qalmışıq,
Arxı cığırdan salmışıq,
Su daha arxdan axmayır. **07.07.2015**

HAVALI CANIM

Gözlərim yollardan yığışmır evə,
Nədən nigaransan? Havalı, canım.
Hislərim divanə, sığışmır evə,
Ağrıyan bədənin sualı canım.

Hansı intizarı daşıyırsan sən?
Cismimdə nə eşqlə yaşayırsan sən?
Köz tutmuş yaramı qaşıyırsan sən,
Ağlım həzm etməyir bu halı, canım.

Sən də acılara sığınıb qaldın,
Kainat içində dağınıb qaldın,
Çəkdin qəhqəhələr, uğunub qaldın,
Tənin çoxdu sənə vəbalı canım.

Hissi dilənçitək sanma özünə,
Alışıb yanıram mən od-közünə,
Ömrüm də sənintək vurur dizinə,
Dadmadı həyatdan vüsalı, canım.

Vaxtın hər sanyəsi uçan kəpənək,
Sevir ürəyimlə eyləsin hənək,
Zaman yolda durub əldə dəyənək,
Vecinə almayır məlalı, canım.

Sən də peymanına vəfasız çıxma,
Gələn dərd-bəlanı qəlbə buraxma,
Buludtək toqquşub, şimşəktək çaxma,
Onsuz da görmədin cəlalı, canım.

Niyə cism evinə pərçim olmusan?
Bədənin içinə seçim olmusan,
Hönkürən, ağlayan içim olmusan,
Ey bədən evimin həlalı, canım.

Ağıldı ürəyin höküm verəni,
Zamandı ömrün meyvə dərəni,
Hər gün xoşbəxt etmir ömür sürəni,
Sən də cahan kimi bəlalı, canım.

Eşq həyat çeşməsin daddıqca doymur,
Ürəyi bir an da gözündən qoymur,
Hər doğulan ömrün qədrini duymur,
Yolunda dodaqlar dualı, canım.

Şadiman ağrıyla qovurdu vaxtın,
Qatıb köz yaşına ovurdu vaxtın,
Küləştək küləyə sovurdu vaxtın,
Keçirtdin içindən zəvalı, canım.

29.10.2015

YUXUDAN QALDIRDI MƏNİ

Misralar yuxudan qaldırdı məni,
Gəzdi qulağımda şərqilər kimi.
Apardı könlümdən dumanı, çəni,
Qəlbimi duyğuya qərq elər kimi.

Nəğməsi qulaqda zəngulə vurdu,
Çıxartdı ruhumu uca dağlara.
Ürəyin içində bir bardaş qurdu,
Könlümü hönkürtdü ağ varağlara.

Misralar eşqimlə halbahal oldu,
Sızlatdı bağrımın tellərin bir-bir.
Arı pətəyindən axan bal oldu,
Pətək yiyəsinə etmədi səbir.

Sözlər ovxalandı, sözlər qaynadı,
Bəndlərin içinə hay-haray saldı.
Qəlbim də təbimtək durub oynadı,
Qəmimin evinə gizli vay saldı.

Misralar yuxumun düşməni imiş,
Gözümdən min mənzil o yana qovdu.
Demə varlığımın o məni imiş,
Mənimi anlayıb duyana qovdu.

07.02.2015

SÖZÜN HAVASI

Hər sözün havası könlə yar imiş,
Onun da təşnəsi misradan başlar.
Dolanda buludtək qəlb bahar imiş,
Sözlər hönkürəndə gözləri yaşlar.

16.02.2016

MƏNİ TƏBƏ QOVUŞDUR

Başımdan bu bəlanı sovuşdur,
İlahi, məni təbə qovuşdur.

Odur mənim tükənməz ilhamım,
Başımım üstündə səma damım.

Gözdə həsrətim kölgələnməsin,
Kipriklərdən yaş ələnməsin.

Hər şeyin əvvəli, axırı olur,
Ömür də yarpaq kimi solur.

Öncə bahar adlı nazı gəlir,
Sonra sapsarı payızı gəlir.

Sən o payızı gəlməyə qoyma,
O mələk eşqimi ölməyə qoyma.

İçimdə çalxalanan qəhərim,
Çalxalandıqca çıxır bəhərim.

Başımdan bu bəlanı sovuşdur,
İlahi, məni təbə qovuşdur.

21.10.2015

QAPIMI DÖYƏN MİSRA

Qapımı döyən misra,
Görürsən gecə yarı.
Ağrımı öyən misra,
Aman ver, yataq barı.
Tökmə cana ah-zarı.

Hamı yatıb, biz oyaq,
Gecə də mürgüləyir.
Gözlərə yuxu qoyaq,
Bədən yatmaq diləyir.
Gəl ona olaq dayaq.

16.02.2016

BU HƏSRƏTDƏN AL MƏNİ

Ümidlərim solğunlaşan payızdı,
Sevirsənsə, bu həsrətdən al məni.
Qəlb evimə qəfil gələn dərd sızdı,
Ey ilhamım, ürəyinə sal məni.

Görürsən ki, yollarımda yoxuşlar,
Taleyimə tor toxuyan baxışlar,
Yağır haqdan ömür günə yağışlar,
Salır sonsuz tələtümə hal məni.

Hələ bağrın alovları sönməyir,
Qəlb alışır, atəşinə dinməyir,
Dəli könül yuvasına dönməyir,
Çəkir kama, arı təki bal, məni.

Yuxularım qatma-qarış olubdu,
Hicranınla qəlbdə barış olubdu,
Həyatımda bir sıçrayış olubdu,
Gözəl təbim, cuşa gəlib, çal məni.

Kainatlar müəmmayla çuğlaşır,
İnsan ömrü zamanına bağlaşır,
Nə müddətdi ağlım qəlblə ağlaşır,
Hissim edib misralara qul məni.

Şadimanın dünyası var xəlvəti,
Ürəyində coşan sözlər sərvəti,
Yox onların zərrə qədər mürvəti,
Çalxaladır tutduqları yol məni.

01.10.2015

BU GECƏ YUXUMA GƏLİB

Bu gecə yuxuma gəlmişdi təbim,
Yuxumu gözümdən qovub apardı.
Qəlbin tələtümün bilibdi təbim,
Ağrımı köksümdən sovub apardı.

Baxdı Şadimana məsum çocuqtək,
Dodağı bal daddı, gözləri atəş.
Tutub ayaqladı dərdi palçıqtək,
Zülmətin içindən parladı günəş. **16.02.2016**

ŞAİRİN HƏYATI ONSUZ DA ZİNDANDIR

Saday Şəkərliyə

Şairin həyatı onsuz da zindandır,
Hönkür-hönkür ağlayan candır.
İçdə bulud təki çarpışan həyəcandır.
Dünya ağrıları qəlbinə sığmaz,
Bəxtinə günəş doğmaz.
Bütün əzablar bağrından keçər,
Hər gün min dəfə qanını içər.
Şairə məhkümluq həyatı qıyanlar,
Alışan bağrını dərdlə oyanlar,
Şairin zindanı ürəyidir,
Sevgisi ilham mələyidir.
Şairin harayı – misrası,
Olmayın şair qələminə asi.
Şair zindana düşsə,
zindan zindanlıqdan çıxar,
harayı aləmi yıxar.
Şair ürəyinin ağrısı yuxusuz gecələrə çıraq,
Bütün ağrı-acılardan verər soraq.
Onun ilhamını hürkütməyə çalışmayın,
Buludlartək hönkürtməyə çalışmayın.
Dünyanın dərdlərini deyənləri,
Öz içlərini yeyənləri,
Sizlər anlaya bilməz,
Anlayıb da haqq yola gəlməz.
Məhbəsi şairə yaraşdırmayın,
Allahın səbrini daşdırmayın.
Bu dünya şairə hicrandır,
Şairin həyatı onsuz da zindandır.

31.03.2016

BULAQ KİMİ

Qaynayırsan bulaq kimi,
Hardan axıb gəldin, ilham?
Şəkk dursan qulaq kimi,
Könlü necə buldun, ilham?!

28.04.2016

GETMƏDİN HEÇ VAXT

Gecə işığımsan, səhər nurumsan,
Çıxıb ürəyimdən getmədin heç vaxt.
Bəlkə bu dünyada tək qürurumsan,
Qurmusan könlümün içindəcə taxt.

Hara gedirəmsə gəzdin içimdə.
Mənimlə ağlayıb, gülürsən, ey təb.
Hönkürən buludam, sənsə seçimdə,
Könlün hər istəyin bilirsən, ey təb.

Körpəcə uşağam, həyanım oldun,
Laylatək ruhuma doldun, hər gecə.
Təkcə sən dərdimi duyanım oldun,
Mənim cəfakeşim oldun hər gecə.

Şirin xatirətək gəldin ağlıma,
Zəkamdan boylandın möcüzə kimi,
Hər misra içində döndün nağlıma,
Verqüldən, nöqtədən, hər sözə kimi.

İlin fəsillərin hekayə etdin,
Buludu şimşəkdən ayrı sanmadın.
Harda alışdımsa, sən ora yetdin,
Ürək yanmayanda sən də yanmadın.

Gizli ağrılara təbimim oldun,
Hansı ki, loğmanlar çarə bulmadı.
Bəlkə sən Allahdan qəlbimə yoldun,
Səni çarə sanıb məndən almadı…

Sən bir mələkmisal, mən aciz bəndə,
Sənin əhvalına tuşlandı ürək.
Qonağım olmusan hər ayda, gündə,
Pozmadı eşqinə heç andı ürək.

Almısan özündən bu Şadimanı,
Adamlar içində tənha gəzirəm.
Ey təbim, sən verdin hər bir fərmanı,
Əmrə müntəzirəm, hələ dözürəm.

28.04.2016

ÜRƏYİM

Sən mənə nələr yaşatdın,
İçimdə sevgi oyatdın,
Onu odumda qaynatdın,
Səndən başqa yox heç nəyim,
Ürəyim…

Bir sınıq ağac kimiyəm,
Əzabından ac kimiyəm,
Alovundan sac kimiyəm,
Səndən gizli yox diləyim,
Ürəyim…

Keçir hər günüm yanmaqla,
Yandın ağrını qanmaqla,
Eşqini belə anmaqla,
Oldun çarəsiz mələyim,
Ürəyim…

Gizlətdin içdə yarını,
Ağlatdın can vüqarını,
Hiss edirəm ah-zarını,
Dərdini necə ələyim?
Ürəyim…

Bədənə yaşam neməti,
İlahinin eşq hikməti,
Etmə özünə zilləti,
Səni oduma bələyim,
Ürəyim…

Şadimanın yox ümidi,
O təkcə sənə dost idi,
Sevgin bir qəfil qəsd idi,
Niyə olmusan kələyim?
Ürəyim…

09.06.2016

HEÇ NƏ YAZMAYIB BİZƏ

İztirabım,
Kəsilib tabım,
Bitməyən haqq-hesabım,

Hardasan?!
Sən ürək odum,
Sən ağız dadım,
Ərşə yüksəlib fəryadım…
Kəsilən nəfəsimə bir içim su ol,
Ruhumun can təması ol.
Səni günahlarımın içinə qatdım,
Günahlarımla bir yerdə əbədi batdım.
İndi məni heç yerdə arama,
Nə söyləyirsən söylə, qarama.
Nə qədər istəyirsən duz bas yarama.
Özümü və günahlarımı aparıb getdim,
Səni çəkdiyin əzablardan azad etdim.
Şad ol, əzizim,
Birliyimiz mümkünsüz bizim.
Məni bu adamlardan sanma,
Rica edirəm daha məni anma.
Mən bundan sonra ilhamımçın yaşayıram,
Onun ağrılarını çiyinlərimdə daşıyıram.
Əhvalımı sacda qovurma,
Ruhumu göylərə sovurma…
Bax pəncərəmi döyür təbim,
Odur mənim hər günə həbim.
Aç qapını, qoy gəlsin evimizə,
Bundan artıq Tanrı heç nə yazmayıb bizə…

14.06.2016

RUH ORTAĞIM

Yaman qəribsədim sənin üçün mən,
Söylə ruh ortağım, harda qalmısan?
Bilməm niyə sevdim, səni neyçün mən?
Könlümü ağrıya salan halmısan?!

Qəlbimin içində səddə dönmüsən,
Ürəkdə çıxılmaz həddə dönmüsən,
Əyilib bükülən qəddə dönmüsən,
Acı xəyallara yəqin dalmısan.

Dur gəl, ruh ortağım, masamda şam ol,
Örpəyə bürünən məsum axşam ol,
Qəfil ürəyimdə kükrəyən kam ol,
Gəlməsən, bilərəm bir xəyalmısan.

17.06.2016

BƏDƏN İÇİNDƏ

Gəzirsən bədən içində,
Canım, oylana-oylana.
Necə ömrü çən içində,
Anım, oylana-oylana?!

İşığın gözə çatmırsa,
Varlığın başı qatmırsa,
Sədan ruhumu tutmursa,
Yanım oylana-oylana.

Gecəmdən sabah oyanır,
Bu dünya nura boyanır,
Qarşımda kölgən dayanır,
Danım, oylana-oylana.

Dərdim kağızı tutmayır,
Sözüm ağızı tutmayır,
Bəxtim ulduzu tutmayır,
Sanım, oylana-oylana.

Qapanıb dərdin köşəsi,
Dağ olub içdə şişəsi,
Sınıb könlümün şüşəsi,
Qanım, oylana-oylana.

Şadimana tay var harda?
Keçir günü ahu-zarda
Nə vaxtdı donub damarda
Qanım, oylana-oylana.

17.07.2017

GÜN DÜŞÜR

Gün düşür damın üstünə,
Dam içində mən özüməm.
Qəm durur canın qəsdinə,
Dərdə ağrıyan sözüməm.

Sabah gecəmdən doğacaq,
İçimi hicran boğacaq,
Göyümdən gürşad yağacaq,
Sellərdən keçən iziməm.

Nə çoxdu əzən baxışlar,
Əyricə süzən baxışlar,
Könlümü üzən baxışlar,
Hər zülmü çəkən dözüməm.

Ruhum hönkürər adımı,
Ölərəm, bilər dadımı,
Sızlatdıqca can udumu,
Misralarda söz közüməm.

30.07.2016

İÇİMDƏ BİR SEVGİ VAR

İçimdə bir sevgi var,
Qəlbimi alıb qaçır.
Göydən yerə üz tutur,
Quştək səmaya uçur.

Buludlarla öcəşir,
Kainatda dolaşır.
Ürəyimlə birləşir,
Ruhumda cilalaşır.

Sözü dildən qoparır,
Misralarla bəzəyir.
Canı alıb aparır,
Yaman xətrimə dəyir.

Bütün günü ruhumla
Savaşır yağı kimi.
Birləşərək ahımla
Səslənir ağı kimi.

Aləmdən üz döndərib
yenə könlümə gəlir.
Qəmin qolunu gərib
sevgim hər gün yüksəlir.

Şükürliyəm Allaha
Həyat eşqim sönməyir.
Sevgim bağlı sabaha,
Haqq yolundan dönməyir.

03.08.2016

NƏDƏN MÜRGÜLÜSƏN

Nədən mürgülüsən, nədən yuxulu?
Ey göydən, səmadan yapışan canım.
Bədənin özünə bə‘zən qorxulu,
Varımla, yoxumla tapışan canım.

Həyat imtahanı sənə bahamı?!
Nəfəsin təngişir qəmə, ahamı?
Biztək ağrı çəkir deyirsən hamı,
Bədənlə min kərə qapışan canım.

Görürsən gülüşlər dodağa qonub,
Sənin taleyini haqq mənə yonub,
Hərdən tən içində qəfildən donub,
Verirsən ruhumdan bir nişan, canım.

Gəl tök ətəyindən daşı bircə yol,
Gedir haqq evinə bu irizcə yol,
Saldın ruh evinə söylə necə yol?!
Olma etdiyindən pərişan, canım.

Əzəldən içimə sığınan ahsan,
Gecədən gündüzə gedən sabahsan,
Yörəmdə toplanan səvab-günahsan,
Verirsən Tanrıdan bir nişan canım.

Bədən ağrılardan var-gəl eləyir,
Bə‘zən quzu təki içdən mələyir,
Çöküb önündə diz, imdad diləyir,
Ağrının özünə sarışan canım.

Səmada ulduzlar səf-səf düzülüb,
İçindən biri də, bir bax, süzülüb,
Deyən ətəyindən əlim üzülüb,
Ulduzlar içində sayrışan canım.

Sən ki, Şadimanın ruhuna qida,
Sənin varlığına haqdan var nida,
Ömrümlə öcəşən, ey dəli sevda,
Göylərlə, yerlərlə yarışan canım.

03.08.2016

MÖHNƏTİN AĞIRDI

Vaxt, möhnətin ağırdı,
Ruhumu yükləyirsən.
Baxışın ah doğurdu,
Canımı təkləyirsən.

Məni dözümə çəkmə,
Səbrimi sındırmısan.
İçimə alov tökmə,
Onu çox yandırmısan.

İnsaflı ol könlümə,
Zamanını ovxala.
Ruhuma tənbəl demə,
Heç zaman qalmıb dala.

11.08.2016

RUHUMU QORUYAN YUVAM

Hərdən sevincimsən, hərdən göz yaşım,
Ey mənim ruhumu qoruyan yuvam.
Fürsət ver ömrümlə qaynayım, daşım,
Kainatdan gələn bir ovuc havam.

Sən sirr məkanısan açması yoxdu,
Bədəndə gəzirsən can qiyafətdə.
Ömürün özü də, sanki yuxudu,
Gah bəxtəvər edə, gah bədbəxt edə.

Mən elə tələtüm içinə düşdüm,
Özüm də, özümdən sanki bezaram.
Zamanın əkdiyi biçinə düşdüm,
Bə‘zən etdiyimə özüm məzaram.

Dağıl içimdəki ey tənha yuvam,
Niyə sarsıdırsan məni boşluqda?
Dilimdə boğulur haqqıma duam,
Ruhum ayaqyalın qaçır daşlıqda!

11.08.2016

RUHUN ÇAĞIRIŞI

Şeir- ruhun çağırışı,
Ləpələnən gözün yaşı,
Hıçqırtdıqca dağı, daşı,
O gah şaqraq, gah asidir,
O İlahi təmasıdır.

Hansı qəlbdə çağlayırsa,
Cana könül bağlayırsa,
Həm gülüb, həm ağlayırsa,
Demək dilin havasıdır,
O İlahi təmasıdır.

O dərdlərin oxunuşu,
O hislərin toxunuşu,
Səmaların cənnət quşu,
Dilin qopan duasıdır,
O İlahi təmasıdır.

Şeir könlü sevən ürək,
Qəfil əsən dəli külək,
Eşqə şərqi deyən mələk,
Cana hicran qisasıdır,
O İlahi təmasıdır.

Bəlkə ruha o bir cəza,
Pıçıltısı cana sıza,
Ağıl çaşa, ürək qıza,
Kim deyər ki, susasıdır?!
O İlahi təmasıdır.

Şeir haqdan bir möcüzə,
Çalar verər bomboz sözə,
Dolar qəlbə, çıxar üzə,
Rəbbin ilham səmasıdır,
O İlahi təmasıdır.

Çox çalışdım qaçam ondan,
Qışqırıqla qopdu candan,
Fəryad çəkdi hər bir yandan,
Duydum canı asasıdır,
O İlahi təmasıdır.

Çox da uymun ona, dostlar,
Zülüm edir cana, dostlar,
Girir min bir dona, dostlar,
Qəlbi satıb-sovasıdır,
O İlahi təmasıdır.

Şadimanı çalxatdıqca,
İç evini laxlatdıqca,
Ağlı eşqlə yoxlatdıqca,
Candan hicran umasıdır,
O İlahi təmasıdır.

29.10.2016

YANĞI VAR

Ruhumda bir yanğı var,
Ocaq çatır könlümə.
Alıb candan qəhəri,
Ələm qatır könlümə.

Sığmayır heç otağa,
Dolanır sola, sağa,
Kabus olur yatağa,
Dərdi batır könlümə.

30.10.2016

GÜNÜM QARADIR

Könlü tapan gündən günüm qaradır,
Özüm də bilmirəm yönüm haradır?
İstəyin gah kədər, gah fərəh dadır,
Ruhuma sel təki axan misralar,
Ürəyi yandıran-yaxan misralar.

Səndən qurtulmağın yolun aradım,
Çalışdım min dəfə, canı aldadım,
Mən də bu dünyada rahatlıq dadım,
Bağrımda şimşəktək çaxan misralar,
Ürəyi yandıran-yaxan misralar.

19.12.2016

EŞQİMİZİN XATİRİNƏ

YAMAN AYRILMIŞIQ…

Yaman ayrılmışıq biri-birindən,
Körpülər, limanlar qovuşdurmayır…
Ürəyi oynadır istək yerindən,
Qüssədən gözlərdə yaş da durmayır.

Anlar saatlara qucağın açır,
Sinədə hicranın qəm dağın açır,
Canım qanadlanıb qəlbimdən qaçır,
Mənim mələlımı üzə vurmayır.

Sən də can deyirsən ağrılarıma,
Həsrəti öyürsən ağrılarıma,
Yollar cavab vermir sorğularıma,
Bəbəklər göllənir, sel qurumayır.

16.07.2012

MƏNƏ SAHİB ÇIXANIM

Mənə sahib çıxanım,
Dərdi-səri yıxanım,
Könlə baltək axanım,
Uzat əlini mənə,
Mən də can deyim sənə.

Könlümdə məhəbbətim,
Diləyimdə şərbətim,
Dünya boyda sərvətim,
Qoy gülsün üzün yenə,
Mən də can deyim sənə.

Səndən əziz kimim var,
Könül dolu qəmim var,
Sənli bir aləmim var,
Vurmasın eşqin tə‘nə,
Mən də can deyim sənə.

Şadiman cana bağlı,
Gedib yanına ağlı,
Qoyma qapımı bağlı...
Yığ sevgimi köksünə,
Mən də can deyim sənə. **27.12.2011**

SƏN ELƏ BİLİRDİN ÖLƏCƏM SƏNSİZ...

Sən elə bilirdin öləcəm sənsiz,
Sönüb gedəcəkdir şamı sevgimin.
Eşqimə dəlitək güləcəm sənsiz,
Səninlə bitəcək kamı sevgimin.

Həsrətdən boylanıb baxacam hər gün,
Getdiyin yollarda düşüb qalacam.
Ürəyi dərdinlə sıxacam hər gün,
Sənin xəyalına mehr salacam.

Ağrını yumaqtək könlə dolayıb,
Sevda ocağıma hicran tökəcəm.
Ürəyi çamurtək dərdə bulayıb,
Yük təki arxanca sonra çəkəcəm.

Sən elə bilirdin bir payız kimi,
Saralıb düşəcək ömrün günləri.
Əyər can tərəzim aha çəkimi,
Silərəm bəxtimdən toy-düyünləri.

Sənin düşündüyün bir güman imiş,
Güman da yollarla yeriyib gedib.
Elə zənn etmişdin bu fərman imiş,
Solğun mürəkkəbtək əriyib gedib.

Sən elə bilirdin öləcəm sənsiz...
Görürsən, ölümdən yuxardayam mən.
Eşqin ayağına gələcəm sənsiz,
Harda düşünürdün, gör hardayam mən?!

İndi Şadimandan sorma əhvalı,
Onun əhvalını sözündən soruş.
Əgər qarışırsa könlünün halı,
Onu sən məndən yox, özündən soruş.

01.01.2012

SƏNİ SEVMƏMƏK OLARMI?

De sənsiz qalan gecəmə,
Səni gözləyən küçəmə,
Hər sual dolu necəmə,
Heç bunu demək olarmı?
Səni sevməmək olarmı?

Ağrıdan keçib gələnə,
Əzabı seçib gələnə,
Həsrəti içib gələnə,
Hicranı öymək olarmı?
Səni sevməmək olarmı?

Ağlayıb gülən gözləri,
Dərdindən ölən gözləri,
Sirrini bilən gözləri,
Hicrana əymək olarmı?
Səni sevməmək olarmı?

Çıxart canından ağrını,
Yandırma aha bağrını,
Tutma gözlərim oğrunu,
Heç belə əmək olarmı?
Səni sevməmək olarmı?

Gəz Şadimanda günahı,
Ağlat gözündə sabahı,
Götür sevinci, ver ahı,
Heç bunu çəkmək olarmı?
Səni sevməmək olarmı?

06.01.2012

SEVGİLƏRİM SOLMAYIR

Sənə olan sevgilərim solmayır,
Uçuşurlar qanad açan quş kimi,
Sənsizlikdə ömrüm-günüm olmayır,
Parlayırlar gözlərimdə yaş kimi.

Niyə mənim ürəyimə girmisən?
Ancaq məni öz yanında görmürsən,
Sevdamıza gözəl çələng hörmüsən,
Düşüb qalıb qayalarda daş kimi.

Ağladırsan gözlərimi sevdana,
Nəyim varsa qanad açır ədana,
Burax məni, nolar, könül odana,
Görünməsin başqalara çaş kimi. **11.02.2012**

SƏNƏ DİLƏKÇƏ YAZIRAM

Sənə diləkçə yazıram,
Fikirimdə lap azıram.
Əhvalını sormaq üçün,
Görüm səsin gəlmir neçin?
Unutdunmu görən məni?
Hansı iş-güc yorub səni?
Xəyalına gəlirəmi?
Dərdi sənlə bölürəmi?
Yuxuların azırmı heç?
Mənə məktub yazırmı heç?
Qəlbin yenə göylərdəmi?
Dodaqların meylərdəmi?
Hicranına verə qəmi,
Unutdunmu ötən dəmi?
Güllü-çiçəkli bağımız,
O sevdalı xoş çağımız,
Gözlərinə görünürmü?
Xatirələr sürünürmü?
Ötənlərin sorağına,
Yazırmı eşq varağına?
Bu ağlayan çağlarımı,
Çəkdiyin qəm dağlarımı…
Ürəyindən keçirəmmi?
Gözlərinə köçürəmmi?
Aramızda qalın divar,
Qovuşmağa məsafə var.
Məsafəni addıma qoş,
Xəyalımın eşqiylə coş.
Qanad açan quşlar təki,
Gözdən qopan yaşlar təki,
Könlü götür yanıma gəl,
Qop ruhundan, canıma gəl.
Diləkçəm eşq sorağında,
Göyərçinin ayağında.
Sərhədlərdən qaçıb gəlir,
Sənə sarı uçub gəlir.
Çıx eyvana, boylan hərdən,
Qurtar məni dərdi-sərdən.
Diləkçəm xoş barat məndən,
Cavab gözlər könlüm səndən…

11.02.2012

ZAMANIMIZ UZAQ DÜŞDÜ

Zamanımız uzaq düşdü,
İl ayırdı yaman bizi.
Aramıza sazaq düşdü,
Doğradı ah-aman bizi.

Uzaqlaşıb ay-ilimiz,
Qovuşmayır heç dilimiz,
Gözümüzdə qəm selimiz,
Batırdı hər zaman bizi.

Sel içində əl-qol atdıq,
Dərininə enib batdıq,
Yuxularda əhdə çatdıq,
Röya etdi mehman bizi.

Kim deyir ki, sevda yoxdu,
O sevdadan özü qorxdu,
Öz sevgisin başa qaxdı,
Əfv eləsin iman bizi.

Ruhu xəyal oyatsa da,
Od içində qaynatsa da,
Təbiblər çox can atsa da,
Sağaltmaz heç dərman bizi.

18.04.2012

ATMARAM YERƏ

Səni ürəyimdə atmaram yerə,
Ürəkdə nə qədər ağrım olsa da.
Etiraf edirəm bunu min kərə,
Həyatım dərd ilə tənha qalsa da.

Gözümdə gülüşün çırağa dönüb,
Hicran küləklərin qovur qapımdan.
Çəkdiyim əzablar ayağa yenib,
Tökülən göz yaşın sovur qapımdan.

Sən gəl acıları sorma könüldən,
Onlar gəldiyitək çıxıb gedəcək.

Canımın ağrısın arama dildən,
O da sözlərimə baxıb gedəcək.

Elə taxt qurmusan ürək içində,
Sultanlıq edirsən duyğularıma.
Birləşib həsrəti dilək içində,
Eşqin yollar açsın sayğılarıma.

06.03.2013

BİR NAĞIL DANIŞ

Mənə gizli-gizli bir nağıl danış…
Nağılın heç zaman bitməsin, ey dost.
Özün də nağılın içinə qarış,
Ruhumun evindən itməsin, ey dost.

Qursun ürəyimdə bir quş yuvası,
Açsın bəbəyimdə min yaş yuvası.
Olsun öz sirriylə lap daş yuvası,
Dərdin əli ona yetməsin, ey dost.

Hərdən gözlərində kədər görürəm,
Hər kirpik içindən min qəm dərirəm,
Süfrətək könlümə onu sərirəm,
Ağrın ürəyimdən getməsin, ey dost.

Sən ki, nağıllardan keçib gəlirsən,
Eşqin şərbətini içib gəlirsən,
Ruhumu bir yuva seçib gəlirsən,
Oradan şər-xəta ötməsin, ey dost.

Sevda yolçuları ruhsevər olur,
Ah könlə girəndə, ahsevər olur,
Ömür də bir şamdır, yandıqca solur,
Günündə qəm-qüssə bitməsin, ey dost.

Mənə gizli-gizli bir nağıl danış…
Yazıq Şadimanla gah küs, gah barış,
Gəlsə də xəzandan sonra qarlı qış…
Xəzanla sevdalıq etməsin, ey dost.
Xəzanla sevdalıq etməsin, ey dost.

04.06.2012

BAĞÇAMIZDA İKİ LALƏ BİTİBDİ

Bağçamızda iki lalə bitibdi,
Qara xallar al üstünə yetibdi,
Ətrafında sarı bülbül ötübdü,
Üzlərində gəzişirlər duman, çən.
Ay sevgilim, biri sənsən, biri mən.

Bir-birinə baxışırlar nə vaxtı,
Oynadırlar zaman üstə pak vaxtı,
Ruhum coşdu, ürəyimə sel axdı,
Bu məhəbbət heç nə ilə gəlməz tən,
Ay sevgilim, biri sənsən, biri mən.

Mehlər əsir, yarpaqları titrəşir,
Nazik, incə saplaqları titrəşir,
Buta üstə papaqları titrəşir,
Mirvaritək şəbnəmləri lap dən-dən,
Ay sevgilim, biri sənsən, biri mən.

Deyirəm ki, möhnətlərə düşməsin,
Qüssə gəzib ürəkləri eşməsin,
Gəl seyr elə, şehlə dolu çeşməsin,
Xiffətlərə dözə bilmir könül, tən,
Ay sevgilim, biri sənsən, biri mən.

Şadimanın ruhu coşub yenə də,
Qəlb yerinə, bilməm nədir sinədə,
İki lalə açıb bizim binədə,
Etmək olmur nə günəşi, ayı tən,
Ay sevgilim, biri sənsən, biri mən.

02.05.2012

ƏLLƏRİN TOXUNUR KİRPİKLƏRİMƏ

Əllərin toxunur kirpiklərimə,
Kirpiklər üstündən yaşlar tökülür.
Tale avaz tutub çəpiklərimə,
Gözümdən selləmə yaşlar tökülür.

Hicran yuxularım daha gəlməyir,
Ürəyim hıçqırır, aha gəlməyir,
Kim deyir, qəm cana baha gəlməyir?
Dil haray qoparır, kaşlar tökülür.

Əllərin hərarət odunda yanır,
Qapımın ağzında həsrət dayanır,
Bu görüş lap mənə çovğunu anır,
Payızın bağrından qışlar tökülür.

Sevda yolçuları yolunda gərək,
Eşqə düşənlərin halında gərək,
Ayrılıq qandalı qolunda gərək,
Uçur qəlb sarayı, daşlar tökülür.

Mən də sevənlərlə dərd ortağıyam,
Həsrət bostanın hicran tağıyam,
Bülbülü qəfəsdə bir gül bağıyam,
Dilim topuq çalır, çaşlar tökülür.

11.10.2012

AVAZ GƏLDİ

Qonşuluqdan avaz gəldi,
Könlüm evinə yaz gəldi,
Avaz içində naz gəldi,
Bu səs gözəl bir afətmiş,
Qəfil gələn məhəbbətmiş.

Səsi elə yüksəlirdi,
Sanki qürbətdən gəlirdi,
Durub üzümə gülürdü,
Gülüşləri qulağımda,
Gəzdi evdə, otağımda.

Avaz dönüb bir qız oldu,
Tənhalığım yalqız oldu,
Taleyimdə ulduz oldu,
Ürəyimə közü düşdü,
Həyatıma izi düşdü.

Nişan edib, toy vurdurduq,
Qapımda mağar qurdurduq,
Qəmimi gendə durdurduq,
Rəqs edib birgə oynadıq.
Eşqlə qarışıb qaynadıq,

Çevrəmdə dostlarım artdı,
Süfrəmə sağlıqlar qatdı,
Ürəyim vüsala çatdı,
Qonşuluqdan gələn avaz,
Həyatımı eylədi yaz. **12.10.2012**

AXTARIRDIM

Axtarırdım yeni həyat,
Quşlar təki açsın qanad,
Gülsün zaman, gülsün saat,
Hisslərimə mərhəm olsun,
Ürəyimə məlhəm olsun.

Axtarırdım yeni görüş,
Müjdə versin təzə gəliş,
Səpələsin incə gülüş,
İz düşməyən sahəm olsun,
Ürəyimə məlhəm olsun.

Acıları selə verə,
Alıb qəlbdən yelə verə,
Səda düşsün göyə, yerə,
Ömrə gələn xoş dəm olsun,
Ürəyimə məlhəm olsun.

Axtarırdım zamanımı,
Heç qırmasın gümanımı,
Ağlatmasın peymanımı,
Könlümə şux aləm olsun,
Ürəyimə məlhəm olsun.

Fələk mənə dönüb baxıb,
Axtardığım gəlib çıxıb,
Dərdin evin vurub yıxıb,
Gözdə sevinc şəbnəm olub,
Ürəyimə məlhəm olub.

12.10.2012

KÖRPÜ ÇƏKİLDİ

Keçirdi həyatım kədər içində,
Gözümdə donurdu dünyanın yaşı.
Qaçan saatlarım hədər içində,
Gözüm axtarırdı dostu, sirdaşı.

Bir gün qonşuluqdan xoş avaz gəldi,
Doldu qulağıma səsi, sədası.

Sanki həyatıma güllü yaz gəldi,
Yandırdı könlümü nazı, ədası.

Bu avaz şahanə eşqə çevrildi,
Gözündən könlümə axdı məhəbbət.
Bağrımda taxt quran qüssə devrildi,
Qəlbimi yandırıb-yaxdı məhəbbət.

Birgə əhd bağladıq, toy-büsat qurduq,
Nağara səsini tar-kaman aldı,
Süfrə arxasında biz dövrə vurduq,
Şadlığa gələnlər toya hay saldı.

Artdı çevrəmizdə dostlar, tanışlar,
Həsrətli günlərim qeybə büküldü.
Getdi həyatımdan payızlar, qışlar,
Güneydən Quzeyə körpü çəkildi.

16.10.2012

BAHANƏ AXTARIRSAN

Yenə də küsmək üçün bahanə axtarırsan,
Küsməyin yollarını şahanə axtarırsan.
Üzündən, gözlərindən sonsuz giley oxunur,
Sənin biganəliyin ürəyimə toxunur.
Gecənin soyuqluğu yəqin üşüdür səni,
Hicranın qübarıyla əzməkdir işin məni.
Deyirsən ki, gedirsən, getməyinə getginən,
Əvvəl mənim dərdimi canımla bir etginən.
Oyat ürəyimdəki yatmış ağrılarımı,
Qəlbimi müsibətə atmış ağrılarımı.
Qoy ocağım soyusun, qazanım qaynamasın,
Gözlərimdə sevincin nəş‘əsi oynamasın.
Qap-bacamı bağlasın üşüyən yalqızlığım,
Bir zamanlar sevginin gözündə ulduzluğum…
Pəncərəmdən boylansın ağlayan xəyallarım,
Ürəyinin başında yas tutan vüsallarım,
Getdiyin yola düşüb ağlasın hönkür-hönkür,
Olum ayıran Araz, sən isə qəzəbli Kür.
Qoy yuyaq könlümüzdən alışan istəkləri,
Yandıraq ayrılığın odunda ürəkləri…
Bütün sadıqlarımdan bir xeyir gəlməz bizə,
Olsa, olsa, soyuqluq yol salar evimizə… **24.09.2012**

SƏNİ NECƏ İNANDIRIM?

Ürəyimdə ölüb qalan sözlərimi tabutlayım?
Xəyalına yaşlar tökən gözlərimi tabutlayım?
Ürəyimdə yara açan közlərimi tabutlayım?
Ruhun ilə sevdalaşan qəlbi oddamı yandırım?
Məhəbbətin dili yoxdu səni necə inandırım?

Bəsdir daha həsrətimə qar ələdin baxışınla,
Bəbəyimdən dayanmayan yaş sellədin baxışınla,
Kirpiklərin çəpərindən əl yellədin baxışınla,
Hansı acı məlhəm ilə bu ağrını dayandırım?
Məhəbbətin dili yoxdu səni necə inandırım?

Hicran dolu günlərimə ölçü-biçi axtarıram,
Atdığım hər addımımdan doğan suçu axtarıram,
Baxışının karvanından keçən köçü axtarıram,
Mürgüləyən zamanını bir yuxudan oyandırım,
Məhəbbətin dili yoxdu səni necə inandırım?

29.10.2012

MƏN NİYƏ GÖZLƏDİM

Mən niyə gözlədim yolunu sənin?
Bir ömür beləcə bitdi çarəsiz.
Ötən günlərimiz kino lentitək
Gözlərim önündən ötdü çarəsiz.

Şübhələr dolaşdı yuxularımı,
Həyat ətri verən qoxularımı,
Ağlatdı, güldürdü qorxularımı,
Ocaq tüstüsütək itdi çarəsiz.

Əqlin biganəlik libasın geydi,
Eşqin qarşısında özünü öydü,
Dəli hıçqırtılar qəlbimi döydü,
Sənə xəyallarda yetdi çarəsiz.

Bir ömür bəs etməz deyirdin mənə,
Gözümə sığınan nəm batıb çənə,
Məhəbbət, əmanət etmişdim sənə,
Ürəkdən ayrılıb getdi çarəsiz. **08.02.2013**

DOLAŞIR MEHTƏK

Eşqin ürəyimdə dolaşır mehtək,
Həzin kədərləri gətirir mənə.
Ələnir kipriyə titrəyən şehtək,
Yeni ah selini yetirir mənə.
Mənsə can deyirəm hər zaman sənə.

16.02.2016

YUVASINA GƏLMİSƏN

Sakit-səssiz könlümün yuvasına gəlmisən,
O titrək baxışların üzünə kölgə salıb.
Məhəbbətin keçilməz havasına gəlmisən,
Susuruq, danışmırıq gözüm gözündə qalıb.

Anların sükutunu pozur ürək odumuz,
Zaman, sanki utanır bu həyacanımızdan.
Dillərdə tüğyan edir eşqə müti adımız,
Sevdalanmış duyğular çıxmayır canımızdan.

Ağrıların içində baxırıq bir-birinə,
Deməmişkən ağrının özü də şirin imiş.
Köks içində çırpınır sevda ürək yerinə,
Onun ayrılığı da əzabdan dərin imiş.

Pıçıltıyla oxşayır dodaqların ruhumu,
Əsirəm əsim-əsim gələn səsin içində!
Susub eşitməyirsən qopan könül ahımı,
Qəlb quş təki titrəyir xoş nəfəsin içində.

Duyğular səltənəti ürəkdə qəsir qurub,
Gecənin xoş təması üzümüzü yelpiklər.
Ay da məsum körpətək göydə boynunu burub,
Salıb ayağı altda ulduzları təpiklər…

Birdən gözümü açdım, gördüm yataqdayam mən,
Yastığımı isladıb gözümdən axan yaşlar.
Üzümə tavan baxır, tənha otaqdayam mən,
Dan üzü ağarmada yenə də səhər başlar…

07.03.2016

DEYİRLƏR

İkimiz də bir zamanın övladı,
Biri sənsən, biri mənəm deyirlər.
Beynimizdə cövlan edir eşq adı,
Ona canda nazlı sənəm deyirlər.

Gah yuxuya girib qəlbi küyləyir,
Gah özünü mələk sayaq eyləyir,
Səndən mənə, məndən sənə söyləyir,
Ocaq çatıb, yanır sinəm deyirlər.

Qanımıza hicran girib qaynayır,
Günümüzlə, ayımızla oynayır,
Qol götürüb dərdimizə oynayır,
Göz buluddu, kirpik nəmdi deyirlər.

Məhəbbətin varmı sorğu-sualı?
Özün söylə, kimə deyim bu halı?
Acıları çəkənin yox zavalı,
Niyə eşqə bir aləmdi, deyirlər?

Bu da bizim ömrə düşən həyatdı,
Kölgəsində ay uzandı, gün batdı,
Taleyimiz başın atıb bərk yatdı,
İndi bizə bəxti kəmdi deyirlər.

30.01.2013

GÖZLƏRİNƏ DENƏN Kİ…

Gözələrinə denən ki,
Gözlərimdən keçməsin,
Könlümün bulağına
Bardaq vurub içməsin.

Həyat uzun bir nağıl,
Udur, uduzur ağıl,
Gün deyil şirin noğul,
Dil-dodaq inciməsin.

Gözlərinin nəğməsi,
Qəlbimə can deməsi,
Qulağa gəlir səsi,
Ürək necə seçməsin? **05.11.2013**

MƏTLƏB İSTƏYİR

Gülüşlər qonub dodağa,
Bir incə mətləb istəyir,
Vurur özün daşa, dağa,
Ürəyimdən təb istəyir.

Çeşmə-çeşmə sular təki,
Zirvələri çalar təki,
Gəlib qəlbi alar təki,
Yara vurub, həb istəyir.

Heyrətinə bürünmüşəm,
Arxasınca sürünmüşəm,
Hara baxsa, görünmüşəm,
Hər eyhamda dəb istəyir.

Gülüşlərin əvəzi yox,
Çəkəcəyim tərəzi yox,
Mənimlə bir qərəzi yox,
Qəmimdən ədəb istəyir.

12.02.2013

ÜRƏYİMİN TELLƏRİN QIRDIN

Mənim ürəyimin tellərin qırdın.
Ora həsrətinin mizrabın vurdun,
Niyə istəkliykən qəsdimə durdun?
Bəs hanı çəkdiyin iztirabların?
Bitməyir etdiyin can əzabların.

Seyrəlmiş ümidim payız yarpağı,
Titrəyir mehlərdən çılpaq otağı,
İsladır göz yaşı soyuq yatağı,
Kəsibdi möhnətin ruhun tabların,
Bitməyir etdiyin can əzabların.

Mən də möhnətlərlə dərd ortağıyam,
Bostanı saralmış hicran tağıyam,
Yanan istəyimə özüm yağıyam,
Qəlbdə vur-çıx edir haqq-hesabların,
Bitməyir etdiyin can əzabların.

05.03.2013

KÖNÜL QAPIM SƏNƏ AÇIQ

Könül qapım sənə açıq,
Tələsmə gəl bağlamağa.
Yuvamızı etmə uçuq,
Qoyma qəlbi ağlamağa.

Göz öyrəşib, can ulaşıb,
Ürək ilə eşq suvaşıb,
Qoyma ömrə qəm bulaşıb
Sevdamızı dağlamağa.

Günün min bir qayğısı var,
Gah dərdi, gah sayğısı var,
Zülmətin can uyğusu var,
Gedək sübhlə çağlamağa.

İmanımız azalmasın,
İnamımız sozalmasın,
Başımızı dərd almasın,
Eşqlə çapaq sola, sağa.

Mən nazənin yar olaram,
Hər gününə var olaram,
Hər nə desən kar olaram,
Gəl birgə əhd bağlamağa.

13.02.2012

DOLAŞIB QALMIŞAM

Dolaşıb qalmışam öz gümanımda,
Yar məni yadına salmır ki, salmır.
Batmışam ürəklə ah-amanımda,
Gəlib bir könlümü almır ki, almır.

İnciyib küsəndə könlüm ahlanır,
Gecənin köksündə qəlb günahlanır,
Köksümdə bir ümid işığı yanır,
Bəxtimin evində qalmır ki, qalmır.

Mən də hicran alıb dərdə düşürəm,
Özüm öz bağrıma lap hay-həşirəm,
Acımı taxtından necə düşürəm?
Yar gəlib qapımı çalmır ki, çalmır.

14.05.2013

ÇIXIB GƏLMİSƏN

Yağışın içindən çıxıb gəlmisən,
Ruhumu dindirən küləklər təki.
Bütün sərhədləri yıxıb gəlmisən,
Ağıl dərk etməyən mələklər təki.

Yağmurtək gözlərin dolub sənin də,
Bəbəkdə dolaşır çiskin, çənin də,
Sevdalar toy qurub vüsal günündə,
Hissləri qaynadan diləklər təki.

Yağış da yuyunur göy-yer tozundan,
Boğaza yığılıb bulud nazından,
Sanki layla gəlir xoş avazından,
Ruh oxşar sevdalı ürəklər təki.

Niyə yağış ilə qol-boyun oldun?
Bu ürkək çağıma bir oyun oldun,
Dəli istəyimə sən boyun oldun,
Gəzirsən qəlbimdə kələklər təki.

Yağış da yorulub çıxıb gedəcək,
Buludu özünə yuva edəcək,
Gözlərim hər yerdə səni güdəcək,
Qəlb səni gəzəcək dirəklər təki.

19.02.2013

KƏSİLİBDİ ÜLFƏTİN

Nə müddətdi kəsilibdi ülfətin,
Ürəyimdən qara qantək axırsan.
Sevdan ki var, yoxuşları çox çətin,
Ordan qorxunc şimşəklərtək çaxırsan.

Haylanırsan xəyalımın başına,
Çırpılırsan hicranların daşına,
Çıxan gündən taleyimin qarşına,
Ocağında yandırırsan, yaxırsan.

Gözlərimin kədərləri şeh tutub,
Sənə yetməz harayımı meh tutub,
Qəlb bağıma baxışların daş atıb,
Özün durub, hələ gendən baxırsan.

06.03.2013

KÜSMƏ MƏNDƏN, KÜSMƏ

Duyğularım qəsirdi,
Onun kərpicləri ümidlərimdi.
Könlüm sənə əsirdi,
Hicran dolur nəfəsimə,
Küsmə məndən, küsmə.

Hər şey keçib gedəcək,
Zaman anları yiyən böcək.
Ötüb keçən günləri tələsdirir,
Başımızda hicran küləkləri əsdirir,
Zilini qat səsimə,
Küsmə məndən küsmə.

Biz hər şeyə qıyğacı baxırıq,
Həyatımızı taleyin
öhdəsinə buraxırıq,
Ayrılıq qapımızı açanda,
Dəli təki üstümüzə qaçanda
darıxırıq…
Aramızdakı bağlılığı kəsmə,
Küsmə məndən, küsmə.

05.03.2013

BAXIRSAN MƏNƏ

Qarşıdan boylanıb baxırsan mənə,
İllərin zamana baxdığı kimi.
Tutulub göylərtək bənizin yenə,
Şimşəyin buludu yaxdığı kimi.

Gərək qəm küləyi belə əsməsin,
Ürəkdən fərəhi qoparıb alır.
Heç kəsin qapısın hicran kəsməsin,
Canda ölənədək niskili qalır.

Xəyalın vidalar içindən gəlir,
Qapıma, bacama xəzan gətirir.
Sevdanın bir qəfil köçündən gəlir,
Könlümdən keçəcək yolun itirir.

Bu da ömrümüzün tale naxışı,
Bürünüb boyaya xalılar təki.
Hərənin bir cürə həyat baxışı…
Ona da eyləmək olmayır ərki.

Şadiman fərəhlə qəm əlləşdirir,
Gah biri uduzur, gah biri udur.
Ürəyi canıyla çox güləşdirir,
Bütün varlığını qəm diri udur.

24.03.2013

GÖZÜMDƏN BOYLANIR GÖZLƏRİN YENƏ

Gözümdən boylanır gözlərin yenə,
İşığı ağlıma salıb aparır.
Alışır atəşlər içində sinə,
Ocaqdan odumu çalıb aparır.

Bu nə səyyarədir, bu nə kəhkəşan,
Gəlib ürəyimi almısan nişan,
Könlünə könlümü kim verib nişan?
Oraya mə'rəkə salıb aparır.

Bürünüb xəyalın qorxularıma,
Kölgətək sürünür yuxularıma,
Rahiyən ələnir qoxularıma,
Güllərin ətrini alıb aparır.

Şadiman körpəcə uşağa dönüb,
Dərvişi divanə aşığa dönüb,
Gözü zəhər udan qaşığa dönüb,
Ürəkdə nə odu qalıb, aparır...

09.04.2011

BU NƏ GÜLÜŞ GÖZLƏRİNDƏ GÖRÜNDÜ

Bu nə gülüş gözlərində göründü,
Göz yiyəsi gülüşlərin var olsun.
Baxışlarım bəbəyinə süründü,
Gözün gözlə görüşləri var olsun.

Səadətdən çiçəkləyir diləyim,
Bu sevdaya ürəkləyir diləyim,
Gəl, rəssam baxışlara rəng verim,
Tablosuna çəkdikləri yar olsun.

Məhəbbətin əzabı da şirindi,
Hər əzabın içində can göründü,
Şadiman ki, elə sənin dirindi,
Qışqırımmı, bu aləmə car olsun? **16.04.2011**

YAMAN DƏYMİSƏN

Sən mənim könlümə yaman dəymisən,
Onu heç nə ilə ovutmaq olmur.
Bütün körpüləri yıxıb əymisən,
Əvvəlki günlərə qayıtmaq olmur.

Ümidi sozalıb ötən günlərin,
Fərəhə qurduğun toy-düyünlərin,
Açılmır vurduğun dərd düyünlərin,
Yanan ürəyimi soyutmaq olmur.

Sən könül qırmaqda birinci oldun,
Bütün həsrətlərin sevinci oldun,
İçdə bəslədiyim bir inci oldun,
O qədər cəlb edir heç atmaq olmur.

Salmısan könlümü dərd çeşməsinə,
Kimsə fəryadımın gəlmir səsinə,
İsinmir həyatım xoş nəfəsinə,
Xəyaltək ona da bir çatmaq olmur.

Səndə bu dəlilik, çılğınlıq nədən?
Ey könül evimi tarimar edən,
Deyirsən heç zaman qayıtmır gedən,
Eşq cana düşəndə çıxartmaq olmur.

Bir mürvət toxumu əkəydin qəlbdə,
Atıb özülünü tikəydin qəlbdə,
Çoxdan kərpicləri quruyub qəlbdə,
Ümid sarayını ucaltmaq olmur.

Sən mənim könlümə yaman dəymisən,
Onu heç nə ilə ovutmaq olmur.
Bütün körpüləri yıxıb əymisən,
Əvvəlki günlərə qayıtmaq olmur.

28.10.2014

SƏNSİZ NƏ EDƏCƏM

Gözlərim kədərdən boylanıb baxır,
Canın dövrəsinə haylanıb baxır,
Anım əzabıma vaylanıb baxır,
Sənsiz ötməyəcək çən bu şəhərdə,
Sənsiz nə edəcəm mən bu şəhərdə?

Ötən günlərimi soraqlayacam,
Xatirə dəftərin varaqlayacam,
Hicran tellərini daraqlayacam,
Boğulub qalacaq canım qəhərdə,
Sənsiz nə edəcəm mən bu şəhərdə?

Kirpriklər döyəcək baxışlarımı,
Bəbəklər doğacaq yağışlarımı,
Ağrın qoparacaq sərt qışlarımı,
Könlümün qədəhi daşar zəhərdə,
Sənsiz nə edəcəm mən bu şəhərdə?

Bilirsən, ayrılıq əzabdır cana,
Ağlım dilənçidir hiss-həyəcana,
Qıyıb səbəb olma, bunca hicrana,
Asılıb qalacaq ruhum səhərdə,
Sənsiz nə edəcəm mən bu şəhərdə?

Hönkürüb ağlayar getsən küçələr,
Qara örtüyündən çıxmaz gecələr,
Qəlbim haray salar, anım incələr,
Daşacaq həsrətin bağı bəhərdə,
Sənsiz nə edəcəm mən bu şəhərdə?

16.11.2012

DİLİMDƏ DOLAŞAN

Dilimdə dolaşan hicranın imiş,
Hissimi ağladır, könlümü üzür.
Qəlbə həmdəm olan tək canın imiş,
Çoxdandı ruhumun evində gəzir,
Həsrət sevdamızdan istəyir üzür.

16.02.2016

KÜSÜB BARIŞIRSAN
nəğmə

Evdə küsüb barışırsan,
Hər sözümə söz qoşursan.
Ürəyimlə yarışırsan,
Tez qaynayıb, tez daşırsan.

Belə olmaz axı, yar,
Gedib səbrin çoxu yar.
Eşqim əl-aman edir,
Yaman düşüb qorxuya.

Dağıdırsan aləmi,
Püskürürsən alovtək.
Gözdə oxşa naləmi
At dəryaya tilovtək.

Kəsilibdi güman, yar,
Alıb üstü duman yar.
Səni sevir ürəyim.
İnanmırsan, götür yar.

10.02.2014

MƏHƏBBƏT BİR ƏMANƏT

Məhəbbət bir əmanət,
Hər kəs anlasın gərək.
Ona canlar zəmanət,
Hər ürək yansın gərək.

Onu qorumaq lazım,
O həyatın özüdür.
Qəlbə sarımaq lazım,
O ilahi közüdür.

Məhəbbət duyğuların
Qaynayan çeşməsidir.
İnsana sayğıların
Can isidən səsidir.

Ürəklər şölələnsin
Sevginin günəşinə.
Duyğulara ələnsin,
Can yansın atəşinə.

Heç bir qəlbin ünvanı
Qüssə, kədər bilməsin.

Bəzəsin eşq yuvanı,
Hicran qalib gəlməsin.

Bu diləklə Şadiman
Çağlayır gecə-gündüz.
O hər bir cana dərman,
Onun möhtacıyıq biz.

15.06.2014

ÜRƏYİMİ CAN BİLİB

Gözlərinin kədəri qəlb içində ah edir,
Uyğulara gəlişin gecəni sabah edir,
Yenə də baxışların ev yıxır, günah edir.
Bunu düşünmüsənmi, ay evi abad olmuş?
Ürəyimi can bilib, ürəyinə yad olmuş.

Məhəbbəti beləmi yazdı qədərim bizə?
Sən alışıb yanmağı bağlama ocaq-közə,
İmkan vermə səbirin ayrılıqlara dözə.
Sənə yetişmək üçün dilimdə imdad olmuş,
Ürəyimi can bilib, ürəyinə yad olmuş.

Sənin düşündüyüntək asan deyil ki həyat,
Bu acı intizarı bacardığıntək uzat,
Özünü də, məni də ağrı-acılara at.
Söylə, həsrət sarıdan bəs kimlər azad olmuş,
Ürəyimi can bilib, ürəyinə yad olmuş?

Cahan özü əzablar, min ağrılar içində,
Həsrət qala ucaldıb çox bağırlar içində,
Dil yalanlar söyləyir qəlb doğrular içində.
Söylə mənə ayrılıq hansı dildə dad olmuş?
Ürəyimi can bilib, ürəyinə yad olmuş.

Şadimanın acıları ürəyinə düşmədə,
Sevgim intizarınla sinədə yerləşmədə,
Fani dünya bilirsən ki, həmişə dəyişmədə.
Burax ağrı-acını eşq cana ustad olmuş,
Ürəyimi can bilib, ürəyinə yad olmuş.

26.11.2014

BİLİRSƏN Kİ, SEVİRƏM

Bilirsən ki, sevirəm,
Sevgi hicran oyunu.
Dərd dolu könül çevrəm,
Necə görəsən onu.

Gecənin sakitliyi
Ürəyə intizardır.
Əzabımın kütlüyü,
Qəlbə donuq məzardır.

Dilim səndən danışır,
Mənsə donub baxıram.
Xəyalınla yarışır,
Öz-özümdən qorxuram.

Sükutun dərinliyi
Dəli edəcək məni.
Qur könlümə şənliyi,
Qəlbə buraxım səni.

27.11.2014

YAMAN İNCİMİSƏN

Yaman incimisən məndən, ey yarım,
İnciyib küsəndə ürəyimə gəl.
Səbəbin sormuram səndən, ey yarım,
Sən də dur dinməzcə diləyimə gəl.

23. 12.2014

MƏNİ SEVDAYA SALAN

Məni sevdaya salan,
Üşüyür bu könül, can.
Ömrümün payız çağı,
Qopub düşüb qəlb tağı.
Hardan gəldin könlümə?
Mənə sevgidən demə,
O ki, canın əzabı,
Fırtına iztirabı…
Onun boyun öymə gəl,
Ürəyimə dəymə gəl.

Məhzun-məhzun baxırsan,
Ürək evin yıxırsan.
Davranışın sazaqdır,
Zaman bizdən uzaqdır.
Yollar uzanıb keçir,
Qəm özü yanıb keçir.
Qəlbi ortada qalan,
Məni sevdaya salan.

12.01.2015

BU NECƏ MƏHƏBBƏTDİ

Bu necə təbəssümdü, bu necə məhəbbətdi?
Bu necə ürəyimə saldığın ibadətdi?

Ağılımın içində möhtəşəm qala yapdın,
Əzizim, söylə, məni axtarıb necə tapdın?

Bağırımda köz olan sözlərim gəl-gəl deyir,
Səni gəzib arayan gözlərim gəl-gəl deyir.

Əngin üfiq içində gəzir səsim, sorağım,
Sənə köklənib saztək dinir könül fərağım.

Möhtəşəm görkəminə hansı şərqini qoşum?
Yenə də dəli hissim, dəli ilhamım coşub.

Gəl könül bağçasının çiçəklərin çələng et,
İçimdə cövlan edən acılarımla cəng et.

Baxışların könlümdə sevgi yuvası qurub,
Aradakı iztirab hər ikimizi yorub.

Təbəssümün könlümün döndü çıraqdaşına,
Dolanır can pərvanəm hər cecə yar başına.

12.01.2015

MƏNƏ SEVGİDƏN DANIŞ

Mənə sevgidən danış,
Bu sevdalı bir yarış.
O sevgi ki, can desin qəlbə ömrü uzunu,
Qoyma payızım gəlsin, gətir bəxtin yazını.
Ürəkdəki ağrını qovsun həmişəlik,
Can içinə şadlığı salsın bəxtəvərlik,
Yayılsın ürəyimə incə xoşqılıq.
Fikirlərim öc alsın bu eşqin gərdişindən,
Qurtarsın həyatımı ayrılığın dişindən.

Bu könül ehtişamı,
Gurlatsın qəlbdə kamı,
Alışsın həyat şamı,
Bir qədər deyib-gülək,
Qəmin bağrını dələk.

Mənə sevgidən danış.
Eşq olsun ürəyimə, həyatıma qayıdış.
Əski günlərimizin acısını gömüldək,
Qəmi gözünə dürtək.
Nə aparıb gedərik de həyatdan, əzizim,
Sənինlə cilvələnir uçur gecə-gündüzüm.
Onların qanadını qırma zülmkar kimi,
Nədir ürəyə yaxın? De, sevdalı yar kimi.
Mən sənin işığına çırpınan bir quş oldum,
Mənim sevdalarıma dinməyəndə daş oldum!

Nə qalacaq bizlərə,
Qəlb yandıran közlərə,
Bir atəşli ocaq ol,
Ürəyimə sıcaq ol.

Mənə sevgidən danış,
Ölç günü qarış-qarış…
Bağçamda ağaclara bülbülləri çağır gət,
Həyatımda fırtına, bir titrəyiş doğur gət,
Gecələrin üzünə sığal çəksin gözlərin,
Ürəyimə təb adlı çiçək əksin sözlərin…
Hər tərəf gur çilçıraq, hər tərəf qoy nur olsun,
Səni mənə bağlayan nazəndə qürur olsun.

Sevgi canda var kimi,
Həyat yolu qar kimi,
Sevda izlərin olsun,
Canda közlərin olsun

Mehriban bir davranış,
Mehriban bir oyanış,
Gülüşə deyək alqış,
Qəlbə məlhəm xoş baxış…
Getsin könüldən bu qış…

Mənə sevgidən danış
Mənə sevgidən danış…

12.01.2015

ULDUZLAR PARLAR

Gecə səmalarda ulduzlar parlar,
Parlaq işıq saçar surətin kimi.
Buludlar işığı tutub qamarlar,
Ay da gülümsəyər heyrətin kimi.

Sən elə heyrətlər içindən çıxdın,
Ağlımı, hissimi əlinə aldın.
Bütün uçrumları bir anda yıxdın,
Qəlbimin evində yenə sən qaldın.

Nə çoxdur ömürün qaranlıqları,
Zülməti gözləri kor edir sanki.
Qüssələr çox sevir viranlıqları,
Həyatın özünə zor edir sanki.

Ürək daxilində can yerləşirmiş,
Mən bunu öncələr heç bilməmişdim.
Sevgi ildırımtək qəlbdə həşirmiş,
Onu dərk edən gün mən dərdə düşdüm.

Səni çox sevirəm, özün bilirsən,
Bunu baxışımdan soruşma daha.
Hər gün yuxulara eşqlə gəlirsən,
Gedəndə can düşür qüssəyə, aha.

Sən təəccüb doğuran hissim olmusan,
Səni əmin etmək istəyirəm mən.
Ruha şərqi çalan bir sim olmusan,
Bilirəm qəlbinə çox dəyirəm mən.

07.02.2015

YAMAN ÜRƏYİMƏ DÜŞMÜSƏN

Yaman ürəyimə düşmüsən, yaman,
Bu hissi ağlımdan çıxartmaq olmur.
Sənə istəklərim elə güclüdür,
Heç cürə qəlbimdən qopartmaq olmur.

Xəyalın yuxumdan ayıldır məni,
Uçan diləklərə sığalın çəkir.
Sənsizlik öldürür, bayıldır məni,
Məni bu sevdaya nağılın çəkir.

Gah qapımdan girir, gah pəncərəmdən,
Həsrətin evimdə qonağa dönüb.
Özüm də usanıb, bezdim bu dəmdən,
Həyat mənim üçün sınağa dönüb.

Əgər inanmırsan dərdli halıma,
Qoşul durnalara, gəl bizə sarı.
Bir dünya toy tutub qəm vüsalıma,
Ərit ürəyimdən buz tutmuş qarı.

15.01.2015

HƏR TƏRƏFDƏ GÖZƏLLİK

Hər tərəfdə gözəllik,
Hər tərəfdə kəhkəşan,
Sənin eşqin sevgidən
Qəlbimə verir nişan.
Bu bir röya yuxusu,
Gəlir sevda qoxusu,
Ürəyimdə yurd salıb,
Yaman ağlımı alıb.
Fikrimdə, düşüncəmdə
Elə sənlə oluram,
Boynuna qol salıram,
Xəyallara dalıram.
Hissim yabanı güldü,
Dərdim, bağrı söküldü.
Ürəyimdən ağlıma
Gizli bir yol çəkmisən,
Səndəmi bu kədərlə
Mənim kimi təkmisən?

Hər tərəfdə kəhkəşan,
Ulduzların içindən
Surətin verir nişan.
Doluram bulud təki
Rəsminə baxa-baxa,
Rəva bulma könülü
Hicran yandırıb yaxa.
Şəklin göydə haylanır,
Ürəyim səni anır.
Buludların başına,
Şimşəkləri çaxdırır,
Qarışır göz yaşıma.
Bu nə eşqdi, ay Allah,
Bəlkə işlədik günah?
Günahın özündə də
Bir savab dolaşarmış,
Sevgi canlı bir varlıq
Ürəklərdə yaşarmış…
Ağılı adlayarmış,
Hissləri odlayarmış,
Gözdən yuxu alarmış,
Qəlblərə yol salarmış.
Bu ilahi möcüzə,
İnsanıq deyir bizə.
Heç bunu bir anlayıb
Duymusanmı, sevgilim?
Sənə yar deməyən gün
Qoy qurusun bu dilim!
Açılan sabahların
Sən parlaq gündüzüsən,
İnan buna sevdiyim,
Sən həyatın özüsən.

Hər tərəfdə gözəllik,
Hər tərəfdə kəhkəşan.
Sənin eşqin sevgidən
Qəlbimə verir nişan.

07.02.2015

KÖNÜL ŞAM İŞIĞI

Könül şam işığı, eşqi pərvanə,
Ağrısı məhəbbət odundan keçir.
Sən hardan biləsən sənə divanə,
Ürəyim həsrətin dadından keçir. **16.02.2016**

SƏN BAŞQA DÜNYANIN ADAMISAN

Sən başqa dünyanın adamısan,
Bəlkə də ürəyimin qaynayan ilhamısan.
Gözləri sulanan çeşmələrə bənzər hislərim,
Səninlə bağlı həyatı dolaşan həvəslərim
ram edər gecə-gündüzü,
Sən mənim bəxtimin ən parlaq ulduzu.
Bəlkə ulduzlar da sənin xatirinə düzülüb göylərə,
Həsrətin məni tuş edib gileylərə.
Mən duyğusu coşqun dəniz,
Sənin nuruna boyanar bəniz.
Bu nur sevgi hilalımı?
Röyaların titrək vüsalımı?
Ürəyimi coşdurar,
Ruhuma toy qurar.
Qəhqəhələr içində boğularam,
Hər gün ölüb doğularam.
Sənin hislərinin quluna çevrilən ürəyim qərarsız,
Yoxdur bu dünyanın mənası yarsız!
Heç bunu duydunmu, sevgilim?
Bunu boşuna söyləmir dilim.
Gözlərimdə donub qalmış gileyləri ovut,
İnanmırsan al ürəyimi ovcunda tut.
Onun hayqırtısı dünyanı hönkürdər,
Sanma bunu edir qədər.
Bu qəlbimin sənə sevgi iltiması,
Nolur bir yol hiss et bu təması.
Məni sənə bağlayan ürəyimə sevgi et,
Onu yerə-göyə sərgi et.
Axı bir gün ürəyimin susacaq günü də var,
Ələmə yollarıma qar…
Dilim yox, ürəyim deyir sənə yar. **07.02.2015**

NİYƏ FİKRİMDƏN ÇIXMIRSAN

Ürəyimi ram etmisən,
Girib ora kam etmisən,
Eşqimi ilham etmisən,
Sən ki, qəlbimi qırmısan,
Niyə fikrimdən çıxmırsan?

Hər yerdən rəsmin boylanır,
Dilimdə ismin boylanır,
Bağrımda cismin boylanır,
Sən ki, qəlbimi qırmısan,
Niyə fikrimdən çıxmırsan?

Sabahı axşam edirəm,
Xəyalınla şam edirəm,
Ömrə ehtişam edirəm,
Sən ki qəlbimi qırmısan,
Niyə fikrimdən çıxmırsan?

Sevməkdi cana bir peşə,
Sevəndə bitmir əndişə,
Səndən qəlbimə yox nəş‘ə,
Sən ki qəlbimi qırmısan,
Niyə fikrimdən çıxmırsan?

08.02.2015

SƏN ELƏ BİLMƏ Kİ

Sən elə bilmə ki, sevmirəm səni,
Sevənlər qəlbində sevgi bəstələr.
Canıma əvəzsiz demirəm səni,
Bütün duyğuları sevgi üstələr.

Sən könül bağçamda bitən çiçəksən,
Mən onun nazını özüm çəkirəm.
Bəlkə bədənimə özün ürəksən,
Onunçın ruhunla birgə səkirəm.

Sənin varlığına minnətdaram mən,
Mənə bu həyatda sevmək öyrətdin.
Olduğun yerlərdə sanki, varam mən,
Eşqin ürəyimi çox kövrək etdi.

Sən elə sayma ki, sevmirəm səni,
Sevməyin özündə ilahi ruh var.
Ürək canı bilir dəmadəm səni,
Eşq olmayan yerdə göz yaşı, ah var.

Bunu bilə-bilə könlümə dəymə,
Özün xəbərdarsan – eşqin quluyam.
Könül duyğuların boşuna əymə,
Allah bəndəsiyəm, pis-yaxşı buyam.

İlahi işığı sevgini seçir,
Onun təmasında uyuyur bəşər.

Könül bulağından ömür an içir,
Eşq olmayan vaxtı göy yerə düşər.

Tanrı belə qurub bu kainatı,
Eşqisiz, duyğusuz bir canlı yoxdu.
Bağlayır ömürə can öz həyatı,
Onunçın aləmdə kəhkəşan çoxdu.

Sən elə bilmə ki, sevmirəm səni,
Sevənlər qəlbində sevgi bəstələr.
Canıma əvəzsiz demirəm səni,
Bütün duyğuları sevgi üstələr.

15.02.2015

BAĞLIYAM SƏNƏ

Mən ki, ürəyimlə bağlıyam sənə,
Sən də könlüm kimi yanasan, bəlkə.
Durub bülbül təki çağlıyam sənə,
Duyub bu istəyi anasan, bəlkə.

Eşqə düşənlərin təqsiri olmur,
İlahi sevgidən yaranır bu hiss,
Alüdə olanın qəlb sirri olmur,
Duyğular içində özüdü nəfis.

Xəyaltək yuxuma qonub gəlirsən,
Gözümdən boylanır baxışın nədən?
Gecə şəbnəmitək donub gəlirsən,
Deyirdin bəs gəlmir qəlblərdən gedən.

Bir də anlat mənə bu gəliş neçin,
Ürəyi tarimar edirsən yaman.
Özün alışdırdın həsrətin için,
İndi də diləmə ondan ah-aman.

24.02.2015

BAHAR ƏTRİ VAR

Sevgilim, üzündə bahar ətri var,
O gözəl çəmənlər səndən danışır.
Mənim ürəyimdə sevgi xətri var,
Sənin eşqin ilə birgə yarışır.

Çıxaq gözəlliyin seyrinə bu gün,
Qəlbimin sevinci dünyanı tutsun.
Gülək sevdaların xeyrinə bu gün,
Könlümüz niskili, qəmi unutsun.

Günəşin işığı yerləri bəzər,
Sən çıx hərarətə tut ürəyini.
Gizli iltifata dəyməsin nəzər,
Dinlə həyatında eşq mələyini.

Bax mənim qəlbim də sənə bağlıdır,
Qoy bu bağlılığı qıran olmasın.
Sevgisiz qüssələr canı ağrıdır,
Dünyada eşqisiz ürək olmasın.

27.02.2015

AÇSIN KÖNÜLDƏ ÇİÇƏK

Açsın könüldə çiçək,
Duyğulansın qoy ürək,
Cana istəkli mələk,
Bitməsin heç bu yarış,
Mənə sevgidən danış.

Dünya içi fırtına,
Alır bizi sırtına,
Birgə murad atına,
Gəl yetək qarış-qarış,
Mənə sevgidən danış.

Sevənlər çarpışmalı,
Sərt qayalar aşmalı,
Arzu-dilək daşmalı,
Ruhun ruhuma tanış,
Mənə sevgidən danış.

Əzizləyək günləri,
Eşqə toy-düyünləri,
Ömrün səda ünləri
Tələsir, vaxtdan yapış
Mənə sevgidən danış.

Nə gözəldir bu həyat,
Gəl birgə quraq büsat,
Hicranı qəlbdən kəs at,
Eşqi sanma aldanış,
Mənə sevgidən danış.
Mənə sevgidən danış. **28.02.2015**

MƏKTUBU ALMIŞAM SƏNDƏN

Sevgilim, məktubu almışam səndən,
İçindən sevdalar dolur ürəyə
Qurtarıb könlümü dumandan, çəndən,
Bənzəri var imiş ülkər mələyə.

Məktubdan sətirlər gülür üzümə,
Hər sətir içindən eşqin boylanır.
Kəlmələr odlanır ocaq közümə,
Ağlım havalanır, hislərim yanır.

Dünyanı gözəllik bürüyüb sanki,
Göylər də yerlərə şərqi oxuyur.
İçimdə qüssələr əriyib sanki,
Aləmlər rayihə, ətir qoxuyur.

Sevgilim, kölgən də gəzir otaqda,
Baxışın sözlərin içindən baxır.
Könlümü tənhalıq üzür otaqda,
Həsrətin şimşəktək tavanda çaxır.

Məktub bir sevdanın ürək təması,
Fərəhlər içində qəhqəhə çəkir.
Dopdolu ruhumun hicran səmaası,
Bütün varlığımı eşqinə çəkir.

03.03.2015

BU NƏ SEVGİDİ

Bu nə məhəbbətdi, bu nə sevgidi,
Alıb qollarına aparır məni.
Ürəyim ömrümə bir həyat idi,
İndi varlığımdan qoparır məni.

Göz yaşım kiprikdə həyəcanlanır,
Bəbəklər baxışlar içində yanır.
Kölgələr dolaşır, xəyal canlanır,
Vücudum atəşə, oda boyanır.

Xatirən izləyir kəlmələrimi,
Sətirlər içində sözün dolaşır.

Ürək də, İlahi, eşqdən mələrmi?
Ruhum çalxalanır, ağılım çaşır.

Bu nə iztirabdı düşüb qalmışam,
Varlığım yolunda yanır şam kimi.
Özüm öz ömrümə acı halmışam,
Gəzirsən könlümdə ehtişam kimi.

03.03.2015

SEHİRLƏNİB DİLƏKLƏR

Nədən belə sehirlənib diləklər,
Səni mənə nə bağlayır bilmirəm.
Ülfətinlə mehirlənib ürəklər,
Bu sevdanı həyatımdan silmərəm.

Gizli-gizli eşqin dolur qəlbimə,
Sevməyənlər vəfadan nə bilərlər.
Sevgi duymaz can evinə qəlb demə,
Gözlə gələn eşqi candan silərlər.

Məhəbbətin duyğuları bulaqdır,
Qaynadıqca gözündən yaş tökülər.
Pıçıltını sezən yazıq qulaqdır,
Ürək duyar, qəlb əzabdan sökülər.

Bu ki, eşqdir alışdırır ürəyi,
Bu İlahi sevgisidir, dildarım.
İtirənlər qazandılar de nəyi?
Sən olmasan, artar canda qübarım.

03.03.2015

ÜRƏYİM SƏNİN YANINDA

Sevdiyim, ürəyim sənin yanında,
Bilmirəm dünyanın harasındayam.
Axtarsan, bəlkə də gəzir canında,
İtkin düşmüşlərin sırasındayam.

Bu istək könlümü yandırıb yaxır,
Ruhum çıxıb candan mənə kəm baxır,
Sanki varlığımda ildırım çaxır,
Sevginin sızlayan yarasındayam.

Yıxıb sərhədləri, dön mənə sarı,
Sevən də həsrətdə qoyarmı yarı?
Könlüm səhralarda gül gəzən arı,
Qəlbimin hicranla təmasındayam.

Məni ayrılığa dustaq eyləmə,
Dərdə ürəyimi yataq eyləmə,
Məni nisgilinə ortaq eyləmə,
Eşqinin bir dəli havasındayam.

Dilim yar söyləyir, ürəyim istək,
Gəl birgə tərlantək göylərdə süzək,
Bu gizli sevdanın köksündə bitək,
Tanrının eşq adlı duasındayam.

09.03.2015

SƏNƏ BAĞLIDIR

Sevgilim, ürəyim sənə bağlıdır,
Ruhunda çalxanan məhəbbətimdir.
Sənsizlik könlümü elə ağladır,
Sənə sevgilərim ibadətimdir.

Bu duyğu hər gecə sıxır könlümü,
Hicran əzabları yıxır könlümü,
Həsrətin şişinə taxır könlümü,
Manqalı köz edən müsibətimdir.

Özün bilirsən ki, qəribəm sənsiz,
Sən də ayrılıqda yanırsan mənsiz,
Bahar bahar olmaz yaşıl çəmənsiz,
Bu sevda eşqinə itaətimdir!

Yar, çətin deyilsə, gəl halıma bax,
Həsrətə qul olmuş əhvalıma bax,
Hönkürən, ağlayan vüsalıma bax,
Ömrümlə sürünən əziyyətimdir.

Yuxuma gəlirsən, yuxum ağlayır,
Səni itirməkdən qorxum ağlayır,
İçimdə hönkürən ahım ağlayır,
Sənə can məktubum şeriyyətimdir.

09.03.2015

SALDIN ÜRƏYİ

Elə məhəbbətə saldın ürəyi,
Çıxartdı ürəkdən ağrı-acını.
Sənsən taleyimin sevgi mələyi,
Qoymusan başıma eşqin tacını.

Kim deyir cahanda məhəbbət yoxdur?
Onun işiğıdır tutub dünyanı.
Eşqisiz, duyğusuz ürəklər ahdır,
Sevgidir çatdıran haqqa duyanı…

09.03.2015

YUVA QURDUM

Könlümdə sənə yuva qurdum,
Bütün acılarımı içimdən sovurdum.
Ürəyimlə isitdim bu yuvanı,
Sən mənə uddurdun ən sevdalı havanı.
Səhər-axşam, axşam-səhər,
Qəlbimdən sovuşdu qəhər.
Xəyalın gözlərimin önündə,
Bilirəm eşqim boylanır köksündə.
Ruhum dolanır əksində…
Sən mənim həyata baxışım,
Bir kəlmə hə de, məkanına gəlim yığışım.
Sən məni eşidirsənmi, əzizim?
Tanrı bəxtimizi bir yazıb bizim…
Bunu mənə dünən yuxuda mələklər dedi,
Bu Tanrıdan gələn səda idi.
Nəbzinlə bir döyünür nəbzim,
Kölgə təki gecələrdə gəzir izim.
Dön mənə sarı,
Ey könlümün yarı.

11.03.2015

BOYLANIB BAXDIN

Gözlərin məhəbbət söyləyir mənə,
Dilində dolaşır adım yenə də.
Qulaq ver, bir siri söyləyim sənə,
Sənin sevginindi – yurdu sinədə.

19.12.2016

İŞIĞISAN

Hansı planetin işığısan sən?
Əksin ürəyimə şualar saçır.
Qəlbimin harayı düşüb aləmə,
Qopub varlığımdan yanına qaçır.

İndi hislərim də özündə deyil,
Öncəki səmtini itirib daha.
Bürüyüb könlümü bir dəli meyil,
Hicran notlarını bitirib daha.

Körpəcə quzutək mələyir qəlbim,
Sənin sehirinə düşüb qalmışam.
Özünə sağlıqlar diləyir qəlbim,
Dərin bir quyuya eşqi salmışam.

Ordan çıxmağına gümanım yoxdu,
İncə xəyallardan qala yapmışam.
Özünü itirən dünyada çoxdu,
Mən də itirmişəm, səni tapmışam.

Hansı planetdən qopub gəlmisən?
Söylə, sevdiciyim, qoy aləm bilsin.
Bəlkə də ruhumu tapıb gəlmisən,
Beləsə, qoy könlüm sevib sevilsin.

12.03.2015

BİR ÜRƏK VERMİŞDİM SƏNƏ

Bir ürək vermişdim sənə…
Söylə, nə etdin o ürəklə?
İçimdən qoparıb apardın,
Qəlbimi tufanlar təki sardın,
Şiddətli küləklərtək ora vardın.
Göz yaşlarımı könlümə axıtdın,
Məni ayrılıqlara satdın.
Üzümdə kədərin açdığı naxışlar,
Gözlərimdə buz tutub qarlı qışlar.
Sən heç bir dəfə dönüb
bu acılarıma diqqət kəsildinmi?
Ürəyimə verdiyin əzablara üzüldünmü?
Mənim nə çəkdiyimi bildinmi? **10.04.2015**

BU GECƏ DOLU AY ÇIXMIŞDI

Bu gecə dolu Ay çıxmışdı,
Hər tərəf nura boyanmışdı,
Hamı yatmışdı, amma mənim könlümdə
bütün duyğular oyanmışdı.
Sənin surətin Aydan boylanırdı.
Bütün dünya başıma haylanırdı...
Üzümə gülmüsəyirdin,
Ürəyimin vüsal nöqtəsinə dəyirdin.
Gözlərindən məhəbbət yağırdı,
Ay içindən Ay doğurdu…
Nə isə pıçıldayırdın,
Üzümə dəyən nəfəsinlə ürəyimi oyurdun.
Küləklər qoymurdu səsin çatsın mənə.
Öz eşqimi pıçıldayım sənə.
Bilirsən, əzizim, sevirəm demək istəyirdim,
Baxışların önündə aciz idim.
Amma sevirəmi dilimlə yox, ürəyimlə deyirdim,
Səni sevdiyimi hayqırmaq istəyirdim,
Eşqinə xəyalımda saray qurmaq istəyirdim.
Əzizim, inan dilimdən qopan sözlərimə,
Doyunca bax yaşla dolan gözlərimə,
Səni Ay içindən qoparmaq istəyirdim,
Öz könlümə aparmaq istəyirdim…
Yuxudan oyandım sən yoxsan.
Nə olur, sevgilim, bu gecə də
məni öz könlünə buraxsan.
Ay içindən mənə baxsan…
Bu gecə də yuxuma gəlsən,
Əhvalımı bilsən,
hər şeyi deyəcəm sənə,
İnan mənə…
İnan mənə…

07.04.2015

SƏNİ RÖYALARDA YAŞADIRAM

Səni röyalarda yaşadıram mən,
Röyalar həyatın əksini vermir.
Sənin həsrətinlə qəm uduram mən.
Udduğum qəmləri bir kimsə görmür.

Soyuq qış günündə gəldin qəlbimə,
Bir dünya günəşi bəxş etdin mənə.
Sevgisiz, eşqisiz qəlbə qəlb demə,
Rəssamtək gözəllik nəqş etdin mənə.

Yazın nəfəsini duydum havada,
Hər tərəf ağappağ qar içindəydi.
Səni göndərənə əlim duada,
Dünyamız sevilən yar içindəydi.

Bu qədər məhəbbət olan aləmdə,
Nə hacət, küslülər barışmasın bəs?
Olmasan, ürəyim batar naləmdə,
Sənin varlığından nur alır nəfəs.

12.04.2015

KÖÇÜRMÜŞƏM MƏN

Səni ürəyimə köçürmüşəm mən,
Söylə, ürəyimdən kim çıxarar kı?
Eşqini qəlbimə içirmişəm mən,
Bu ruhun yazdığı cana qərar ki.

Könül qapılarım sənə açıqdı,
Başdan ayağadək səninəm, inan.
Bizi ayrı salan kindi, acıqdı,
Şübhələr içində titrəyir bu can.

Duyğunu duyğuya cala dur da gəl,
Sinəmdə döyünən sənin ürəyin.
Dözmə mənim təki hala dur da gəl,
Sevgi eləyibdi məni ərköyün.

Ruhumun evində tacı-taxtın var,
Gəl ona hökmünü oxu bir yolluq.
Hələ ki, mən sağam, bir az vaxtın var…
Tələs, könül şahım, zənn etmə qulluq.

25.04.2015

AĞLIMA HARDAN DÜŞMÜSƏN

Bilmirəm ağlıma hardan düşmüsən?
Çıxartmaq çətindi səni ağıldan.
Harda ürəyimlə sən görüşmüsən?
Sanki qopub gəldin sirli nağıldan.

Elə gülmüsünüb baxırsan mənə,
Qəfil dünya içi nura boyanıb.
Dilim kilidlənib, qoymursan dinə,
Dilimin ucunda adın dayanıb.

Üzümdən gülüşlər axır könlümə,
Bütün səadətlər üzümə gülür.
Ulduzlar tac qoyub baxır könlümə,
Ayın üz-gözündən nurlar tökülür.

Gəlib yuxularla, can bölüşmüsən,
Bölüşdüyün can da titrər sənincin.
Gecələr yuxumda çox gəzişmisən,
Eşqin tərk etməyir qəlbimin için.

Bu sevda yuxusu heç bitməyəydi,
Duyğular içində can bəsləyirsən.
Ayrılıq çox zaman könlümə dəydi,
İndi də qəlbimə özün dəyirsən.

25.04.2015

SƏHƏR-SƏHƏR NƏ XOŞ BAXDIN

Səhər-səhər nə xoş baxdın, sevgilim,
Çiçəklərin üzü gülə bu eşqə.
Ürəyimi yaman yaxdın, sevgilim,
Bahar ətir səpib gələ bu eşqə.

Göydə quşlar havalanıb uçurlar,
Ağ buludlar ora-bura qaçırlar,
Gül çiçəklər vəcdə gəlib açırlar,
Bülbül özü gəlib dilə bu eşqə.

Gözlərində sevinclərin baxışır,
Dodağına gülüşlərin axışır,
Diləklərin qəlb evinə yığışır,
Həsrət qəfil düşə ölə bu eşqə. **28.04.2015**

ASAN DEYİLMİŞ

Səni unutmağım asan deyilmiş,
Könlümün içində yuva salmısan.
Elə bilirdim ki, bu bir meyilmiş,
Acı həsrətinlə qəlbdə qalmısan.

Mənim ürəyimə necə gəlmisən?
Çıxarda bilmirəm mən səni ordan.
Hissimi, duyğumu nədən bilmisən?
Mənim ürəyimi tapdın haradan?

Gecələr yuxuma gəlirsən səssiz,
Bir sevda nəğməsi oxursan mənə.
Könlümün üzünə gülürsən səssiz,
Duyğular xalısı toxursan mənə.

Gözümdən gözlərin boylanır sanki,
Hara gedirəmsə məndən baxırsan.
Xəyalın başıma haylanır sanki,
Könül qapısından qəm buraxırsan.

Mən də acılara əsir olmuşam,
Hicran yara açıb ürəkdə, neylim?
Özüm öz içimdə bir sirr olmuşam,
Qopmaq istəməyir kədərdən meylim.

Hara gedəcəyik bu gedişlə biz?
Ağrılar içində can əridirik.
Gün məzarlıyırıq bu gərdişlə biz,
Ömrü ayrılıqla qohum edirik.

25.04.2015

MƏKTUBLARIN KƏSİLİB

Niyə məktubların kəsilib gəlmir?
Daha qələmində mürəkkəbmi yox?
Mənim də burada heç üzüm gülmür,
Könlündə eşqimə azca təbmi yox?

Bu talan könlümü yada salmırsan,
Elə bil arada heç nə yox imiş.

Məni ürəyimdən xəbər almırsan,
Ömrümə çox acı həsrətin gəlmiş.

Pəncərəm önündə çiçəklər açmış,
Baharın ətiri gəlir havadan,
Sevib sevilənlər çəmənə qaçmış,
Titrək qarışqalar çıxır yuvadan.

Yarpaqlar bir-birin qucur yar kimi,
Mənim bağırımda həsrət yurd salıb.
Bəbəkdə yaşları can oyar kimi,
Gözlərim əbədi yollarda qalıb.

Dön bahar eşqinə, bax bizə sarı,
Karvan buludlara sarıl uç da gəl.
Sənə bağlanıbdı ömrün axarı,
Titrəyir ürəyim, can ovucda gəl.

28.04.2015

İSTƏYİN ÜZÜMƏ GÜLMƏYİR

İstəyin üzümə gülməyir daha,
Könlün buza dönüb soyuqlar kimi.
Ürəyin ağrımı bilməyir daha,
İçimdə acılar oyuqlar kimi.

Mənim üzümdəki pərişanlığı
Sən heç ürəyinə buraxmadın ki,
Gözümdən boylanır qəm nişanlığı,
Dönüb, gözlərimə heç baxmadın ki.

Kipriklər ayaztək qəm soraqlayır,
Ağrıma züy tutur qara buludlar.
Ürəyim xəyalla min əhd bağlayır,
Kəsir başı üstün dəli fəryadlar.

Bu tale oyunu bizə düşmədi,
Hərə öz içində gününə ağlar.
Bəxt hardasa azdı, izə düşmədi,
O da kiminləsə peymanın bağlar.

Sınmış qayıq təki dəryada təkik,
Bizi aralıqda döyür tufanlar.
Həyatın özütək dünyada təkik,
Ömrümüz uzunu bitmir divanlar.

28.04.2015

NİYƏ MƏNİ PEŞMAN ETDİN?

Həsrətlərə iman etdin, ey yarım,
Niyə məni peşman etdin, ey yarım?

Külək təki sağa-sola əsirsən,
Söz deməmiş inciyirsən, küsürsən,
Özün söylə nə möcüzə, nə sirsən?
Ürəyimin vətənində qəsirsən,

Əzizlədin səhman etdin, ey yarım,
Sonra məni peşman etdin, ey yarım.

Gözlərimdə kədərinin rəngi var,
Dil ucunda dava-dalaş, cəngi var,
Hər sözünün əvvəlində süngü var,
Əsəbləşmə hər sözümə, səngi yar,

Dayanmadan fərman etdin, ey yarım.
Niyə məni peşman etdin, ey yarım?

Hicran odu ürəyimdə alışdı,
Yanıb-yanıb atəşlərə qarışdı,
Ayrılıqla bu nə sevda, yarışdı?
Daha könlüm hicranınla barışdı,

Əcəb qəlbə dərman etdin, ey yarım,
Niyə məni peşman etdin, ey yarım?

Bu Şadiman küslü qalıb canından,
Sorağını qəm gətirib yanından,
Sel-su olub həsrət axır qanından,
Bacarırsan qopar dərdi anından,

Məni eşqə loğman etdin, ey yarım,
Sonra yaman peşman etdin, ey yarım.

04.05. 2015

ELƏ SEV MƏNİ

Sevirsən, ey yarım, elə sev məni,
Bütün sevənlərə bir dastan olsun.
Oxşaya bilməyir, otaq, ev məni,
Eşqdən yaratdığın gülüstan olsun.
Sanma ayrılığa, nolar, div məni.

16.02.2016

YENƏ DƏ GƏLDİN YUXUMA

Bu gecə yenə də gəldin yuxuma,
Füsnikar baxışın canlar alırdı.
Könlün boyun əydi qopan ahıma,
Ötüşən zamanı anlar alırdı.

Dodaqda gülüşlər cilvələnirdi,
Kipriklər üstünə nur ələnirdi,
Yaxdığın atəşə qəlb bələnirdi,
Ürəkdən ürəyə cığır salırdı.

Qapı cırıltısı sükutu pozdu,
Ağlım bu gəlişi min yerə yozdu,
Həsrət kabusuna eşq məzar qazdı,
Ümidə sığınan görüş qalırdı.

Necə gəlmişdinsə elə də getdin,
Mənim ürəyimi dərbədər etdin,
Axır ki sən belə məqsədə yetdin,
Yenə qəm nəğməsin gecə çalırdı.

08.05.2015

İÇİM QAN AĞLAYIR

İçim qan ağlayır, gözüm yaş tökür,
Mən səni könlümdən qaçırda bilməm.
Zülmətlər üstümə toz kimi çökür,
Hicran küləklərin uçurda bilməm.

Sən elə xəyaltək gəldin könlümə,
Xəyalın özü də gerçək olurmuş.
Hıçqıran qəlbimə yalançı demə,
Ağlı dərdə salan ürək olurmuş.

Hicran buludları canda dolaşır,
Qəfil yağmurları bitmir ki, bitmir.
Dərdim ləpə verir başımdan aşır,
Ağrıya ram günlər getmir ki, getmir.

17.05.2015

BEŞİK DEYİL

Məhəbbət insana beşik deyil ki,
Sən onun nazını çəkəsən gərək.
Onun duyğuları keşik deyil ki,
Könül bağında gül əkəsən gərək.

Onun səadəti güldürür ömrü,
Heç zaman hislərə qul edilməsin.
Məhəbbət içində haqqın əmiri,
O min bir istəyə yol edilməsin.

İşığı gəldikcə gülür kainat,
Gəlin ülfətinə bağlı olaq biz.
Qolları üstündə bəsləyir həyat,
Sevgi atəşinə düşüb qalaq biz.

Məhəbbət söndürür kin-küdurəti,
O ürək içində ruhun qidası.
O sevmir könülə qul itaəti,
Ondan üz çevirdin, vardır qadası.

Eşqidir insana qol-qanad verən,
Onun cücərtisi ana təbiət.
Odur hər duyğuya şirin dad verən,
Odur gözdə atəş, üzlərdə zinət.

Məhəbbət odunda alışıb yanaq,
Qəlblərdən itməsin ilahi eşqi.
Onun xiffətini can odu sanaq,
Gəlin unutmayaq sabahı eşqi.

Hər kəsin qəlbində daşsın imanı,
İmana bağlıdır eşqin bir ucu.
Şadiman ruhunun təkcə fərmanı.
Kimsə aramasın eşqidə suçu.

12.07.2015

YUXUMDA GÜLÜRDÜN

Bu gecə yuxumda gülürdün mənə,
Gülüşün aləmə ətir saçırdı.
Odlu baxışlarla gəlirdin mənə,
Bu gecə qapımı ruhun açırdı.

16.02.2016

İZ QOYMA BELƏ

Sən mənim könlümə iz qoyma belə,
Salınan izlərin kölgəsi qalır.
Ağrılı-acılı köz qoyma belə,
Onun tüstü verən bəlkəsi qalır.

Vüsala öc verən həsrət olmasa,
Onun yanğıları alışmaz belə.
Hər qəlbin qurduğu niyyət olmasa,
Hislər ağıl ilə yarışmaz belə.

Mənim tərcümanım üzdən oxunur,
Ruhum əsim-əsim əsir sənincin.
Sənin iztirabın könlə toxunur,
Yandırma əzabla qəlbimin için.

Dostum, duyduqlarım həyat gerçəyi,
Gerçəklik içində ölməyə nə var?
Payızına gedir ömür çiçəyi,
Onun boynun büküb bölməyə nə var?

Bir gün doğularaq zülmə düşmüşük,
Həyatın hər günü ağrıdan keçir.
Ömür yollarında biz görüşmüşük,
Sanyələr yalandan, doğrudan keçir.

Öldürüb asmayaq gümanımızı,
Gümanlar arzunun qanadlarıdır.
Dərdlərlə boğmayaq peymanımızı,
O insan ruhunun fəryadlarıdır.

Mən işığa doğru üzümü tutdum,
Sanıram zülməti udacaq bir gün.
Dərdim hayqıranda mən onu tutdum,
Boğular tüstüdən od-ocaq bir gün.

Dostum, ürəyimə etmə qınağı,
Mən özüm bilirəm, bu həyat nədir?
Ömür insanların dünya sınağı,
Ölənin boynunda çox günah gedir.

12.07.2015

ACI GÖZ YAŞLARI AXITMA

Sən mənim ruhumun içinə
acı göz yaşları axıtma,
Tale hönkürtülərini könlümə nəğmə təki oxutma.
Məni sevdiyinə peşiman etmə,
Günlərimi yolunda sərf edib, boşuna üyütmə.
Axı məni də Allah yaratdı,
Məni sevmək üçün sənin içində duyğular oyatdı.
Bunu bir ağlından keçirtdinmi?
Sevgi çeşməsindən könlünə içirtdinmi?
Mən hər gün yanıram,
Şamın kibritdən aldığı atəş təki,
Sənin sevdanı könlümdə isitdim günəş təki.
Atəşim könlündə buz dağlarını əritdi,
Qəlbini isitdi,
Sən isə heç bunun fərqində olmadın,
Qəlbimin evinə nəzər salmadın.
Elə göz yaşarı axıtdın ruhumun içinə,
Mən isə getmədim keçinə.
Gözüm yollarında ilişib qalıb,
Ürəyim eşqinə bitişib qalıb.
Onu öz yerinə qaytarmaq olmur,
Bu acı sevdadan qurtarmaq olmur.

05.06.2015

ÇAY TƏKİ SANDIM

Mən sənin eşqini çay təki sandım,
Çayın göz yaşları dərya olarmış.
Səndən uzaqlığı vay təki sandım,
Vayın hıçqırtısı röya olarmış.

Bir hicran təşnəsi ürəkdə qaldı,
Ahımın göz yaşı fələkdə qaldı,
Sənə bağlılığım diləkdə qaldı,
Həsrət keçilməyən qaya olarmış.

Könlü aldatmaqçın nə dil tökürdün,
Məhəbbət yolunda min yol çökürdün,
Demə ürəyimə hicran əkirdin,
Əkdiyin hicranın həya olarmış.

05.06.2015

AH MƏHƏBBƏT, SƏN NƏLƏR ETDİN?

Ah məhəbbət, sən nələr etdin?
Könlümü mələr etdin.
Ürəyimə yara vurdun,
Heç bilmədin hara vurdun?
Dağıtdın bütün duyğularımı,
Qaçırtdın uyğularımı…
Gecələrimi hönkür-hönkür ağlatdın,
İçimdə həsrəti çağlatdın…
Qəlbimi ümidlərə bağlatdın..
Məni qapında saxlatdın,
Qışında soyuğa, yayında istiyə atdın.
Səni canım bilmişdim,
Həsrətin adını ürəyimdən silmişdim.
Bütün gecələri uyğularımda səni axtardım,
Varlığını ruhuma sardım.
Sənin istəklərinə uyardım.
Sən bir külək təki əsdin,
Məni tərk etməyə tələsdin.
Bu imiş içindəki niyyət,
Ah məhəbət, ah məhəbbət…
Bir gün yenə qapına gələcəm,
Səninlə ürəyimdə yığılıb qalmış
arzularımı böləcəm…
Ah məhəbbət, ah məhəbbət,
Məni bir gün başa düşərsən əlbət.
Onda nə mən olacam, nə də mənim ürəyim,
Ruhumla bölüşərsən hər şeyi mələyim…
Səni üzəcək mənsiz xiffət,
Ah məhəbət, ah məhəbbət…

24.06.2015

NƏFƏSİNƏ EHTİYACIM VAR

Sənin nəfəsinə ehtiyacım var,
Onu əsirgəmə ev-eşiyimdən.
Özün də bilirsən canda acım var,
Üzünü döndərmə can keşiyimdən.

Onun sozalması könlümə zərbə.
Sən mənim dünyada həyat işığım,
Eşqindi ömrümə sevda aşığım,
Söndürmə çırağın, toxunma təbə. **16.02.2016**

XOŞ BAXIRSAN

Nədir belə xoş baxırsan,
Ürəyimə girən yarım.
Dərd yandırıb, qəm yaxırsan,
Mənlə ömür sürən yarım.

Diləklərin can güldürür,
Ayrılığı eşq öldürür,
Hər baxışın söz bildirir,
Qəlb içini görən yarım.

Sənə canım əmanətdi,
Aramızda sədaqətdi,
Candan cana ibadətdi,
Xiffətimi gərən yarım.

02.07.2015

BÜLBÜL GÜLDƏN İNCİMƏZ

Oğrun-oğrun nə baxırsan ötən yar,
Heç bir ürək əsən teldən inciməz.
Bağa girib gül içində itən yar,
Gül bülbüldən, bülbül güldən inciməz.

Bir işıqsan, qəlb evimə düşürsən,
Həsrət yeli əsən təki üşürsən,
Nə dedim ki, inciyirsən, küsürsən,
Sevən ürək acı dildən inciməz.

İti çaytək axır ömrün anları,
Gəl isidək atəş ilə canları,
Vaxt əyninə əlvan geyir donları,
Göz vurğundu, könül ildən inciməz.

Sən də mənim bir vəfalı yarımsan,
Can isidən sərvətimsən, varımsan,
Könül tutan, qəlb ovudan barımsan,
Dolan bulud əsən yeldən inciməz.

Şadimana dürr sevdalı sözlərin,
Eşq oxusun könlə yaşıl gözlərin,
Ürəyimə köz basdığın izlərin,
Bəbəyim də axan seldən inciməz.

03.07.2015

ƏLLƏRİM UZALI

Əllərim uzalı qalıb yollara,
Yollar da üzümə gülməyir daha.
Ürəyim mehrini salıb yollara,
Gedənlər gedibdi, gəlməyir daha.

Bir soyuq təsəlli, bir sönük ülfət,
Gəzişir başımda, ağlımda hər gün.
Olubdu ayrılıq nazlıca afət,
Gəzir uydurduğum nağlımda hər gün.

Dodaqlar titrəyir xəyal eşqinə,
Xəyalın yadımdan silinməyir heç.
Mənim ürəyimi saldın nə günə,
Günlərin sevdası bilinməyir heç.

Sanyələr anlara dil açıb yalvar,
Səni varlığından soraq almaqçın.
Düşüncəm üstündən asılıb talvar,
Çıxıb sən tərəfə nəzər salmaqçın.

Ehtiyac duyuram, sənə ehtiyac,
Bunu anlamaq da çətinmiş sənə.
Ayrılıq könlümdən hər gün alır bac,
Sənin yoxluğunu anladır mənə.

Bir ürək ovutmaq savab deyirlər,
Günahı savabdan üstün sayırsan.
Günəşin üzündə niqab deyirlər,
Atəşin içindən onu ayırsan.

Mən də sevdiyimə möhtac kimiyəm,
Könlünə möhtacı üzgün eyləmə.
Bəzəsən, şərəfli bir tac kimiyəm,
Oğrun baxışları süzgün eyləmə.

03.07.2015

BAXIŞINA YOX DEMƏ

Baxışına yox demə,
Onu məndən qaçırma.
Eşqin qonub könlümə,
Hay-küy salıb uçurma.

16.02.2016

TƏBİƏTİN XOŞ VAXTI

Sən təbiətin xoş vaxtı,
Güldün könlümə, könlümə.
Quruban qəlbdə tac-taxtı,
Gəldin könlümə, könlümə.

Qovdun qapımdan hicranı,
İsitdin eşqlə bu canı,
Sevda yaşadır insanı,
Gəldin könlümə, könlümə.

Könül bağımın çiçəyi,
Açdı, şad etdi ürəyi,
Hər qəlbin eşqdir gərəyi,
Gəldin könlümə, könlümə.

03.07.2015

EY MƏNİM SEVDİYİM

Ey mənim sevdiyim, bu nə sitəmdir,
Vurdun ürəyimə yaralar nədən?
Yenə qəlb evimə dolan matəmdir,
Canımın bağçası saralar nədən?

Qaynayır ruhumda qəmin çeşməsi,
Günahmı bir könlün könlə düşməsi?
Gəlib röyalara yar görüşməsi…
Hicranın ələmi sıralar nədən?

Baxma, sevdiciyim, eşqə kəm belə,
Düşməyir fürsətə böylə dəm belə,
Ruhumun evini şadiyan elə,
Salırsan ürəyə qaralar nədən?

Dilinin fərəhi könlü şad etsin,
Ətrafa ələnsin, can dilşad etsin,
Kədərlər ağlasın, bizdən dad etsin,
Aradakı ülfət daralar nədən?

Şadiman sevdaya can qurban etdi,
Bütün duyğuların çıraqban etdi,
Söylə, sevdiciyim, dildə nə bitdi?!
Yarama köz basar, aralar nədən?

03.07.2015

ULDUZ YAĞIŞI

Bu gecə ulduz yağışı,
Yandırırdı baxışı.
Gözlərin ulduzlar arasından od saçırdı,
Ürəyim çıxıb bədənimdən yanına qaçırdı.
Hər yerdən səsini duyurdum,
Sənin varlığına uyurdum.
Yuxum gözlərimdən getmişdi,
Ruhum xəyallar içində bitmişdi.
Saniyələr səndən danışırdı,
Qəlbimdəki atəşə qarışırdı.
İçimdə güvəncim,
Ünyetməz, sonu bitməz sevincim.
Həyat mənə gözəl mələk kimi,
Döyünürdü köksümdə ürək kimi.
Sevdanın şirinliyindən dəli olurdum,
Eşqin vuran əli olurdum.
Nəfəsim təngişirdi,
İlahi, bu nə həşirdi?
Eşqim məni yatağımdan qopardı,
Ulduzlara apardı.
O baxışların əsiri olmaq üçün,
Bu gecənin sirri olmaq için.
Bu gecə ulduz yağışı,
Aldatdı məni sevgilimin baxışı.
Uçub göylərə getmişdim,
Ulduzlar içində bitmişdim.

Bu gecə ulduz yağışı,
Ürəyimə saldı xalıtək xatirə naxışı.
İlahi, olmasın bu sevginin qışı,
Məhəbbətin olmaz yaşı,
Ulduz yağışı,
Ulduz yağışı…

05.07.2015

ELƏ GİRDİN HƏYATIMA

Elə girdin həyatıma,
Sanki həyat xoş görünür.
Hicran qatdın büsatıma,
Gözlərimdə yaş görünür.

Gecələrim həsrətə qul,
Axtar məni, ələmdə bul,
Ağrı dolu naləmdə bul.
Yollar gözə çaş görünür.

Göz axtarır, könül gəzir,
Kədər məni belə üzür.
İstəmə gəl məndən üzr,
Sinəndə qəlb daş görünür.

06.07.2015

EY DUYĞU ORTAĞIM

Ey duyğu ortağım, ey könül tacım,
Səndən ayrılalı sail olmuşam.
Sənsən bu dünyada tək ehtiyacım,
Sənin varlığına mail olmuşam.

Ürək ağlayanda yaş gözə çıxmır,
Mənim əzablarım heç üzə çıxmır,
Gözlərim ayılıb gündüzə çıxmır,
Uçan röyalara nail olmuşam.

Oxşa baxışımı, üz baxışımı,
Yerlərdə, göylərdə gəz baxışımı,
Gətirmə könlümə qarlı qışımı,
Mən başdan, binadan hail olmuşam.

Hicran küləyitək başda əsmirəm,
Səndən əl üzməyə heç tələsmirəm,
Mən ki deyinmirəm, mən ki, küsmürəm,
Verdiyin həsrətə qail olmuşam.

Gəl çıxaq dağlara, gəzək dağ-daşı,
Büllur bulaqların suyu göz yaşı,
İsit ürəyini, burax tələşi,
Demə, üzüm dönüb zail olmuşam.

04.07.2015

GÖRMÜRSƏN MƏNİM HALIMI

Gəlmisən, görmürsən mənim halımı,
Ağrılar içində can verirəm mən.
Bir dəfə sormadın heç əhvalımı,
Ömrümdən ağrılı an verirəm mən.

Qəfil boylanırsan ürək qapımda,
Gözlərin içində kədər görünür,
Əcabə, görünür mələk qapımda,
Zülmətin içində qədər görünür.

Həsrət ələmimə çalır qavallar,
Sədası evimdən çəkilib getmir.
Şam təki alışıb sönür xəyallar,
Xəzan yarpağıtək tökülüb getmir.

Sevdanın vəfası belə olmayır,
Mənə xəyalınla təsəlli vermə.
Solur könül bağçam, heç nə qalmayır,
Hicran meyvələrin əl atıb dərmə.

Bir bahar axşamı gələrsən dedim,
Baharı payıza döndərdin yaman.
İndi bu eşqimə, söylə, nə edim?
Mənə rəva buldun hicranı dərman.

Dərman da bəhrəsin verdi ürəyə,
Ağrısı gecələr göylərə qalxır.
İndi oxşayırsan əsən küləyə,
Qapı-pəncərədən xəyalın baxır.

10.07.2015

BU NƏ SEVDA YUXUSU

Bu nə sevda yuxusu,
Gülə batmışdı hər yer.
Gəlirdi can qoxusu,
Eşqə çatmışdı hər yer.

Sən də baxıb gülürdün,
Buludların içində.
Canı yaxıb, gülürdün,
Sevgi vardı içində!

16.02.2016

İÇİMDƏN HAYQIRAN AĞRI-ACILAR

İçimdən hayqıran ağrı-acılar.
Mənim dərdlərimə saray kimidir,
Dilimdən göylərə səda açılar,
Açılan sədalar haray kimidir.

Bir kimsə bilməyir nədir qüssələr,
Ömrüm parça-parça, ömrüm hissələr,
Vaxtın ocağında anlar his elər,
Tüstüsü dodaqda ah-vay kimidir.

Mənim də bəbəkdə buludum ağlar,
Bağrıma köklənən can udum ağlar,
Ruhum için çəkər bir udum ağlar,
Gözdən axan yaşım gür çay kimidir.

Gəlin Şadimanı çəkmin sınağa,
Bəxtim selə dönüb axır yanağa,
Məni də, onu da tutmun qınağa,
Bəxtim də özümə bir tay kimidir.

09.05.2011

QAPIMDA DAYANIB

Qapımda dayanıb getmir xəyalın,
Soyuq baxışlarla baxır üzümə.
Zərrəcə rəhmini etmir xəyalın,
Həsrətin boyasın yaxır üzümə.

Qovuram gözümdən onu uzağa,
Ruhumu dincəldim bu ağrılardan.
Gah döyür pəncərə, gah qaçır bağa,
Özünü gizlətsin lal sorğulardan.

Gözümdə yaş olur, içdən boylanır,
Döyünən qəlbimə sahiblik edir.
Dönüb pərvanəyə başa haylanır,
Alışan eşqimə rahiblik edir.

Məni xəyalına dəli edənim,
Xəyaldan sevgiyə soraq olmayır.
Çıxıb ürəyimdən bir yol gedənim,
Həsrətdən vüsala maraq olmayır.

25.03.2016

BU SƏADƏT BİTMƏSİN

Deyirəm ki, ürəyim eşqə ülfət oxusun,
O gözəl hisslərimin xalısını toxusun,
Eşqin ruhuma girib çiçək ətri qoxusun,
Həsrətin əli heç vaxt əlimizə yetməsin,
Ey həyatda birdənəm, bu səadət bitməsin.

Duyğular təzələnsin ömür astanasında,
Qoy ruhumuz yuyunsun təmizliyin tasında,
Gəlsin könül bağçaya öz sevgi libasında,
Üstümüzdən xəzanın ruzgarları ötməsin,
Ey həyatda birdənəm, bu səadət bitməsin.

Yaradan sevdamızı beləcə qoruyaydı,
Aramızda ülfəti eşq telə sarıyaydı,
Ruhlarımız bir-birin hər zaman arıyaydı,
Bu duyğu başımızdan çıxıb, əldən getməsin,
Ey həyatda birdənəm, bu səadət bitməsin.

Mənim də diləklərim ötüşür sellər təki,
Səni öz canı bilib hər gün eyləyir ərki,
Bunu kobudluq sayıb başıma etmə sərki,
Eşqimiz küsüb bizdən qaçıb gözdən itməsin,
Ey həyatda birdənəm, bu səadət bitməsin.

11.07.2015

GÜNƏŞ ÇIXAN TƏKİ

Günəş çıxan təki çıxıb batırsan,
Daha gücüm qalmıb qəm uda bilməm.
Girib ürəyimə gizli yatırsan,
Ayrılıq çətinmiş, unuda bilməm.

Bu möhnət acısı bitsə nə olar,
Bizdən uzaqlara getsə nə olar,
Ürəklər birləşib ötsə, nə olar,
Ayrılıq çətinmiş, unuda bilməm.

Sən də möhlətinə quyu qazırsan,
Mənim taleyimi tərsə yazırsan,
Könlümün yolunu tapmıb azırsan,
Ayrılıq çətinmiş, unuda bilməm. **05.06.2015**

GƏL GEDƏK

Sevgilim, gəl gedək uca dağlara.
Kollardan gül-çiçək üzək sənlə.
Çıxaq yorulmadan göy yaylaqlara,
Əl-ələ tutaraq gəzək sənlə.

Ev sıxır adamı, ürək tələsir,
Dörd divar içinə olubdu əsir,
Könlümü ayağa eyləmə həsir,
Ruhuma diləklər düzək sənlə.

Eşqə vurğun olan həyatdan doymaz,
Sevgi İlahidən, can onsuz uymaz,
Sevən sevgilisin həsrətdə qoymaz,
Sevda könlümüzə bəzək, sənlə.

Bu həyat duyğuda zaman kəsiyi,
Onun sinəmizdə qalıb itiyi,
Bizim ömrümüzə yalnız yetiyi,
Niyə sıxıntıya dözək sənlə?

Çıx, eşikdə əsən küləyi seyr et,
Sənə əsir olan ürəyi seyr et,
Gəl gələk ülfətə, haqqıma xeyir et,
Duraq bu möhnəti üzək sənlə.

11.07.2015

BU BİR XƏYAL İMİŞ

Acı istəklərə könlü puç etmə.
Qəfil gedişinlə ruha suç etmə,
Bu dağlar eşqimi bir ovuc etmə,
Durum ocaq çatım közümə, bilməm.
İtirsəm nə edim özümə, bilməm?

Bu bir xəyal imiş, bu bir xatirə,
İndi sığışmayır heç bir sətirə,
Könlüm istəməyir səni itirə,
Dərd qatım, ah qatım sözümə, bilməm,
İtirsəm nə edim özümə bilməm?

Gecəmin içinə hər gün gəlirsən,
Röyalar içində üzə gülürsən,
Səni sevdiyimi özün bilirsən,
Bilməsən, döyümmü dizimə? Bilməm,
İtirsəm nə edim özümə, bilməm? **07.07.2015**

ÜRƏYİMƏ GİRMİSƏN.

Sən mənim ürəyimə girmisən,
Oradan çıxartmaq olmur səni.
Ruhumu əsir edən sirmisən?
Xəyalın alıb aparır məni.
Gündüzlər sənin sorağına gəlir,
Ürəyim yanan çırağına gəlir,
Məni tənha gecələrdən sor,
Səni gəzən küçələrdən sor.
Amandı, bu möhnəti uzatma,
Ürəyimin yarasın qanatma,
Ayrılıq yuxudadı, oyatma.
Sənsiz keçən ömrümə sevgi qat,
Gözəlləşər eşqinlə bu həyat.

07.09.2015

BİR BAXIŞLA

Sənə bir baxışla vurulmuşam mən,
Baxışın könlümə hər gün od tökür.
Saat əqrəbitək qurulmuşam mən,
Sənsizlik qəlbimə dumantək çökür.

Sormaq istəyirəm, bu nə işgəncə,
Basır ürəyimi kədərin küncə?
Özüm günahkaram oyuna məncə,
Dərd qəlbi ağrıya bələyib bükür.

Hər gün məktubunu gözləyirəm mən,
Məktublar, mesajlar kəsilib daha.
Ötən maşınları izləyirəm mən,
Deyirəm gəlişin qalıb sabaha.

Təsəlli verirəm bu ümidlə mən,
Min dəfə alışan, yanan ürəyə.
Hansı düşüncələr içindəsən sən?
Bilmirəm, bəs necə gəlim bir rəyə?

Fikir də ötüşən bir ümid imiş,
Qəlbə girdiyitək çıxıb gedəcək.
Hissimin yazdığın ürəyim demiş,
Sən ov gəzən qartal, mən isə leylək.

13.07.2015

BİR SEVDANIN İŞIĞINA

Bir sevdanın işığına can qoyana,
Gəlmə dedin.
Ürəyinə atəşlərlə od qoyana,
Gəlmə dedin.

Sən yalandan keçmədin bu yollarda,
Qoydun məni bir keçilməz pis hallarda,
Dodağların ah söyləyən misallarda,
Gəlmə dedin.

Mən də sənin gəlmələrin vurğunuyam,
Həsrətinin can ağrıdan oğrunuyam,
Bu hisləri göz yaşına tutub yuyam,
Gəlmə dedin.

14.07.2015

İNSANIN BİR SÜTUNUDU

Sevgi də insanın bir sütunudu,
Sütun qırılanda ürək titrəyir.
Bu da təbiətin hikmət donudu,
Ona toxunanda qəlb telə dəyir.

Qəfildən közərib, alovlanacaq,
Ruhu dilləndirir eşq havasıyla.
Sönmək bilməyəcək alışan ocaq,
Sındırdın, qalacaq can davasıyla.

Eşqi oyun etmək, insanlıq deyil,
Onun qayğısına qalasan gərək.
O ruhdan doğulur, ehsanlıq deyil,
Onu ürəyinə salasan gərək.

Sevgidən doğulub bütün kainat,
Sevgi bitən yerdə, həyat da yoxdu.
Ürəkdə eşq yoxsa, eləmə inad,
Sevən yox, inadcıl dünyada çoxdu.

Sevginin ömürü bir bardaq sudu,
İçdikcə dibindən bulanıq çıxar.
Sevib sevilməkdə reallıq budu,
Onu duymayana ögeytək baxar.

Sevgi olan yerdə hikmətlər susur,
Onun dəyərini hər kəs anlamaz.
Ruhu savaşdıran adətlər susur,
Odur İlahiyə ibadət, namaz.

14.07.2015

ÜRƏYİMDƏ YAŞADIRAM

Ürəyimdə yaşadıram səni mən,
Bu eşqimdən xəbərsizsən necə sən?
Gül-çiçəyin bahar ayı gəlibdi,
Sevgilərin nübar ayı gəlibdi.

Bəs sən niyə dinməyirsən bu eşqə?
Zirvələrdən enməyirsən bu eşqə.

Pəncərəmi döydü külək bu səhər,
Kölgən keçdi, halım oldu bir təhər,
Kipriyimdə buludlandı göz yaşım,
Nə vaxt söylə sona yetər tələşım?

Gilavarın arxasıyca düşmüşəm,
Bəlkə rasta çıxıb sənlə görüşəm,
Yollar sənin gəlişini söyləyir,
Sabah ilə görüşünü söyləyir.

Bu sevgini gəl birlikdə ovudaq,
Ayrılığın sərhədlərin dağıdaq…

Bu şəhərdən mən köçəsi deyiləm,
Rəvac vermə ayrılığa əyiləm.
Şadimanın ürəyində qalmısan,
Bir könlüm var, tutub məndən almısan.

13.09.2015

CAN DEYƏ BİLSƏN

Sənə can deyənə can deyə bilsən,
Canımı uğrunda fəda edərdim.
Gəl ağrı-acıma yan deyə bilsən,
Sənə öz könlümü sevda edərdim.

16.02. 2016

GÖZLƏRİM YAŞLA DOLU

Gözlərim yaşla dolu,
Tutub yolumu ayrılığın qolu,
Ey nəfəsimi kəsən adam,
Məndən inciyib, küsən adam.
İçim yanan şam,
Tüstüsün udar axşam.
Yuxularıma gələsən,
Üzümə qəhqəhə çəkib güləsən.
Axı nə biləsən səni candan sevdiyimi,
Qəlbim qulaqardına vurur mən dediyimi.
Səni unutmağı yalvarıram ona,
Yığıb məni cana,
Heç məni eşitmir,
Ağlımla yola getmir.
Səsimi küləklər udur,
Könül fəryadımı həsrətin dadır.
Ey qəlbimə girən adam,
Bunun nəyi oldu kam?
Gözlərim yaşla dolu,
Mən ürəyimin qulu…

31.10.2015

QORXULU YUXU

Səni itirmək mənə qorxulu yuxu,
Ruhumu boğur bir kəskin qoxu…
İçimdə həsrət acısını oyatma, əzizim.
Bu yuxunu mənə yaşatma, əzizim,
Könlüm qırıq bir sim,
Sim üstündə oynayır əksim.
Sənin adın dilimdə ən sevdalı isim…

***

Hər gecə uyğularımda səcdənə gəlirdim,
Bu günə qədər elə bilirdim

biz həmişə bir yerdə olacağıq,
Can bir olub qalacağıq.
Sən mənim bilgilərimin üstündən qələm çəkmə,
Bir an da olsa belə üstümdən gözünü çəkmə.
Sənsizlik mənə bir matəm şərqisi,
Qulağımı dəlir səsi.
Bu səsin fəryadına dözə bilməm,
Bəbəklərimi boğur nəm.

***

Mənim tənhalığım səni heç yerdə
rahat buraxmaz.
Hətta qəbir evi də pişvazına çıxmaz.
Sən mənim xatirimə ürəyini yaşat,
İçindən bütün ağrı-acını at.
Könlünə munis olana sarı gəl,
Aramıza girməsin qara əl.
Bu əzrayıl əli olsa belə,
Ortalığa nifaq salsa belə.
Sən vücudunu bütün acılardan qoru,
Sənə ünvanlanıb bu soru.
Rica edirəm, soruma cavab ver,
Ayağımın altından qaçmasın yer.

***

Sən mənim büllur sarayımsan,
Sən mənim içdə harayımsan,
Səni bir başqasına dəyişə bilməm,
Ürəyimlə döyüşə bilməm.
Qoyma büllur sarayım sınıb tökülsün,
Qoyma çılğın duyğularımın bağrı sökülsün.
Sənə tövsiyəm budur,
Ürəyim halından qəm udur.
Qoy qəmimi əsən yellər alsın,
Ürəyim sənin yanında qalsın.
Bu iltifatını məndən əsirgəmə,
Ayrılıqla sövdaya girmə.
Mən ondan yaman qorxuram,
Sənə öz canım kimi baxıram.

***

Səni itirmək mənə qorxulu yuxu,
Ruhumu boğur bir kəskin qoxu…
İçimdə həsrət acısını oyatma, əzizim.
Bu yuxunu mənə yaşatma, əzizim…

26.09.2015

QAPIMDAN GİRSİN

Qoyma möhnətini qapımdan girsin,
Onun əzabına dözmək olmayır.
Axan göz yaşımı ayrılıq görsün,
O verən kədəri çözmək olmayır.

16.02.2016

TELLƏR BAĞLAYIB

Bizi bir-birinə tellər bağlayıb,
Tellərə toxunsan, yanasıyam mən.
Bu sevdalı ömrü illər bağlayıb,
Onun hər sanyəsin anasıyam mən.

Sevda yolçuları yollarda azır,
Hər insan ömrünü öz əli yazır,
İlahi kodları ürəyə sızır…
Sızmasa, bir gündə sönəsiyəm mən.

Mənim taleyimə hicran yaşadan,
Mənimlə bir yerdə candan qəm udan,
Ömür yollarıma lapdan daş atan,
Zənn etmə büllurtək sınasıyam mən.

21.10. 2015

VƏFALI DİLDAR

Bağçada güllər açdı sənsiz,
Ömürdən illər qaçdı sənsiz,
Qapımı həsrət açdı sənsiz,
Bil halı dildar,
Vəfalı dildar.

Günlərim keçdi getdi sənsiz,
Həsrətin zülüm etdi sənsiz,
Ürəkdə kədər bitdi sənsiz,
Bil halı dildar,
Vəfalı dildar.

22.09. 2015

DUSTAQ OLARKƏN

Gözüm yuxulara dustaq olarkən,
Həyəcan içində həsrətin gəlir.
Qərib hicranına ortaq olarkən,
Gecənin içindən surətin gəlir.

Gülüb danışırıq bir-birimizlə,
Sanki alışırıq bu odla, közlə,
Eşqdən bəhs edirik pərişan gözlə,
Buludlar içindən heyrətin gəlir.

16.02.2016

SƏNƏ ŞEİR YAZIRDIM

Bu gecə sənə şeir yazırdım,
Sətirlər içində azırdım.
Misralardan boylanırdı baxışların.
Könlümə zərif xalı toxuyurdu sevda naxışların.
Başımı qaldırdım, üzümə gülmüsəyirdi xəyalın,
Könlümü yandırıb yaxırdı halın.
Sözlər alov tökürdü üstümə,
Sanki aləm durmuşdu qəsdimə.
Sənin pıçıltıların qulağımı dəlirdi,
Lap uzaqlardan səsin gəlirdi.

***

Mən və sən,
ikimiz idik bu aləmin içində,
Boğulub qalmışdım naləmin içində.
Harayımın səsində hıçqırtılar yatırdı,
Ayrılıq itələyib məni boşluğa atırdı.
Sən mənim bir addımlığımda idin,
Mənə nə isə dedin.
Səsinə diksindim,
Səsinin təmasına isindim.
Sonra çəkilib, qərib bir boşluğa getdin,
Qəfəsə düşmüş bülbül təki ötdün.
Həzin bir nəğməyə dönmüşdü səsin,
Məni isidirdi nəfəsin.
Misralar qanad açıb uçurdu,
Məni də götürüb yanına qaçırdı.
Birdən müdhiş xəyallardan ayıldım,
Sənin nəfəsinə bayıldım.
Sən elə qarşımda durmuşdun,
Misralara öz möhrünü vurmuşdun.

***

Sətirlər içində azırdım,
Bu gecə sənə şeir yazırdım. **26.09.2015**

XƏBƏRİN VARMI

Xəbərin varmı səni candan sevdiyimdən?
Özüm də bilmədən qopdu dilimdən.
Hər günüm sənin istəklərin içində,
Ömrümüz birgə köçündə.
Bəs sənə nə olub ki,
Üzünü ayrılığa tutmusan,
Məni hicrana satmısan.

***

Dodaqların ayrılıq nəğməsi zümzümə edir,
Demə ürəyin məndən gizlin harasa gedir.
Bizi bir-birinə bağlayan hislərimiz,
Hara baxırıqsa izlərimiz.
İzlərimizin qeydinə qal,
Səni usandırmasın bu hal.
Yaşanan günlərdən sor halımı,
Uçuruma atma vüsalımı.
Bax əsən küləklərin iniltisinə,
Şimşəklərin od saçan səsinə.
Buludların öpüşünə,
Göy içində yerişinə.
Fəsillərin gəlişinə,
Ağacların açışına,
Düymələnən yarpaqların qarışına.
Bağçamızda açan gülə,
Yorğun qəlbim gülə-gülə
Sənə olan sevgisini pıçıldayır,
Həyat ilə qol-boyundu, bax çöl-bayır.

***

Mənim də könlüm alova bürünür,
Arxanca sürünür…
Heç bunu duydunmu əzizim?
Əlini ürəyinin üstünə qoydunmu, əzizim?
Onun döyüntüsü birlik nəğməsi çalır,
Məni ürəyinin içinə salır. **26.09.2015**

HALIM QARIŞIQ

Halım qarışıq,
Gəlmir ətrafdan bir işıq,
Haqqımı alıram ömürdən qaşıq-qaşıq.
Açan səhərimlə pıçıldaşıram,
Fikirlər içində qaynayıb daşıram.

Bəzən kükrəyirəm, bəzən susuram,
Özümü əlçatmaz arzuların ağacından asıram.

***

Yaxşı ki, sən mənim yanımda,
Addım səslərin gəlir eyvanımda.
Gülüşün üzümdə dolaşır,
Ömrümüz birlikdə yollaşır.
Hər gün bir yerdə çay süfrəsi açırıq,
Əlçatmaz diləklər zirvəsinə bir yerdə qaçırıq.
Sevgi qanadlarında göylərə uçuruq,
Səhərin qayğılarını baş-başa qucuruq.
Ürəklərimiz bir döyünür,
Etdiyimiz xeyirxah işlərlə öyünür.
Daha bundan gözəl ömür olarmı?
Belə həyatdan gözlər dolarmı?
Məni bu gözəllikdən endirmə, əzizim,
Bəxtiyarlıqdan gen durma, əzizim.
Axı sən bütün ağrı-acılara sinə gərənsən,
Gələcəyi bügündən görənsən.
Məni gördüklərinə həsrət qoyma,
Həsrətin şirin dilinə uyma!
O, çox evlərin şadlığını apardı,
İçi boş mənzillərdə tufan qopardı.
Heç bunu unutma, sevgilim,
Məni atıb həsrəti tutma…
Bütün xəstəliklərə sinə gər,
Gir əlinlə saldığın bağçamıza
Mənə bir dəstə gül dər,
Ağlayan ürəyimin üstünə sər.
Qoy ətrini qoxlayım,
Dərdiyin güllərin rayihəsi içində yuxlayım.
Bu yuxunun şirinliyindən ayılmayım.
Axı, sənsən mənim könül sarayım,
Bu sarayda yaşat məni.
Hər səhər o qalın səsinlə oyat məni.
Bir qadına bundan artıq xöşbəxtlik nə lazım?
İcazə ver, bu diləyimi könül dəftərinə yazım.
Sən də bu yazını dilinə sal,
Hər gün, hər axşam ürəyimi al,
Dodaqlarından tökülsün bal.
Mən də şirinliyində batım qalım,
Pərişan olmasın halım.
Bizi tanrı bir-biri üçün yaratmış,
Sevgini qəlbimizə qatmış.
Bundan keçməyək, əzizim,
Ayrılıq şərbətini içməyək, əzizim.

26.09.2015

ÜRƏYİMDƏ QAL

Gecələr, səhərlər yanımda qalan,
Kövrəlib dolanda könlümü alan,
Mənim varlığıma mehrini salan,
Dodağından qopan sözlər olsun bal,
İnciyib küsəndə ürəyimdə qal.

Ey tale sökəncim, ömrə yoldaşım,
Onsuz da xətadan ayılmır başım,
Qoyma yanaqlara axsın göz yaşım,
Çöküb pərişanlıq könlümüzdən al,
İnciyib küsəndə ürəyimdə qal.

Bu həyat oyunu qəlblər oynatdı,
Atıb dərd içinə odda qaynatdı,
Çoxun öz evindən bayıra atdı,
İnsan doğulana şirindi vüsal,
İnciyib küsəndə ürəyimdə qal.

Mən sənin ruhuna çoxdan bələdəm,
Ayrılma yanımdan, amandı bir dəm,
Üzün gülməyi üçün söylə nə edəm?
Dur götür qolunu sən boynuma sal,
İnciyib küsəndə ürəyimdə qal.

Sən ki, Şadimanın taleyinə yar,
Sənsiz ürəyimi dərd, ələm oyar,
Sənə dilək dolu sevgilərim var,
Gəl qəlbin tellini mizrab vurub çal,
İnciyib küsəndə ürəyimdə qal.
İnciyib küsəndə ürəyimdə qal.

27.09.2015

ƏTRAFIMDA DOLAŞMA

Küskün-küskün ətrafımda dolaşma,
Ürəyimdən ürəyinə telim var.
Qəmlərimlə çox dilləşib yollaşma,
Sən can desən, can söyləyən dilim var.

16.02.2016

HƏYATA SƏN BAĞLAMISAN

İçimdə duyğular verib baş-başa,
Məni bu həyata sən bağlamısan.
Xəyalın bənzəyir bir zümrüd daşa,
Günəş işığıtək nə çağlamısan?

Könlə məhəbbətin səhər gətirir,
Şəbnəmlər tökülür göyün gözündən.
Ürək həsrətindən qəhər gətirir,
Özümü unutdum sənin üzündən.

Bir ömür oynadıq sevgi nağılı,
Bu nağıl bitməsin qəfil, sevdiyim.
Alıb aparmısan başdan ağılı,
Ürəyim qapında səfil, sevdiyim.

Mən də taleyimin sevda quşuyam,
O quşu uçurtma yuvandan hələ.
Qoy bu diləklərlə bir az yaşayam,
Fələyi yollarda çalış tut dilə.

Ömür ötüşdükcə qəlb kövrəkləşir,
Kövrələn qəlbimə həzin kaman ol.
Ürək buludlaşır, gözlər selləşir,
Dəyişən ruhuma özün səhman ol.

Məni də taleyim sənə yar etdi,
Duyğumun çeşməsi eşq qaynaqlasın.
Arada solmayan etibar etdi,
Qoy könül eşqinlə alışıb yansın.

21.10.2015

AYRILIQ HAVASI ÇALIRSAN

Ayrılıq havası çalırsan mənə,
Mən bu hava ilə oynaya bilməm.
Qüssəni gözünlə alırsan mənə,
Ağlayan baxışla qaynaya bilməm.

Uçurt içindəki ağrı-acını,
Tap həyat eşqinin xoş əlacını,
Başıma əlinlə qoy eşq tacını,
Bu halla ürəyi sağ saya bilməm.

Sənin acıların içimi didir,
Qəlbi hər saniyə halbahal edir,
Həsrətə vurqunluq bu qədər nədir?
Onu məhəbbətə tay qoya bilməm. **28.10.2015**

AYRILIQ ŞƏRQİSİ

Ayrılıq şərqisi oxuma mənə,
Onun uğultusu qulaq batırır.
Sən də diqqət eylə qulaq deyənə,
Şirin təsəllilər könlü yatırır.

Mənim məhəbbətim qayğı doludur,
Onu öncələrdə duymusan yəqin.
Bizim birliyimiz həyat yoludur,
Ora ürəyini qoymusan yəqin.

Sabahın təması ürək titrədir,
Yarpaq pıçıltısı nəğməyə bənzər.
Sənin üzündəki bu kədər nədir?
İltifat eyləmə, könlünü üzər.

Gəl birgə üşüdək kədərimizi,
O bizi üzməmiş biz onu üzək.
Qoy tapa bilməsin dünyada bizi,
Birlikdə asudə qol-qola gəzək.

27.09.2015

MƏNİ MƏĞMUN ETDİ BAXIŞIN

Məni məğmun etdi baxışın,
Könlümə axır vüsal yağışı,
Gözün gözümə baxır,
Üzündən dünyanın səadəti yağır.
Baxışlarına parlaq günəş doğur.
Şüaları könlümü yandırıb yaxır,
Üzümə məhəbbət dolu aləm baxır.
Bu aləmdən boylanırsan əzizim,
Ürəyində yurd salıb izim.
İzindən keçir ömrümün baxtı,
Üyüdür dəyirmanında vaxtı.

***

Məni məğmun etdi baxışın,
Eşqə nə dəxli var yaşın.
Yaşımın başına dolanır səadətin,
Ucalıqdan boylanır könül dolu qüdrətin.
Daima saf olub niyyətin.
Saflıq içində üzürsən, əzizim,

Sən mənim kükrəyən dənizim.
Bu dənizin tələtümləri könlümdə
ilham pərisini oynadır,
İçimdə sevgi duyğusunu qaynadır.
Bu duyğu azalmasın, sevgilim,
Başımız üstünü ayrılıq almasın,
Gözüm yollarında qalmasın.
Budur səndən ricam,
Ey ucalardan ucam.
Məni təklikdə buraxma,
Ayrılığın sözünə baxma.

03.09.2015

ŞƏFƏQ SAÇIRSAN

İşıqlar içində şəfəq saçırsan,
Könlümün evinə gələn sevgilim.
Ürəkdə yurd salıb gözdən qaçırsan,
Halımı üzümdən bilən, sevgilim.

Mənim taleyimin içində gəzən,
Ömrümün haraylar suçunda gəzən,
Ayrılığın qarı saçında gəzən,
Həsrətin çəkdiyim illən, sevgilim.

Müddətdi ürəyi oda yaxırsan,
Qaşqabaq tökürsən, gendən baxırsan,
Qəlbimin içinə qəm buraxırsan,
Bu nə tapmacadır dillən, sevgilim.

Mənim də başımda qalmaqal yatır,
Həsrətin içimdə aləmi qatır,
Ahım qəlb evində hər küncə çatır,
Sən də gurşadlartək ələn sevgilim.

Bu zalım fələyin fərmanı yaman,
Sənsən ürəyimin dərdinə dərman,
Gəl etmə düşdüyüm məhəbbətə man,
Dərdindən tək mənəm ölən, sevgilim.

17.10.2015

ÇİÇƏKLƏRİ GÖNDƏRƏN DOSTUM

Mənə çiçəkləri göndərən dostum,
Çiçəklər içində xəyalın gəzir.
Könlümün bağından gül dərən dostum,
Evimdə sevdalı vüsalın gəzir.

Aşiqliq yaraşır sənə, ey yarım,
Salma duyğuları çənə, ey yarım,
Gözlərin qoy baxsın mənə, ey yarım,
Yorğunluq içində məlalın gəzir.

Məndən üz çevirib getmə, amandı,
Ayrılıq əzabı qəlbə yamandı,
Sənin ürəyinlə bir vuran candı,
Bəs nədən yuxumda pis halın gəzir?

Sən də eşq deyənə qulaq as, dinlə,
Həsrətin bəxtini bağla, düyünlə,
Qəm ürəyə cumar, oynar beyinlə,
Ona vurğun olan kəmalın gəzir.

Baxıb Şadimanı gendən qınama,
Mən hələ sənինlə yetmədim kama,
Qoyma ürəyimə ayrılıq dama,
Hər gün göz önündə cəmalın gəzir.

25.10.2015

DUYĞULARI GÜNƏ SƏRMİSƏN

Sən mənim könlümə yaman girmisən,
Oradan çıxarda bilmirəm səni.
Bütün duyğuları günə sərmisən,
Apara bilməyir üstündən çəni.

Sən də çən içində durub baxırsan,
Gah şimşəyə dönüb, göydə çaxırsan,
Mənim eşq evimi niyə yıxırsan?
Göz yaşım qalmayıb bulud içəni.

Rəhmin gəlməyirsə əgər könlümə,
Durub qarşımdaca sevirəm demə,

Sən də həsrət ilə munissən demə,
Mən indi tanıdım ürək seçəni.

Dodağın gülüşdən yan qaçır yenə,
Qoyma kədərimlə qəlbin döyünə,
Geymisən həsrətdən libas əyninə,
Heç nə xilas etməz hicran biçəni.

Könlü Şadimana munis olanım,
Sən gəl qəlb evimə, başa dolanım,
Qoy olsun möhnətin dildə yalanım,
Ürək qəbul etmir yoldan keçəni.

26.10.2015

QORXURAM YAMAN

Səni itirməkdən qorxuram yaman,
İtkilər bəlalar salıb könlümə.
Sənin varlığına edirəm iman,
Haqqdan öz eşqini alıb könlümə.

Sən də hicran ilə girmə qol-qola,
Gətir ürəyinin eşqini yola,
Gündə neçə kərə girirsən hala,
Dərdin min bir ağrı çalıb könlümə.

Biz hicran günlərin ömrə caladıq,
Dərddən ocaq çatıb qəlbə qaladıq,
Öz ürəyimizi min yol taladıq,
İndi boş xanələr qalıb könlümə.

Səni canım bilib, ömrə şam etdim,
Dəli sevdan ilən ehtişam etdim,
Küskün xəyalınla birgə şam etdim,
Gəl tamaşa eylə qalib könlümə.

26.10.2015

KƏDƏRİNƏ DÜŞMÜŞƏM

Gözlərinin kədərinə düşmüşəm,
Çıxar məni kədərindən nə olar.
Sərt toxunsan sınacaqdır can şüşəm,
Uzaq düşmə qədərindən nə olar.

Gülüşlərin ürəyimin məlhəmi,
Sevdirirsən mənə küllü-aləmi,
Eşqin boğub müddətdir ki, naləmi,
Vurma yara lap dərindən nə olar. **16.02.2016**

GƏLİRSƏNSƏ

Gəlirsənsə elə gəl,
Ruhum aha düşməsin.
Ürəyimin içində
Əzabın yerləşməsin.

Çox da sayma həsrəti
Özünün ciyər-paran.
Onla tutsan niyyəti,
Aramsız sızlar yaran.

Sən ilahi eşqini
Könlümə sal beləcə.
Qəlblə etmə məşqini
Alar üstümü gecə.

Sənin də taleyinə
Ələnən yağışı kəs.
Ürəyin gileyinə,
Demə keçər, boş həvəs.

Şadimanı gözündən
Salma özünü, ey yar.
O inciyib özündən
Səni necə yad sayar?
03.10.2015

GƏTİRMİRƏM MƏN

Sənin yoxluğundan yaman qorxuram,
Bunu heç ağlıma gətirmirəm mən.
Sənə tanrım təki, sanki baxıram,
Bu eşqi könlümdən bitirmirəm mən.

Yar, mənim könlümdə nəş‘ə təki sən,
Ruhun sərxoşluğu eşqdən başlayır.
Əl vursan sınacaq, şüşə təki sən,
Hislərin qəlb yaxır, gözlər yaşlayır.

Sənin hicranın da mənə əzizdır,
Onun ağrıları incidir ağlı.
Sevgim şəbnəmlərtək elə təmizdir,
Yuyunur içində sevda nağılı.

Əgər bacarırsan çıx ürəyimdən,
Ağlıma, hissimə gətirmim səni.
Dəli sevgiləri yıx ürəyimdən,
Köksümüm içinə ötürmüm səni.

Bu dünya ümidin dayanacağı,
İnsan vurğunluğu könül işidir.
Ürəyimin səndən eşq umacağı,
Bu da həyatımın sərt gedişidir.

Səni həyatıma gətirən tale,
Bəxtin bağçasında həyat bitirdi.
Eşqin günahını götürən tale,
Sevdanı əliylə mənə yetirdi.

09.10.2015

DÜŞÜB QALMIŞAM

Bir tale oynuna düşüb qalmışam,
Hissim səni deyir, ağlımsa qürur,
Gecələr ruhumla eyləyirəm şam,
Ürəyim tək sənin eşqinlə vurur.
Gəl sənə könlümü açıb bu axşam.

19.12.2016

ÜRƏYİMDƏ ŞİKAYƏTİM

Etdim qəlbimə şikayət,
Dedi: «Canımdan bezaram.
Həyatım dolu hekayət,
Günümə məzar qazaram.»

Ağrılarım üst eləyir,
Ürəyimə qəsd eləyir,
İçimdə hicran mələyir,
Düşüb sisinə azaram.

Hislər ürəyi aldadar,
Gah ruha girib bal dadar,
Gah zəhər təki can udar,
Çəkdiklərimə məzaram.

Hislərə sevgi ələmə,
Yığıb ciyərə bələmə,
Özünə hicran diləmə,
Bu dərdi, necə yazaram?

Dilimdə adın dolaşır,
Gün düşüb qəmə bulaşır,
Bir təhər mənlə yollaşır,
Gəldiyin yerə gülzaram.

05.01.2016

GƏZİRSƏN KÖNLÜMDƏ

Gəzirsən könlümdə arzu-kam kimi,
Qəlbimin, ruhumun mələyi, Fidan.
Yanır ürəyimdə eşqin şam kimi,
Açan səhərimin diləyi, Fidan.

Bir ürək vermişəm sənə sevgilim,
Sən həyat bağçamda ətirli gülüm,
Sənin adın ilə əhd edir dilim,
Əsdirir başımda küləyi, Fidan.

Hər yerdən üstümə xəyalın gəlir,
Ayrılıq qövr edir, mələlın gəlir,

Vüsala can deyən cəlalın gəlir,
Sevdirir sinəmdə ürəyi, Fidan.

Ömür bağçasının gənclik baharı,
Yandırır qəlbimi, çıxır aharı,
Sən ey həyatımın sevgili yarı,
Ayrılıq qurmasın kələyi, Fidan.

Sənə canım dedim, can tənə yardır,
Üzün Ay parçası, əllərin qardır,
Mənim ürəyimdə bir sevda vardır,
Sən də o sevdanın gərəyi, Fidan.

Şadiman şəninə yazdı bu şe'ri,
Sənsən qələmimin dürdanə seyri,
Yaradan yoluna nur etsin xeyri,
Əllənsin dillərin xoş rəyi, Fidan.

10.12.2015

DARIXIRAM SƏNİNÇİN

İçimə dolub atəş,
Sanki yandıran günəş,
Ürəyim eyləyir qəş,
Düşdüm bu günə neçin?
Darıxıram sənincin.

Hər yerdən gözün baxır,
Qəlbi yandırıb yaxır,
Bağrımda şimşək çaxır,
Sənə diləyim çin-çin,
Darıxıram sənincin.

Hardan çıxdın qarşıma?
Səbəbsən göz yaşıma,
Döndün can sirdaşıma,
Ağlaram için-için,
Darıxıram sənincin.

Ev-eşiyim yad olub,
Günlərim bərbad olub,
Dilim bir fəryad olub,
Gedir ömrümdə biçin,
Darıxıram sənincin,

24.01.2016

QƏLBİNƏ YÜK OLACAĞAM

Mən sənin qəlbinə yük olacağam,
Çıxart-at qəlbindən, sən allah, məni,
Sanma ki, eşqində tək olacağam,
Bükər əzabına qopan ah məni.

Özün də bilirsən vurğunluq nalan,
Sevmək ürəklərə gətirir talan,
Çəkdiyim sitəmlər olacaq yalan,
Didəcək məzarda bu günah məni.

Sən bu məhəbbəti arama məndə,
Arasan batacaq ümidin çəndə,
Ayrılıq çoxların salıb kəməndə,
Etmə bu sevdaya gəl ürcah məni.

Şadiman illərin ağrısın çəkir.
Onun ürəyində qəm bostan əkir,
İçimin sitəmi bülbültək səkir,
Ruhumdan qoparır hər sabah məni.

05.02.2016

EHTİYACIM VAR

Mənim indi sənə ehtiyacım var,
İstərəm sığasan bağrına məni.
Bir gəlib görəsən neçə acım var,
Götürüb qatasan ağrına məni.

İstini soyuğa qarışdırmışam,
Özümə hər dərdi yaraşdırmışam,
Canı bədənimdə araşdırmışam,
O da döndəribdi sorğuna məni.

Biçarə ağılım çəkir qəm yükü,
Bilsən necə ağır ona bu çəki,
Allah verən ürək olmayır iki,
Bəs niyə çevirdin oğruna məni?!

05.02.2016

BU GECƏ GƏLMİŞDİ

Bu gecə gəlmişdi ruhum qapına,
Qapının səsinə oyanmadın sən.
Sanki hicran əkdi ahım qapına,
Bəlkə heç acıma dayanmadın sən.

Qapı arxasında qalan canımı,
Üşütdü çilənin soyuq şaxtası.
Bürüdü dumantək həsrət anımı,
Hönkürdü halıma qapı taxtası.

Bu gecə gözümün yuxusu qaçdı,
Ürəyim ağlıma üsyan eləydi.
Bu gecə hislərim haqqa əl açdı,
Allahın özünü heyran eylədi.

06.02 2016

ÇƏKMİSƏN ƏRŞƏ YUXUMU

Qəlbimin fəryadı gözdə sellənir.
Bu gecə çəkmisən ərşə yuxumu.
Bu gecə könlün yox, hicran dillənir,
Səpdin ürəyimə həsrət toxumu.

Bir dənə ümidi göyərtdin canda,
Min dənə hicranın boylandı andan,
Ruhum yüz yol keçdi sənin yanından,
Sən yox, ayrılığın duydu qoxumu.

Bu gecə hönkürtdün eşqimi yaman,
Bu gecə özümə tapmadım səhman,
Bu gecə ümidim etdi mənə man,
Xəyalın qovmadı təklik qorxumu…

31.01.2016

SƏNİN NƏYİNƏ LAZIM

Mənim şəklim sənin neyinə lazım?
Gözlərin önündə yarat şəklimi.
Xəyallar içinə sal könlü, azım,
Ürəyin içində ucalt şəklimi.

Gecə də, gündüz də bu fikirlə ol,
Ruhumun içinə axtar kəsə yol,
İlahi sevginlə qəlb içinə dol,
Dərya məhəbbətə tut at şəklimi.

Baxışlar içində baxışımı gəz,
Qopan ahlarımda sərt qışımı gəz,
Dolanda göy dolu yağışımı gəz,
Hönkürən yuxundan oyat şəklimi.

Məni bu dünyanın qadını sayma,
Gəlsəm həsrətimlə qapına qoyma,
Bu dəli könlümə elə də uyma,
Həsrət ağrısıyla qanat şəklimi.

Dünya bir yuxudur, Şadiman xəyal,
Ötüb keçəcəkdir inan ki bu hal,
Aç yanan könlünü məni ora sal,
Say bu möcüzədə boyat şəklimi…

08.02.2016

ÜLFƏTİN YAMAN KƏSİLİB

Gözümdən iraq düşmüsən,
Dərdə nə zaman əsilib?
Hicranımla görüşmüsən
Ülfətin yaman kəsilib.

Axtarıram səni burda,
Səsin gəlir daş-qayada,
Gəlməyirsən heç haya da,
Ülfətin yaman kəsilib.

Ürəyimi üzür həsrət,
Eşqi canda gəzir həsrət,
Daha məndən bezir həsrət,
Ülfətin yaman kəsilib.

Səbəbini bilməyirəm,
Öz-özümə çox gülürəm,
Axırda fikrə gəlirəm,
Ülfətin niyə kəsilib?

20.03.2016

YAMAN GƏZİRSƏN

Sığmırsan misra, kağıza,
Eşqtək üzürsən könlümdə.
Düşmüsən dilə-ağıza,
Yaman gəzirsən könlümdə.

Oldun ürəyin oğrusu,
Bilməm nə edim doğrusu,
Bu bir sevginin duyğusu,
Həsrət üzürsən könlümdə.

Gecəmi sabah uçurdur,
Ağlımı başdan qaçırdır,
Hicran zəhərin içirdir,
Haqqa nəzirsən könlümdə.

Şirinin yaşdı yanağı,
Ayrılıq sevgi sınağı,
Aləm edəcək qınağı,
Söylə, nə sirsən, könlümdə?!

21.02.2016

ÜRƏYİMDƏ YANDIRDIĞIN

Ürəyimdə yandırdığın eşq şamdı,
Gah ağrıdı, gah acıdı, gah kamdı,
Həsrət məni qərq eləyən axşamdı,
İnanmırsan gəl özün gör halımı,
Bacarsan al məndən həsrət zalımı.

Gecələrim yuxu qıran karvandı,
Mənim qəlbim vüsalına ünvandı,
Qulağımda səslənən eşq havandı,
İnanmırsan gəl özün gör halımı,
Bacarsan al məndən həsrət zalımı.

Mən özümlə daşıyıram sevgini,
Niyə yazdı fələk mənə bu günü?,
Çalışmaqla, açmaq olmur düyünü,
İnanmırsan? Gəl özün gör halımı,
Bacarsan al məndən həsrət zalımı. **22.02.2016**

MƏN NEYLƏYİM

Sənsiz mənə hər gün acı,
Tapmaq olmur heç əlacı,
Sən könlümün başa tacı,
Ürəyimə necə dəyim?
Söyləsənə, mən neyləyim?!

Gün açılır, qəm başlayır,
Həsrət könlü çox daşlayır,
Gözlərimi qəm yaşlayır,
Bu halımı necə öyüm,
Söyləsənə, mən neyləyim?

Ürəyimə hicran doğub,
Sevincimi tutub boğub,
Qəlbim məni cana yığıb
Qəm çağırım, dərd əyləyim,
Söyləsənə, mən neyləyim?

Şadimanı etmə qınaq,
Ömrüm deyil sənə sınaq,
Qoyma dərdə düşüb sınaq,
Bəlkə könlü ud eyləyim,
Söyləsənə, mən neyləyim?

17.03.2016

KÖLGƏLƏR KİMİ

Keçirsən könlümdən kölgələr kimi,
Qalırsan ağlımda bəlkələr kimi.

Səni ürəyimdən qova bilmirəm,
Səni gizlədəcək yuva, bilmirəm.

Dolur həyatıma həsrət sancısı,
Gəzir ömrümdə hər gün acısı.

Dağlara, daşlara düşür harayım,
Titrəyir ahımdan könül sarayım.

Gəzir duyğuların içində adın,
Sənin əzabına dözərkən qadın.

Sən də yuxulara gəlib qaçırsan,
Dönüb röyalara göydə uçursan.

Gözlərim önündə hər gün gəzirsən,
Girib həyatıma canı üzürsən.

Keçirsən könlümdən kölgələr kimi,
Qalırsan ağlımda bəlkələr kimi.

29.03.2016

MƏNƏ SEVMƏK GƏL ÖYRƏTMƏ

Mənə sevmək gəl öyrətmə,
Sevmək könlü talan edir.
Duyğuları çaxnaşdırır.
Hər nə varsa yalan edir.

Sevgi ürək ağrısıdır,
Səadətin oğrusudur,
Ömrün hicran qurğusudur,
İlan təki çalan olur.

İnanmırsan bax bir mənə,
Qoydun məni gör nə günə,
Eşqim düşsün qoy köksünə,
Gör ki, şivən salan olur.

29. 03.2016

XƏYALA BƏNZƏR

Könlümə gəlişin xəyala bənzər,
Uçan diləklərə qanad olursan.
Gedişin ağrılı bir hala bənzər,
Addımlar içinə düşüb solursan.

Payız əhvalına bənzər eşqimiz,
Gah acı küləkdi, gah günəşli gün.
Bütün ömrümüzü bəzər eşqimiz,
Gah qəzəbli şimşək, gah atəşli gün.

20.12.2016

ÇIXARDA BİLMƏDİM

Yazmışam əbədi qəlb kitabına,
İlk dəfə mən səni gördüyüm günü.
Yamanca düşmüsən can hesabına,
Çıxarda bilmirəm candan eşqini.

Hər gecə yuxuma qonaq gəlirsən,
Kipriklər üstündən asılır üzün.
Qonub çilçırağa baxıb gülürsən,
Gözümün içinə qısılır gözün.

Əlimi üzümə tutub yatıram,
Sənin surətini görməmək üçün.
Min yolla başımı qatıb yatıram,
Vaxtımı ağrıyla sürməmək üçün.

Həsrət qınağına dönmüşəm artıq,
Ötən xatirələr təsəlli olur.
Vaxtın sınağına dönmüşəm artıq,
Yuxular içində xəyalın solur.

Soyuq pəncərəmdən baxıb susursan,
Sükutun özü də həyat olarmış.
Mənim niskilimi candan asırsan,
Gözlər də yollarda düşüb qalarmış.

Diqqət kəsiləndə lal şüşələrə,
Pəncərəm önündən xəyalın qaçır.
Sanki pərçim olur can nəş‘ələrə,
Ruhumun önündə ruhun nur saçır.

Gecənin zülməti məntək hönkürür,
O da ayrılacaq qaranlığından.
Qonşunun iti də aramsız hürür,
Bezib vahimənin viranlığından.

Bürünüb xəyala qaçırsan yenə,
Xatirən şam təki əriyir gedir.
Sabah açılacaq bir yeni günə,
Ayrılıq ümidi sürüyüb gedir.

28.04.2016

ALDIN ÜRƏYİMİ

Aldın ürəyimi əlinə yaman,
Qala bilməyirəm heç yerdə, eşqim.
Ürək sənə edir səcdəylə iman,
Salma həyatımı sən dərdə, eşqim.

Salıb öz sehrinə məni gözlərin,
Lap şirin, şərbətdi, baldı sözlərin,
Qəlbə od qalayır düşən közlərin,
Salma həyatımı sən dərdə, eşqim.

Qoy Tanrı qorusun bu sevdamızı,
Sözlərdə əriyən xoş ədamızı,
Ürəkdə axtaraq can qidamızı,
Salma həyatımı sən dərdə, eşqim.

Sənsiz günüm qara, həyatım heçdi,
Qəlbim səni tutdu, göz səni seçdi,
Könül qədəhindən can şərab içdi,
Salma həyatımı sən dərdə, eşqim.

06.02.2016

SƏN

Ruhumun içində boylanır duyğum,
Artır günbəgündən bu eşqə qayğım,
Tək sənə köklənib can dolu sayğım,
Titrətdin içimi ordan getdi çən,
Küləktək könlümə uçub doldun sən…

Vəfa qaynağımsan, can timsalımsan,
Dilimdən düşməyən ruh misalımsan,
Ən ağır məqamda şaqraq halımsan,
İtirdim özümü, qaçdı qəlbdən mən,
Küləktək könlümə uçub doldun sən…

Harada, nə zaman doğuldun? Bilməm,
Ruhumun içində nağıldın, bilməm,
Zəkamdan boylanan ağıldın, bilməm.
Xəyalın önündə əsir olub tən,
Küləktək könlümə uçub doldun sən…

Mən səni ruhumdan necə qovlayım?
İçdə doğan eşqi neylə ovlayım?
Neylə başın qatım, neylə tovlayım?
Sevginin önündə lal olmuşam mən,
Küləktək könlümə uçub doldun sən. **25.04.2016**

GÖZÜMDƏN DÜŞÜR

Can qoyursan ağrıma,
Od qoyursan bağrıma,
Küsüb getsəm çağırma.
Buz tutur könlüm üşür,
Dünya gözümdən düşür.

Səni həyatdan əziz,
Bu qəlbim sevdi təmiz,
Silinməyir düşən iz,
Qəm könlümlə güləşir,
Dünya gözümdən düşür.

07.05.2016

AYRILIQ NƏĞMƏSİ OXUMA

Gecə işığımsan, gündüz günəşim,
Sənin varlığından doğur atəşim,
Olmasan dünyada, mənim nə işim?
Könlü necə açım axı mən sənə?
Ayrılıq nəğməsi oxuma mənə.

Mən bəxti kəm oldum, sən eşqi nalan,
Sənsiz bu dünyada hər bir şey yalan,
Sənsən həyatıma, ömrümə qalan,
Həsrətin dumantək bürüyür sinə,
Ayrılıq nəğməsi oxuma mənə.

Çıxıb insanlıqdan ruha dönmüşəm,
Həsrətin qəmindən aha dönmüşəm,
Gedirdim bir yolluq, daha dönmüşəm,
Sevgimi yolladım, tut sığ köksünə,
Ayrılıq nəğməsi oxuma mənə.

07.05.2016

SƏNSİZLİK

Sənsizlik yuxu kimi,
İçimdə qorxu kimi,
Huş alan qoxu kimi,
Alır aparır məni,
Təndən qoparır məni.

Ruhum çəkilir göyə,
Dönürəm, sızlar neyə?
Könlüm ah deyə-deyə,

Tənhalıq sarır məni,
Təndən qoparır məni.

Gözdə yaşım ağlayır,
İçimdə qəm çağlayır,
Dərdə çələng bağlayır,
Həsrətin darır məni,
Təndən qoparır məni.

22.05.2016

MƏN DƏ ORDAYAM

Sən məni axtarma çöldə, bayırda,
Sənsiz hər anımda bil ki, dardayam.
Ağrıdan, əzabdan insan doyur da,
Ruhun harda gəzir mən də ordayam.

Çıxarda bilmirəm səni yadımdan,
Sanki doğulmusan ürək odumdan,
İnan, söyləyirəm sənə adımdan,
Ruhun harda gəzir mən də ordayam.

Gecəyə qoşulub gəlirsən hər gün,
Gəlib yuxularda gülürsən hər gün,
Səni sevdiyimi bilirsən hər gün,
Ruhun harda gəzir mən də ordayam.

Bu nə nağıl deyil, nə də tapmaca,
Kimsə fikirləşib açmasın açа,
Çıxır bədənimdən can qaça-qaça,
Ruhun harda gəzir mən də ordayam.

Gizlədə bilmirəm ürək atəşin,
Bəlkə bağırıma düşüb günəşin,
Heç bilmək olmayır Allahın işin,
Ruhun harda gəzir mən də ordayam.

Dilimdə, qəlbimdə adın dolaşır,
Xəyalın günümlə hər gün yollaşır,
İçimdə sevginmi qaynayıb daşır?
Ruhun harda gəzir mən də ordayam.

Sənsiz qərib olur bu dünya mənə,
Çalış salmayasan könlümü çənə,
Etiraf edirəm bu sirri sənə,
Ruhun harda gəzir mən də ordayam.

26.05.2016

HİCRAN KÜLƏKLƏRİ

Hicran küləkləri əsir başımda,
İslanır, yuyunur bu göz yaşımda.
Daşıya bilmirəm tale köçünü,
Görürəm dünyanın qəmli içini.
İşıqtək gözümdən boylanıb keçir,
Bağrımın odunda oylanıb keçir.
Açılır sabahım ömrə kam kimi,
Əriyib tökülür, yanan şam kimi…

31.05.2016

SƏNİ DEYİB GƏZİR

Səni deyib gəzir könül nə vaxtdı,
Saf məhəbbət daşıyıram ürəkdə.
Kədər necə süpürlədi bu baxtı,
Həsrət ilə yaşayıram ürəkdə.

Gözlərimdən çəkilməyir xəyalın,
Ürəyimdə evin tikib mələlın,
Yuxulara qonaq olan vüsalın,
Köçün salıb, yuva qurub diləkdə.

Mən də hicran quşu təki uçuram,
Öz canımdan, bədənimdən qaçıram,
Gecələri dərdə qapı açıram,
Yəqin eşqə boyun əyir mələk də.

Yuxulara minnətçiyəm gələsən,
Nə haldayam öz gözünlə görəsən,
Əzabımı əvvəl-axır biləsən,
Sevgimiz də ələnərmiş ələkdə.

Gözlərimi bulud təki sıxıram,
Ayrılığı, intizarı yıxıram,
Çıxıb hər gün yollarına baxıram,
Möhnətimə sızıldayır külək də.

06.06.2016

NƏ YAXŞI Kİ, SƏN VARSAN

Sən olan kainatda günəş göydən boylanır,
Yer kürəsi bu eşqə dörd bir yana haylanır,
Həsrət dizinə döyüb ömrü boyu vaylanır,
Girib ürək içinə bədəndə cana yarsan,
Nə yaxşı ki, sən varsan.

Uzaqdan əl eyləyir mənə saf məhəbbətin,
Eşqin əlində tutub güllə dolu səbətin,
Hər sevdalı gününə şükürlüyəm xilqətin,
Qanadlanır ürəyim, ömrə gələn baharsan,
Nə yaxşı ki, sən varsan.

Bağımın çiçəkləri üzün tutub yoluna,
Ürək halbahal olur sevdamızın halına,
Çırpınır qəfəslərdə bülbül gül vüsalına,
Sən də iztirabımı bülbül təki duyarsan,
Nə yaxşı ki, sən varsan.

Kiprik üstən yükünü götürməyir həsrətim,
Kədərə köklənməyə öyrəşibdi xislətim,
Qapından, pəncərəndən asılıbdı surətim,
Olmasam da yanında xəyalıma uyarsan,
Nə yaxşı ki, sən varsan.

Bilirəm, eşq yaşadır insanlığı əzəldən,
Misram sənə boylanır hər şeirdən, qəzəldən,
Bir sevdalı baxışdır aramızı düzəldən…
Sevgimizin xətrinə qəmin burnun ovarsan,
Nə yaxşı ki, sən varsan.

Şadimanın içində ürəklə can əlləşir,
Ruhum bədəndən qopub kədərimlə dilləşir,
Boğur gözümü yaşlar, gurşad təki selləşir,
Bilirəm ki, canımdan ağrıları qovarsan,
Nə yaxşı ki, sən varsan.
Nə yaxşı ki, sən varsan.

06.06.2016

EŞQƏ YANDIM

Mən də sənin kimi bu eşqə yandım,
Ocaqda tüstümüz qoşalanıbdı.
Adınla başlanır dilimdə andım,
Həsrətin əzabı içdə yanıbdı.

20.12.2016

QÜRBƏTƏ SEVGİ MƏKTUBU

Susqun dodağından kəlmələr qopmur,
Gəlib ürəyimi bəs niyə tapmır?
Həsrət buzlarında donub qalmışam,
O lal yuxulara mehir salmışam.
Hər keçən günümü sənlə ovutdum,
Yenə həsrəti yox, mən səni tutdum.
Gözdəki yaşlarım dəsmalım oldu,
Ayrılıq ömürlü eşq halım oldu,
Sən özün bilirsən indi necəyəm,
Şama elçi düşən tənha gecəyəm.
Qayıt-gəl, istilət bu sevdamızı,
Ürəkdə ovutma can nidamızı.
Hər şey köhnələşib sən gedən gündən,
Ömrüm baş açmayır qara düyündən.
Ürəkdə yatırdım mən səadəti,
Göz yaşlarım boğur bu məhəbbəti.
Sənsə nə zamandı çıxıb-getmisən,
Özünü eşqimdən uzaq etmisən.
Bilmirəm halını, bəlkə xəstəsən,
Bəlkə də, kim bilir, lap can üstəsən.
Sağsansa, getdiyin yurduna qayıt,
İçində vicdanın yatıbsa, ayılt.
Evdə uşaqların yolunu gözlər,
Hər gün yatağını əlim əzizlər.
İyini qoxlaram palpaltarından,
Niyə gen düşmüsən halal yarından?!
Əgər sevmirdinsə, niyə birləşdik?
Yıxıldıq, həyatın dibinə düşdük.
İki körpə balan səni gözləyir,
Atam hanı deyb yol əzizləyir.
Sənsə atıb getdin uşaqlarını,
Sən atasız etdin uşaqlarını.
Söylə, əzablara necə dözüm mən?
Düşdüyüm möhnəti neylə çözüm mən.
Ər də arvadından gendə durarmı?
Ayrı məmləkətdə yuva qurarmı?
Axı sən deyirdin Vətən şirindi,
Bu illər ərzində yerin göründü.
Vallah, başqasına baxmamışam mən,
Allah qoyan yoldan çıxmamışam mən.
Kişi hənirtisi gəzir evimiz,
Neçə il nişanlı, sevgiliydik biz,
Necə xətt çəkmisən ötən günlərə,
Ruhumun içində bitən günlərə.
Qızın da, oğlun da soruşur səni,
Onlardan fikirləş, incitmə məni.

Beş ildi getmisən, xoş sorağın yox,
Bəlkə qayıtmağa heç marağın yox…
Atalıq hislərin oyat, yatıbsa,
Uzun yollarını tez eylə qısa.
Batırma könlümü ağrıya müdam,
Bir dəfə doğulur həyata adam.
Rusiyada nə çoxdu özgə yuvalar,
Dön gəl soyumayıb hələ havalar.
Aclıqda batırma uzun qışımı,
Buzlarda dondurma gözdə yaşımı.

***

Qayıt-gəl, Orxanım, ev-eşiyinə,
Könlüm yenə dursun can keşiyinə.
Kimi yar etmisən unut tez onu,
Həsrətlə bitməsin bu eşqin sonu.
Anan da, bacın da pərişan olub,
Yoxluğun bizlərə pis nişan olub.
Nicatın, Ayselin yolunu gözlər,
Bitib tükənməyir eşqinə sözlər.
Pəncərəm önündə dibçəklər solub,
Bağçamız içində çiçəklər solub.
Hər sözü məktubda yaza bilmirəm,
Həsrətin uzundu, dözə bilmirəm.
İstəsən iş-gücü burda taparsan,
Özünə sevgidən qala yaparsan.
Vurma sözlərimi qulaqardına,
Yolladım sevgimi, dur-gəl ardına…

07.06.2016

PƏNCƏRƏM MƏNİM

İşığa açılan pəncərəm mənim…
Pəncərəm də sənsiz qəribsər inan.
Ürəkdən inciyib, candan küsənim,
Həsrət küləkləri sərt əsər inan.

Bir məsum çocuqtək yürü könlümə,
Sənsən bu aləmin dürü könlümə,
Eşqini örpəktək bürü könlümə,
Duyğumu ruhumdan dərib sər, inan.

17.06.2016

SEVGİ

Könlümüzdə min bir yerdən,
İldırımtək çaxan sevgi.
Ocaq çatıb qəlbdə hərdən
Atəşlərə yaxan sevgi.

Doğma kimi cana mehman,
Edən hər an Rəbbə iman,
Özü verər könlə fərman,
Ayrılıqdan qorxan sevgi.

İşıq təki canı saran,
Dəli təki hissə varan,
Həsrət düşsə olur viran,
Qəlbi dərdlə yıxan sevgi.

Bənzəri var bir mələyə,
Uçub qona eşq diləyə,
Gəlib girib hər ürəyə,
Doğmasıtək baxan sevgi.

Şadimandan sorsaz canı,
Dərdə salıb hər bir yanı,
Damarımda çalxar qanı,
Əzabıyla sıxar sevgi.

16.06.2016

SEVƏN ADAM

Yaman pəjmurdəsən, yaman nigaran,
Gözlərin yol çəkir, ey sevən adam.
Yəqin ki, həsrətdən sızlayır yaran,
Bilməz qəlbin məkir, ey sevən adam.

Sən eşqi içində tütyəmi etdin?
Dəryada batmayan bir gəmi etdin,
Həsrətin qurumaz dərd-qəmi etdin,
Olarmı içdə kir, ey sevən adam?!

Mən də işığına möhtac kimiyəm,
Bütün ağrılara lap ac kimiyəm,
Ocağı alışan bir sac kimiyəm,
Qəlbim sənə çəkir, ey sevən adam.

Ürəyim sayrışan ulduza bənzər,
Həsrət donduranda can buza bənzər,
Sevgi də içimdə xoş naza bənzər,
Könlə gurşad tökür, ey sevən adam.

İllərdi ətrafdan zülmə düçaram,
Deyirdim vüsala qapı açaram,
Qayıt gəl könlümə, sənsiz naçaram,
Qəlbimi qəm sökür, ey sevən adam.

16.06.2016

ÇIXAR ÜRƏYİNDƏN

Çıxar ürəyindən sən bu sevgini,
Bu sevgi ruhuna çox baha gələr.
Gətirmə bəxtinə ağrıyan günü,
Ağrı-acılar da hər aha gələr.

Məni dönüklükdə qınama heç vaxt,
Səni düşünürəm özümdən də çox.
Zəlzələ təkidir hər insanda baxt,
Hər bir titrəyişi ürəyə bir ox.

Sən də fikirindən çıxar dünəni,
Sabahın gəlişi özü müjdədir.
Bütün uğurlarda görürəm səni,
İnsanı ümidsiz öz ağlı edir.

Məhəbbətlə həsrət ekiz doğulur,
Bir can verəndi, biri can alan.
İki hissə düşən batır, boğulur,
Axı çarə etmir sevgiyə yalan.

Çıxar ürəyindən məni bir yolluq,
Ürəyə düşəndə eşq ağrı verir.
Gələn günlərinlə olsan xoşqılıq,
Səadət sorağın çox doğru verir.

Sən də ulduzlartək yanıb sönürsən,
Həyat düstürunun həllini düşün.
Çıxıb getdiyintək könlə dönürsən,
Dünyatək sirlidir sevda yerişin.

Sevgi səadətin açarı deyil,
Ürəyə düşəndə yaman yandırır.
Ağıl kor hislərin naçarı deyil,
Yolunu sapanı o dayandırır.

Zəkanı ciddiyə almayanların
Başı çox bəlalar çəkib dünyada.
Hislərin yanında qalmayanların,
Başından uzaqdır hər an qan-qada.

25.06.2016

BİR AZ ÜZÜN GÜLSÜN

Bir az üzün gülsün, bir az can denən,
Ay qəlb qapısından boylanıb baxan.
Bilirəm eşqimdən qabarır sinən,
Ay ürək içini yandırıb yaxan.

Buludtək tökmüsən qaşqabağını,
Çəkirsən ürəyə sinə dağını,
Mən ki, gəzdirirəm can fərağını,
Ay həsrətin əlin şövqüylə sıxan.

Bir azca gözümə yuxu gedəndə,
Durub xəyal kimi baxırsan gendə,
Bilmirsən necəyəm? Ruhum nə gündə,
Bəlkə varlığımdı canımı sıxan.

26.06.2016

ATƏŞ OLAQ

İkimiz də atəş olaq,
Bu sevginin işığına.
Yanıb-yanıb günəş olaq,
Dönək könül aşığına.

Ağrımızın ocağını
Eşqimizlə tüstülədək.
Açsın sevda qucağını,
Xoş duyğuyla məftun edək.

Acı dolu anlar qəmdir,
Qəmlə keçən ömür nədir?
Baxışların bir aləmdir,
Ürəyimi Leyli edir.

Aç gəl könül qapısını,
Gör ki, orda nələr yatır.
Pozma duyğu sırasını,
Canım orda mələr yatır.

27.06.2016

SOYUQ YELLƏRİ

Aramızda əsən soyuq yelləri,
Sən nədən süpürüb atarsan axı?
Mənsiz həsrət ilə keçən illəri,
Necə könlünə yar tutarsan axı?

Məhəbbət ürəyə düşən ocaqdı,
Odun bol eyləsən hər an sıcaqdı,
Sevginin axırı qəm olacaqdı,
Dil deyə bilərmi sən yarsan axı?

Çıx boylan ahımla yanan yollara,
Hicranı qucağa basan qollara,
Düşsən mənim təki acı hallara,
Necə gecələri yatarsan axı?

Yayımda duyuram qış soyuqluğu,
Qəlbimdə açmısan can oyuqluğu
Söylə hansı əhdlə qəm duyuqluğu
Hissinlə bacarıb tutarsan axı?!

Sən mənə söyləmə sevgi nağılı,
Onun qapıları lap çoxdan bağlı,
Könlə lazım deyil hər dili yağlı,
Qəlbimdə aləmi qatarsan axı.

Sevda yolçuları gözü yaşlıdı,
Hər izi, cığırı iti daşlıdı,
Dünya qəm təşnəsi ikibaşlıdı,
Ömrə dərd yükünü çatarsan axı.

Ürəyim söylədi sözünü, ey yar,
Onun hər sözündə bir həqiqət var,
Əgər ki, içində acı niyyət var,
Niyətin içində batarsan axı.

03.07.2016

XƏYALLARIN İÇİNDƏ

Ürəyimin hicranına bürünüb
Nə gəzirsən xəyalların içində.
Ömür-günüm, can yolunda sürünüb,
Ruhum azıb bu yolların içində.

Vallah səni eşq içində bəslədim,
Ayrılığın qəmin candan həslədim,
Özünü yox, mən ruhunu səslədim,
Azıb qaldım vüsalların içində.

Özün söylə, mən nə edim sevginə,
Saldı məni əzabların cənginə,
Gəl seyr eylə açdığın qəm sərginə,
Vurnuxuram bu halların içində.

Eşqə düşən çəkir ağrı, acını,
Yolur ruhum kədərindən saçını,
Səni bildim könlün tərlan laçını,
Həsrət uyur bu qolların içində.

Şadimanı bulma eşqdən aralı,
Göz yoluna dikiləndən saralı,
Necə qalsın can bədəni yaralı,
Bağra düşən bu xalların içində?!

15.07.2016

RUHUN İÇİNDƏ

Yenə də gəzirsən ruhun içində,
Ruhumda fırtına yaradanımsan.
Batır-qalır günüm ahın içində,
Düşüb cəfalara qəm udanımsan.

Bir möhlət işığı doğur qəlbimdə,
Dərya ümidimə çıraq olursan.
Bütün acıları boğur qəlbimdə,
Hər təzə misraya soraq olursan.

Adın yuxulayır dodaqlarımda,
Bir körpə uşaqtək sənsizləşirəm.
Asılıb qalıram qəm tağlarımda,
Qopmaqçın oradan çox əlləşirəm.

Bilməm nə bilməcə, nə tapmacadı,
Bu qədər yaxınım, doğmam olmusan?!
Varlığın könüldə candan ucadı,
Orda əbədilik məskən salmısan.

Qalx ey ruh adamı, gedək dünyadan,
Sən də yorulmusan, mən də yorğunam.
Özümüzü xilas edək dünyadan,
Hər iki aləmdə ürək sorğunam.

19.07.2016

CƏFASIDIR ÜRƏKDƏ

Nə müddətdir gözlərimi ağladan,
Tüğyan edir səhər-axşam diləkdə.
Ürəyimi min bir yerdən dağladan,
Yar deyənin cəfasıdır ürəkdə.

Sevgisini qəlb içindən çıxarım,
Yansın canım, qalxsın ərşə aharım,
Gedib daha, gəlməyəcək baharım,
Vaxtım uçur çarpələngtək küləkdə.

İşığından gözlərimə nur dedim,
Ruh evimi calalınla qur dedim,
Həsrətimin sinəsindən vur dedim,
Ümidimi ovsunladı kələkdə.

Gözlərimə xəyalını qondurur,
Baxışları baxışımda dondurur,
Heykəlini ürəyimdə yondurur,
Yellənçəktək asılıbdı dirəkdə.

02.08.2016

NƏ MÜDDƏTDİR

Nə müddətdir gözlərimi ağladan,
Sevdiyimin vəfasına gəlmişəm.
Ürəyimi hisləriylə bağladan,
Eşq deyənin cəfasına gəlmişəm.

Baxışıma sürmə çəkdi sevgidən,
Ürəyimə sevda bükdü sevgidən,
Dilə şirin-şəkər tökdü sevgidən,
Yar deyənin şəfasına gəlmişəm.

04.08.2016

BİLƏSƏN

Səhər-səhər yolladın gül-çiçəklər,
Cana verdi xoş ovqatı, biləsən.
Bir-birinə ülfət etdi ürəklər,
Bu sevdanın işığına gələsən.

Günəşin də hərarəti çoxaldı,
Gözüm doldu, yaman könlüm yuxaldı,
Həyəcandan titrəyərək sıxıldı,
Məhəbbətlə ovsun etdin gülə sən.

Erkən durub mənə böylə eşq etdin,
Qəlb udunun telləriylə məşq etdin,
Gül-çiçəyi göz boyanla nəqş etdin,
Ruhum gülür, sən onunla gülәsən.

Ey güllərdən, çiçəklərdən təmizim,
Ləpələnir sevda adlı dənizim,
Görməmisən ömrün boyu, əzizim,
Bu füsnikar mənzərəni hələ sən.

Yollarında düşüb qalıb baxışım,
Gözlərimdə buludlanıb yağışım,
Ürəyindən kimsə silməz naxışım,
Sultan oldun ruha, könlə, dilə sən.

04.08.2016

ELƏ GET Kİ, ÜRƏKDƏN

Gedirsənsə, elə get ki ürəkdən,
Sonra acı taleyimə ağlama.
Hislərini çox keçirmə kələkdən,
Bu sevdanı o sevdaya bağlama.

Mən ki, səni can evimə yar bildim,
Ötən ömrün hər anına var bildim,
Sənsiz keçən hər saatı dar bildim,
Duyğuları yad sədaya bağlama.

Sevgi candan yola çıxan karvandır,
Cığırını ayırd edən sarvandır,
Könül ona ən layiqli ünvandır,
Ünvanını dərd-qadaya bağlama.

Dildən qopan etirazlar beh deyir,
Aramızda qopan külək meh deyil,
Gözlərimdə daşan yaşlar şeh deyil,
Həyatımı əlvidaya bağlama.

05.08.2016

MƏKAN TAPANIM

Sənsiz nə yerdəyəm, nə göydəyəm mən,
Ruhumu özünə məkan tapanım.
Gələm can evinə eşqi öyəm mən,
Gecəli-gündüzlü qəlbdə çapanım.

Gəl gör nə gündəyəm, ruhum nə halda,
Tut kimi ələnir qəmlər içimə.
Hiss qəlblə əlləşir, qəmim vüsalda,
Ürək dözə bilmir, böylə seçimə.

Gündüz xəyalların başıma bəla,
Gecə yuxulara səbəb olursan.
Ruhum səmalarda bir yaşıl tala,
Talayla birlikdə sən də solursan.

Ağıl yağı çıxır ürək deyənə,
Bəlkə ürəyimin özü olmusan.
Sən bu həqiqəti açıq de mənə,
Niyə ürəyimdə məskən salmısan?!

22.08.2016

ELƏ GETMİSƏN

Elə getmisən ki səssiz, hənirsiz,
Daha yuxuya da gəlməyirsən sən.
Mən səni saymışdım əhdə qənirsiz,
İndi heç halımı bilməyirsən sən.

Ötən xatirələr ürək ağrıdır,
Dilimdə dolaşır adın hələ də.
Eşqini unutmaq mənə ağırdır,
Dərdi rəva bulmaz adam belə də.

Sevgi ağrısını çəkirəm sənsiz,
Xəyalın gözümə dumantək çökür.
Bu dərdi ürəyə bükürəm sənsiz,
Harayım misraya ah-aman tökür.

Könül sahilində gəzir baxışın,
Gözlərin gözümdən yan ötür keçir.
Dondurur xəyalı boranlı qışın,
Ruhum bilməm niyə tək səni seçir?

Bu həsrət oyunu tükənən deyil,
Çünki ürəyimiz ağıla quldu.
Qürurum göylərdən heç enən deyil,
Sevgi uydurduğum nağıla quldu.

10.07.2015

CAN DEMİRSƏN

Sən canıma can demirsən, neyləyim?
Təkcə məni an demirsən, neyləyim?

Hər gecəni ahu-fəğan edirəm,
Sən könlünə yan demirsən, neyləyim?

Ruhumla mən çarpışıram hər gecə,
Ürəyinə qan demirsən, neyləyim?

Bu fələyin oyununa düşmüşəm,
Savaş edib, qan demirsən, neyləyim?

Şadimanı gəl çevirmə ahına,
Bağrım olub şan demirsən, neyləyim? **01.09.2016**

GÖYLƏRDƏN YERƏ VURDUN

Məni göylərdən yerə vurdun,
Qəlbimdə sarı simi qırdın.
Ruhum ağrı içində asimanda çırpınır,
Hətta, kədərlərim onun çəkdiklərindən qırpınır.
Hiddət dolu gecələrim gözlərimdən boylanır,
Ruhumun başına haylanır.
Zülmət halıma titrəmədə,
Səhvimi axtarıram,
Harada və nədə?!

06.09.2016

UNUT MƏNİ

Bacarırsan unut məni,
Ağlat könül sevdasını.
Ayrılığa yar tut məni,
At ürəkdən qadasını.

Heç kimə eşq yarımayıb,
Bu anlamdan qaçmaq olmur.
Onla heç kim qarımayıb,
Ondan heç baş açmaq olmur.

12.09.2016

ÜRƏYİMDƏ QORUYA BİLSƏM

Bütün xatirələr dola qəlbimə,
Tək sənin eşqinlə yarıya bilsəm.
Baxışın sevgini sala qəlbimə,
Səni ürəyimdə qoruya bilsəm.

Pıçıltın könlümə dolan meh ola,
Könlümü ram edən bir fateh ola,
Kirpikdə gizlicə yatan şeh ola,
Səni ürəyimdə qoruya bilsəm.

Dönüb xəyallara gizli gəlirsən,
Ruhum nə çəkirsə, onu bilirsən,
Ömür çox qısadır, sonu bilirsən,
Səni ürəyimdə qoruya bilsəm. **12.09.2016**

EŞQİNƏ İNANA BİLMƏM

Od-atəş içində tuşlanan baxış,
Vurursan ürəyə min yerdən naxış,
Gah bulud olursan, gah da kı yağış,
Gurşada salırsan dayana bilməm.
Mən sənin eşqinə inana bilməm.

Gah ruhuma gəlib qonaq olursan,
Gah həsrətə düşüb sınaq olursan,
Sən mənim içimdə qınaq olursan,
Durum səndən qaçım hayana bilməm?
Mən sənin eşqinə inana bilməm.

Yanlış sayırsansa, qəlbimə gir bax,
Yandırır oranı kədər, qüssə, ah,
Səninki olmağım kökündən günah,
Çatdığın alova boyana bilməm.
Mən sənin eşqinə inana bilməm.

Dustaq eyləmişəm məhəbbətimi,
Mən özüm çəkirəm müsibətimi,
Sevginlə bitirdim can söhbətimi,
Bu şirin yuxudan oyana bilməm,
Mən sənin eşqinə inana bilməm.

15.09.2016

ÇIXIB GƏLİRƏM

Ey məni hicrana salan,
Baxışdan çıxıb, gəlirəm.
Qəlbimi səhmana salan,
Naxışdan çıxıb, gəlirəm.

Fəsillər payızı gəlir,
Gecəyə ayazı gəlir,
Xəzriylə avazı gəlir,
Yağışdan çıxıb, gəlirəm.

Çıx boylan eyvandan mənə,
Eşq söylə, seyrandan mənə,
Canım de, hər yandan mənə,
Alqışdan çıxıb, gəlirəm.

16.09.2016

TAPA BİLMİRƏM

Könlümü çox axtarıb,
Səni tapa bilmirəm.
İtən məhəbbətimə
Məzar yapa bilmirəm.

Hər günüm hicran ilən
Döyüşmədə sonlanır.
Vuruşuram can ilən
Yenə üzüm danlanır.

Rahatlıq bilməyirəm,
Sənlə qarşılaşandan.
Özümə gəlməyirəm,
Səninlə savaşandan.

İnanmırsan, ürəkdən
Soruş bu bilməcəni.
Qəlb asılıb dirəkdən,
Qoymur yatsın gecəni…

23.09.2016

UZAQDAN KEÇİB GEDİRSƏN

Ay uzaqdan keçib gedən,
Yol gətirə bizə səni.
Həyatımı əlvan edən,
Gəlməyəsən gözə səni.

Baxışında həyat eşqi,
Al könlünə gəl çat eşqi,
Qur sinəmdə büsat eşqi,
Qonaq edim közə səni.

Kirpiklərim yaşa batıb,
Hicran yenə ara qatıb,
Sinəm içrə dərdi çatıb,
Çəkir canım sözə səni.

25.09.2016

SƏNSİZ YAŞAMAĞIM ÇƏTİNDİ

Sənsiz yaşamağım çətindi, ürək,
Səni taleyimə Allah göndərib.
Bilmirəm, bəlkə də bəxtimə fələk
Sənin özün boyda günah göndərib.

Mən çıxa bilmirəm tə‘sirin altdan,
Qaçıb qurtarmaqçın bu bilməcədən.
Keçirir ürəyim dərdi min qatdan,
İmdad istəyirəm gündüz-gecədən.

Boğuram hissimi içimdə hər gün,
Hönkürtü qoparır bir uşaq kimi.
Boğazda qəhərim açılmaz düyün,
Dolanıb köksümə göy qurşaq kimi.

Səndən qaçmaq üçün cəhd eyləyirəm,
Cəhdim boşa çıxır, nə edim bilməm?!
Mən öz inadımla əhd eyləyirəm,
Sənlə qoşa çıxır, nə edim bilməm?!

Yuxumdan qovuram səni zülmətə,
Zülmətin qoynunda Aya dönürsən.
Salırsan könlümü yaman zillətə,
Ay ilə bir yerdə batıb sönürsən.

Qaçırtmaq istərəm ruhumu səndən,
Ruhum səndən ötrü sözümdən çıxır.
Sənin sorağını istəyir məndən,
Mənim çəkdiklərim dözümdən çıxır.

İndi özün söylə, mən necə edim?
Adını, özünü yaddan çıxarım?
Götürüm ürəyi mən hara gedim?
Onu birdəfəlik oddan çıxarım.

23.09.2016

MƏNƏ DOĞMASAN

Sən necə mənə doğmasan,
Ruhumda yerin görünür.
Dərdi könlünə yığma sən,
Yarası dərin görünür.

İşıqdan qopub gəlirəm,
Durmadan çapıb gəlirəm,
Könlünü tapıb gəlirəm,
Yaylağı sərin görünür.

27.09.2016

KÖNLÜMÜZÜ ÜZÜCƏK

Ey məni ruhunun qanadı sayan,
Bu eşq könlümüzü üzəcək, billəm.
Yanan ürəyimi imdadı sayan,
Ruhum min il səni gəzəcək, billəm.

Sevgini ürəkdən necə çıxarım?
Dikəlir göylərə hər gün aharım,
Payıza düşmüşəm, gedib baharım,
Əlini əlimdən üzəcək, billəm.

Xəzan ötüşəndə qarlı qış gəlir,
Yaşımın üstünə hər il yaş gəlir,
Hislər hönkürdükcə çox tələş gəlir,
Tələşım acımı çözəcək, billəm.

Sən bu məhəbbətə çox da güvənmə,
O ağrı verəndi, ağrıya yenmə,
Göydə pərvaz edən mələyə enmə,
Eşqi qısqanclıqla əzəcək, billəm.

Çalma əhvalıma vüsal havası,
Onun ürəyimlə bitmir davası,
Gəl bir halımı gör, dilim duası,
Səbrin bu istəkdən bezəcək, billəm.

Şadiman ruhunla qoy-boyun olub,
Bu dəli sevdaya can boyun olub,
Ürək də arada bir oyun olub…
Ayrılıq oduna dözəcək, billəm.

29.09.2016

XOŞ GƏLDİ MƏNƏ

Səsini eşitdim xoş gəldi mənə,
Ruhum pərvaz etdi göylərdə yenə,
Əllərim nə vaxtı çatmayır sənə…

Elə bunu dedim, gördüm gəlirsən,
Diləklər içində eşqlə gülürsən,
Həsrət ağrısını yəqin bilirsən.

Sevinclə əlini uzatdın mənə,
Əllərin içində gül atdın mənə,
Həsrət yaxa cırdı, qayıtdın mənə.

Əl-ələ tutaraq getdik küləyə,
Sevda mələyimiz uçdu ürəyə,
Bir daha uymayaq, ey yar, kələyə.

06.10.2016

HƏSRƏT DAŞIYIRAM

Həsrət daşıyıram mən sən biçimdə,
Mənimlə dolanır kölgən içimdə!
Hər yerdən üzümə gülür baxışın,
Yolunu bahardan salmısan qışın.
Ömür yollarına çiçək düzürsən,
Uzaqdan boylanıb məni süzürsən.
Ümidin pəncərəm ağzında durub,
Körpə uşaq kimi boynunu burub.
Gəlib yuxulara əlimdən tutur,
Səni sevdiyimi dilimdən tutur.
Sözümü boyayır qəmin rənginə,
Çıxır ürəyimlə cəfa cənginə.
Gecələr xəyala bürünən sənsən,
Ruhumun içindən görünən sənsən.
Boşluğa düşürəm sənsiz aləmdə,
Hönkürür sözlərim bu lal qələmdə!
Yenə də könlümü alanım oldun,
Qəlbimin içində qalanım oldun.
Hara boylanıram səni görürəm,
Sənինlə bir yerdə ömür sürürəm,
Əgər inanmırsan dur gəl könlümə,
Gəzdir ağrı çəkən bir əl könlümə.
Həsrət daşıyıram mən sən biçimdə,
Mənimlə dolanır kölgən içimdə!

12.10.2016

GÖZÜMDƏN YAMAN QAÇIRTDIN

Yuxumu gözümdən yaman qaçırtdın,
Alıb bəbəklərdən göyə uçurtdun.
Tamaşa edirəm xəyal mürgünə,
Göndərdin ruhumu yenə sürgünə.
Nə vaxt bitəcəkdi sürgün müddəti,
Soyusun içimin həsrət hiddəti?
Çək-çevir edirsən ömür yolunu,
Sərgiyə bənzədir tale halını.
Asılıb ümidlər bəxt divarından,
Sənin heç xəbərin varmı yarından?!
Sən ki, uyuyursan sakit yataqda,
Nəfəsin duyulur səssiz otaqda.
Döyünən ürəyim sinəmdə əsir,
Sənə qovuşacaq günə tələsir.
Ovut vücudunla eşqə yananı,
Mən sənə havalə etmişəm canı.
Yuxumu gözümdən yaman qaçırtdın,
Alıb bəbəklərdən göyə uçurtdun.

13.10.2016

QISQAN MƏNİ

Əgər getsən həyatımdan
Sındıracaq bu can məni.
Keçsin qəm neçə qatımdan,
Gecə-gündüz qısqan məni.

Ruhumu apar yanına,
Toxtasın həsrətdən bir az.
Ürəyim çapar yanına,
Götür ona bir məktub yaz.

Əhdinə yovuq düşmüsən,
Gümanın ümidə çatır.
Həsrətimlə gəlişmisən,
Başın atıb bəxtim yatır.

Qısqanclığa don biçəcəm,
Usanmadan sən an məni.
Vüsal şərbətin içəcəm,
Kaş, sevgilim, qısqan məni!

15.11.2016

ÜRƏYİMİN ÖZÜ SƏNSƏN

Ey ruhumda lal boylanan,
Girib qəlblə bir oylanan,
Canla birgə eşqə yanan,
Dilimin ilk sözü sənsən.
Ürəyimin özü sənsən.

Gəl könlümə, gör nə halda?
Mənimtək yox bu əhvalda,
Könül azıb qalıb yolda,
İçərimə düşən dənsən,
Ürəyimin özü sənsən.

Bilməm necə qopum dərddən?
Keçmək olmur sərhəd, səddən,
Ağrı keçir yeddi qəddən,
Dolan bulud, düşən çənsən,
Ürəyimin özü sənsən.

Səni qəlbdən atmaq olmur,
Həsrətinə batmaq olmur,
Nə də sənə çatmaq olmur,
Məndən ayrı düşmüş mənsən,
Ürəyimin özü sənsən.

Şirin dolub bulud təki,
Sızıldayır bir ud təki,
Şimşək vurmuş palıd təki,
Bu ruhumla, sanki tənsən,
Ürəyimin özü sənsən. **20.10.2016**

YUXUNA DA GƏLMƏYƏCƏYƏM

Bir gün yuxuna da gəlməyəcəyəm,
Silkinib çıxacaq ruhum qorxudan.
Sənsizlik dərdindən gülməyəcəyəm,
İçimdə batacaq ahım qorxudan.

Sən mənə həsrəti yaşadacaqsan,
Mən daha kədərə alışacağam.
Məni düşünəndə qəm udacaqsan,
Mənsə qədərimlə barışacağam.

Mən öz taleyimin xəyallarında,
Qurduğum evimə yas tutacağam.
Həsrətin çırpınan vüsallarında,
Bir az can odama dərd qatacağam.

Qovub xəyalını gözüm önündən,
Günümü iş-güclə keçirəcəyəm.
Qoparda bilmərsən məni köksündən,
Səni öz könlümə köçürəcəyəm…

04.11.2016

GƏLİM YUXULARINA

Sən çağır, mən gəlim yuxularına,
Bölüşək dərdləri yenə baş-başa.
Ruhumu bağlama qorxularına,
Batırma yenə də onu göz yaşa.

İçimdə çırpıntı, sızıltı yatır,
Sən bu sızıltını duya bilsəydin.
Canın qışqırtısı göylərə çatır,
Duyub harayımı gələ bilsəydin.

Hicran küləkləri səmtin itirib,
İndi pəncərəmin önündə əsir.
Yəqin iki, səsimi sənə ötürüb,
Onunçın xəyalın qarşımı kəsir.

05.11.2016

ÇOX SÖZLƏRİM VAR

Sənə deyəcəyim çox sözlərim var,
Ürəyim özündə tutub saxlayır.
Əgər inanmırsan tut sinəmi yar.
Hər ağrı içimdə canı oxlayır.

Mən səndən qaçıram, qəlbim tələsmir,
Mənim əhvalıma azca da əsmir,
Sənlə iltifatı heç zaman kəsmir,
Məni həsrətinlə hər gün yoxlayır.

Bilmirəm, heç hara qaçım bu haldan?
Yolun açıq deyim çəkilim yoldan,
Qurtara bilmirəm mən ki, zavaldan,
Bəxtim də mənimtək hələ yuxlayır.

Çarpışır ürəyim ahi-zar ilən,
Əzrayıl aldanmır boş məzar ilən,
Tutub əllərində intizar ilən,
Sənin göndərdiyin gülü qoxlayır.

12.11.2016

ÇAĞIR YANINA

Sən məni çağır yanına,
Yollar aparsa, gələrəm.
Can yetişsin ünvanına,
Ürəklə özüm bilərəm.

Yolların üzü qaradır,
Yaxşı-yaman ondan keçir.
İntizar həsrət yaradır,
Vurub başa qandan keçir.

Bizi yollar birləşdirir,
Bir gün də ayıra bilər.
Eşqi canla güləşdirir,
Hicranla doyura bilər.

İnanmırsan? Çıxaq yola,
Yol uzundur, ömür qısa.
Ruhumuzu sıxaq yola,
Ahımıza qulaq asa.

Yollarda yorğun düşərik,
Gəl bu fikirdən daşınaq.
Qəm vüsala çıxar şərik,
Qəmdən, kədərdən yaşınaq.

Hər ömür özü bir yoldu,
Getdikcə odu azalır.
Doğulan aşiqi oldu,
Ömür qaçır, vaxt əl çalır.

Gəl birlikdə yol qət edək,
Ruhumuz çağıran yerə.
Bizlik deyil bura, gedək,
İnsan doğulur bir kərə.

Sevgini kirə batırma,
Yolların tozu dumandı.
Hisləri qəlbdə yatırma,
Sonda ayrılıq yamandı.

Ömür həyat hekayəsi,
Düşdüyü yola bağlıdır.
İnsanın haqsa qayəsi,
Onu ucaldan ağlıdır.

Gəl izi sevgiyə bükək,
Yolları birgə ötüşək.
Ürəyi etməyək hürkək,
Ümidimizə yetişək.

Sən məni çağır yanına,
Yollar aparsa, gələrəm.
Can yetişsin ünvanına,
Ürəklə özüm bilərəm.

16.11.2016

SƏNİ MƏNƏ BAĞLAYAN

Səni mənə bağlayan bu eşq nədir?
Gecə-gündüz dolanırsan könlümdə.
Sənsizliyin ürəyimdə qəşş edir,
Ocaq təki qalanırsan könlümdə.

Xəyalını istəyirəm qovlayım,
Girir cana, dilə tutur canımı.
Həsrətini tələ qurum ovlayım,
Kəsir durur sevgilitək yanımı.

Ürəyimdə üşüyürlər sözlərim,
Gözlərimin yağışında üzürlər.
Düşüb sənin ümidinə izlərim,
Vüsalının məqamını gəzirlər.

30.11.2016

QƏLBİ QOPARTDIN

Sən mənim sinəmdən qəlbi qopartdın,
Kədərin əliylə hara apartdın?
Bəlkə də ən dərin quyuya atdın,
Toxunma ocaqda közümə mənim,
Qaytar ürəyimi özümə mənim.

Bu dərdi daşıya bilmirəm axı,
Ürəksiz yaşaya bilmirəm axı,
Qəmim başdan aşır, gülmirəm axı,
Sən allah, qulp qoyma sözümə mənim,
Qaytar ürəyimi özümə mənim.

06.10.2016

HALIMI SORMURSAN?

Niyə halımı sormursan?
Ürəyin daşa döndümü?
Şahdağa düşən qarmısan?
Sevgi ocağı söndümü?!

Boylan gözümün yaşına,
Xəyalın orda islanır.
Dönmüsən fevral qışına,
Qəm tutub könlüm yaslanır.

Niyə qanatdın qəlbimi?
Ona dərmanı bulmuram.
Ağrıya çatdın qəlbimi,
Heç sorağını almıram.

Budurmu vəfan könlümə?
Onu əzaba salmısan.
Daha ülfətə eşq demə,
Eşqdən uzaqda qalmısan.

28.11.2016

DOLAŞIR BAŞIMIZDA

Xəyallar necə sakit dolaşır başımızda,
Gülüşümüz dodaqda eşqə nəğmə oxuyur.
Məhəbbət sığal çəkir bizə bu yaşımızda,
Sözdən ipəkqurdutək misraları toxuyur.

Pəncərədən payızın təbəssümü boylanır,
Kirpiklərin üstünə qonub sevda günəşi.
Yenə də ürəyimdə nə duyğusa haylanır,
Tökür aramla könlə ocaq dolu atəşi.

Ruhuma sığal çəkir baxışların yenə də,
Onun dediklərini misralar deyə bilmir.
Bu ilham çırağımın nuru düşür sənə də,
Bir kimsə ruhumuzun oduna dəyə bilmir.

Şadimanın üzünü gülüşlərə qərq etdin,
Bələndi səhər-səhər üzümə xoş hərarət.
Sən ruhumun içində bülbültək yenə ötdün,
Etdik eşqinlə birgə yerə-göyə səyahət.

20.12.2016

QƏZƏL BİLƏR ŞEİRİN DİLİN…

YENƏ MİN TƏLAŞ İLƏN

Qalmışam ahın əlində yenə min təlaş ilən,
Cırır gecəm sinəsin iztirabla qan-yaş ilən.

Bağlayıb qap-bacamı sübhə qədər çırpınıram,
Kədərim cuşa gəlib him-cim edir göz-qaş ilən,

Sevir o ərşi əla buncaki sənsizliyimi,
Mən də səcdə evinə gəlmişəm, bu sirdaş ilən.

Mən ki, öz canım içindən alıram ahlarımı,
Söyləyirlər ömür keçir ürəyi min daş ilən.

Şadiman biçarəyə etmədədi dərdi sitəm,
Sanır ömrümü məzar, ah-uf edir başdaş ilən.

08.08.2010

AHIM BÜRÜYÜB TUTDU
MƏNİM QƏLBİMİ, EY YAR

Ahım bürüyüb tutdu mənim qəlbimi, ey yar,
Ahın içinə atdı mənim qəlbimi, ey yar.

Dərdin dolaşır cümlə-cahanı anım ilə,
Anın vayına qatdı mənim qəlbimi, ey yar.

Gözüm dolanıb gəzdi sənin xəyalın ilə,
Xəyalın özü satdı mənim qəlbimi, ey yar.

Canım gecə-gündüz sənə hicranda bulundu,
Ağrılarına çatdı mənim qəlbimi, ey yar.

Sevda gününü gözləməyə yetmədi səbrim,
Hicran acısı daddı, mənim qəlbimi, ey yar.

Kimsələrə öyrətmə belə Şadimanlığı,
Min bir ah ilə uddu mənim qəlbimi, ey yar.

02.06.2011

ÇƏKİRƏM AHU-FƏQAN
HƏR GECƏ CANDAN O YANA

Çəkirəm ahu-fəğan hər gecə candan, o yana,
Qalıram hicrlə mən, bəs necə ondan, o yana.

Gəlirəm ahıma çəkdirməyə öz cəfasını,
Görürəm naləsini qalıbdı andan, o yana.

Ağlayıb-sızlayıram, eyləməsin qəmə fəraq,
Düşürəm ağuşuna keçibdi qandan, o yana.

Mən də candan çəkirəm, hər gecə bu ahlarımı,
Ahımın canı çıxır, dərdi də dondan, o yana.

Çəkir zülmün içinə hər gecə bu Şadimanı,
Söyləyir dili mənə, gəl gedək şandan, o yana.

02.06.2011

BULMADIM BİR ARZU-KAM

Bulmadım bir arzu-kam ah ilə candan qeyri,
Artdı qəmin könlümə üstbəüstdən can seyri.

Dilimin ahıyla aləmi ağlatdı müdam,
Fələyin olmadı heç, bəxti yazandan xeyri.

Yağıtək üstümə cumdu baharın selləri,
Düzlüyə getmədi, bəxtim yolu oldu əyri.

Mən kam umdum Rəbdən, açılmadı kam qapısı,
Ağrımın üzü göyə, torpağa düşüb böyrü.

Şadimandan sorma dərd, dərdi öz canı sanır,
Elə bir can ki onu, aləmdə bilir dürrü.

17.03.2012

YER ÜZÜNÜN BARI YAĞIŞ

Yağır göydən eləcə yer üzünün barı yağış,
Gətirir bağça-bağa təzə bir nübarı yağış.

Hissimə zövqü verir, könlümü edir dəlisi,
Sanki qəlbimin olub, sevda dolu yarı yağış.

Sarılır üz-gözümə, inciyə bənzər gülüşü,
Aparır bağrı ovan, min cürə ah-zarı yağış…

Ələnir kirpiyimə damlası bir şeh sayağı,
Haylayır gurşadını, danmayır ilqarı yağış.

Boyayıb pəncərəmi sır-sıra almazlarına,
Gətirir xatırıma bəyaz üzlü qarı yağış.

Yayılıb asimana ağ-qara bulud sırası,
Göstərir yerə, göyə dağ təki vüqarı yağış.

Boyayıb Şadimanın bağrını öylə fərəhə,
Gətirir cuşa canı, udur intizarı yağış.

27.02.2013

POZUR YENƏ ƏHVALI QIŞ

Əsdirir küləkləri pozur yenə əhvalı qış,
Eyləyir yerlə, göylə bir belə qeylü-qalı qış.

Çıxarır buludların gözlərindəki yaşını,
Dəyişir bir saatda rəngli, bəzəkli valı qış.

Yazın yaşıl libası səbrini çatladır daha,
Bürünüb intizara, pozubdu yenə halı qış.

Gah gətirir dumanı, ağappaq edir aləmi,
Bürünür kədərə göy, onla edir zavalı qış.

Baharın ətri gəlir bağdan, çöldən, saf havadan,
Oxşayır Şadimanı, edir böylə cəlalı qış.

18.03.2013

BU FƏLƏK ETMƏDİ
BİR ÇARƏ MƏNƏ

Bu fələk etmədi bir çara mənə,
Baxdı könlüm təki biçara mənə.

Saldı hər gün ürəyə qəm qoşunun,
Oldu hər yarası min yara mənə.

Tökdü gözdən keçən şən günlərimi,
Etdi gündüzlərimi qara mənə.

Gözlərəm xoş gələcək bir sabahım,
Döndərib hər anı ah-zara mənə.

Deyirəm, bir üzümü güldürə bəxt,
Andırır hər günü zinhara mənə.

Yollayır qəlb evimə ahu-fəğan,
Bənzədir öz canımı dara mənə.

Baxışı canım alan yar kimidir,
Oxşadır özünü simsara mənə.

Çağırıb səsləyirəm qəlbimə mən,
Hördürür hər anı hasara mənə.

Deyirəm Şadimana etmə vəfa,
Söyləyir onda denən hara mənə?

06.04.2013

ALƏMLƏRİ GƏZDİ

Dərdim şığıyıb ah ilə aləmləri gəzdi,
Düşdü ağıza nəğmə təki dilləri gəzdi.

Çıxdı ürəyim seyri-səfaya diləyimlə,
Açdı qanadın durna təki yelləri gəzdi.

Divanəliyi vurdu başıma dəlisayaq,
Qoşdu günümü həm ayı, həm illəri gəzdi.

Qondu gülüşü dodağıma şəkkəri-qəndtək,
Qaçdı təbimin bağına bülbülləri gəzdi.

Hicranlara ömür ələdim hər sətirimlə,
Misram yığışım gözdən axan selləri gəzdi.

Bir kimsə tə‘nə eyləməsin Şadimanlığı,
Sevdalı təki misralarım elləri gəzdi.

25.11.2013

SEVGİLİ DİLDAR EŞQİNƏ

Gülür üzdə vüqarım sevgili dildar eşqinə,
Gəlirəm bağça-bağa, hər sabahı yar eşqinə.

Oxşayır üz-gözümü yel təki sevda mələyi,
Götürüb aparıram, ruhumu ah-zar eşqinə.

Qopa bilməz diləyim, heç cürə qəlbdən, bilirəm,
Onu cantək salıram, bağrıma ilqar eşqinə.

Vəfa qılmaz ürəyim yad nəzərin sevdasına,
Açıram ürəyimi cümlə vəfadar eşqinə.

Əhdi dildə arayan, sevməlidir əhdin özün,
Ona peyman edəməm pul-para bazar eşqinə.

Yarı candan sevənin heç olmayır qeylü-qalı,
Onu canda arayın, aramayın var eşqinə.

Şadimanın ürəyi bağlıdır öz sevgisinə,
Ona vurğundu könül gül təki gülzar eşqinə.

28.11.2013

QURBAN VƏTƏNƏ

Gəlmişəm öz canı verəm eşqlə qurban Vətənə,
Ola min canım əgər, edərəm qurban Vətənə.

Edirəm səcdə onun torpağının danəsinə,
Şükür, Tanrım eləyib ağlımı səhman Vətənə.

Canı bədəndə olan bilməlidir yurdu piri,
Odur ki, sevgimi də qılmışam peyman Vətənə.

Ürəyim vurmadadı bu dildarın eşqi ilə,
Çünki canı yaradıb İlahi iman Vətənə.

Çıxıram seyrə düzə, çölə, çəmənə, nə qəmim?
Alıram zövqü-səfa qəlbə mehriban Vətənə.

Bayrağım boyanı seçib qırmızı, yaşıl, göyü,
Türkü – göy, dini – yaşıl, qırmızı pak qan Vətənə.

Şadimana, hünəri meydana səslə, nə süküt,
İndi zəfər çağıdır məlhəmi fərman Vətənə.

18.11.2013

CANIM ÜÇÜN

Ağladıb-güldürərəm mən səni yar canım üçün,
Səni bil, can evimə bəsləyirəm anım üçün.

Mən ki, eşqinlə gecə sübhə qədər zikr edirəm,
Basıram bağrıma hicranını peymanım üçün.

Səhər çiçəklərinin ətri basıbdı çəməni,
Deyirəm bir gələsən xoş keçən zamanım üçün.

Ayrılıq çoxlarını dərdlərə ortaq elədi,
Sən də ondan qaçasan dövrana səhmanım üçün.

Çıxır candan ürəyim, dolanır arxanca sənin,
Çalışır qan sulaya dərdimə fərmanım üçün.

Mən də öz qəlbimə ovsun elədim hücrə girim,
Açır həsrətə qapı cəhd eləyir şanım üçün.

Bilirsən, Şadimanın gözləri axtarır səni,
Onun əhvalını bul, müjdəyə dön sanım üçün.

18.11.2013

YARİ-VƏFADAR GƏLƏSƏN

Gözümü yolda qoyan, yari-vəfadar gələsən,
Verəsən səsimə səs, könlümə dildar gələsən.

Ürəyim sözlə dolu oxşayır hər sətirimi,
Dilimin ahı gəzir aləmi, bir yar gələsən.

Baxıram pəncərəmə, bağça-bağı qəm bürüyüb,
Sənə ürəkdən əziz min diləyim var gələsən.

Bu payız xəzanına çatmayır heç bir ağırı,
Əsir hicran küləyi, var başında qar gələsən.

Üzümə dərdi əsir sübh-səhərin yellərinin,
Ayrı bir gülüzlüyə olmayıb dildar, gələsən.

Ayırıb tellərimi sinəmə bir tar elədim,
Çalıram Segahı mən, qalmışam ögar, gələsən.

Vurma gəl Şadimanın qəlbinə hicran yarası,
Eləyir dərdin özü çəkdiyimə ar, gələsən.

28.11.2013

BU PAYIZ

Ələyir niskilini qəlbimə asta, bu payız,
Verir ömrümə fəraq, eləyir xəstə, bu payız.

Çıxarır gözdə yaşı buluda bənzər acısı,
Oxuyur zümzüməsin yenə də pəstə, bu payız.

Ağaclar boynubükük, aləmə ələr sükutu,
Girib canla savaşa, durubdu qəsdə, bu payız.

Bulud dumanı qovur, duman da buluda cumur,
Çalır hicran havası, bağa ahəstə, bu payız.

Sarı yarpaq qaçışır, torpağa layla oxuyur,
Özü bəxtinə uyur, düşür üz üstə, bu payız.

Mən də sehrinə uyub, başlamışam çağlamağa,
Oxşayır sözlərimi, tutubdu dəstə, bu payız.

Şadimanın ürəyi dözməyir, bu niskilə heç,
Gətirir ruhu dilə, təbimə usta, bu payız.

28.11.2013

YARIMA DEYİN GƏLSİN

Məni Leyli eləyən yarıma deyin gəlsin,
Qəlbimin atəşini söz ilə öyün gəlsin.

Çıxarıb eşqimi candan elərəm hicrana,
Dözməyir nə ki ürək, min belə beyin gəlsin.

Etmirəm həsrətə tab, bir yetirin siz ona,
Kəsərək intizarın taqəti-heyin gəlsin.

Hanı hicran acısı çəkdirənin insafı?
Yolu asta eləyib, sonra da yeyin gəlsin.

Sübhü həsrətə atıb yatmayıram axşamlar,
Tutub vüsala üzü, bəzəyib əyin gəlsin.

Baxın əhvalıma bir hali-pərişanam mən,
Çəkdiyim acıları siz ona sayın gəlsin.

Söyləyin Şadimanın dərdinə yoxdu əlac,
Təkləyib ayrılığı başına döyün, gəlsin.

28.11.2013

BU DİLƏK

Alıb candan ürəyi aparır ərşə bu dilək,
Salır qüssə içinə, zənn edir nəş‘ə bu dilək.

Yandırır qəlbin için atəşinin cövrünə çox,
Çəkir zövqlə canımı yaxşıca şişə bu dilək.

Girir zəka evinə, çalxadır fikirlərimi,
Deyirəm mənim təki min sehrə düşə bu dilək.

Çəkir sığal başına sakit ötən anlarımın,
Tapa bilmir heç cürə bir sakit guşə bu dilək.

Bu Şadiman qapanıbdı tək sükuta bayaqdan,
Salıbdı özü ilə məni də işə bu dilək.

30.11.2013

SƏN BİLİRSƏN

Xiffətin yandıracaqdır ürəyi, sən bilirsən,
Olmusan ömür-günün tək gərəyi, sən bilirsən.

Mən qaçıram bağça-bağa, gözlərimdə əksin var,
Onu gəl hifz eliyək, can dirəyi, sən bilirsən.

Hər sözün qəlbimi oxşar, anamın laylasıtək,
Ruhumun cana yovuq eşq mələyi, sən bilirsən.

Kimsəni könlümə yar etməmişəm aləmdə heç,
Bağrımın uçmaz sütunu, dirəyi, sən bilirsən.

Anlarım sənlə edir saatlara səcdəni yar,
Ya ona elə şəfa, ya kələyi, sən bilirsən.

Gəl hicran atəşinə yandırmayaq bir-birini,
Əhdə sadiq olanın eşq fələyi, sən bilirsən.

Şadimanı eləmə hicrana, həsrətə çıraq,
Zamanım əldə tutub vaxt ələyi, sən bilirsən.

30.11.2013

KÖNLÜM DİLDƏN İNCİK DÜŞÜB

Könlüm dildən incik düşüb, ürək bilir, can bilməyir,
Zaman qanad açıb quştək, fələk bilir, an bilməyir.

Çox dolaşdım göy üzünü, bulmadım heç ruhu orda,
Ruhun odu canımdaymış, mələk bilir, qan bilməyir.

Sirr içində göylər, yerlər, baş açanın başı çatlar,
Hamı mizrab tərəzidə kələk bilir, san bilməyir.

Doğulandan tən içində çapalayır bəndə əhli,
Sabah təki zühur edir, dilək bilir, dan bilməyir.

Şadimanı çox dinlətdi bu dünyanın sehirləri,
Xeyri-şərə çatan başlar kələk bilir, qan bilməyir.

30.11.2013

ƏCƏB DÜŞDÜM QƏLB İÇİNƏ

Əcəb düşdün qəlb içinə ordan getmək nə müşkülmüş.
Haqqım bidar olub yaman, haqqa yetmək nə müşgülmüş.

Hamı ömrə sığal çəkir, bilmir tanrı pərvənəsi,
Qanad açıb şahin təki onu ötmək nə müşkülmüş.

Fikirlərim zəncirvari göylə-yerlə bəndə düşüb,
Haçalanıb xəyallartək gözdən itmək nə müşkülmüş.

Səyyarələr sirr içində aləm ona heyrət edir,
Uçub-qonub kainata orda bitmək nə müşkülmüş.

Şadiman söz tələşında onun dildən kənar edir,
Çəkib bağra misraları kabab etmək nə müşkülmüş.

30.11.2013

HİCRANINA QARŞI

Bir dəm zamanım getməyir hicranına qarşı,
Can niyə bəs hicrana düşüb canına qarşı?

Mən ki, yatıram hər gecəni sübhi-xəyalla,
Diləklərim olmadı heç dövranına qarşı.

Arzu mələyi başımın üstündə dolaşır,
Gəl etmə vəfasızlığı zamanına qarşı.

Dilin acısı qəlbə girib sitəmlər edir,
Bir kimsə çıxmayıb hələ fərmanına qarşı.

Etməginən Şadimanın ağlına seyri heç,
Bir dəm ağıl çıxmayıb can dərmanına qarşı.

02.12.2013

VƏFA QILMA BİR KİMSƏDƏN

Vəfa qılma bir kimsədən, vəfa candan doğmayırsa,
Sənə doğru gələn şəri, dost bildiyin boğmayırsa.

Ömür nazik ipə bənzər, qırılmağın bir kəs bilməz,
Qəlbi boşdan hikmət uyma, ağla hikmət yağmayırsa.

Can çırpınır bədənlərdə istədiyin bulmayanda,
Çox vaxt şimşək sarır yeri, bulud göyü sağmayırsa.

Qəlbi boşlar bilməyirlər, pislik ömrə bir zillətdi,
Öz canına xəta edər şərin ipin yığmayırsa.

Zaman elə cəlladdır ki, verdiklərin alır səndən,
Çox qalxanlar enir yerə, nəfisini sığmayırsa.

Hamı bidad edir candan, can tənhadır, dilək sonsuz,
Ömrə düşən vaxt darısqal, gələn özün sağ sayırsa…

Şadimandan uman könlü, onun könlü şüşədədi,
Qırmaq qurmaqdan asanddı, nifrət cana sığmayırsa.

02.12.2013

DUYĞULARIM ÖCƏŞİR

Duyğularım öcəşir həvəslə dildən ağıza,
Axır qəlbdən avazım seyrini verir kağıza.

Çapıram ilhamımı göy ilə yerlər arası,
O da qəlbini açır mənə yox, işvəyi-naza.

Bükürəm boynumu bir məsum olan çocuq təki,
Ruhum salır ürəyi min cürə cəh-cəh avaza.

Bilir aləm özü də, söz mənim munisim olub,
Onu misraya salıb, çevirirəm gözəl qıza.

Şadimanı arayan könlümə etsin səfəri,
Görəcək süfrə açıb can bahar ilə ayaza.

02.12.2013

YENƏ QƏM BASDI MƏNİ

Yenə qəm basdı məni möhnəti-hicrana görə,
Düşmüşəm dərdə yaman bir quruca cana görə.

Ürəyim ahıma bənddi fələyin özü kimi,
Çaxnaşıb könlüm evi bunca həyəcana görə.

Ağladıb hicrə, müdam, gözlərimi möhnətdən,
Vururam dəryaya baş bir gözü mərcana görə.

Yastığım suya batır tökdüyüm hicran yaşına,
Ürəyim fəryad edir düşdüyüm bu ana görə.

Fələk öz töfhəsini verdi mənə qəmlər ilə,
Nə edim baş əyirəm bəxtimə, ünvana görə.

Çoxları mənə baxıb bəxtəvərdi söylədilər,
Mənsə ah-uf elədim aləmə fərmana görə.

Şadimanın harayı qaldı içində nə edim?
Bulmadı heç təbibi dərdinə dərmana görə.

28.03.2015

HƏZİN-HƏZİN FƏĞAN ETDİN

Nədir belə, dəli ürək, həzin-həzin fəğan etdin,
Mən can dedim hər gün sənə sən də mənə əfqan etdin.

Gözlərimin yaşlarından çeşmə tutub min bir kəhriz,
Öz ruhumla, öz canımla savaş qurub nə qan etdin?

Mənim tale muradımı vurub saldı əsən yellər,
Qopub getdin bu köksümdən vəfasıza tez can etdin.

İşığımdı gəlir səndən bu bədənim sənə bağlı,
Sən vüsala verdin yuxu, öz əlinlə hicran etdin.

Bu Şadiman bəxtdən asi, etmə ona səcdə ürək,
Yazdığım hər sətirimi öz ahınla mərcan etdin.

02.04.2015

DÜŞMÜŞÜK YAMANCA DÖVRƏ BAŞABAŞ

Sayman Aruzun
«Məni dindirmə ki, diləm başabaş»
qəzəlinə nəzirə

Düşmüşük biz yaman dövrə başabaş,
Saldılar Vətəni cövrə başabaş.

Min elə Babəkimiz şəhid düşüb,
Yanırıq min ildi qövrə başabaş.

Arazın boynuna məftil dolaşıb.
Vurur dərd sularla dövrə başabaş.

Hamının dərdinə çarə tapılır.
Bizlərə yağıdı çevrə başabaş.

Hələ içdən də sökür çolma-çocuq,
Cəhdləri qalmışı devirə başabaş

Qarabağ Güney təki oldu əsir,
Bizi nalana çevirə başabaş.

Nəsillər köç eləyir, təzə gəlir,
Unudar işğalı zümrə başabaş.

Biz də olanlara susub dururuq,
Hazırıq hər gələn əmrə başabaş.

Eylə, Sayman Aruz, qəzələ vəfa,
Fəğanı bəs göyə-yerə başabaş.

Şadiman bələd Vətən sevdasına,
Ahını aləmi görə başabaş.

17.12.2014

YAMANCA KƏMƏND ETDİN

Sən məni öz könlünə yamanca kəmənd etdin,
Oxlayıb ürəyimi sonra onu bənd etdin.

Qəlbimi çox gizlədim gözlərinə baxmasın,
Tez atıb hiyləyə əl, üstbəüstdən fənd etdin.

İllərlə təbə uyub sözlərə ipək toxudum,
Vurub ipəyimə od könlümü min qədd etdin.

Mən də ümid acısı çəkirəm illər uzunu,
Vüsala yetmək üçün dilini çox qənd etdin.

Şadiman heyran olub hər gecənin seyrinə,
Sənə qovuşmaq üçün arada yüz sədd etdin.

29.03.2015

GƏL EY BƏXTİ QARA KÖNÜL

Gəl ey bəxti qara könül, gün görmədin bu dünyada,
Həyat tarlan səpin etdi, bar dərmədin bu dünyada.

Gözlər ahdan saldı fəğan, içə axdı bəbək yaşı,
Əl-qol atan qəm qolunu heç gərmədin bu dünyada.

Haray çəkdi gözüm yaşı bir kimsədən bulmadı dad.
Zalım fələk, kor bəxtimə yol vermədin bu dünyada.

Mən ki, əhdə sadiq biri qiymət qoyan olmadı heç,
Can deyəni dostun bilib can demədin bu dünyada.

Ey Şadiman, möhnət oxu dəlib keçir ürəyini,
Açıb süfrə könül dosta, heç sərmədin bu dünyada.

02.04.2015

ULDUZLAR SƏPİLİB SEYRİNƏ

Ulduzlar səpilib seyrinə, ey yar, gecə yarı,
Gəl könlüm evinə, ol mənə dildar, gecə yarı.

Ayın işığı nurlara boyayıb yer üzünü,
Sənsiz, bil, mənə aləmlər olub dar, gecə yarı.

Ruhum içindən boylanırsan, sevdaya hüzünlü,
Baxışlarında nə möcüzələr var, gecə yarı.

Zülmət sükuta aşiqdi deyirlər bir çoxları,
İnsaf et, hicrimlə eyləmə ah-zar, gecə yarı.

Şadiman sevdiyinə bağlı ikən gecə-gündüz,
Olma əhdə dönük, solmasın ilqar, gecə yarı.

15.08.2015

AĞLARAM HİCRİNƏ MƏN

Ağlaram hicrinə mən hər gecəni, yar gecələr,
Sənə mehman olalı ürəkdə qəmin gecələr.

Bir gəlib görsən inan əhvalımı, pərişanam,
İçimi didib tökür sormadığım çox necələr?

İstərəm görüm səni dərdimi bəyan eləyim,
Göz yaşıma bürünüb ev-eşiyim, lal küçələr…

Xəyalın sükut kimi gözlərimə tor toxuyur,
Mənim bu çəkdiyimə nə ki ürək, can incələr.

Gəlirsən ruhuma gəl, gör nə qədər ah eləyir,
Ahımı dərdlərimiz şərab təki qoy içələr.

Şadiman biçərəni yandırır həsrətin odu,
Birləşə qəlblərimiz bu ağrıdan yan keçələr.

23.02.2016

ADIN İÇRƏ GÜLÜSTANDIR

Adın içrə gülüstandır, xəzanına itən dedim,
Qəribliyə düşər olsam harayıma yetən dedim.

Bir cüt gözün işığıdır, işığına işıq çatmaz,
Ürəyimdə layla təki zümzüməsi ötən dedim.

Torpağının hər qarışı qandan bitmiş lalələrdir,
Ağılımın ortasında canım təki bitən dedim.

Tarixləri yola salmış dərd başını əymiş min yol,
Əsir düşmüş yurdlarımı əzabımla mən tən dedim.

Küllü-aləm yığılsa da qəlb evimə açmaram yol,
Ey Şadiman, ürəyimlə bir vurana Vətən dedim.

23.02.2016

ÜRƏYİ GÜZGÜ SANIB

Ürəyi güzgü sanıb istəyirsən boylan ora,
Çəkdiyim ahımı gör, mənim kimi oylan ora.

Çox sevənlər görürəm, təşnəsinə gələni yox,
Düşmüşəm oda yaman, bir ocağam, haylan ora.

Mən də hicranı anıb yar kimi səcdə elədim,
Çəkirəm ahu-fəğan, sanki sənin laylan ora.

Baxıram hər gecəni göylərə ulduz arayım,
Əksin hicrana düşüb gəl mənimlə vaylan ora.

Bilirəm, qaçmağı könlümdən əziz tutmusan,
Qəmin azara salıb, baş çəkəcək yaylan ora.

Şadiman hər gecəni əhdin ilən can bir olub,
Bir olan canımı gör, böl ürəyi, paylan ora…

23.02.2016

BİLSƏNƏ, EY YAR

Sənsiz gecəmin dadı qaçır, bilsənə, ey yar,
Həsrət başıma dərd-qəm açır, bilsənə, ey yar.

İynə ucu boyda ümidin könlümə bəsdi,
Ruhum sən olan yerə uçur, bilsənə, ey yar.

Gəl gör nə bəladı çəkirəm, dözməyə yox tab,
Halim qarışır aləm acır, bilsənə, ey yar.

Çox da özünü öymə ki, səndən gəlir bu eşq,
Eşqə salan Allahın özü, bilsənə, ey yar.

Yuxuma gəlirsən niyə bəs hər gecə yarı?
Şirinə edir qəm sitəmi, bilsənə, ey yar.

23.06.2016

VERİRƏM ŞE‘RƏ KÖNÜL

Verirəm şe‘rə könül sevgili yartək gecə mən,
Oluram məsti-xumar seyrə nigartək gecə mən.

Hər sözün bənzəri var bağda açan gül-çiçəyə,
Oxşaram hüsnünü bir nazlı bahartək gecə mən.

Təb özü durub gəlir qapıma yarım sayağı,
Açıram qollarımı eşqə ahartək gecə mən.

Düşürür misraların tilsiminə dəli kimi,
Dolur boğaza kədər, hicrə qubartək gecə mən.

Bir əziz sevgilitək məşuqiyəm bəndlərimin,
Açıram süfrə ona, zira nahartək gecə mən.

Döndərir tez üzünü etməsəm heç ülfət ona,
Olurum öz-özümə acı qəhərtək gecə mən.

Şadimanın dilinin kəlməsi bəndlərə düşüb,
Dadıram sözlərimi təzə nübartək gecə mən.

29.07.2016

SƏN BU GECƏ

Ey könül, biməfalar seyrinə gəl sən bu gecə,
Dolur ürəyə qəhər, yer eləyir çən bu gecə.

İşığın gözlərə düşmür daha heç, nuru qaçıb,
Bağrıma yer eləmir, üz çevirib tən bu gecə.

Mənə dərdi verənin insafını sorma müdam,
Alışıb qövr eləyən ildırımam mən bu gecə.

Əsir rüzgar, üşüyür ürəyim bu ahu-zara,
Dur ümid sünbülünə bax üzülüb dən bu gecə.

Şadiman, ruhunu almış əlinə eşqə şikar,
Gəlməyir sevginlə heç yar dediyin tən bu gecə.

30.07.2016

SÖZÜM ÜÇÜN

Yenə könlüm evini bəzəmişəm sözüm üçün,
Çatıram ocağı mən ürək yaxan közüm üçün.

Yığıram misraları dövrəmə çocuq sayağı,
Alıram qucağıma layla deyim özüm üçün.

Bu zaman qəlb alışır ruhuma bir sevda dolur,
Qoyuram canı sözə, söz arayan izim üçün.

Edirəm ahu-fəğan ruha düşən iztiraba,
Düşürür cana sitəm etdiyim hər dözüm üçün.

Şadimanı qınayan bilmədi nə çəkdiyini,
Dedilər göz yaşımı tökürəm öz gözüm üçün.

30.07.2016

İŞIĞIM

Səni mən gözbəbəyim sanmışam gözə, işığım,
Düşə misra içinə, zövq verə sözə işığım.

Təbimin hikkələri coşdurur ürək içini,
Yanır ocağa sinə, çatlayır közə işığım.

Hönkürür ağılarım, ürəkdə karvana dönür,
Korlaşır bəbəklərim, bəs necə dözə işığım?!

Sözlər sarvan başıtək gecəyə pənah aparır,
Dolaşır kainatı, can deyir izə işığım.

Şirinə sitəm edir hər günün ahı beləcə,
Sən də zülmət sevirsən, vurmursan üzə işığım.

06.10.2016

GECƏLƏR

Ağladır zülmət için sevgiyə həsrət gecələr,
Edir könlüm yenə də qəm ilə niyyət gecələr.

Sevdirir eşqə canı, qaçmayır ondan uzağa,
Salır ruhla savaşı hissimə izzət gecələr.

Ay doğur, qaranlığı qərq edir nura sübhədək,
Mən də bu məhəbbətə edirəm heyrət gecələr.

Yummuram gözlərimi, gözləyirəm Dan ulduzun,
Tutub dilə onu mən eyləyim söhbət gecələr.

Eşqimi bağlamışam kainat içrə sirrə mən,
Sıxmasın ürəyimi yerdəki illət gecələr.

Hər günün ağrısını sinəmə yük eyləyirəm,
Bu yükü daşıyram ruhuma zillət gecələr.

Şirinə verdi qəmi hislərə vurğun bu təbi,
Edəlim hər sözümü cümlə-hekayət gecələr.

06.10.2016

YAR OLA

Gecə yuxu evinə qəfil gələnim yar ola,
Ürəyim ah eləyir, dərdi bilənim yar ola.

Eşqimə seyrə gəlir, canı-vəfadar, nə edim?
Nola bu qəmlərimi qəlblə bölənim, yar ola.

Dikmişəm gözlərimi pəncərədən çölə, müdam,
Ələnir yanağa yaş, onu silənim yar ola.

Möhtacam çöhrəsinə görməyirəm xeyli zaman,
Tökməyə qaş-qabağı, üzə gülənim yar ola.

Şirinə etdi cəfa, səbrü-qərarı tükənib,
Edə sayğı ürəyə, eşqə ölənim yar ola.

06.10.2016

YAR ÜÇÜN

Canımı eləyirəm hər gecə qurban yar üçün,
Edirəm bəxşişimi ürəyə mehman yar üçün.

Olur xəyalı mənə eşq ilə zülmət mələyi,
Qoşulub ruha gəlib oluram heyran yar üçün.

Məhəbbət aşiqinə gəlmədi vüsalı yaxın,
Mən də barat edirəm ömürdən xoş an yar üçün.

Gözümün yaşlarına isladıram yastığımı,
Olsun sevda çiçəyi yuxuda seyran yar üçün.

Göydə ulduz sayıtək diləklərim cuşa gəlir,
Verirəm günlərimi həsrətə ehsan, yar üçün.

Ürəkdə qövr eləyir bunca cəfalar nə edim?
Mən ki, öz qəlb qapımı açmışam asan yar üçün.

Şirinin çəkdiyinin zərrəsini çəkmədi heç,
Niyə bəs tökür gözüm sübhünə leysan yar üçün?!

06.10.2016

SƏNİ DUYMAĞA ÇALIŞDIM

Rəbbim, nə qədər mən səni duymağa çalışdım,
Bu yolda ömrüm boyu ürəyimlə yarışdım.

Canım bədənimdən qoparaq uçdu göylərə,
Qaldı qəfəsim, mən bu müsibətə alışdım.

Yandı cismim ahu-fəğanı sənə bəlli,
Min dəfə ölüb yerdəki torpağa qarışdım.

Ruhumdakı vəsvəsəni mən anlamadım heç,
Səman bilib ulduz təki eşqinə sarışdım.

Şirinə tənə elədim qəmlərin əlindən,
Qəmlər ömür yollarımış, onlarla barışdım.

09.10.2016

YAR, SƏNƏ QURBAN MƏN OLUM

Çəkmə möhnət sinəyə, yar, sənə qurban mən olum,
Gününü seyrə salan ömrüvə xoş an mən olum.

Çıxıb həsrətə tərəf, vermə mənə dərdü-bəla,
Gecə röyana gəlim, qəlbin ilə can mən olum.

Məhəbbət aşiqini duymadı heç dünya evi,
Nə ola duy məni sən, ömrünə səhman mən olum.

Hər günü boşuna xərc eyləyənə yoxdu pənah,
Gününə çarə edən, yaxşıca dərman mən olum.

Uyma hər can deyənə, canuva illət törədər,
Aç könül qapısını, qoy ona mehman mən olum.

Salmışam ürəyimə istəyüvü illər ilə,
Başına sığal çəkim, eşqinə peyman mən olum.

Vermə arzumu yelə, etmə Şadimanı qınağ,
Son qoyum həsrətüvə, vüsala fərman mən olum.

20.12.2016

HİCRAN YARASI

Edir könlə ziyanı hər zaman hicran yarası,
Qazıyır qəlbə məzar, sağalmayır can yarası.

Çatmayır hər yetənə ilahi eşqin işığı,
Söz verib əhd danana neyləyər peyman yarası?!

Məhəbbət Yaradanın şövqü ilə şölələnir,
Düşdü qövr eyləyəcək ürəkdə iman yarası.

Bilməyib hər yetəni qəlbinə aşiq eləyən,
Sonra çox göynəyəcək sinədə yaman yarası.

Aşiq olan özünə təmizliyi şüar edər,
Çoxların talan edib həsrətin fərman yarası.

Hər kəsə öz eşqini izhar edən aşiq deyil,
Aşiqi çalxaladır ömrə həyəcan yarası.

Şadiman biçarəni sehri ilə cövrə salan,
Salıb lövbər ayrılıq, getməyir liman yarası.

20.12.2016

TƏBİƏT BİR NƏĞMƏDİR

KÖNLÜMÜ OXŞAR BAĞÇAMIZ

Bu payız günündə gül çiçək açıb,
Yamanca könlümü oxşar bağçamız.
Yandıran istilər yığışıb qaçıb,
Qəlbdə sevgilitək yaşar bağçamız.

Qırmızı güllərin üzləri gülür,
Şəbnəmlər ləçəyin yaylıqla silir,
Sanki ağacların niskilin bilir,
Güllərin ətriylə daşar bağçamız.

Elə oğrun-oğrun əl edər mənə,
Kollar ustalıqla dil edər mənə,
Min bir çalarıyla can ödər mənə,
Qanadlı şahintək coşar bağçamız.

Payızın özünə ətiri verər,
Gələr misralara sətiri verər,
Düşər ürəyimə xətiri verər,
Təbin bənd-bərəsin aşar bağçamız.

Şadiman, diləktək kədərə baxma,
Ona qapı açıb qəlbə buraxma,
Sənə əl uzatsa, əlini sıxma,
Könlünə nəğmələr qoşar bağçamız.

07.09.2012

ƏCƏB BƏNÖVŞƏLƏR AÇIB TELLƏRİ

Əcəb bənövşələr açıb telləri,
Çiçəklər baxışır ləçək içində.
Sanki ilahidən oxur dilləri,
Duyğular dirçəlir ürək içində.

Torpağın üstündə qurub çətirlər,
Aləmə yayılır zərif ətirlər,
Hər biri bülbültək sanki ötürlər,
Şəbnəmdən don geyib dilək içində.

Nazik vücudların yellər əsdirir,
Hicranın yolunu eşqlə kəsdirir,
Ürəyi qüssədən, qəmdən küsdürür,
Ağlı-huşu alır kələk içində.

Kolların dibinə düzülüb qalıb,
Hər biri yarpaqdan üzülüb qalıb,
Bənövşə ətəklər süzülüb qalıb,
İlahi, bağçamız mələk içində.

18.04.2012

SARI-QIRMIZI GÜLLƏR

Bahar yaşıl ətəyin sərib torpağın üstə,
Kolun dibindən baxır bənövşə – boyu bəstə,
Bürüyür ürəyimi xoş duyğular ahəstə,
Ruhuma qanad verir çiçək donlu gözəllər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

Çiçəklərin öz ətri, ləçəklərin öz iyi,
Ləklər üstə oynaşan küləklərin öz iyi,
Sinəmdə cövlan edən diləklərin öz iyi,
Gəzir kolların üstə ofsuna düşmüş əllər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

Mən təmənna edirəm, əqlimi almın əldən,
Uçuşur kəpənəklər asılıb qalır yeldən,
Həzin əsən küləklər yorulub düşür dildən,
Mənimtək çalxalanır sehrə düşən könüllər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

Torpaq ətir qoxuyur otların təmasından,
Günəş hərdən boylanır mirvari səmasından,
Qarışqalar boylanır öz isti yuvasından,
Bənövşəni, laləni titrədir incə yellər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

İlahinin səpdiyi gözəlliyə varam mən,
Çiçəklərin eşqinə alışıram, qoram mən,
Baharın sevda dolu günlərinə yaram mən,
Yerə, göyə səs salır ürəyimdəki tellər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.
Bağçamızda açılıb sarı-qırmızı güllər.

18.04.2012

BU GÜLLƏR

Yaman ürəyimin girib içinə,
Qəlbimi oynadır yenə, bu güllər.
Ətrini könlümün sərib içinə,
Min bir çal-çağırla dinə, bu güllər.

Bağçadan boylanır qıyğacı mənə,
Gah şirin yollayır, gah acı mənə,
Bilmir ki, dərmandır əlacı mənə,
Oynaşan fərəhə sinə, bu güllər.

Payızın gəlişin vecinə almır,
Könlü ləçəklərin küncünə almır,
Əsən küləkləri gücünə almır,
Dəli harayıma dönə, bu güllər.

Eləcə titrəşir incə kolları,
Quruca saplaqdır uzun qolları,
Qəlbi bəmdən zilə salır halları,
Bilməyir hönkürür sinə, bu güllər.

Şadiman onsuz da çarpışır canla,
Ürəyi oynaşır hiss-həyəcanla,
Girib damarıma, oynaşır qanla,
Sevda gülzarıma enə, bu güllər.

08.09.2012

ADANIN KÜLƏYİ RUHUMDA ƏSİR…

Bilməm könlüm yenə hara tələsir?
Adanın küləyi ruhumda əsir…

Gözümdə uzanıb qalıbdı yollar,
Qapqara izini salıbdı yollar,
Məni ürəyimdən alıbdı yollar,
Tufanlar bağrımda qurubdu qəsir,
Adanın küləyi ruhumda əsir.

Qurtulub əzabdan göyə uçuram,
Bilmirəm, özüm də niyə uçuram?
Canın qəfəsini qırıb qaçıram,
İlahi, nağılmı, yoxsamı bir sirr?
Adanın küləyi ruhumda əsir.

Qəlb bədən içində çırpınır quştək,
Rəssamın çəkdiyi rəngli naxıştək,

Doluram bulluddan qopan yağıştək,
Gurşadlar sellənib yolumu kəsir,
Adanın küləyi ruhumda əsir.

Heyrətə düşmüşəm çarpışmalardan,
Vaxtın anlarıyla qapışmalardan,
Saniyə ətəyindən yapışmalardan,
Gəzirəm getdiyim addımda qüsur,
Adanın küləyi ruhumda əsir.

Mən bu bilməcələr içində varam,
Ürəyim göynəkdi, tapmayır aram,
Ocaqdan çırtdayan bir zərrə qoram,
Alışır bədənə hörülən həsir…

Adanın küləyi ruhumda əsir.
Adanın küləyi ruhumda əsir.

26.07.2012

ALƏMİ BAŞINA GÖTÜRÜB YAĞIŞ

Bu səhər ələyir gözdən yaşları,
Aləmi başına götürüb yağış.
Buludlar könlünün eşq sirdaşları,
Bağrında dəryalar bitirib yağış.

Rüzgar titrədikcə, damlalar əsir,
Açıb qanadını yerə tələsir,
Pəncərəm önünü harayı kəsir,
Nə yaxşı özünü yetirib yağış.

Keçirir yer-göyü can ələyindən,
Qoparır harayın lap ürəyindən,
Ruhum çalxalanır göy mələyindən,
Gürşadın könlümə ötürüb yağış.

Qapıdan, bacadan ələnib keçir,
Payız yarpağına bələnib keçir,
Ağaclar üstündən yellənib keçir,
Köksün ağır-ağır ötürüb yağış.

Mən də buludlartək doluram hər gün,
Yağışın özütək oluram hər gün,
Ruhun səmasında qalıram hər gün,
Mənə öz sevdasın gətirib yağış… **02.10.2012**

YUXUMU QAÇIRAN YAĞIŞ

Yuxumu qaçıran yağış,
Könlümü uçuran yağış,
Sevda güllərimi isladırsan,
Özün də hələ gül dadırsan.
Ətrin ruhumu cilalayır,
Könül aləmimə bir rahatlıq yayır.
Pəncərəmi tap-tap döyürsən,
Nə isə pıçıltıyla deyirsən,
Pıçıltıların ana laylasına bənzər,
Qəlbimin için duyğularla bəzər.
Sanki başdan-başa sehirsən,
Nə doğma, nə isti mehirsən.
Damlaların ürəyimin
kədərin yuyur,
Canım səni duyur
bir istəkli yar təki,
Novalçamdan axasan təki,
Ürəyimi yaxasan təki.
O büllur damcıların,
axırına çıxsın acıların.
Yuxumu qaçıran yağış,
bu da ruhumdan sənə baxış.
Al onu tənimdən qaç,
Mənə də bir yol aç…

06.03.2013

BU PAYIZ GÜNÜNDƏ

Bu payız günündə günəşə bənzər
Olmusan könlümün yarı, qızılgül,
Ruhuma od sızan atəşə bənzər,
Əlvan çiçəklərin sarı qızılgül.

Günəş göydə yayır qızıl şəfəqin,
Nazəndə qönçəsi oldun üfüqün,
Səhərin boynuna dolanır al gün,
Əlvan çiçəklərin sarı qızılgül.

Məhəbbət süzülür ləçəklərindən,
Şəbnəmlər su içir diləklərindən,

Xəzanın niskilli küləklərindən,
Əlvan çiçəklərin sarı qızılgül.

Boylanıb baxırsan gen asimana,
Buludlar qolların açıb dumana,
Zərif pıçıltılar dönür amana,
Əlvan çiçəklərin sarı qızılgül.

Qızılı xəzandan işıqsan mənə,
Könlümə bir şirin nəğmə desənə,
Qəlbimin tellərin titrətdin dinə,
Əlvan çiçəklərin sarı qızılgül.

02.11.2013

ŞILTAQ KÜLƏK

Dolayırsan qollarını
Budaqlara, şıltaq külək,
Üşüdürsən, yapışırsan
Dodaqlara, şıltaq külək.

Gah xəzrisən, gah gilavar,
İçində bir dəlilik var,
Gətirirsən həm yağış, qar
Torpaqlara, şıltaq külək.

Yıxıb tökdün bağ-bağçanı,
Titrədirsən yaman canı.
Tökmə bumbuz həyəcanı
Yataqlara, şıltaq külək.

Nə qaça-qaç, nə vurhavur?
Bir az tənti, bir dayan, dur,
Yatmış könül düşüb, odur
Bataqlara, şıltaq külək.

Mən də səni sevdim axı,
Çıxart qəlbdən daha ahı,
Çəkil gəlsin al sabahı
Otaqlara, şıltaq külək.

Şadimanı tapmır uğur.
İçində dərd aman doğur,
Hisslərimdən xəmir yoğur
Ocaqlara, şıltaq külək.

17.01.2013

QƏRƏNFİL

Şəfəqlər saçırsan qönçələr üstə,
Ruhları oxşayan təzə qərənfil.
Sevdalı yar təki canlar alırsan,
Gülüşün yayılır üzə, qərənfil.

Qırmızı ləçəklər dövrə vurubdu,
Sapsarı günəşlə süfrə qurubdu,
Səhər yuxusundan erkən durubdu,
Şehlərin ələyir dizə, qərənfil.

Mehin titrəyişi üfüqü yarır,
Uçub göyərçintək qoynuna varır,
Şehli qönçələri bir sevda sarır,
Sevdanı könlümə bəzə, qərənfil.

Mən də oğrun-oğrun baxıb dururam,
Hüsnünlə özümə büsat qururam,
O məhzun eşqinə qalmayıb çaram,
Əllərim qoynunda gəzə, qərənfil.

Bir kimsə toxunub dəyməsin sənə,
Kolların üstündə gözəlsən mənə,
Dilləndir ruhumu, şəkər qat yenə,
Desinlər nə dadlı məzə, qərənfil.

05.11.2013

ƏSİR SƏHƏR KÜLƏYİ

Əsir səhər küləyi könlümü alıb gedir,
Bağrıma bir tələtüm, fırtına salıb gedir.

Baş qaldırır fikirlər, düşüncələr ağlımda,
Özümü axtarıram itmiş ömür nağlımda.

Sübh çağı zaman qovur anlarımı harasa,
Gecəmdə düşüb qalmış yuxum incik yarasa.

Pəncərədən baxıram titrəşən ağaclara,
Küləklə pıçıldaşıb, öpüşən ağaclara.

Səhərin ağ üzündən fərəh, sevinc tökülür,
Buludlar göy üzündə həzin mehə bükülür.

Yerə sevda oxuyan dan ulduzu parlayır,
Günəş eşq tonqalını göy üzündə qalayır.

Yaz öz gözəlliyilə hər tərəfdən boylanır,
Şəbnəmlər puçur-puçur güllər üstə haylanır.

Yuxumu qovub tutan sübhlə sevdalaşıram,
Qoşulub xoş gündüzə mən də cilalaşıram.

Hər səhərin gəlişi ömrə həyat deməkdir,
Onu boşa keçirən insana bir örnəkdir.

Əsir səhər küləyi, oyadır istəkləri,
Yeni xoş tələtümlə qaynadır ürəkləri.

Mən də, Şadiman, bunu misralara köçürtdüm,
Könlün duyğu çeşməsin vərəqlərə içirtdim.

06.05.2014

GECƏ SÜKÜT İÇİNDƏ

Gecə sükut içində,
Hamı şirin yuxuda.
Saatlar öz köçündə,
Ruhum qara-qorxuda.

Pıçıldayan zülmətin
Harayı qulaq dəlir.
Bilmək olmur niyyətin,
Yaxşı ki, sabah gəlir.

Gecənin qaraltısı
Ömrə yorğan kimidir,
Tənhalıq sarıltısı,
Acı soğan kimidir.

Hamı yatıb, gecəni
Təkcə mən oxşayıram.
Gözətçitək küçəni
Sadiq işim sayıram.

Könlüm yatmaq istəyir
Ruhun qolları üstə.
Mənim qəlbimə dəyir,
Yox deyirəm bu qəsdə. **06.05.2014**

BU AXŞAM

Ürəyimdə karvan tutub duyğular,
Ruhum ilə pıçıldaşır, bu axşam.
Gözlərimdə kölgələnib uyğular,
Dərdə girib, yaram qaşır, bu axşam.

Xəyalların mehlərini əsdirir,
Atın çapır vüsal yolun kəsdirir,
Anlarımı sanyələrdən küsdürür,
Sellər təki aşıb-daşır, bu axşam.

Xatirələr çətir tutub sehrimə,
Qucaq açıb, lay-lay deyir mehrimə,
Özün döyür hicran dolu qəhrimə,
Dərdim ilə tək savaşır bu axşam.

Mən də hicran körpsündən keçənəm,
Əzabları zəhər təki içənəm,
Gözün soyuq şərbətini içə nəm…
Canım tənlə pıçıldaşır, bu axşam.

07.03.2013

SARALMIŞ YARPAQLAR

Tökülür saralmış yarpaqlar yenə,
Ötən payızlardan xəbər gətirir.
Səhərlər yol açır dumana, çənə,
Saralmış bağ-bağça köksü ötürür.

Burda bir sükut var ürəyə yaxın,
Xəzan xışıltısı şərqiyə bənzər.
Küləklər uçuşur fələyə yaxın,
Sərçələr titrəşib sakitcə gəzər.

Yerlərin seyrinə gəlib al səhər,
Gecəni yollayıb yuxularına.
Üzünü turşudub hava bir təhər,
Bürüyüb aləmi qorxularına.

Buludun köksünə sığınan göylər,
Mənim də köksümdə seyrangah açıb.
Çaxan şimşəklərə uğunan göylər,
Yaxşı ki, dünyaya al sabah açıb.

06.01.2015

SOYUQ ÇAĞINDA

Payızın can üzən soyuq çağında,
Əcəb sevdalanıb açdın, sarı gül.
Tökülür yarpaqlar hey sol-sağında,
Sən niyə atəşlər saçdın, sarı gül?

Soyuğun sazağı gəzir bağçada,
Dil açır ağaclar, çağırır dada,
Quşların cəh-cəhi heç düşmür yada,
Sən də qanad açıb uçdun, sarı gül.

Əsir var gücüylə xəzan küləyi,
Titrədir, üşüdür qəlbi, ürəyi,
Olmusan nazəndə bağın mələyi,
Gizli eşq dalınca qaçdın, sarı gül.

Soyuq sazaqlarla canın yollaşır,
Yarpaq pıçıldayır, duyğular daşır,
Yerlərdə, göylərdə sevgin dolaşır,
Könüllər qapısın açdın, sarı gül.

Ləçəklər üstündə günəş rəngi var,
Yaşıl yarpaqların xoş ahəngi var,
Titrəşən ruhunun həyat zəngi var,
Əl vurdum əlimdən qaçdın, sarı gül.

Sən də Şadimanı yandırıb yaxdın,
Ötəndə yanından qıyğacı baxdın,
Nədən ülfətini qəlbə buraxdın?
Bir budaq üstündə tacdın, sarı gül.

11.12.2014

QIŞ OYUNU

Səhərdir, havanın üzü tutulub,
Əvvəl yağış yağdı, sonra sulu qar.
Külək də dəlitək göyə atılıb,
Səmanın içində bir döyüşmə var.

17.02.2016

ÇİÇƏK AÇIR

Səhər-səhər çiçək açır,
Gül boylanır kola sarı.
Bülbül gülə ürək açır,
Həsrətlərlə baxır arı.

Kollar üstə qönçələnir,
Yarpaqları incələnir,
Günəş göydən yerə enir,
Can oxşayır əhd-ilqarı.

Sübhün gözü gülür şəstlə,
Zülmətləri qovur qəsdlə,
Quşlar cəh-cəh vurur pəstlə,
Səhər vaxtın gözəl yarı.

Doymaq olmur gözəllikdən,
Şəbnəm parlar saf güllükdən,
Yellər titrər tünüklükdən,
Bülbül bağda, yox əğyarı.

Et tamaşa, gəl Şadiman,
Ömür qaçır vermir aman,
Bir gün gələr haqqdan fərman,
Günü boşa vermə barı.

10.06.2015

BULUDLAR XATIRLAR ŞILTAQ UŞAĞI

Buludlar xatırlar şıltaq uşağı,
Göylərin üzündə çaxnaşma edər.
Tutub bir-biriylə, sanki qurşağı,
Əngin səmalarda oynaşma gedər.

Onlar dəcəl kimi gizlənpaç oynar,
Ağ-qara köynəklər əyninə geyər.
Gah da toqquşaraq atəşdən qaynar,
Şimşək timsalında özlərin öyər.

17.02.2016

ATƏŞLƏR SAÇAN

Yenə açılıbdı qönçələr bir-bir,
Günəşə atəşlər saçan, qızılgül
Hər qönçə içindən parlayır min dürr,
Könlümün qapısın açan, qızılgül.

Bu nə səadətdi, bu nə iltifat,
Sən bəzəkli gəlin, bir gözəl afət,
İçində yaşantı, fərəhli həyat,
Bu eşqlə qəlbimi qucan, qızılgül.

Yaradan xoş gündə yaratmış səni,
Sevdiyi eşqiylə ucaltmış səni,
Bağçalar içinə can qatmış səni…
İpək ləçəkləri uçan qızılgül.

Ruhumu oynatdın bu səhər erkən,
Qoy olsun canıma ləçəyin məkan,
Neyləyər bədəni oddan var ikən?
Sənə eşqlə gəlir bu can, qızılgül.

Şadiman ruhundan ayırmır səni,
Təbimlə baş-başa qoymusan məni,
Ovundur sehrinlə duyub biləni,
Dolmasın içinə hicran, qızılgül.

03.07.2015

GÖYLƏRİN ƏHVALI ALƏMİ BƏZƏR

Göylərin əhvalı aləmi bəzər,
Yellərə bürünüb bulud qovurlar.
Dumanın çətiri səmada süzər,
Çiskinlə soyuğun burnun ovurlar.
Ruhum da qoşulub səmada gəzər.

Qışın soyuğuna barmaq silkələr.
Bağçaya, bağata ələnən sazaq,
Kövrək çiskinlərlə yeri övkələr,
Çılpaq budaqlara bələnər sazaq.
Torpağın köksündən qopar hikələr.

17.02.2016

ÜRƏYİM YAMAN GÖYNƏYİR

Bu payız ürəyim yaman göynəyir,
Ömrümün xəzəli tökülür, sanki.
Buludun yağması könlümə dəyir,
Kipriklər yuxuya bükülür, sanki.

Ağaclar xəzana bürünüb yenə,
Göylərin üzündən qaşqabaq yağır.
Sığıb meynələri bağlar köksünə,
Üzüm tənəklərin şəbnəmlər sağır.

Sərçələr torpağın üstə gəzişir,
Tapdığın ağzına ötürür bir-bir.
Xəzri üz turşudur, quşlar büzüşür,
Yuvasın azmışlar ağacda əsir.

Bu payız ürəyim həsrət içində,
Ürək itirdiyin tapa bilibmi?
Səmada buludlar xiffət içində,
Axan göz yaşını fələk silibmi?

Hamının getdiyi qayıdıb gəlib,
Bəs mənim itiyim niyə tapılmır?
Kainat içinə ahım yüksəlib,
Qəmin vurduğu dağ heç vaxt çapılmır.

Kol-kosun içinə büzüşən xəzəl,
Dünənki ömrünə həsrətlə baxır.
Budaqdan torpağa tərs düşən xəzəl,
Keçən günlərini yandırıb yaxır.

Həyat nəğməsini oxuyan zaman,
Payız sızıltısın bəstələyibdi.
Hər kəsə vaxt torun toxuyan zaman,
Gələni-gedəni üstələyibdi.

Yollar ayrıcında xəzri vıyıldar,
Yarpaq yağışına tutar bağları.
Könlümün içində niskil oyuldar,
Atar divanlara qəlbim ağları.

Payızın baxışı qüssə içində,
Edər Şadimana ilham şəfqəti.
Ömrümün payızı köçə-köçündə,
Bu imiş fələyin can sədaqəti!

16.10.2015

BAĞRIMI YAXIRSAN

Nə gözəl açmısan ləçəklərinlə,
Bağrımı yaxırsan niyə, qızılgül?
Ruhu məst elədin birçəklərinlə
Dilim xoş sözləri deyə, qızılgül.

Ətirin bürüyüb bağçanı, bağı,
Dəyməyir buraya qəmin ayağı,
Səni çox sevirəm canım sayağı,
Görkəmin özünü öyə, qızılgül.

Möhnətin işığı yananda sönmür,
Ürəyim yanından yerinə dönmür,
Rayihən göylərdən yerlərə enmir,
Bənzər sərxoş edən meyə, qızılgül.

Mən də sevdalıtək baxıram sənə,
Ruhum qopub məndən qonub köksünə,
Qoyma dolmuş könlüm ahdan diksinə,
Düşməsin hisslərim küyə, qızılgül.

Yenə ətəklərin şeh üstə üzür,
Hər ləçək üstündə şəbnəmlər gəzir,
Nəmli kirpiyimi göz yaşı əzir,
Qəmimi rayihən üyə, qızılgül.

Soluxsan bağçaya girmərəm sənsiz,
Necə ki, çiçəklər solar çəmənsiz,
Göstərmə hüsnünü aləmə mənsiz,
Göstərsən, qısqannam səyə, qızılgül.

Şadiman eşqinə can qurban edir,
Bəs səndə şahanə bu qürur nədir?
Mənim də ömrümü payızım güdür,
Qoyma ki, könlümə dəyə, qızılgül.

04.09.2015

YER XƏZƏLDƏN DON BİÇİB

Sarı-sarı yarpaqlar tökülür yer üzünə,
Yer xəzəldən don biçib, bəzək verib özünə.

Payızın niskilləri oxunur künc-bucaqdan,
Boynunu büküb günəş, tüstü qalxır ocaqdan.

Hamı çəkilib evə, küçədən səs gəlməyir,
Uşaq-böyük gülüşü aləmə yüksəlməyir.

Arabir əsən xəzri xəzəlləri sovurur,
Ağacların yarpağın sazağıyla qovurur.

Yerin-göyün sükutu beynimə sığal çəkir,
Üstümə bu dünyanın ağrı-acısı çökür.

Ağaclar sızıldayır yarpaqlar töküldəkcə,
Budaqların yamyaşıl gözəlliyi öldükcə.

Qarışqalar torpağın altında köçün salıb,
Əsən xəzan küləyi bağlara biçin salıb.

Sərçələr budaqlarda dərdləşir öz dilində,
Payız soyuq gətirib yüklədiyi belində.

Havanın əhvalını dəyişdirir küləklər,
Buludları səmada döyüşdürür küləklər.

Döyüşdükcə şimşəklər şölə saçır göylərdə,
Dəli-dolu leysana qapı açır göylərdə.

Göydən tökülən gürşad gölməçələr yaradır,
Torpağın üzərində ağ nimçələr yaradır.

Çuxurlara dolan su ayaq altda qatdanır,
İlan təki qıvrılır, sonra üstə atdanır.

Sızıldadır sümüyü payızın şıltaqlığı,
O bir ərköyün çocuq, tapmaq olmur qılığı.

Səmanın üzərinə atlas çəkib ağ duman,
İtib gedib günəşin yerə verdiyi səhman.

Uşaqların çığrığı çöl-bayırdan azalıb,
Otracaqlar üstündə hay-haraydan iz qalıb.

Havanın çiskinindən gözlərə kədər çökür,
Ürəyimin içinə kipriklərim nəm tökür.

Düşüb payız eşqinə misralardan baxıram,
Enib göy qübbəsinə ildırımtək çaxıram.

Dolub buludlar təki gurşadlara dönürəm.
Leysanlardan süzülüb yer üzünə enirəm.

Bükürəm sözlərimin ovsununa canımı.
Beləcə ovuduram mən də öz xəzanımı.

Şadimandan sormayın ürəyinin səsini,
Payızın boz sükutu çağladır həvəsini.

08.10.2015

PAYIZIN GÖZ YAŞI

Payızın göz yaşı bulud kimidir,
Yarpaqlar ələnir tut kimi yerə.
Küləyin harayı lal ud kimidir,
Boğulur dumanda hər dağ, hər dərə.

Mən də göz yaşımı yağmura tutdum,
Bütün varlığımla canı unutdum,
Özümü xəzanın içinə atdım,
Ürəyim qəm toxur soyuq günlərə.

Yarpaqlar dil açıb, halına ağlar,
Ağaclar könlünü kədərə bağlar,
Üşüyər ayazdan çılpaq budaqlar,
Sevənlər güc verər toy-düyünlərə.

Səhərin gözündən şəbnəm süzülər,
Adamın niskildən bağrı üzülər,
Muncuqtək ürəyə niskil düzülər,
Xəzan köç eyləyər lap beyinlərə.

29.10.2015

NƏ DÖYÜRSƏN ÜZ-GÖZÜMƏ

Nə döyürsən üz-gözümə,
İlhamımı oyan yağış.
Ələnirsən düz gözümə,
Buludlara uyan yağış.

Günəş, sanki xəzan imiş,
Yollarda çən azan imiş,
Göy bəxtini yazan imiş,
Dəli könlü duyan yağış.

Ələnirsən daş-divara,
Zaman qaçır, gün avara,
Gurşadların can suvara,
Şimşək udub doyan yağış.

Küləkləri qovub tutdun,
Buludlara ucuz satdın,
Sel-su edib, aləm qatdın,
Özünü şah sayan yağış.

Bənzərin var göz yaşıma,
Ələnirsən üst-başıma,
Dırmaşmısan düz başıma,
Səndən bumu həyan yağış?

Göyün üzü damar-damar,
Günəş ovcun açar-yumar,
Buludları eylə hamar,
Şimşək sənə əyan yağış.

Bu Şadiman yar eşqinə,
Bədəndə ruh var eşqinə,
Etməz ahım kar eşqinə,
İslanmışam, dayan, yağış.

16.10.2015

QIŞIN TİTRƏYİŞİ

Qışın titrəyişi göyün ahıymış,
Ağladar buludu, döyər küləyi.
Səmanın içində can günahıymış,
Döyünər saattək yerin ürəyi.

Ağaclar göynəyər çılpaq halına,
Kol-kosun içində gizlənər sərçə.
Havanın soyuğu yad əhvalına,
Sakitlik içində dincələr küçə.

İliyə işləyən şaxta şaqqıldar,
Xəzri vıyıltısı sükutu pozar.
Şam ağacı üstə qarğa qaqqıldar,
Yuxulu taleyin soyuq qış yozar.

Qozalar atılar ağaclar üstən,
Düşər şapıltıyla daş təki yerə.
Sərçələr civilti eyləyər pəstən,
Özünə yem arar qış çağı hərə.

Pişiklər dolaşar hasarlar üstə,
Hərdən miyoltuyla bir-birin vurar.
Yiyəsiz heyvanlar köməksiz, xəstə,
Küçənin itləri lal-dinməz durar.

Qaranlıq düşməmiş sükut başlayar,
Sükutun özündə bir titrəyiş var.
Göylər buludların gözün yaşlayar,
Küləyi aldadıb yağış daşlayar.

İnsan hənirtisi küçədən gəlməz,
Soyuq iliyinə işlər adamın.
Kimsə bir kimsənin halını bilməz,
Tüstülər şahidi olar hər damın.

İndi nağılı da qaçıb ellərin,
Fevral sazağının qovurğası yox.
Pəncərə naxışlar qışın tellərin,
Küləyin sınmayan qabırğası yox.

17.02.2016

XƏZRİNİN NALƏSİ

Bayırda bərk xəzri nalə qoparır,
Ağaclar üstündə yarpaq axtarır.
Əlinə keçəni qovub aparır,
Budaq döyəcləyir, saplaq axtarır.
Bağçada nə ki var, sovub aparır.

Xəzəllər qaçışıb küncə daraşır.
Göylərdə qapqara bulud karvanı.
Pəncərə şüşəsi tərə bulaşır,
Xəzri qarışdırır sakit havanı,
Xoruzlar banlaşır, itlər ulaşır.

17.02.2016

OYNAYIR KÜLƏK

Yenə qol götürüb oynayır külək,
Səmanın gözündə yağış dayanıb.
Göylər qəhərlənmiş işvəli mələk,
Sanki yuxusundan erkən oyanıb.

Buludlar uşaqtək qaçışır göydə,
Hərdən də ildırım qığılcım saçır.
İncə kəpənəktək uçuşur göydə,
Göylər göy qapısın yerlərə açır.

Asiman yağışı ələyir yerə,
Cadar dodaqların isladır torpaq.
Kiçik gölməçələr bələyir yerə,
Tövşüyən nəfəslə bal dadır torpaq.

Yazın sədasından bağça-bağ gülür,
Ağaclar yuxudan titrək oyanır.
Budaqlar üstündən yağmur tökülür,
Yağışın rəqsinə ətraf boyanır.

Nəfəsi təngişən külək hayqırır,
Yağış damlaları düşür gözümə.
Qəlbə şadlıq verir, qəmimi qırır,
Yaz yaşıl libasda gülür üzümə.

08.03.2016

QIŞ KÖÇÜNÜ YIĞIŞDIRIR

Qış köçünü yığışdırır bir təhər,
Bir üzü qış, bir üzü yaz bu səhər.
Duman ara qarışdırır bir təhər,
Günəş göyə eyləyir naz bu səhər.

Boz buludlar gah tutulur, gah dolur,
Dəli əsən külək başda saç yolur,
Bilmək olmur asimanda nə olur,
Səma üzün göstərir az bu səhər.

Qəhərlənən buludlardan yaş axır,
Hərdən bir də günəş çıxıb yan baxır,
Göy köksünə şimşəkləri buraxır,
Kef-damağın eyləyib saz bu səhər.

Göy Xəzər də çəpik çalıb oynayır,
Yerə, göyə haray salıb oynayır,
Dalğaları yaz eşqiylə qaynayır,
Sıralanıb çox ördək, qaz bu səhər.

Bağçamızda qızıl güllər oyanır,
Səhər yelin ətirinə boyanır,
Göy qurşağı darvaza tək dayanır,
Sanki basıb sinəyə saz bu səhər.

Külək qəfil yelpiyini yelləyir,
Dolan bulud göz yaşını selləyir,
Yarı yuxlu qarışqa yer belləyir,
Hava tutqun, aləm bəyaz, bu səhər.

Şam ağacı əsdirir üz-gözünü,
Yığışdırır budaqları özünü,
Bulud qaçır, göy turşudur üzünü,
Asimandan gəlir ayaz, bu səhər.

İlhamım da cilalayıb ruhumu,
Çəkir qəlbdən qopardır can ahımı,
Pıçıldayır qulağa an, ahımı
Şadimana deyir ki, yaz, bu səhər.

08.03.2016

XIZI DAĞLARI

Yenə ətrafını çalar bürüyür,
Gözlər qamaşdıran Xızı dağları.
Dumanın buludu yıxıb sürüyür,
Ağılı çaşdıran, Xızı dağları.

Ruhum pərvazlanıb uçur yanına,
Al məndən qəlbimi sarı canına,
Bir ömür verərəm bircə anına,
Təbimi daşdıran, Xızı dağları.

Bu nə boyalardı yaxdın üzünə,
Səpmisən çiçəyi, gülü düzünə,
Tutuşur ürəyim al at közünə,
Ruhumu coşduran, Xızı dağları.

Mən də lal sükutu həyat bilirəm,
Hissin dəliliyin qanad bilirəm,
Aç qoynunu mənə durub gəlirəm,
Yoxuşu aşdıran, Xızı dağları.

Sənin də içində tənhalıq yatır,
Hərdən özünü də boşluğa atır,
Əyninin al rəngi sevgi oyadır,
Eşqi calaşdıran Xızı dağları.

Səma bəzək edib yeddi qurşağı,
Asıbdı göylərdən başı aşağı,
Bu yalqız ürəyim ana uşağı,
Ruhu ulaşdıran Xızı dağları.

Burax düşüm qalım qaya üstünə,
Duman örpək çəkib həya üstünə,
Misramı çalartək boya üstünə,
Gözündə yaş duran Xızı dağları.

Mən də bir yolçuyam gəlib keçirəm,
Əyilib bulaqdan saf su içirəm,
Tanrının sevdiyi məkan seçirəm,
Təbimə toy quran Xızı dağları.

Gah duman görünür, gah günəş saçır,
Nurlu sabah gəlir, qaranlıq qaçır,
Şadiman duyğular içində uçur
Səni təbdir soran, Xızı dağları.

25.03.2016

İSLADAN YAĞIŞ

Yaman oxudursan sən novçaları,
Yerləri, göyləri isladan yağış,
Səmanın pozulub rəngi, çaları,
Könlümtək tutulub qəm udan yağış.

Bağçada açılan gülü öpürsən,
Yaşıl yarpaqları yuyub qaçırsan.
Titrək damlaları üzə səpirsən,
Ağ kəpənək təki göydə uçursan.

Çiçəyin ətiri qonub üzünə,
Asılıb qalırsan ağaclar üstə.
Şəbnəmdən çətirlər düzdün özünə,
Səsin qulağımı dəlir ahəstə.

Quşlar cəh-cəh vurur, kefin kökəlir,
Bahara bürünüb nazlanan yağış.
Ruhumun içindən eşqin dikəlir,
Bağ-bağça içində yazlanan yağış.

Küçədən uşaqlar qaçır evlərə,
Kipriklər üstünə naxış salırsan.
Sənin səsin, sədan uçur evlərə,
Hər cığıra, izə baxış salırsan.

Ağaclar silkinib yuyunur tozdan,
Yaşıllıq içində uğunur həyat.
Yəqin kəsilərsən sən də bir azdan,
Alır buludlardan yeni nur həyat.

Qaçışır hasarlar üstə damlalar,
Axır divarlardan başıaşağı.
Xoş şərqi oxuyur pəstə damlalar,
Baxır asimandan o göyqurşağı.

Gəlib ovqatıma sən toy qurmusan,
Baharın özütək mələksən, yağış.
Döyüb pəncərəni şəstlə durmusan,
Sinəmdə döyünən ürəksən, yağış.

28.04.2016

ÜRƏYİMİ YANDIRIR

İstiləri ürəyimi yandırır,
Ocaq çatıb hərarəti bu yayın.
Sanki odu can evini qandırır,
Od-atəşdir səadəti bu yayın.

Arıları güllər üstə dolaşır,
Qarışqası öz işiylə yollaşır,
Küləkləri buludlarla dalaşır,
Günəşədi itaəti bu yayın.

Bağ içində güllər sarı, çəhrayı,
Qovur candan dərdü-qəmi, ah-vayı,
Göz dəyməsin, gizlədim qoy mən sayı,
Gül-çiçəkdi ədaləti bu yayın.

Alabəzək kəpənəklər uçuşur,
Kollar üstə dövrə vurur, qaçışır,
Gün qızdıqca dəli yellər acışır,
Mermeyvədi mərhəməti bu yayın.

Meynələrə üzümləri yaraşıq,
Sarınıbdı divarlara sarmaşıq,
Günəş vurur parıldayır gur işıq,
Bağda gəzir sədaqəti bu yayın.

Nanələrin, yarpızların qoxusu,
Mürgü vurur, gəlir bağın yuxusu,
Ruhum dinsin misralarım oxusun,
Eşqə bənzər əlaməti bu yayın.

Şadimanın ürəyinə ocaqdır,
Ömürümdən bu da ötən bir çağdır,
Ürək vurur can bədənə növrağdır,
Şerə dönsün hekayəti bu yayın.

03.08.2016

NƏ YAĞIRSAN

Nə yağırsan dəli-dolu,
Göylə yeri tutan yağış.
Bələmisən selə yolu,
İstəyinə çatan yağış.

Ağacları islatmısan,
Gül-çiçəyi batırmısan,
Ot-ələfi oyatmısan,
Özün atıb-tutan yağış.

Sərçələri uçurmusan,
İstiləri qaçırmısan,
Ruhuma yol açırmısan?
Düşüb selə batan yağış.

18.09.2016

ÜZÜ QIŞA GƏLƏN PAYIZ

Heç döymədən qapı açdın,
Üzü qışa gələn payız.
Düşüb yarpaq üstə uçdun,
Yağışıyla gülən payız,

Sarı yaylıq başındadı,
Buludun göz yaşındadı,
Ayaz gəlib, qarşındadı,
Şəbnəmlərə bələn payız.

Küləklərin bulud qovur,
At başını yat bir hovur,
Tut yağışı ərzə sovur,
İş-gücünü bilən payız.

Bağlarında can tökmüdür,
Bu fələyin öz hökmüdür,
Yerə-göyə görkümüdür?!
Naləsinə dillən payız.

Yağışınla oyat məni,
Gurşadına tut at məni,
Ovqatına sən qat məni,
Öz-gözümə ələn payız.

Şadimana ol bir çapar,
Al bədəndən ruhun apar,
Şimşəklərlə tufan qopar,
Var dərdindən ölən, payız **26.09.2016**

GÖYLƏRƏ ÇƏKDİ

Dünyanın halına tökdü göz yaşı,
Könlümü göylərə çəkdi bu yağış.
Yudu bağça-bağı, torpağı, daşı,
Yerlərə çeşmələr əkdi bu yağış.

Səhərin gözünə şəbnəmtək düşdü,
Səmada şimşəklə bulud döyüşdü,
Damlalar torpaqla eşqlə öpüşdü,
Ruhumdan kədəri sökdü bu yağış.

Ağaclar yağmurda nazla telləndi,
Yarpaqlar üstünə leysan ələndi,
Torpaq oxay deyib, suya bələndi…
Buludu köksünə bükdü bu yağış.

Havanın çirkabın yuyub apardı,
İçimdə dəli bir tufan qopardı,
Sanki göy içindən gələn çapardı,
Hər bir çirkinliyə görkdü bu yağış.

18.09.2016

BU PAYIZ QIŞA BƏNZƏYİR

Buludlar qara geyinir,
Gözlərdə yaşa bənzəyir.
Bilmirsən niyə öyünür?
Bu payız qışa bənzəyir.

Buludu şimşək yaradır,
Baxırsan üzü qaradır,
Köz tutub, qəlbi yaradır,
Bu payız qışa bənzəyir.

Gündüzü zülmətə çəkir,
Günəşi xəlvətə çəkir,
Özünü hiddətə çəkir,
Bu payız qışa bənzəyir.

Ocağı vaxtsız qaladır,
Xəzrini çöldə uladır,
Yağdırır, zığa buladır,
Bu payız qışa bənzəyir.

Soyuğu üşüdür canı,
Üstünə salıb yorğanı,
Havası acı soğanı,
Bu payız qışa bənzəyir.

Halıma zəhəri qatıb,
Ruhuma qəhəri qatıb,
Şaxtanı belinə çatıb,
Bu payız qışa bənzəyir.

Şirini candan bezdirir,
Gürşada salıb üzdürür,
Əlində tufan gəzdirir,
Bu payız qışa bənzəyir.

25.10.2016

YENƏ ÜŞÜYÜRSƏN

Yenə üşüyürsən küləklərinlə,
Soyuğa, sazağa susayan payız.
Buludu hayqırtdın gur sellərinlə,
Gurşadın toy qurub, dur oyan, payız,
Xəzələ məzarlar qazıyan payız.

Yarpaq xışıltısı bağlar içində,
Durna qatarları köçə-köçündə,
Qərib duyğusu var, gedən köçün də,
Olmursan gedənə heç həyan payız.
Xəzələ məzarlar qazıyan payız.

Qarğalar yurd edir şam ağacını,
Başına qoymusan sarı tacını,
Tut ruhum evindən qəlbin ucunu,
Könlümdə nələr var, ol əyan payız.
Xəzələ məzarlar qazıyan payız.

Hər günəşli günün sazağa yoldu,
Bu nə soyuqlardı, sənə nə oldu?
Göy buludlayanda ürəyim doldu,
Onu dinləməkçin sus, dayan payız.
Xəzələ məzarlar qazıyan payız.

20.12.2016

AYRILIQDAN VƏFA UMMA

BİR MƏKTUB YAZMIŞAM RUHUNA, ATA…

Bir məktub yazmışam ruhuna, ata…
Bilməm ünvanına yetişəcəkmi?!
Qarışıb könlümün ahına, ata,
Əsən küləklərlə ötüşəcəkmi?!

Yazdığım diləkcə dərdlə doludur,
Ruhunu şad edə bilməyəcəkdir.
Gözdən axan yaşım leysan, doludur,
O üzdən xəbərim gülməyəcəkdir.

Fazillər doğulur evində, ata…
Arvadın soyunun adın daşıyır.
Bağrı çatlayardı divin də, ata,
Sənin ruhun sağsa, necə yaşayır?

Oğlun sənə layiq oğul olmadı.
Bu dərd yelə dönüb ruhuna çata,
Sənə deyiləsi sözüm qalmadı,
Kimi gətirmisən söylə həyata?!

Yurduna daraşan kərtənkələlər,
Adını oğluna layiq bilmədi,
Ağıldan ziyada dayaz kələlər,
Malına daraşdı, haqqa gəlmədi.

Bəylərin gorunu çatladar bu dərd,
Fazillər nəticən adında gəzir.
Soyuq məzarını partladar bu dərd.
Evində baş verən qəlbimi əzir.

Oğul ata adın yaşadar axı,
Səninki, arvadın soyun yaşadır.
Fərəhlər gələndə qəm udar axı,
Doğman zənənlərin sayın yaşadır.

Arvadlar mülkündə meydan sulayır,
Kişilər bağlayıb ağzını bərk-bərk.
Evində şeytanlar, cinlər ulayır,
Soyuna, kökünə deyilmi bu sərk?!

Sənin evindəki doğulan oğlan,
Hacıağa, Ağabala, Məmməd olmadı.
Ocağın başına soxulan oğlan,
Kim deyər oğluntək namərd olmadı?!

Mənim ata evim yadlara açıq,
Təhqiri çəkməyə gücüm çatmayır.
Mənə düşmən olan adlara açıq,
Zülmü ləşkər-ləşkər, hücum çatmayır.

Niyə sayılmadı sənin bəy adın?
Oğlun nəticənə yaraşdırmadı.
Mənəmlik eyləyir raiyyət qadın,
Adını soyuna ulaşdırmadı.

Sən kimi evinə gəlin gətirdin?
Gəlin ocağına yağıdı indi!
Hansı mərtəbəyə bizi yetirdin?
Fərəhin sinəmiz dağıdı indi!

Zəhmətim ayaqlar altına düşüb,
Bütün ümidlərim puça çıxıbdı.
Həyatım iblisin sırtına düşüb,
Üzümə gülənlər ara yıxıbdı.

Məni qınamasın elim, elatım,
Dərdimin vüqarı qələmdə gəzir.
Ağrılar içində keçən həyatım,
Misraya bürünüb aləmdə gəzir.

Bir məktub yazmışam ruhuna, ata…
Bilməm ünvanına yetişəcəkmi?!
Qarışıb könlümün ahına, ata,
Əsən küləklərlə ötüşəcəkmi?!..

12.03.2012

BİLDİK BU ƏBƏDİ GEDİŞDİ, ANA

Yumdun gözlərini nahaqq dünyaya,
Sənli günlərimiz döndü röyaya,
Ruhun qanad açdı o haqq dünyaya,
Bədənin məzarla görüşdü, ana,
Bildik bu əbədi gedişdi, ana.

Ata ocağına səslərdin bizi,
Qəlbində eşq ilə bəslərdin bizi,
Qəfil ayrılığın ağırdı düzü,
Fələkdən bu necə gərdişdi, ana?
Bildik bu əbədi gedişdi, ana.

Gözlərin qapıda qalardı hər gün,
Həsrətdən bənizin solardı hər gün,
Ürəyin buludtək dolardı hər gün,
Hicran yaraların bitişdi, ana,
Bildik bu əbədi gedişdi, ana.

Gözlərim önündən şəklin dayanır,
Ruhun fəryadına könlüm boyanır,
Bağrım parə-parə, ürəyim yanır,
Ayrılıq məqamı yetişdi, ana,
Bildik bu əbədi gedişdi, ana.

Qapının döyəndən qocalıq çağı,
Dilin ah söylədi, ürəyin ağı,
Gəldi əzrayılın qəfil sorağı,
Əzablı günlərin ötüşdü, ana.
Bildik bu əbədi gedişdi, ana.

Məzarın başına gəlib ağlarıq,
İndi qəbirinə ülfət bağlarıq,
Yanan sinəmizi ahla dağlarıq,
Ömür bağın soldu, qış düşdü, ana,
Bildik bu əbədi gedişdi, ana.

Şirin xanım sənə can qurban deyir,
Solmuş vücuduna min yol can deyir,
Sənsiz keçən ömrə bir hicran deyir,
Yanan ürəyinə dərd düşdü, ana.
Bildik bu əbədi gedişdi, ana.
Bildik bu əbədi gedişdi, ana.

01.01.2013

BU GÖRÜŞ, BİR VİDA GÖRÜŞÜ İDİ

Bu görüş, bir vida görüşü idi,
Məni bu görüşə çağırdın, ana.
Üzündə ölümün gülüşü idi,
İçimdə fırtına doğurdu, ana.

Kəsdim yatağının yanını, durdum,
Ürəyim ağladı, cana yas qurdum,
Qəlbi qılıncladı, yıxdı qəm ordum,
Ruhum nalə çəkdi, bağırdı, ana.

Məzarın qazıldı qoyuldun ora,
Açdın ürəyimdə sağalmaz yara,
Kim tapa bildi ki, ölümə çara,
Səni əzrayılın çağırdı, ana.

Mən bu müsibətə dözüb ağlaram,
Yanan ürəyimi ahla dağlaram,
İndi xəyalına könül bağlaram,
Əzizin itirmək ağırdı, ana,
Əzizin itirmək ağırdı, ana.

01.01.2013

AY ELLƏR, MƏZARA QOYMUN ANAMI

Ay ellər, məzara qoymun anamı,
Ona ürəyimi ad eyləmişəm.
Siz allah, ölütək saymın anamı,
Alışan bağrımı od eyləmişəm.

Tikmişəm qəlbimin içində otaq,
Pərqüdən tutmuşam mən ona yataq,
Anamın ruhunu atlasa tutaq,
Mən onu canımtək yad eyləmişəm.

Analı günləri unutmaq olmaz,
Onu heç bir kəsə tay tutmaq olmaz,
Heç vaxt ürəyindən çıxartmaq olmaz,
Min dəfə ah çəkib, dad eyləmişəm.

O, elə tərk etdi qəfil bizləri,
Hər yerdən boylanır küskün gözləri,
Qalıb ev-eşikdə ayaq izləri,
Onsuz ömrü-günü bad eyləmişəm. **01.01.2013**

ATALI-ANALI GÜNLƏR ƏLVİDA

Sizlə olan ömür yuxuya döndü,
Çiçək ətri saçan qoxuya döndü,
Ürəyim sac üstə yuxaya döndü,
Qopur üstbəüstdən dilimdən nida,
Atalı-analı günlər əlvida.

Mən sizi bir daha tapa bilmərəm,
Bu dərdi sinəmdən çapa bilmərəm,
Əzrayıl əlindən qapa bilmərəm,
Getdi o uşaqlıq, o naz, o əda,
Atalı-analı günlər əlvida.

Daha yuxularda gəzərəm sizi,
Ötən xatirata düzərəm sizi,
Sinəmi göynədir ülfətin izi,
Siz udan havadan alırdım qida,
Atalı-analı günlər əlvida.

İndi havam, suyum, göyüm korlaşır,
Dərdim ləpə verir, başımdan aşır,
Gözümün gürşadı qaynayıb daşır,
Ötən xatirələr söyləyir vida,
Atalı-analı günlər əlvida.

Siz olan zirvəni gərə bilmirik.
Sağ ikən qiyməti verə bilmirik.
Əvəzsiz neməti görə bilmirik,
Ölümün tələşı nə ağır sevda?
Atalı-analı günlər əlvida.

Sizi xəyallarda gəzəcəm indi,
Xatirat dəftərə düzəcəm indi,
Ata, ana eşqi imandı, dindi,
Salıb ürəyimə itginiz səda,
Atalı-analı günlər əlvida.

Şirin xanım yanır, fəryad içində,
Dili haray çəkir, imdad içində,
Günlər karvan tutub köçə-köçündə,
Dönübdü ağlayan ürəyi uda,
Atalı-analı günlər əlvida.
Atalı-analı günlər əlvida.

04.01.2013

GEDİBDİ BİR XANIM ANAM ƏLİMDƏN

Gedibdi bir xanım anam əlimdən,
Düşmür laylaları heç vaxt dilimdən,
Qopur fəryadlarım könül telimdən,
Kitabım, vərəqim, qələmim haray.
Atasız, anasız, aləmim haray.

Onları heç yerdə tapa bilmirəm,
Ruhları canımda – qopa bilmirəm,
Ağrıdan, acıdan sapa bilmirəm,
Bağrımla öcəşən ah, qəmim haray.
Atasız, anasız, aləmim haray.

Gözümdən boylanan gürşadım daşır,
Dərdim ləpə verir, başımdan aşır,
İçimdə acı bir fəryad dolaşır,
Ata ocağında xoş dəmim haray,
Atasız, anasız, aləmim haray.

Sizintək istəkli tapa bilmərəm,
İtgini sinəmdən çapa bilmərəm,
Məni tapan dərddən sapa bilmərəm,
Gözdə yuva salan, ey nəmim haray,
Atasız, anasız aləmim haray.

Siz mənim canımdan boylanan varlıq,
Ruhumun başına haylanan varlıq,
Mən aha düşəndə vaylanan varlıq,
Dəryada tək qalan bəxt gəmim haray,
Atasız, anasız, aləmim haray.

Şirinin qəlbində tikdiz pak yuva,
Sizsiz çatmayacaq ruhuma hava,
Hər gün dodağımdan qopacaq dua,
İşimdə tapılmaz heç çəmim haray,
Atasız, anasız, günlərim haray.

10.01.2013

ANA, HAQQINI HƏLAL ET

Dikildi gözün yollara,
Çox düşdün qəmli hallara,
Can dedin bu balalara,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Gəldi tez qırxın yetişdi,
Demə, yaralar bitişdi,
Ürəyimizə ah düşdü,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Qız balaların həyanı,
Ata ocağda sayanı,
Ey canımızın duyanı,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Getməz ürəkdən ülfətin,
Heç dəyişməyən sifətin,
Bitib-tükənməz hörmətin,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Atamın ömür sirdaşı,
Xanım-xatun yar yoldaşı,
Nə ağladırsan göz yaşı,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Qızların qərib oldular,
Düşüb yollarda soldular,
Çox bulud təki doldular,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Ahla ürəyim doludur,
Başım ayağın quludur,
Getdiyin Allah yoludur,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Şirin xanımı sal yada,
Bax bağrındakı fəryada,
Yetiş balana imdada,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.
Ana, haqqını həlal et.

13.01.2013

AXTARIRAM HƏR YERDƏ

İtgin düşmüş ruhunu axtarıram hər yerdə,
Çəkilib yetməyir ki, xəyalın göz önündən.
Özün söylə, bəs necə dözüm verdiyin dərdə?
Qulaqlarım usanmır harayından, ünündən.

Pəncərədən boylanır baxır ötən günlərim,
Üzümə gülmüsəyir xatirələr birbəbir.
Dünənin vüsalına çatıb yetən günlərim,
İndi əlində yellər özü boyda bir xəlbir.

O xəlbirin içində anlarım ah-uf edər,
Ölmüş saatlarıma ağı deyər dilləri.
Ömür bir karvan imiş onu sarvanı güdər,
Doğmalar köç etdikcə qırılar qəlb telləri…

İtgin düşmüş ruhunu göydə-yerdə gəzirəm,
İlan təki qıvrılıb yatıb ağrı içimdə.
Gəlib yuxularıma, demə mənə, dözürəm,
Ömür cana əmanət, onu zaman biçimdə!

Şadimanın sevdası baş tutmayan bir nağıl,
O nağılın sətiri hər kəsə oxunmayır.
Ürək səndən yapışır, təsəlli verir ağıl,
Xəyalın istiqanlı qəlbimə toxunmayır.

18.01.2013

EY RUHUMUN CANI ANAM

Ey ruhuma pak, can anam,
Canın getdi, közün qaldı.
Qəlbimdəki ünvan, anam,
Gözlərimdə gözün qaldı.

Getdiyin yol gedər-gəlməz,
Xəyalların dərdi bilməz,
Sən gedəli, üzüm gülməz,
Ürəyimdə izin qaldı.

Sən canımın yarımısan,
Ruhu könlə sarımısan,
Ayrı düşmək deyil asan,
Boynubükük qızın qaldı.

Deyirdin ki, darıxarsız,
Qəlbi oda buraxarsız,
Yollarıma çox baxarsız…
Qəlb yandıran sözün qaldı.

Ha baxıram sağa, sola,
Otlar bitib o ağ yola,
Şadimanın dözmür hala,
Demə, getdin dözüm qaldı…

05.11.2013

GÖYLƏRİN İÇİNDƏ GİZLƏNƏN BULUD…

Gənc yazar Məlik Ağanın xatirəsinə…

Göylərin içində gizlənən bulud,
Tök gözdən yaşını bu gənc yazara!
Dəli şimşəklərlə közlənən bulud,
Bir cavan qoyuldu qara məzara.

Ona namərd çıxdı xəstəhal ürək,
Qoydu istəklərin gözündə fələk,
Yolunda göz yaşı axıdır dilək,
Niyə səmum yeli əsdi gülzara?

Qələmi kağızda titrədən sözlər,
İndi ağı desin nakam cavana,
Bəndəni önündə qul edən sözlər,
Yetişin ah ilə o son ünvana.

Məni qara xəbər pərişan etdin,
Heç bir cavan ömrə Tanrı qıymasın.
Bu ağır dərd ilə qəlb nişan etdin,
Tale doğmaları dağlı qoymasın.

Şadiman özü də bir bulud olub
Gözündən ürəyə axır yaşları…
Hayqıran göylərtək dəhşətdən dolub,
Tərs ildırım kimi çaxır yaşları…

29.08.2013

FƏLƏK QARA YAZDI

Xalam qızı Cavahirin nəvəsinə

Fələk qara yazdı tale yazını,
Tufana bürüdü ömür yazını,
Çırpdı, daş-divara könül sazını,
Həyatın güllərin dərmədin, Ülkər,
Gəlinlik paltarın geymədin, Ülkər.

Nə gözəl ad qoymuş əzizlər sənə,
Bu adı mələklər əzizlər sənə,
Ağlayır yaş tökür, bu gözlər sənə,
Xoşbəxt günlərini görmədin, Ülkər,
Gəlinlik paltarın geymədin, Ülkər.

Tale ayrı saldı yaşıdlarından,
Əzrayıl tor qurdu fəryadlarından,
Buludlar ağladı imdadlarından,
Son ahı bir kəsə demədin, Ülkər.
Gəlinlik paltarın geymədin, Ülkər.

Kəsdi qəza ilə fələk yolunu,
Qanlara buladı o əl-qolunu,
Küləklər göylərə yazdı halını,
Əcəl hardan gəldi, bilmədin, Ülkər?
Gəlinlik paltarın geymədin, Ülkər.

Ölüm gələn anı kimsə bilməyir,
Yolların bağlanıb, sədan gəlməyir,
Doğmalar ağlayır, üzlər gülməyir,
Sağ getdin, salamat gəlmədin, Ülkər,
Gəlinlik paltarın geymədin, Ülkər.

Fələk necə qıydı cavan ömrünə?
Qara məzar oldu ünvan ömrünə,
Qurdu qəfil qəza divan ömrünə,
Ruhun uçdu getdi enmədi, Ülkər,
Gəlinlik paltarın geymədin, Ülkər.

Eşidənlər ağlar o gənc çağına,
Taleyin çəkdiyi sinə dağına,
Ananın laylası dönüb ağına…
Düşdün torpaq üstə dinmədin, Ülkər,
Gəlinlik paltarın geymədin, Ülkər.

24.05.2013

CAVANKƏN QOYULDUN MƏZARA BU GÜN

Böyrək çatmazlığından nakam gedən, anasının böyrəyi də köməyinə çatmayan, gənc qızı Sevinc Zeydullayevaya…

Cavankən qoyuldun məzara bu gün,
Sənə olmalıydı yas yox, toy- düyün.
Ürək nalə çəkir, partlayır beyin,
Əzrayıl qapıda öyündü, Sevinc,
Tabutun qırmızı geyindi Sevinc.

Gözündə çağlayan gülüşlər batdı,
Bu nə bəxt idi ki, əbədi yatdı,
Bir körpəcə ömür qəbirə çatdı,
Taleyə cızılmış nə gündü, Sevinc,
Tabutun qırmızı geyindi Sevinc.

Qohumu-qonşunu ağlatdın yaman,
Qəlblərdə dərdləri çağlatdın yaman,
Səhərin bağrından qopartdın aman,
Bəs bu nə sədadı, nə ündü, Sevinc,
Tabutun qırmızı geyindi Sevinc.

Həkimin, dərmanın vəfa qılmadı,
Sənə edilməyən ülfət qalmadı,
Heç bir şəfa səni dərddən almadı,
Qəlbimiz ahınla döyündü, Sevinc,
Tabutun qırmızı geyindi Sevinc.

Göy qara boyanıb yas çadırına,
Donmuş şəkilini as çadırına,
Amansız dərdini bas çadırına,
Qara xəbər necə yeyindi, Sevinc,
Tabutun qırmızı geyindi Sevinc.

Sən necə dağ oldun ata, anana,
Yaman növrağ oldun ata, anana,
Qalx bir təsəlli ver, sənə yanana…
Fələk qapı çırpdı, deyindi, Sevinc,
Tabutun qırmızı geyindi Sevinc.

Ürəyim qələmdi, qonşumun qızı,
Kaş yalan olaydı bu gün, bu yazı,
Şadiman ah edir, susub avazı,
Canını aparan neyindi, Sevinc?!
Tabutun qırmızı geyindi Sevinc

20.11.2013

NƏZM HEKAYƏLƏR

İNSANLIQ DRAMI

Həyatın hər üzün görən insanlar,
Dərdin bəhərini dərən insanlar.

Dünya ağrı-acı, dünya faciə,
Allahım, hardasan, dözürsən necə?

Silahlar işləyir, dağılır yurdlar,
Haqqı viran edir qansız ordular.

Suryada, İraqda insan qırğını,
Artır cəlladların könül yanğını.

Çocuqlar, qadınlar yurddan didərgin,
İlahi, bu imiş insanlıq sərgin!

***

Aralıq dənizi qəzəbli çoşqun,
Suların üstündə qaçqınlar çaşqın.

Onların vətəni odlar içində,
Dünya çalxalayır qanı içində!

Qəzəbli sularda batır körpələr,
Atır sahillərə dəli ləpələr.

Həyata gözlərin təzə açmışlar,
Ruhları bədəndən çıxıb uçmuşlar.

Savaş insanlığa fəlakət, zülüm,
Qapılar ağzında hayqırar ölüm.

Minlərlə insanlar yurddan qaçarlar,
Özgə torpaqlara ayaq açarlar.

Evləri, mülkləri uçub dağılar,
Sinələrdən qopar ahlar, ağılar.

Ələyər yağılar göydən bombanı,
Dağıdar bir anda eli, obanı.

Gərəkmi dünyaya bu cür qırğın-qan?
İnsan xislətindən yox olmur böhran.

Xisləti içini boş qoyub nədən?
Ey əvvəl-axırı məzara gedən.

Aralıq dənizi məsum körpəni,
Üç gündür gəzdirir, udur ləpəni…

Bu zaman balıqçı qayıq sularda,
Balıqçı hər zaman duyuq sularda.

Görür məsum çocuq səssiz uzanıb,
Ləpələr də onu balası sanıb.

Qoruyub bəladan körpə balanı.
Ürək parçalayır göz görən anı.

Balıqçı cəsurlar körpəni alır,
Həyəcan içində qayığa salır.

Əynində qorucu libası varmış,
Bu libas körpənin bəxtinə yarmış.

Aralıq dənizi, çocuq mələkmi?
Sənin də köksündə vuran ürəkmi?

Sevib əzizlədin məsum körpəni,
Onun udmamaqçın qovdun ləpəni.

Bu üç gün içində körpə sağ qaldı,
Sənin sularına mehrini saldı.

Dalğalar körpəni sevdi özütək,
Dünyanın var olan dərdli üzütək.

Balıqçı təhnəsi uşağa mehman,
Uşaq da bağlamış dənizlə peyman.

Peymanlar içində şəfqət yatırmış,
Körpə hıçqırtısı haqqa çatırmış.

Sudan çıxarılan uşaq halsızdı,
Bu an üz-gözünə bir həyat sızdı,

Dodaqlar səyridi, gözlər açıldı,
Körpənin içini həyəcan çaldı.

Halsız iniltilər qopdu sinədən,
Sönük nəfəs idi hey gəlib gedən.

Balıqçı Mehmanla İman qardaşlar,
Gözlərdən axıtdı qəm dolu yaşlar.

Birdən ləpələrdən çığırtı gəldi,
Bir ana fəryadı suları dəldi.

Qadın qışqıraraq bala deyirdi,
İnsan faciəsi kimə seyirdi?!

Qayıqda qardaşlar donub qalmışdı,
Qəlblərdən səmaya ah ucalmışdı.

Onlar qadına tərəf sürdü qayığı,
Qadın tələtümlə gördü qayığı.

Onun imdad sözü suları yardı,
Yanan sinələrin içinə vardı.

Balıqçı qardaşlar qadını tutdu,
Titrəyən təknənin içinə atdı.

Sapsarı saralmış qadın dinmirdi,
Öz can xilasına heç diksinmirdi.

Bayaq balasıyçın qopan səs batmış,
Sanki yazıq qadın diləyə çatmış.

Yorğun gözləriylə baxır körpəyə,
İndi dünya dönmüş gözdə ipəyə.

Dağılmış yuvasın unutmuş tamam,
Sanki diləyinə o çatmış tamam.

Onları aparan gəmi batmışdı,
Altmış insanı da suya atmışdı.

Balaca gəminin yükü çox olmuş,
Bir anda sularda batıb yox olmuş.

Dənizə tökülən insanlar ölmüş,
Dalğalar içinə batıb gömülmüş.

Anayla balanı qorumuş tale,
Tifillər eşqinə yarımış tale.

Qardaşlar soruşdu onun adını,
Bağırından püskürən ah-fəryadını.

Kimə ünvanlasın bu bədbəxt qadın,
Necə yad kişiyə söyləsin adın?

Bir anlıq yadına gəldi Suryası,
Ərşi alışdıran el-oba yası.

Xəyalından viran yuvası keçdi,
Yurdunu talayan qanını içdi.

Hər şeyi vətəndə atıb qaçanlar,
Dərdi sinəsinə çatıb qaçanlar,

Harada tapacaq öz xöşbəxtliyin?
Dərd etdi ürəyə köz xöşbəxtliyin.

Allah bu qədərmi dəhşət yaratdı?
İnsanı insana vəhşət yaratdı!

Qan töküb ev yıxmaq siyasət oldu,
İnsanlıq adına xəyanət oldu.

Qadın gah hönkürür, gah da gülürdü,
Donmuş əllərilə üzün silirdi.

Körpə qığıltıyla anaya baxır,
Körpənin baxışı ananı yaxır.

Hünəri çatmır ki, balasın alsın,
Duz kimi yalayıb bağrına salsın.

Balıqçı qardaşlar adını sordu,
Adım Zeynəb deyib kədərlə durdu.

Titrədi dizləri, çökdü diz üstə,
Yıxıldı qəfildən o üzü üstə.

Ağzından fantantək sular fışqırdı,
Ananın halından uşaq qışqırdı.

Balıqçı qardaşlar dəhşəti gördü,
Tələsik qayığı sahilə sürdü.

Soyuqdan, aclıqdan qadın titrəyir,
Dodaqlar səyriyir, diş-dişə dəyir.

Dedi: İki balam, ərim sularda,
Dalğalar aparıb batıblar harda?

Balaca körpənin Məhəmməd adı,
Bəlkə kömək olub uşağa adı.

Onunçün sulardan salamat çıxıb,
Fələyin hökümü dalğanı yıxıb.

Bu qədər fəlakət içində qadın,
Yenə unutmayır İslamın adın.

Zeynəb türk dilində pis danışırdı,
Elə bil Rəbbiylə pıçıldaşırdı.

Balıqçı qardaşlar heyrət içində,
Zeynəbi dinlədi izzət içində.

Sahillə əlaqə yaratdı onlar,
Həyacan içində keçirdi anlar.

Qadın dodaq altı dua edirdi,
İçdə İlahiyə səcdə edirdi.

Səcdəsi bitəndə dodağı qaçdı,
O titrək əllərin göylərə açdı.

Qayıq yırğalandı, qadın yıxıldı,
Qayığın içində küncə sıxıldı.

Gənc Mehman balıqçı içdə sevincək,
Əlində tutmuşdu bir qara pencək.

Pencəyi Zeynəbin üstünə atdı,
Qayıq da bir azdan sahilə çatdı.

Rencəyi geyinmiş Zeynəb titrəyir,
Kədəri qarışır qəm-qəmə dəyir.

Yad edir Suryada qoyduğu evi,
İçinə cehizlər saydığı evi.

Hamsı bircə anda yıxıldı getdi,
Yurdu viran oldu, yaxıldı getdi.

Qayıq sahillərə yan alıb durdu,
İmran direkləri sahilə vurdu.

Adamlar qayğı dövrəyə aldı,
Bir anlıq baxışlar uşaqda qaldı.

Gözlərin açaraq uşaq baxırdı,
Acı taleyiylə ürək yaxırdı.

Sahildə göründü «Təcili yardım»,
Hamı tələsirdi eyləsin yardım.

Uşaqla ananı həkimlər aldı,
Tələsik maşının içinə saldı.

Tale qapı açmış ərəb qızına,
Sanki qayıtmışdı ömrün yazına.

Onu xilas edən qardaşlar gülür,
Sanki üzlərindən sevinc tökülür.

Öz yurd-yuvasını itirmiş qadın,
Həyatda görürdü təkcə övladın.

Maşın yola düşür xəstəxanaya,
Fələk möhlət verir yazıq anaya…

***

Qansız müharibə hamıya ölüm,
İtməli dünyadan dərd ilim-ilim.

Balıqçı qardaşlar xilaskar oldu,
Savaşa qansızlar baiskar oldu.

Balıqçı insandı, savaşçı insan,
Heç birin tanımaq olmayır asan.

Xeyir şər içində itib batıbdı,
Dünya başın atıb qana yatıbdı.

Qanı da sümürən daşacaq yəqin,
Cahan əndazəsin aşacaq yəqin.

Dünyanı qanlarda çalxadanların,
Bir gün alacaqdı Tanrı canların.

24-25.10.2015

ON DÖRD YAŞLI QIZCAĞAZ

Çox ailələrdə qızın doğuluşu kədərdir,
Deyirlər min ah-ufla yazı yazan qədərdir.
Biz oğlan istəyirdik, qızı göndərdi bizə.
Bəs Tanrı niyə qıydı böylə bir dərdi bizə?!
Düşünən yox, bu qızlar sabahkı analardı,
Ev-eşiyə qayğıkeş, ərlərə sonalardı…
Onlar ata-ananın uçan göyərçinləri,
Ər evində bəs necə keçəcəkdi günləri?
Onlara təhsil, bilik, savad lazımdı öncə,
Qoy kitaba köklənsin məktəb vaxtdan düşüncə.
Ər evində ərinə dayaq olsun o sabah,
Tez ərə vermək qızı, məncə ən böyük günah.
Valideyn, günahdır qızla böylə rəftar,
Etdiyiniz səhv addım sizi bəlaya atar.
Siz allah, qız balaya ögey gözlə baxmayın,
Savadsız anaları həyata buraxmayın.
Tələsməyin onları tezcə ərə verməyə,
Ötürmün başınızdan, eh bu ki, qızdı deyə.
Qızlar Vətən övladı, sabah beşik başında,
Onların laylası var yurdun hər qarışında.
Gələcək analara can deyin, can eşidin,
Hər kəsin xəlq olması Yaradanın işidir.
Dinləyin hekayəmi, acı bibər kimidir,
Ürəkləri hönkürdən qara xəbər kimidir.

***

Qonşu evdən bir qızın nişan xəbəri gəldi,
O saat küçəmizdən dedi-qodu yüksəldi.
Biri dedi: " Ay balam, bu qız hələ uşaqdı,
Onun baxanı yoxmu, ata-anası sağdı?!
Niyə tələsib onu tezcə ərə verirlər?
Gözün açmamış yazıq əl-ayağın gərirlər.
Hələ heç məktəbi də tamam-kamal bitirmib,
On dörd yaşlı qızcağaz, niyə bəxtin gətirmib?"
Pıçıltılar dolaşdı küçədə oyan-buyan,
Olmadı qız uşağa bu söhbətlər də həyan.

***

Hələ ata evinin istisini almamış,
Hələ doğmalarına tam mehrini salmamış,
Günayı məktəbindən ayrı saldılar onlar,
Başını aldadansa, qızıl, palpaltar, donlar.
Axı ata evində o zərziba görməmiş,
Başqa uşaqlar kimi xoşbəxt ömür sürməmiş.
Qonşu qızın çox nimdaş paltarın geyinərdi,
Qonşu qız da qımışıb özüylə öyünərdi.
Bütün bu acılardan doymuş Günayın özü,
Heç zaman gülməyirdi uşaqlar təki üzü.

Atası Orxan artıq yorulmuş bu həyatdan,
İşsizlik dərdi keçir ürəkdə neçə qatdan.
Arvadı Şəhlanın da gözündə kədər yatır,
Hərdən elə ah çəkir, ahı göylərə çatır.
Üç uşağı böyütmək onlara çox ağırdı,
Qəlblərinin içinə kədər hər gün yağırdı.
İki oğlan uşağı hələ məktəb yaşında,
Turalla İbrahimin arzular var başında.
Onlar ekiz doğulub, hələ on bir yaşında,
Atanın qızdan xilas çox dolanır başında.
Qoy getsin ər evinə, evi-eşiyi olsun,
Bizdən üzsün əlini mehrini ərə salsın.
Deyə, düşünür ata Günayın sabahını,
Görməyir qızcağazın ürək sökən ahını.
Çəlimsiz qızcağazın sümükləri bərkimib,
Bu atadan, anadan qızcağaza sərkimi?
Yediyi çörəyini kəsdilər boğazından,
Niyə doğmalar keçdi öz körpəcə qızından?!
Heç orta məktəbi də qıymadılar yazığa,
Atdılar qız balanın həyatını sazağa.
Məktəbdə müəllimlər maraq etmədi ona,
Kasıbın doğuluşu lazım deyil cahana.

***

İmkansıza yük təki baxır, doğmalar-yadlar,
Odur ki, bu dünyanı bürüyübdü fəryadlar.
Öz həyatın əzəldən düşünməyən bəlada,
Ömrü boyu necə yük olasan yaxın-yada?!
Kasıbın taleyinə xəstəlik, aclıq düşür,
Kasıb ölənə qədər canı ilə əlləşir.
Gələcəyin qurmayan sabahına işgəncə,
Daima töhmətlənər, ömrün basallar küncə.
İmkansız ailədən, öz başına çarə qıl,
Yapış kitab-dəftərə, sonra olmayasan qul.
Ali təhsil hamıya vacib deyil, sənət seç,
Sənəti əxz etməkçün gecə-gündüzündən keç.
Oğru-əyri olmaqla ömrə çıraq tutulmaz,
Kişi olan heç zaman murdar işə atılmaz.
Doğulan kəs ömrün hallalıqla qurmalı,
Lazım gəlsə özünü çətinliyə vurmalı.
Allah hər bir insana imkan qapısı açır,
Daim tale mələyi başının üstə uçur.
Fürsəti əldən verən səhvin özü görməli,
Ömrün bağçasından tər meyvələr dərməli.
Uğurlar onda olur fürsət əldən getməsin,
Ötən ömrün günləri boş-boşuna itməsin.
Uğurlara yetməyin yolu zəhmətdən keçir,
Zəhməti qazanmağın eşqi hikmətdən keçir.
Bunu duyan, anlayan ömrə çıraq yandırdı,

Bütün çətinlikləri fəhmiylə dayandırdı.
Orxansa çətinliyin içində boğularkən,
Balaca qızcağazın ərə yollayır erkən.
Ümid edir ər evi qızına uğur olar,
Uşaqları tərəfdən yükü bir az azalar.
Əlqərəz, Günay dünən nişanlandı Familə,
Ata doğma qızının bəxtin döndərdi yelə,
Necə ki, yel bir müddət əsib keçəri olar,
İndi yazıq Günayın bu evdə izi qalar.
Xala-bibi, qonşular gəlib nişan taxdılar,
Bir qızın da bəxtini zülmətə buraxdılar…

***

Uzaq ulduzlar necə gecə yanıb sönərlər,
Kainatın eşqiylə səməda görünərlər,
İnsanların bəxti də ulduzlara bənzəyir,
Hər insan bir səyyarə yer üzünü bəzəyir,
Hərdən bəzək içində bir solğunluq görünür,
Kiçik səyyarələr də bəxti kimi sürünür.

***

Zaman gəldi yetişdi, molla kəbini kəsdi,
Sanki gələcək ömrün bu toy günü o kəsdi.
Gəldilər çalançılar qıza toy da çalındı,
Həna yaxıb əlinə, qaşı-gözü alındı.
Qız anası Çiçəyin üzü-gözü gülürdü,
Üzündən qonşulara acıq hissi tökülürdü.
Sanki qonum-qonşuya yanıq verirdi Çiçək,
Demək istəyirdi o, mənim qızımdı mələk.
Sizin qızlar hələ də evdə qalıb qocalar,
Mənim Günayım isə ər evində ucalar.
Oğul-uşaq dövrəsin basar bir azdan onun,
Mənə elə baxmayın, siz paxıllıqdan yanın.
Famil, Günay qızımdan, iyirmi yaş böyükdü,
O Rusiyada qazanır, deməyin elə yükdü.
Naz-nemətlə bəsləyər qızımı, Allah qoysa,
Açılıb bəxt yolları – səadətə yol qısa.

***

Oğlan adamı gəldi, Günayı apardılar,
Sanki bəxtin, taleyin bu evdən qopartdılar.

***

Bir il keçdi Günayın acıları başladı,
Həyat gənc qızcağazı ağrılarla daşladı.
Deməmişkən, Familin öz həyatı var imiş,
Rusiyada rus qızı taleyinə yar imiş.
Ondan hələ bir oğul övladı da doğulmuş,
On dörd illik ömürü qızcağaza nağılmış.
Hələ qara günləri bundan sonra olacaq,
Hələ Günay zülümün içindəcə qalacaq.
Cəmi bir ay o ərlə qadınlığın yaşadı,

Əri getdi qürbətə, qaldı qadınlıq adı.
Hər gün evdəkiləri qulluğun tutdu Günay,
Gənclik nədi? Tamamən özün unutdu Günay.
Qaynana, qaynatanın o kəskin baxışları,
Saldı ürək içinə qəlb donduran qışları.
Yuxular gecə onu uşaqlığa apardı,
Ötən günlər könlündə hər gün tufan qopardı.
Süd qoxulu dodaqlar sızıldadı anayçın,
Sual etdi, Tanrıya neçin doğuldum, neçin?
Bir gün Günay canında ayrı bir can hiss etdi,
Qayınanası götürüb onu həkimə getdi.
Hamilə olduğunu həkim söylədi ona,
Qorxu hissi küləktək yüyürüb girdi cana.
Bu çəlimsiz qızcağaz titrədi yarpaq təki,
Əridi ümidləri ocaq üstə yağ təki.
Qayınanası sevindi, üzü güldü o saat,
Dedi: Bizə də gəldi, xoş rüzgar, xoşca həyat.
Nəvə üzü görərəm təksə oğul balamdan,
Gəlin, məni kənarda qoyma bu gözəl kamdan.
Qayınananın gözündə fərəhlər dolaşırdı,
Bəbəkdəki yaşları qaynayırdı daşırdı.
Dil tökürdü Günaya bu sevincli çağında,
Həyatının istəkli, ümidli novrağında.
Qızın isə ürəyi qorxulara büründü,
Cəhənnəm kabusutək arxasınca süründü.
Qürbətdə qalan əri gəldi gözü önünə,
İçində şivən qurdu bu ağrılı gününə.

***

Gün keçdi, ay dolandı zaman gəldi yetişdi,
Günayın doğuş vaxtı qışın gününə düşdü.
Acı sancı içində getdi xəstəxanaya,
Gəlinin halı pisdi dedilər qaynanaya.
Uşaq tərs gəlir deyən halı pisdi gəlinin,
Həyatından əbədi tale küsdü gəlinin.
Uşaq doğuldu o gün, ana qan itirdi çox,
İmid qalıb Allaha sağlığına güman yox.
Hələ bədən bərkimib, sümükləri körpədi,
Bəs bu qız uşaqlara edilən zülüm nədi?
Günay doğuşdan sonra cəmi bir gün yaşadı,
Onun qız körpəsinə qoyuldu Günay adı.
Özü getdi məzara, bala qaldı anasız,
Qızlara qəsd edənlər alışasız, yanasız.
Bir gənc ana həyatın dadın görməmiş getdi,
Fələk onun anasın bir bala dağlı etdi.
Ər də qürbət elində, rus zövcəsi yanında,
Bir damcı da yox idi ölənə eşq canında!
Yalnız ata-ananın təkidiylə evləndi.
Lakin onun bu dəfə gətirmədi eşq fəndi.

Qızı mələklər aldı evlilikdən qurtulsun,
Gəlsin ana məzara onu məzarda bulsun.
Az yaşlı Günay getdi vaxtsız həyatdan belə,
Onun acı taleyi düşdü dillərdən-dilə.

***

Ey oxucum, sözümü burda sona yetirdim,
Bir həyat hekayəsin faciyəylə bitirdim.
Ey qızları evində artıq görən analar,
Bütün ağrı-acını qəlbə sərən analar.
Qız övladı sabahın anasıdı, dua et,
Qızın varlığı üçün ürəyində yuva et.
Allahın səadəti sənin qapından çıxmaz,
İlahi ətəyini əllərindən buraxmaz.
Sevin qızları, sevin onlar həyat şamıdı,
İnsanlığın dünyada bir var olma kamıdı!
İnsanlığı var edən kama xəyanət olmaz,
Qadın yox olan yerdə insan tükənər, qalmaz.
İnsanlığın anası qadınları qoruyun,
Anaların eşqini ürəklərə sarıyın.

16.11.2016

DÜKAN ADAMIN HEKƏYƏTİ

Dünəndən üzü dönən hava şaxta içində,
Dondurur evsizləri, yoxsulları içində.
Günəş gah küsüb qaçır, gah da üzün göstərir,
Xəzri cana işləyir, adamın köksün gərir.
İlikləri göynədir soyuq noyabr ayı,
Küçədən bir səs gəlir, zəif, qalmayıb hayı.
Canlı yeriyən dükan ağır çanta əlində,
Sözlər titrəyir gəzir haray çəkir dilində!
«Kalkotka, corab» deyib eşidəni üzdürür,
Bədbəxt «canlı dükanlar» yükü əldə gəzdirir.
Küçə boyu qışqırır qonum-qonşu çıxmayır,
Qapıdan baş çıxarıb çölə tərəf baxmayır.
İnsanlar tapdığına munis olub evində,
Çöldə kimin nə işi havanın sərt günündə?!
Hamı çəkilib evə, küçələr bomboş qalıb,
Sanki göyə, yerə də xəzri lövbərin salıb.
Küləyin vıyıltısı bir şivənə bənzəyir,
Arabir yağan qarla yolu-izi bəzəyir.
Bu minvalla soyuqdan «dükan adam» keyləşir,
Səsinin yazıq halı gah inilti, gah həşir.
Xəzrinin əsməsi də sızıltıya bənzəyir,
Özün çırpır hasara daşa, divara dəyir.
Əlləri donmuş adam küçə boyu qışqırır,
Soyuğun üstə gedir, hərdən bir də asqırır.
Ümidi var corabdan, kalkotkalardan satsın,
Heç olmasa cibinə bir-iki manat atsın.
Sonra qaçsın dükana, bir isti çörək alsın,
Taqətdən düşməmkçin ağzına çörək salsın.
Küçə də amansızdı, soyuq sükuta dalmış,
Canlı «dükan adamı» qara xəyallar almış.
Evdəki körpələri ondan imdad istəyir,
Evini düşündükcə, kədər qəddini əyir.
Küçə boyu səsinə səs verir soyuq külək,
Şaxtanın tə'sirindən donub daha əl, bilək.
Ayaqların dalınca sürüyərək o gedir,
İçindəki əzablar, ümidsizlik can güdür.
Bəxtini yamanlayır, İlahi, bu nə gündü?
Boğur məni iztirab, boğazımda düyündü.
Bir hasarın küncünə sığınır o bir anlıq,
Çəkdiyi müsibəti ömrə-günə viranlıq…
Ümid edir bir Allah bəndəsi çıxar çölə,
Qəfildən qapı açıb, bir anlıq baxar çölə.
İsti çay təklif edər, alıb içərəm çayı,
Taqətim daha yoxdu qalmayıb canın hayı.
Fikirləşir bir anlıq niyə çıxdım evimdən?
Axı nə istəyirəm şaxta kəsən bu gündən?!

Küçələrin lallığı ümidlərimi qırır,
Elə bil ürəyimə dalbadal güllə vurur.
Gəlməsəydim evdəki iki uşaq nə yesin?
Boğur kişi qüruru içdən ümidsiz səsin.
Ömür-gün yoldaşım da körpələrlə çalışır,
Evin dərdi-səri də onun başından aşır.
Ümidi tək mənədi, niyə evdə oturum?
Bir günümü necə mən aclıq ilə batırım?
Bu fikirlər içində küncə sığılıb qalır,
Sanki külək yazığın dərdin içinə alır.
Bir müddət təntiyərək səsin batırır xəzri,
Şaxtanın ağrısını, sanki yatırır xəzri.
«Dükan adam» hasarın dibindən qalxıb durur,
Onu alan xəyalın başına qapaz vurur.
Diksinərək, xəyal da qaçıb getdi uzağa,
Ürkək-ürkək boylanıb baxdı xeyli sol-sağa.
Adamlar mənzilində, osa küçədə gəzir,
Öz halı ürəyini iri addımla əzir.
Şaxtanın tə'sirindən itiribdi özünü,
Dil dolaşır ağızda çaş salır öz sözünü.
«Dükan adam» titrəyən ayaqların sürüyür,
Donub ölmək qorxusu bir an onu bürüyür.
Sahibsiz it uzaqdan baxır ona hirslə,
Canı da ram olubdu ürək didən bu hisslə.
Əyilir yerə daşı götürüb atsın itə,
Soyuqdan titrək əli bəs daşa necə yetə?
İt də dükan adamın gücsüzlüyün hiss edir,
Çöküb quyruq bulayır, ona güzəştə gedir.
Haradan rəhim gəldi bu heyvana görəsən?!
O özü də acından deyilmi tir-tir əsən?
İki acın taleyi bir məqamda birləşir,
Bütün canlılar yəqin bu həyatla güləşir.
Qalibi öyən dünya, məğluba deyir ağı,
Doğulan gündən sönür kasıbın bəxt çırağı.

***

Könlü daş insanların bəs ruhu nə, qəlbi nə?!
Bu qədər müsibəti götürərmi qəlbinə?!
Ətrafda yoxsulların naləsi göyü yarır,
Bir tikə çörək üçün İlahiyə yalvarır.
Çəkdiyi müsibətin ağrısıyla yollaşır,
Kasıbın ömür yolu dərdlərlə aşıb-daşır.

***

Dükan adam qəfildən dizi üstə oturur,
İçindəki ağrının bircə anlıq batırır.
Çökür itin önündə, başına sığal çəkir,
Ümidsiz gözlərindən qanlı-qanlı yaş tökür.
Əlinin altındakı it də titrəyir əsir,
Onun da varlığını rüzgar qılınctək kəsir.

Hər ikisi ac-sussuz, qalıb küçə içində,
«Dükan adam» it günün var-gəl edir içində!
Çantasın yerə qoyur dərd işləyir qanına,
Soyuğun kəskinliyi çökür miskin canına.
O gömgöy dodaqlarla əllərini isidir,
Canına hopan ağrı, donan canın yasıdır.
Diliylə tumar çəkir it də soyuq çantaya,
Az qalır ki, aclığa üsyan edə, ulaya.
Heyvan yemək eşqiylə ağzını çox sulayır,
Dükan adam önündə quyruğunu bulayır.
O da titrək səsiylə itlə dərdləşir dilsiz,
Donan əllər cansızdı, sanki qalıbdı əlsiz.
Dükan adam qalxaraq davam edir yoluna,
Sanki it də acıyır onun miskin halına.
Adam gedir, it gedir, hər ikisi ac-sussuz,
Ayaqlar süründükcə, baxışdan asılıb buz…

***

Dükan adam çalışır, çörək pulu tapmayır,
Halallıqla yaşayır, bir dəm yolu sapmayır.
Qapı-qapı gəzərək malın satır pul alsın,
Qazandığı paranı boş ciblərinə salsın.
Evinə çörək pulu aparsın heç olmasa,
İnsan necə var ola, canda ümid qalmasa?!
Ona görə küçədə qul həyatı yaşayır,
Evinin dərd-sərini çiyinində daşıyır.
Hər günü qapılarda keçir «dükan adamın»,
Doğulduğu yurdumu qoyub gözündə kamın?
Şaxta qılınctək kəsir onun bu qul həyatın.
İnlədir acı bəxti göylərin yeddi qatın.
İtin də sahibi yox, küçələrdə yesirdi,
Payızın əllərində hər ikisi əsirdi.
İti sahibi atmış küçəyə qatil təki,
Bəs bu dükan adama kim eyləmiş bu ərki?!
Doğulduğu Vətənmi, yoxsa ata-anası?
Bəlkə ata-ana da olub canından asi.
Ömrü bu it gününə, sanki fəryad eyləyir,
Arabir əsən xəzri ahına dad eyləyir.
«Dükan adam» bəxtinin ağrısına bürünür,
Hər gün məhəllələrdə ilan kimi sürünür…

***

Mən də bu hekayəni qəm-qəhərlə yazmışam,
Gözümün leysanına, gürşadına azmışam.
Bir kasıbın əzabın ürəyimdən keçirtdim,
Onun fəryadlarını misralara içirtdim.
Sözlərim də könlümə qoşulub hönkürdülər,
Mənim ağrılarımı gözləriylə gördülər.
Kasıb – it günündədi, it də kasıb günündə,
Hər ikisi həyatın açılmaz düyünündə!

Keçib bəxtin kəndiri boğaza, açmaq olmur,
Bəlkə bu bir yazıdı heç ondan qaçmaq olmur.
Yazını da pozuya aparmaq hünər istər,
Hər bir yoxuşu aşmaq qoluzorlu ər istər.
Ərləri də çox zaman haqsızlıqlar çökdürür,
İçlərinə sevinc yox, ağrı-acı tökdürür.
Baxa bilmir evində qadın, uşaq üzünə,
Pozulur rahatlığı yuxu getmir gözünə.
Günün bir ağrısını hekayəmə gətirdim,
Oxuyub dəyər verən, hüzuruna yetirdim.
Özünü dükan edən adama baxmaq olmur,
Yoxsulluq acısını qəlbə buraxmaq olmur.
Taleyin nəql etdiyim «dükan adam» göz dağı,
Ağrıdır görənləri, salır könlümə ağı.

***

Bu hekayə həqiqi həyat hekayəsidi,
Hardansa qazanc tapmaq hər kəsin qayəsidi.
Bol-bol nemətlər dolu süfrə qisməti olan,
Bil ki bu yazdıqlarım həqiqətdi, yox yalan,
Silib yağlı əlini yazdığımı aç oxu,
Bir gün sənə də dəyər həyatın aclıq oxu.
Ona görə qəlbini açıq eylə yoxsula,
Allahın mərhəməti birinci yetir qula.
Sən də «dükan adamın» çəkdiyini çəkərsən,
Dünyanın dili altda, sanma ki, bir şəkərsən.
Heç bir kəsin başından əskik deyil şər, qada,
Kasıb da varlı kimi insandı bu dünyada.

22.11.2016

QUSAR NƏĞMƏLƏRİ

RUHUMA MƏLHƏMDİR

Bu necə sehirdir, necə tamaşa?
Qəlbimə məlhəmdir özü Qusarın.
Verib çinarları dosttək baş-başa,
Günəşdir manqalda közü Qusarın.

Söyüdlər göstərir göylərə boyun,
Buludlar səmada qurur min oyun,
Dağlar göy atlasdan geyinib donun,
Çiçəyə bürünüb düzü Qusarın.

Yaşıl yamacları ürəyi açır,
Şəlalə zirvədən dərəyə uçur,
Quşlar cəh-cəh vurur, buludlar qaçır,
Nağıldır, dastandır sözü Qusarın.

Palıdlar adama boylanıb baxır,
Meşələrin mehi ürəyə axır,
Ruhum dilə gəlib yandırıb yaxır,
Batıb ot-əncərə dizi Qusarın.

Çayın şırıltısı qulağı alar,
Gecə pıçıltısı cana od salar,
Gedərəm, gözlərim arxada qalar,
Ruhumda yurd salar izi Qusarın.

19.08.2016

HƏSƏNQALADI

Hara gəldiyimi sorsanız əgər,
Allahın cənnəti Həsənqaladı.
Burdakı bir günüm bir ömrə dəyər,
Dünyanın zinəti Həsənqaladı.

Yurdumun nə gözəl guşəsi varmış,
Burada yayda da gözəl baharmış,
Şahdağının başı ağappaq qarmış,
Tanrının sənəti, Həsənqaladı.

Çəpərlər boyunca böyürtikanı,
Qız-gəlin həyalı – ədəb-ərkanı,
Ömür vəfa qılsa, etsə imkanı…
Yox edən möhnəti Həsənqaladı.

Yamyaşıl bağları ormana bənzər,
Allah gözəlliyi kəsməsin nəzər,
Küləklər ağaclar üstündə süzər,
Yayın naz-neməti Həsənqaladı.

Bu oba üstündə dağlar öcəşir,
Buludlar göz edir, mehlə dilləşir,
Dumanın çətiri meşəyə düşür,
Fəsillər şöhrəti Həsənqaladı.

Axar kənd içində saf Qusarçayı,
Dolanar üstündə bulud alayı,
Armudu, alması, samovar çayı,
Boğan can illəti Həsənqaladı.

Şadiman gözəllik önündə çaşqın,
Düzdü misralara bu yerin eşqin,
Durdura bilməyir ruhunun məşqin,
Təbinin niyyəti Həsənqaladı.

19.08.2016

BU GƏLİN

Vəsilə Ağabəyovaya

Ram elədi könlü, ruhu əlinə,
İlhamımı oda saldı bu gəlin.
İlahidən qara çəkib telinə,
Yaddaşımda Aytək qaldı bu gəlin.

Duyğuları ürəyinə yaraşıq,
Gözlərindən cana düşür gur işıq,
Ruhum coşur, könlüm yanan bir aşıq,
Qəlb telini yaman çaldı bu gəlin.

Dildən sözü şəkər təki süzülər,
Candan qopub dodağına düzülər,
Sevinc gülər, qəmin beli üzülər,
Doğulandan özü baldı bu gəlin.

Qazanıbdı ata-ana rəhməti,
Ev-eşikdən boy göstərir zəhməti,
Üz-gözündən şəfəq saçır isməti,
Sevgisiylə pak ucaldı bu gəlin.

Gülüşləri dodağından boylanır,
Qəm diz çökür qarşısında oylanır,
Duyğuları qəlb başına haylanır,
Kədərimə zəfər çaldı bu gəlin.

Bu Şadiman qonaq düşdü evinə,
Könül gülə, bəxtim bir az sevinə,
Et haqqını halal dedim gəlinə,
Dedi sənə can halaldı, bu gəlin!

19.08.2016

ARMUD AĞACI

Gövdəsində yatıb əsrlər sirri,
Sığınıb Tanrıya armud ağacı.
Hələ də göylərə göz dikib diri,
Başına bəzəkdir yamyaşıl tacı.

Gövdəsi min yerdən oyuq-oyuqdu,
Ötən zamanların izin daşıyır.
Sanki yay ayında ona soyuqdu,
Dözür qocalığa, hələ yaşayır.

Meyvəsi budaqda gözətçi təki,
Yarpaqlar içindən gizlicə baxır.
Onun sızıltısın dinləyir səki,
Qəmi bağ-bağçanı yandırıb yaxır.

Rişəsi torpaqda neçə il durar?
Fikir içindədir, armud ağacı.
Qorxur ki, kəlləsin torpağa vurar,
Amma fəsillərə verməyir bacı.

22.08.2016

QUSARÇAYI

Sakit yatağında məsum baxırsan,
Söhbətin zümzümə, ay Qusarçayı.
Bağlardan ötürsən, düzdən axırsan,
Şırıltın xoş kəlmə, ay Qusarçayı.

Bağrın paralanıb neçə qollara,
Düşürsən yay fəsli min bir hallara,
İlantək qıvrılıb çıxsan yollara,
İstiyə can demə, ay Qusarçayı.

Gül-çiçək üzündə sərin şehin var,
Nemətə qapısan, əcəb mehrin var,
Su adlı Tanrıdan gələn sehrin var,
Yer döşündən əmə, ay Qusarçayı.

Dolanıb arxlara cığır açırsan,
Uşaqtək torpağın üstə qaçırsan,

Suyun azalanda çaşqın, naçarsan,
Hər cığıra ilmə, ay Qusarçayı.

Palıdlar gözünü dikib göylərə,
Atlasa bürünüb hər düz, hər dərə,
Ruhum pişvazında ola min kərə,
Gəlmişəm xoş dəmə, ay Qusarçayı.

Yarğanlar içindən adlayıb keçdin,
Şahdağ qürürünü özünə seçdin,
İstinin nəfəsin suyunla kəsdin,
Bəzəksən ölkəmə, ay Qusarçayı.

22.08.2016

VÜQARLI PALID

Başı göylərə dikələn,
Xoş gördük vüqarlı palıd.
Gün kölgəsinə bükülən,
Qaməti baharlı palıd.

Bağ içində boylanırsan,
Bulud eşqini anırsan,
Özünü göydə sanırsan,
Qüdrətin çox varlı palıd.

Ağaclar cüssənə baxar,
Özünü yandırıb yaxar,
Asimanda şimşək çaxar,
Olarsan qubarlı, palıd.

Çinar xanlığın itirər,
Sənə nəzərin yetirər,
Buludlar şimşək ötürər,
Qalarsan ah-zarlı palıd.

Məftun etdin sən Şirini,
Çətrin kölgənin sərini,
Kökün lap seçir dərini,
Dörd yanı hasarlı palıd.

22.08.2016

QOZ AĞACI

Gövdəsi qəzəbli kişiyə bənzər,
Salar budaqları ətrafa nəzər,
Sübh çağı üstündə şəbnəmlər gəzər,
Qoyub yarpaqlardan başına tacı,
Titrər bağ içində bu qoz ağacı.

Əyləşib illərin zaman atına,
Dolaşıb torpağın yeddi qatına,
Rişəsi yeriyib neçə çatına,
Təbiət gah şirin, gah da kı acı,
Titrər bağ içində bu qoz ağacı.

Fəsillər gövdəsin insantək yonub,
Qaşları çatılmış adamdı donub,
Başına xəzanın niskili qonub,
Soyuyub günəşin od-atəş sacı,
Payızı hönkürdür bu qoz ağacı.

Sanki buludlara qaş-qabağ edir,
Heykəli andıran xisləti nədir?
Bəlkə Yaradana səcdəyə gedir?!
Tufana, borana verməyir bacı,
Payızı hönkürdür bu qoz ağacı.

Budaq arasından işıq süzülür,
Yağış ələndikcə canı üzülür,
İncitək gövdəyə damla düzülür,
Xəzanın gəlişi kəsib əlacı,
Payızı hönkürdür bu qoz ağacı.

Yarpaq pıçıltısı duaya bənzər,
Sübhün sükutunu sədası bəzər,
Girər ruh içinə doğmalıq gəzər,
Şadiman, insana gəl yoz ağacı.
Payızı hönkürdür bu qoz ağacı.
Payızı hönkürdür bu qoz ağacı.

02.10.2016

ŞAHDAĞIN

Tərifi ağızda, dildə dolaşır,
Ellərə dastandır özü Şahdağın.
Zirvəsi dumana, sisə bulaşır,
Ocaqdan getməyir közü Şahdağın.

Başına ağ qardan ləçək bağlayıb,
Qırçın ətəkləri çiçək bağlayıb,
Lalələr gözəltək birçək bağlayıb,
Gah günəş, gah ayaz üzü Şahdağın.

Nanəli, yarpızlı yamacları bol,
Asıb yaxasından neçə cığır, yol,
Boylanır dərədən necə fağır yol,
Bənəövşə ətirli düzü Şahdağın.

Müdrik qocalara bənzəri vardır,
Əksində İlahi nəzəri vardır,
Zirvədə günəşin al zəri vardır,
Şəfəqə bəzənib izi Şahdağın.

Rəssamlar aşiqdir onun hüsnünə,
Şairlər söz edib çəkər köksünə,
Fırlanım başına, dönüm əksinə,
Düşsün qollarıma dizi, Şahdağın.

Dumanlar dəryada üzən yelkəni,
Dərəsi titrədər qorxub-hürkəni,
Hələ də heyrətdə qoyubdu məni
Şaqraq şələləsi düzü Şahdağın.

Qərib yolçuları yoxuşa qalxar,
Yeddi don geyinən günəşi çıxar,
Ürəyə sevdalı duyğu buraxar,
Sevgisi çağırar bizi Şahdağın.

Şadiman, ruhunu aldı əlinə,
Dönəsən dağların sərin yelinə,
Düzəsən çiçəyi, gülü telinə,
Misraya bəzəkdir sözü Şahdağın.

23.08.2016

DAĞ EVİN NAĞILI

Nəzm-hekayə

Səhər durub yığışıb bir məkana yol aldıq,
Həsənqala yurduna qəfil güzarı saldıq.
Ruhumuza köçürtdük şimala gedən yolu,
Yollar istidən qaçan maşınlarla lap dolu.
Heyran olduq bu yurdun torpağına, daşına,
Az gedib düz dolaşdıq, yetdik mənzil başına.

***

Biz günorta yetişdik getdiyimiz diyara,
Bakının istisindən düşmüşdük xoş bahara.
Ev yiyəsi, qız-gəlin, ata-ana yığışdı,
Gözlərində bir dünya sevinc qaynayıb daşdı.
Gəlib qapı ağzına qarşıladılar bizi,
Sevinclə aşıb-daşdı evdəkilərin üzü.
Allahın sevdiyi yurd, cənnət məkandı bura,
Yaşıllıq içindədir, yer-göy seyrinə dura.
Başı göyləri dələn ağaclar bar içində,
Əkilmiş tərəvəzlər dadlı nübar içində.
Yerin köksündən baxan gül-çiçək şehə batıb,
Budaqlar xışıldayır, yarpaqlar mehi tutub.
Təzə tikilmiş evdə memarın əli gəzib,
Zəhmətə köklənənin çəkici, beli gəzib.
Evin dörd bir tərəfi yaşıl ota bükülüb,
Elə bil göy üzündən bura nemət tökülüb.
Oxur cırcıramalar bağça içrə ahəstə,
Səslərinə səs verir toyuq-cücə də pəstə.
İlahi bir məkanın cənnətinə gəlmişik,
Dünyanın gözəlliyin biz burada görmüşük.
Uzaqdan Şahdağının ətəkləri görünür,
Qara bulud topası zirvələrdə sürünür.

***

Evin lap yaxınından çayın səsi gəlirdi,
Suların zümzüməsi qulaqları dəlirdi.
Xəfif sərin küləklər ağacları oynadır.
Havanın sərinliyi günəş istisin udur.
Evin təmizliyinə, xoş mehrinə düşmüşdük,
Biz cənnətin özüylə burada görüşmüşdük.
Can yoldaşım, bir də mən təbəssümə büründük,

Duyğumuz təzələndi, mələk kimi göründük.
Evin xanımı, sanki göyərçintək uçurdu,
Gülmüsər baxışıyla ora-bura qaçırdı.
Qaynana-qaynatanı gözlə əzizləyirdi,
Masaya süfrə sərib xörəkləri düzürdü.
Samovar lap adama xüsusi zövq verirdi,
Çayın ətri ürəyə xoş duyğular sərirdi.
Manqalın cızıltısı bağ içrə dolaşırdı,
Burnumuz da kababın iyinə bulaşırdı.
Bağ içində toyuqlar, cücələr qaçışırdı,
Hinduşkalar çəpərin üstündə uçuşurdu.
Günəş hərdən buludlar içindən çıxıb baxır,
Ürəyə atəş tökür, köksü yandırıb yaxır.
Qoca palıd uzaqdan budaqların tərpədir,
İlahi, bu mənzərə adamı bihuş edir.
Yarpaqları ipəkdən akasiya ağacları,
Başlarında bərq vurur yaşıl-bəyaz tacları.
Elə bil biz illərin tanışıydıq, bu evdə,
Sıxılmaq, çəkinmək nə, çətinlik yox heç nədə.
Həyətin bəzəyidi masa və oturacaqlar,
Səhər oldu bəyaz şeh ot-əncəri qucaqlar.
Biz masanı gün düşən tərəfdən qaçırardıq,
Tapıb kölgə bir yeri günəşi uçurardıq.
Evin dörd tərəfində masamız gəzişirdi,
Bu iş hər birimizə vəzifətək düşürdü.
Hamının üz-gözündən mehribanlıq yağırdı,
Səhərin erkən şehi buludları sağırdı.
Ayılıb xoruz banı bağ içinə çıxırdıq,
Kəndin gözəlliyinə göz dolusu baxırdıq.
Uzaqdan çayın səsi, gözəl nəğmə oxurdu,
Quşların civiltisi qəlbə xalı toxurdu.
Doyunca saf havanı ciyərə doldururduq,
Ruhumuz zirvələrdə, könlə məkan qururduq.
Dadlı kürə çörəyi ətiriylə gəl deyirdi…
Ruhumuz qanadlanıb öz-özünü öyürdü.
Bu evin uzun saçlı Günel qızı bir aləm,
Qaşlarna Tanrıdan çəkilib qara qələm.
Ağ üzündə dünyanın sevinci dolaşırdı,
O körpəcə ürəkdə dilək aşıb daşırdı.
Ananın buyruğuna canla-başla qaçırdı,
Elə bil yerlərdə yox, o, göylərdə uçurdu.
Yeniyetmə Elmanın fikirləri dolaşıq,

Gözlərindən aləmə nur saçırdı gur işıq.
Bu il orta məktəbin sonuncu sinifində,
Taleyi yürü deyir qulağına hər gün də!

***

Evin yiyəsi Ceyhun həm şair, həm müəllimdi,
Ürəyi, söz-söhbəti bulaq təki həlimdi.
O tarixdən dərs deyir şagirdlərə məktəbdə,
Sözləri aşıb daşır, şeriyyət gəzir təbdə.
Hələ neçə kitabı işıq üzü də görüb,
İlhamın bağçasından güllər, çiçəklər dərib.
Balaqusarın eli ona yaxşı bələddi,
Səsinin avazında uçur şeirin səddi.
Ruhu xeyir misallı, qəlbi açıq ziyalı,
Bütün uğurlarına dəstək olan əyalı.
Onun şair ürəyi söz-söhbətin məkanı,
Oturub dərdləşirdi tapan kimi imkanı.
Bizi götürüb hərdən dağa, düzə gedirdi,
Ruhumuzun içində sevinc pərvaz edirdi.
Dil-dodağından şeir əskik olmurdu heç vaxt,
Bu beş günün içində sutək axıb getdi vaxt.

***

Can yoldaşı Vəsilə evin gözəl gəlini,
Hər bir buyruğa qaçar, işdən çəkməz əlini.
Atası da Vəlixan üzügülər adamdı,
Ətrafda oğul-uşaq ürəyə yatan kamdı.
Anası Cəmilənin gözündə dünya gülür,
Nəvələrin sevinci qəlbə axıb tökülür.
Demə, ürəkdə şe'rə böyük həvəsi yatır,
İçində ilhamının hıçqırtıları batır.
Onun da şeriyyəti gözlərindən boylanır,
Qəlbində yazmaq eşqi gizli alışıb yanır.
Yazdığı şeirləri bir kitabda toplanıb,
Keçdiyi həyat yolu ürəyinə saplanıb.
Demə, şair ananın şair oğludu Ceyhun,
Ruhuyla şeriyyata candan bağlıdı Ceyhun.
Sözünün qibləsini, Kəbəsini tanıyır,
Onu yaşadan eşqdi, ağlı eşqlə sınayır.
Həmkarımın evinin havası necə safdı,
Dostluğa qiymət verən, onu duyan sərrafdı.

***

Bu beş günün sevincin köçürtdük qəlbimizə,
Ruhumuz təzələndi, işıq bəxş etdi bizə.
O günləri hələ də məhəbbətlə anıram,

Bir də ora dönməyin havasıyla yanıram.
Dağ evin nağılını burda sona yetirdim,
Siz sağ, bizsə salamat. Hekayəmi bitirdim.

24.08.2016

DÖRDLÜKLƏR

1

Harının önünə çəkilməsə sədd,
Onun etdikləri xalqa olar dərd.
Haqqı tapdalayan öyülməməli,
Kim olursa olsun tanımalı hədd.

2

Ey Türk, atlarının kişnərtisi yox,
Qulaqlar batıran ərlər səsi yox,
Yurdların yağılar əlində nalan,
Yoxsa igidlərin od nəfəsi yox?

05.02.2016

3

Ağıl sözə məhkum, dilsə üyüdən,
Özümüz törərik şərə can güdən.
Oxşarıq min vəchlə boyu-buxunu,
Toxluqdan partlayar, doymaz ac gödən.

4 **06.02.2016**

Vətən, kiminə pul, kiminə ağrı,
Düzü deyənlərin partlayır bağrı.
Hərə bildiyitək işlədir başın,
Oğrunun yeminə çevrilir doğru.

5

Ov-yevdən qopmayan millət olmuşuq,
Öz kök-soyumuza zillət olmuşuq.
Dünyada hər yerə dağılaraq biz,
Yadların əlində alət olmuşuq.

08.02.2016

6

Məni nə zamandı bəlaya saldın,
Tutub ürəyimi əlimdən aldın.
Bədəni ürəksiz necə gəzdirim?
Ağlıma nə yolla qələbə çaldın?!

7
Məhəbbət ürəkdə çıraq kimidir,
Sanki İlahidən soraq kimidir.
Onun paklığını qoruyanlara,
Təzə açılmamış varaq kimidir.
8
Haqqı çıraq təki gözünə tutan,
Olarmı gecələr yuxusun qatan?
Gözü doymayanlar gözü aclardı,
Onlardan heç zaman olmaz əl tutan.
9
Daim hərəkətdə zamanın atı,
Onun ağırlığı ürəyin çatı.
Dünyada axına qarşı gedənlər,
Ağlı kəsdiyitək görür həyatı.
10
Ağıl hər bir kəsin nicat yoludur,
Ömrü yaşatmaqçın həyat yoludur.
Hissin tələsinə düşənlər ilə,
Əfsus, başdan-başa dünya doludur.
14.02.2016
11
Dostum, söz yaşadır ədəbiyyatı,
O öz güzgüsündə görür həyatı.
Adla yazmasam da oğru, əyrini,
Sözüm ürəyinə salacaq çatı…
21.02.2016
12
Mən sənə yox desəm, ürəyin ağrar,
Mən sənə hə desəm, hicran doğurar.
Həm yoxun, həm hənin arasındayam,
Bilmirəm heç hansı məni çağırar?!
24.02.2016
13
Gecənin boynundan asılıb səhər,
Odur ki, gecəni çalxadır qəhər.
Şadlığa qərq etmir nə ulduz, nə Ay,
Səhərin gəlməsin gözlər birtəhər.
14 **25.02.2016**
Səni ürəyimə niyə buraxdım?
Buraxıb könlümü yandırıb yaxdım.
Mən axı sevməli deyildim daha,
Ölən sevgim üçün bəlkə darıxdım…

15

Allah, axtarmayaq çarə fələkdə,
Düşmənə hiddəti artır ürəkdə.
Bizim səbrimizi al əlimizdən,
Qisasın havası bitsin diləkdə.

16

Mənim həyatıma girmisən nədən?
Onsuz da sığmayır ruhuma bədən.
Könlümün qapısı hamına bağlı,
Ağılı ürəyimlə, ey yağı edən!

26.02.2016

17

Məni ürəyinə buraxan gündən,
Qəlbinə, könlünə dərd yaxan gündən,
Düşmüşəm günahın içinə vallah,
Gözüm sənə tərəf çox baxan gündən…

18

Ürək əzizlənən dilək kimidir,
Qədirini bilməsən kələk kimidir.
Qayğı göstərməsən yolda qoyacaq,
Vətən də döyünən ürək kimidir.

19 **27.02.2016**

Sən ey həkimlikdən yapışıb duran,
Ömürlük düzlüklə qoy olsun aran.
Hər insan yaşamaq eşqiylə yanır,
Olma ömürlərə sən balta vuran.

03.03.2016

20

Dərdin böyüklüyün dərd çəkən bilir,
Ağrını qəlbinə çox tökən bilir.
İnsan həyatında sevinclər qısa,
Fələyin önünə can çökən bilir.

04.03.2016

21

Hər kəsin baxtına düşməz yaxşı dost,
Ömür yollarının gözəl naxşı dost.
Sınaqdan çıxması darda bilinər,
Haqqa gedən yolun düz baxışı dost.

22 **05.03.2016**

Dünyaya gələndən bir can tapmışam,
Canımın içində hicran tapmışam.
Hər günüm ömrümə kədər püskürüb,
Boğulan canımı ondan qapmışam…

23
Sən ey sevgi deyib qəlbdən yapışan,
Var olan günündən o ki, pərişan.
Can özü dünyada nağıl kimidir,
Bədəndən qopanda verməyir nişan.

24
Can bədən içində darıxır hər gün,
Gecədən sabaha sağ çıxır hər gün.
Səhərin gəlişi həyata ümid,
Zülmətsə ömürdən gün yıxır hər gün.

25
Sən elə girmisən qəlbin içinə,
Heç məhəl qoymursan niyə, neyçinə.
Ürək təndən qopub, səni axtarır,
Qəm onu dəryatək çəkir içinə.

06.03.2016

26
Ağıla gəlməyən könülə gəlməz,
Qəmə əyilənin heç üzü gülməz.
Bu dünya elə bil sınaq meydanı,
Hamını əydirər, özü əyilməz.

11.03.2016

27
Ömürdən asılıb həyat yarlığı
Çəkdirir insana könül darlığı.
Qohumlar nə qədər doğma olsa da,
İnsana həyandır dostun varlığı.

12.03.2016

28
İlahi, qəlblərə xoş məram gətir,
İnsan ağılında mərhəmət bitir.
Dünya göz yaşından qurtulmayırsa,
Qopar bədənimdən ruhumu götür.

13.03.2016

29
Türkiyə, ruhumun Ata ocağı,
Açma namərdlərə isti qucağı.
Sənin torpağını qana salanın,
Ölüm olacaqdır dayanacağı.

14.03.2016

30

İnsanı yaşadır ruhun işığı,
O bədən içində can yaraşığı.
Sevincə möhtacdır, kədərə miskin,
Odur hər insana ömür aşığı.

16.03.2016

31

Layiqsiz tutduğu yeri boşaltmaz,
Yatmış vicdanını heç vaxt oyatmaz.
Ona təsir etməz ahlar, nalələr,
Ruhunu millətin ruhuna qatmaz.

32

Niyə pərçimlənib tutdun kürsünü?
Vecinə almırsan umu-küsünü.
Xalqın fəryadına qulaq versəydin,
Bəlkə qaytarardın insan hissini!

17.03.2016

33

Beyindən aşağı ürək yerləşir,
Düşüncə bolluğu qəlblə birləşir.
Visdanın varlığın hiss eləyəndə,
Qoparır bədəndə can haray-həşir.

18.03.2016

34

Ruha qida verir yazın gəlişi,
Bağçaya, çəmənə qonub gülüşü.
Gah külək, gah yağış cövlan eyləyir,
Əqli başdan alır nazlı yerişi.

19.03.2016

35

Başa düşməlidir insan insanı,
Onda xoş keçəcək ömrün hər anı.
Su təki axıtma verilən vaxtı,
Boşuna uçurtma bədəndən canı.

21.03.2016

36

Hər anın öz hökmü, öz cəfası var,
Ömrün acı-şirin can səfası var.
Hamımız bir yolun yolçularıyıq,
Kim görüb insanda can vəfası var?!

22.03. 2016

37

Biz kimik, özümüz yaxşı bilirik,
Hər səhvi ömrün naxşı bilirik.
Tənqidə amansız, tərifə düşgün,
Bunu düşmənlərin baxşı bilirik.

24.03.2016

38

Ağıldan qaçanın ömrü pərişan,
Hislər yüksəlişə verməyir nişan.
Özünü aldatmaq uğurdan deyil,
Aldanan kəslərin bağırı şan-şan.

39

Mərifət əhlinə dünya möhtacdır,
Onu yaşadanlar başına tacdır.
İnsanın xilası biliyə bağlı,
Dini bölümlərə elm əlacdır

25.03.2016

40

Dünyada hər ömür həyat parçası,
Onun tapmacasın kimdi açası.
Zamanı işıqtək yanıb sönəcək,
Bədənin ruhu var quştək uçası…

41

Dərd sıxır gözünü ürək içinə,
Ağrılar yerləşir dilək içinə.
Hiyləni həyatı bilən insanı,
Yaradan buraxmaz mələk içinə.

26.03.2016

42

Hər kəsin həyatı özünə bənzər,
Çəkdiyi əzablar üzündə gəzər.
Yandırar hər günü ömür ocağı,
Ürəyin qövr elən közünə bənzər.

28.04.2016

43

Sən könül içində diləyim kimi,
Özümdən qiymətli qərəyim kimi,
Ruhumda, qəlbimdə, yaddaşımdasan,
Sən mənə lazımsan ürəyim kimi.

44

Axır nəfəsdəyəm, ruhum havada,
Qalmışam bədənlə qanlı davada.
Sənsiz xəzan qəlib xəzəl olmusam,
Uçur, qalmayacaq canım yuvada.

45

Hər insan ömrü səhər kimidir,
Gah şirin, gah acı zəhər kimidir.
Payızı qələndə xəzanı başlar,
Boğaz kilidləvən qəhər kimidir.

46

Bir könül sızlayır sinə içində,
Dərdimin ağrısı sına içində.
Mənim məhəbbətim düşüb qəlbinə,
Nə qədər istəsən sına içində.

03.05.2016

47

Vətənin qoynunda boy atır millət,
Onun qorunması ən böyük zəhmət.
O bizə qan-kökdən, soydan ərməğan,
Bəxşiş verilməyir heç vaxt əmanət.

05.05.2016

48

Hər kəsin dilinə aldanma heç vaxt,
Sonra da sızlama qara olub baxt.
Calısıb xərcləmə ömrü bosuna,
Min illə ölçülmür Allah verən baxt.

09.05.2016

49

Hamıya inanıb tökmə könlə dərd,
Üzündən, gözündən tanınmır namərd.
Hər adam içində gizli dünya var,
Ora keçmək üçün aşmalısan səd.

11.05.2016

50

Çöldəki düşmənlər güntək aşikar,
İçdəki düşməndən qoru özünü.
Çalış olmayasan heç zaman şikar,
Çünki min rəngiylə gizlər üzünü.

19.05.2016

51

Ağıldan başlayır həyata hamı,
Odur insanlığın yaşamaq kamı,
Ağılı hislərə qurban verənin,
Uçub tökülәcək ömrünün damı.

30.06.2016

52

Qürbətdə qarını doydurmaq olar,
Ömrünü kef ilə uydurmaq olar.
Vətən, yurd hər kəsin kimlik sorumu,
Bu adsız ayaqda heç durmaq olar?!

10.07.2016

53

Hər bir ağrı-acı ruhun içində,
Düşünən daima ahın içində.
Heç kəs ayranına turş deməyir ki,
Yerlərdə, göylərdə niyə-neçində?!

23.07.2016

54

Hamı bir-birinə çəkdirir qəmi,
İnsan fəryadları boğur aləmi.
İblisin hökümü dünyanı tutub,
Sınaydı şeytanın yazan qələmi.

24.07.2016

55

Gəlirsən, ey sabah, xoş duyğu gətir,
İnsan olanlara sən sayğı gətir.
Ömür gəldi-gedər bir içim sudu,
Ağıldan cahana çox qayğı gətir.

26.07.2016

56

Ey gecə, sükuta boyanıb qaldın,
Sükutun içinə bir xalı saldın.
Qoparıb indicə canı bədəndən,
Onunla nə qərib xəyala daldın?!

27.07.2016

57

Ağladır könlün için, yandırır axşam nə edim?!
Bənzəyir taleyimə sızlayan bu şam nə edim?!
Tökülür üstümə qəmlər, elə bil yaz yağışı,
Alıram ömrüm uzunu, belə bir kam nə edim?

58

Mərifət gözləmə başı pozuqdan,
Onun ki, kimliyi yazılıb haqdan,
Özünü hamıdan ucada sanar,
Qəlb yıxar, can yaxar elə nahaqdan.

59

Başdan xarablara əyilən dünya,
Öz yurd-yuvasında döyülən dünya.
Sənin də mənimtək günün qaradır,
Dəyirman daşında üyülən dünya.

60

Dildə bardaş qurub oturub yalan,
Eyləyir cahanı büsbütün talan.
Hamının bəxtinə bir ömür düşür,
Heç varmı ölməyib dünyaya qalan?!

27.07.2016

61

Günün ağrıları canda üyür,
Zaman dəyirmanı anları üyür.
Hamı addımlayır ömür yolunu,
Hamının kimliyin öz ağlı deyir.

29.07.2016

62

Qapılar açıqdır buyruq quluna,
Yaltaqlıq çıraqdır həyat yoluna,
Pilləyə qalxdıqca bəh-bəh deyərlər,
Çoxu istər düşsün onun halına.

05.08.2016

63

İnsan təbiətdən düşdükcə uzaq,
İçində kök atar can üzən sazaq.
Yeriyər üstünə ağrı-acılar,
Xəstəlik əsdirər vücudu zağ-zağ.

64

Hərənin ağzından bir avaz gəlir,
Avazın içində min bir naz gəlir.
Düşüncə sahibi olmaq ağırdı,
Əqildən zaylara gün taraz gəlir.

22.08.2016

65

Düşüncə sahibi olmaq çox ağır,
Üstünə daima dərd, ələm yağır.
Ətrafın verdiyi ağrı-acıdan
Partlayır ürəklər, dağılır bağır.

30.08.2016

66

Bir həsrət ağlayır içimdə mənim,
Qalıbdı ürəyim seçimdə mənim.
Ömrümün günləri tutub əl-ələ,
Canım bədənimdən köçümdə mənim.

11.09.2016

67

Çox vaxt yolumuzu kəsir bənd-bərə,
Büdrərkən udacaq hər uçurum, dərə.
Bir andan sonranı bilən olmayır,
Heç kəs tuş olmasın böhtana, şərə.

14.09.2016

68

Günlərə bağlıyam vərdiş içində,
Döyürlər qapımı gərdiş içində.
Ürəyim ağlımla üsyan eyləyir,
Mən ah-uf edirəm təşviş içində.

15.09.2016

69

Başın işləmisi ürəkdən keçir,
Hislərin fəryadı diləkdən keçir.
Ömür Yaradandan aslı müddətdə
Can bədən içində ələkdən keçir.

16.09.2016

70

Bazarda satılmır vicdan alasan,
Onu can evinə tutub salasan.
Hər kəsin qabında nə varsa odur,
İndi insan tapmaq deyildir asan.

25.09.2016

71

Heç nədən yaranmır ürək ağrısı,
Doğulan günlədir hər can sorğusu.
İnsanı qocaldan təbiət deyil.
İnsan özü olur canın oğrusu.

72

Adam öz içində daima tənha,
Dözür hər sitəmə, hər dərdə, aha.
Gəldiyi kimi də köçür dünyadan,
Arzusu dünyaya dönmək bir daha.

27.09.2016

73

Bədəndə can adlı sirdaşlayam mən,
Ağıldan ağrıyan bir başlayam mən.
Ömür nərdivanın qalxmaq çətindir,
Endikcə, ruhumla savaşdayam mən.

74

Üzün çizgiləri məzmunla dolu,
Baxanda oxunur hər həyat yolu.
Keçilən günlərin acı-şirini
İzlərdə hallanır imzası-qolu.

28.09.2016

75

Dizinə vurmaqla iş aşan deyil,
Göydən pul tökülüb, cib daşan deyil.
Ağlayıb, sıtqayıb göz yaşı tökmək,
Kişilik adına yaraşan deyil.

12.10.2016

76

Elə günah var ki, səvaba görkdü,
İnsan öz içində daima təkdi.
Ətrafı bürüsə doğma, yaxın, yad,
Özü öz ruhunun ağrısın çəkdi.

14.10.2016

77

İnsan öz taleyin özü yazmalı,
Ağrıya, acıya quyu qazmalı.
Heç vaxt hamar olmur ömür yolları,
Kim deyər yaxşıdır ömürlük halı?!

78

Sən mənim ağlımı əlimdən aldın,
Məni ağrıların içinə saldın.
Hər gün döyüşürəm öz-özümlə mən,
Hissimlə birləşib sən qalib qaldın.

79

Deyirəm heç bəlkə görüşməyəydik,
Əvvəlki həyatı dəyişməyəydik.
Acılar içində ömür keçirib,
İndiki duruma heç düşməyədik.

15.10.2016

80

Kamanda inləyən bir sim oluram,
Adınla dolaşan isim oluram.
Könlünə bağlanan eşqin ucundan,
Yenə də mən sənə təslim oluram.

81

Hislərə alüdə olmaq qorxulu,
Onlara sevdalı ağıl yuxulu.
Bə‘zən hicrana da baş əymək gərək,
Elə vüsal var ki, ölüm qoxulu.

16.10.2016

82
Yaman üsyan edir asiman düzü,
Dolub, boşalmayıb buludun gözü.
Yerdəki pisliklər göyü coşdurur,
Pislik edənlərin utanmır üzü.

17.10.2016

83
Ruhumun içindən boylanan payız,
Buludlar başına haylanan payız,
Sənin də içində həsrətmi yatır?
Qoşulub könlümə oylanan payız.

23.10.2016

84
Hər insan ömürü bir içim sudu,
Çoxu həyatından daim asıdı.
Əlimizdə deyil vaxtın açarı,
Dünən sağ olanın bü gün yasıdı.

25.10.2016

85
Dünyanı boğurlar qanlar içində,
Hesab axtarırlar canlar içində.
Yaradan üzünü döndərib bizdən,
Qalıb taleyimiz anlar içində.

26.10.2016

86
Kədər olan yerdə gülmək olmayır,
Nə də birdəfəlik ölmək olmayır.
Halımı soran yox nə çəkirəm mən,
Ağrını ürəkdən silmək olmayır.

87
Bilən yox, könlümdə tufanlar yatır,
Hər an ürəyimi dəryaya atır.
Doğulan günümdən iztirabdayam,
Bilməm nədir içdə aləmi qatır.

88
Ruhuma çağlamaq düşüb yenə də,
Bilsən nələr yatır odlu sinədə.
Küləktək əsirəm, dayanmağım yox,
Tufanlar qalacaq yalnız mənə də.

89
Özüm öz bağrımda tufan edəcəm,
Kədərə qul olsa, könlü didəcəm.
Doğulan günümdən əzab çəkirəm,
Məni yerlər tutmur, göyə gedəcəm.

90
Nifrətin ölçüsün kimsə bilməyir,
O gözlə görünmür, ələ gəlməyir.
Ürəyi yaşadan xoş rəftar, gülüş,
Çox vaxt şəkər olub dilə gəlməyir.

05.11.2016

91
İlahi, sən məni imtahan etmə,
Dərdimi ağrılı bir cahan etmə.
Məni tənhalığa atma yenidən,
Nə aşkara gəlmə, nə pünhan etmə.

06.11.2016

92
Ağıldan keçəni dil deyə bilmir,
Ömrün ağrıların il deyə bilmir.
Əgər sevinmirsə qəlbin yiyəsi,
Ürək sahibinə gül deyə bilmir.

93
Ağrılar bədənə bir yalquzaqdı,
Doğulan günündən ona düzaqdı.
Vücud ki, titrədi zəlzələ təki,
Bil ki, payız gəlib, canda sazaqdı.

07.11.2016

94
Ümid qırıqlığı zəhərdən acı,
Qəlbə fərəh vermək onun əlacı.
İnsanın çəkdiyi hər əzab yükü,
Ürəyi qovuran cəhənnəm sacı.

10.11.2016

95
İnsanı sərhəddə, səddə salanlar,
Bütün hüquqları əldən alanlar,
Əlinizdə deyil dünya nizamı,
Bir gün özünüzə yetər talanlar.

96
Çəkdiyim acıdan heç küsmə, ürək,
Qəfil qasırğatək sərt əsmə, ürək.
Bilirəm, ağrını sən daşıyırsan,
Məni tərk etməyə tələsmə, ürək.

97
Zaman ömürləri çəkdikcə dişə,
Vücuda toy tutdu, artdı əndişə.
Əlin yetmədiyi hər bir diləyi,
Yandırdı ilğımlar, döndü küləşə.

98
Qaçırır ömrü zaman dəmbədəm,
Zilə boylananda qonur ruha bəm.
Çarpışır gerçəklik içində ürək,
Qalmışam arada mən taleyi kəm.

99
Mərhəmət sahibi olmasa insan,
Davam edə bilməz yolunu asan.
Ya canı, ya malı, ya doğmaları
Gec-tez əməlinə olacaq ehsan.

11.11.2016

100
Payızın içində kədəri yatır,
İnsanı düşdüyü ovqata atır.
Sarı xəzəllərin pıçıltısına
Qoşulub ürəyim, aləmi qatır.

15.11.2016

101
Zaman ömrümüzü şərabtək içir,
Saat əqrəblərin adlayıb keçir.
İnsan varlığına vurulmuş kimi,
Hər qapı döyəndə bir canı seçir.

16.11.2016

102
Yatdı bəxtimizə neftin qarası,
Sağalmaz könüldən daha yarası.
İşinə yaradı haramxorların,
Bizimlə olmadı heç vaxt arası.

29.11.2016

103
Neçə ömürləri puç edən insan,
Etdiyin əməlin şərədir ehsan.
Sənin də evinə düşər qan-qada,
Tökərsən gözündən sel təki leysan.

04.12. 2016

BAYATILAR

1

Ahımdan qaralan gecə,
Könlümtək yaralan, gecə.
Ümidimiz sabahadır,
Sən bizdən aralan, gecə.

23.03.2016

2
Əzizim, ağrı məndən,
Keçməyir ağrı məndən.
Dözüm qalmayıb, Allah,
Götür bu bağrı məndən.
3
Əzizim, boş ocağım,
Yurdu kor qoydu yağım.
Yüz illərdi sinəmdən
Getməyir sinə dağım…
4
Əzizim, ağla məni,
Dərdimə bağla məni.
Ya öldür, ya çarə et,
Qoyma bu dağla məni.
5
Gözümdə bulud Vətən,
Hönkürən bir ud Vətən.
Çəkilməz dərdlərini
Necə deyim ud, Vətən?!
6
Mən aşiq gül içində,
Sözüm var dil içində,
Sən sevdin, mən istədim,
Aşiqiq el içində.
7
Könlümdə heyrət sənə,
Olmasın zillət sənə.
Bir gün ayrılıq gəlsə,
Verməsin illət sənə.
8
Əzizim gül üşüdü,
Od söndü, kül üşüdü.
Sözdən düşdü ayrılıq,
Ağzımda dil üşüdü.
9
Qəmmi bağlıyam sənə?
Eşqi ağlıyam sənə.
Bir könüldən min könül,
Mən ki, bağlıyam sənə?!
10
Əzizim ağı mənə,
Çəkdilər dağı mənə.
Hər gün can dediklərim,
Oldular yağı mənə.

11

Əzizim vaya gəlməz,
Hay desəm, haya gəlməz.
Ömürdən çəkdiklərim
Söyləsəm saya gəlməz.

12

Əzizinəm gülə yar,
Sala eşqin gülə yar.
Mən bir möhnət quşuyam,
Açа qapım, gələ yar.

13

Əzizim yol gözlərəm,
Gəl məni bul, gözlərəm.
İllərdi həsrətinə
Olmuşam qul, gözlərəm.

14

Əzizim ruh işığı,
Olub bədən aşığı.
Sağ ikən cana bağlı
Hər ömrün yaraşığı.

15

Əzizim, dərdli başım,
Alar udar göz yaşım.
Kimsə ağlamaz məni,
Ağlayar məzar daşım…

30.04.2016

16

Əzizim, canım ağlar,
Canda hicranım ağlar,
Gəlmisən bu gündəyəm,
Gəlməsən anım ağlar.

27.06.2016

17

Gün keçir, aləm keçir,
İçimdən naləm keçir.
Vərəq ahımdan deyir,
Ağrımdan qələm keçir.

18

Duman gəl al başımı,
Gizlət bu göz yaşımı.
Sel bürüyüb bəbəyi,
Görməyirəm qarşımı.

19

Bir varım var can adı,
Nə qara, nə ağladı.
Ömrümdən ötən günə
Ürəyim qan ağladı.

20

Vaxt edir sorğu mənə,
Göndərir ağrı mənə.
Ömrümdən gün qoparır,
Olubdu oğru mənə.

21

Dünyanı tutan eşqim,
Aləmi qatan eşqim.
Hamıya can söyləyib
Tək məni atan eşqim.

22

Şamtək əriyən ömür,
Günü kürüyən ömür.
Bədəni çökdürürsən
Qalasan üryan ömür.

23

Bu dünya beh dünyası,
Gözlərdə şeh dünyası.
Hamı özün zənn edir,
Əməl-saleh dünyası.

24

Ömür qısa, gün baha,
Yarısı gedir aha,
Varlığımız müjdədi,
Nə istəyirik daha?!

25

Göz görür, ürək yanır,
İçdə duyğu oyanır.
Anlamayan nə bilsin,
Vicdan ruhdan boylanır.

26

Özgə atına minmə,
Minib də sonra enmə.
Tutduğun yol doğrusa,
Heç vaxt o yoldan dönmə.

12.08.2016

27

Həsətin başdı,
İçdə tələşdi,
Sənin hədiyyən
Gözümdə yaşdı.

28

Hicran əzabı
Azaldır tabı.
Heç vaxt bilməyir
Haqqı-hesabı.

29

Dünya qəm yükü,
Min qorxu-hürkü.
Hər bir adama
Əzabı bürkü.

30

Ruha can bağlı,
Oynadır ağlı.
Hər canla bitir
Həyatın nağlı.

31

Ömür vüsalı,
Həyat əmsalı.
Gözdən görünür
Adamın halı.

05.09.2016

32

Neftimiz üz qarası,
Ürəkdə var yarası.
Bizi xoşbəxt eyləyib
Bilməm onun harası?!

33

Xalqa ağ gün yazıla,
Şər yollarda azıla.
Qara qızıl qurtarır,
Gedirik ağ qızıla.

24.09.2016

34

Hər ömür işıq kimi,
Ömrə yaraşıq kimi.
Elə sürətlə qaçır
Zamana aşiq kimi.

35

Baş üstələr yıxdı bizi,
Künc-bucağa sıxdı bizi.
Müti olub əyildikcə,
Adamlıqdan çıxdı bizi.

26.09.2016

36

Çəkildim gecə içinə,
Qəm uddum niyə, neçinə.
Əqrəblər ömrü qaçırır,
Düşmüşəm zaman köçünə.

29.09.2016

37

Gecə ruhuma işıq,
Təb verir qaşıq-qaşıq.
Heyranam sükutuna,
Ürəyim ona aşiq.

01.10.2016

MƏSƏLLƏR

1.Düşmənə öz yerini göstərməsən,
o səni öz yerindən edər.
2. Dərdə əyilməsən, dərd səni əyməz.
3. Yaxşılığın əvəzini gözləmə,
gözləsən düşərsən qəmə.
4. Ömür axar sudur, çoxu ondan asidir.
5. Hər kəsin öz həyatı çapır-keçir ömür atı.
6. İnsan öz əməlinin bəhrəsin yeyir.
7. Vətənə sahib çıxmasan, o sənə yad baxar.
8. Dərd – ağac qurdu, adamı içdən yeyər.
9. Can deyən çox olar, əlac edən az.
10. Möhnət bir gəmi, batırar qəmi.
11. Sözünü bilməyən, özünü bilməz.
12. Adam ağlından əzab çəkir.
13. İnsan doğulan andan qocalmağa başlayır.
14. Vaxt qapı açır, gün götürüb qaçır.
15. Eniş düz yoldu, yoxuşa quldu.
16. Aciz uduzar, yolundan azar.
17. Tez durmaq uğur, gec durmaq ağır.
18. Göz baxar doymaz, nəfsi dinc qoymaz.
19. Qocalar dəri, əridər zəri.
20. Gecə minnətçi, sabah zinətçi.

21. Ağıl başdandı, ömür yaşdandı.
22. Can haqdan işıq, tənə yaraşıq.
23. Ömür keçici, gündə bir ucu.
24. Dünya seyirdi, uddun – xeyirdi.
25. Xalq eldən gəlir, söz dildən gəlir.
26. Vətən – gülüstan, yad girsə – bostan.
27. Hicran can alar, eşq ilə qalar.
28. Hər söz yay kimi, pisi vay kimi.
29. Dərdin qapısı, ürəyin yası.
30. Yaxşılar azdır, pislər dayazdır.
31. Getmə dərinə, ürək sürünə.
32. Çıxdın enişə, dünya xoş guşə.
33. Ağıl işləsə, uddun nə isə.
34. Can sənə doğma, ahınla boğma.
35. Vicdan işıqdı, qanan aşiqdi.
36. Qazandın sənin, uduzdun çənin.
37. İlhamın közü, ürəyin sözü.
38. Həyat nemətdi, yarı zillətdi.
39. Elmə yetişən, bəxtlə ötüşən.
40. Din ibadətin, elm qüdrətin.
41. Sərvətə uyma, gözdən də qoyma.
42. Yaşat özünü, döymə dizini.
43. Birlik eldən, doğmalıq dildən.
44. Qəm sarmaşıqdı, qəlbə aşiqdi.
45. Qəlb ürfan yeri, sevənə diri.
46. Elm zəhmətdən keçir, ağıl şərbətin içir.
47. Dəyər ver qışa, yazı da yaşa.
48. Savad zəfərin, elm səfərin.
49. Çıxdın sabaha, əyilmə aha.
50. Şərab sərxoşluq, ömrə naxoşluq.
51. Göz baxar, doymaz, can rahat qoymaz.
52. Ürək cana tac, ağrı ana ac.
53. Elm ucalıq, duymasan aclıq.
54. Allah yaradan, duymasan qadan.
55. Yetdin zirvəyə – son qoyma səyə.
56. Hər günü öyrən, özünə güvən.
57. Əl açma yada, ləkədi ada.
58. Zülmə əyilmə, sonra döyülmə.
59. Xoş Vətən bağı, girməsə yağı.
60. Ömür şirindi, həyat dirindi.
61. Zülmə asi ol, haqq təması ol.
62. Mərifət zəfər, qaçmaz bir nəfər.
63. Həyat çox qısa, batırma yasa.

64. Xoş düş dillərə, layiq ellərə.
65. Coşsa amalın, gülər camalın.
66. Aşiqin gözü, söylər eşq sözü.
67. Çıxdın yarışa, çalış get başa.
68. Hicran ağırdı, yanan bağırdı.
69. Daşın sirri var, içdə dürrü var.
70. Anlar – ilmədi, naxış – bilmədi.
71. Çap zəfər atın, gülsün həyatın.
72. Canına qıyma – məzara uyma.
73. Can sevda yolu, ömürsə qulu.
74. Hünər – çarpışmaq, zəfər – çalışmaq.
75. Ağıl söyləyən, könül dinləyən.
76. Tez versən canı, yenisi hanı?
77. Vətən – evindi, atdın – divindi.
78. Ürək bilməcə – unutdun gecə.
79. Çıx dağ başına, bax sərt qışına.
80. Sözün yarası – üzün qarası.
81. Ağıl gövhərdi anlamaq dərdi.
82. Aç könül qatın, çap sevda atın.
83. Məhəbbət tələ, keçirdir ələ.
84. Hər gələn gülməz, həyatı bilməz.
85. Elm açardır, qanmaz naçardır.
86. Gülmə özgəyə, bir bax güzgüyə.
87. Çalışmaq çağın, tənbəllik yağın.
88. Çalış təhsil al, ötsün çətin hal.
89. Bilikdən qalma, quyuda qalma.
90. Dərsini oxu, odur şan oxu.
91. Dil acı olsa, düşürər yasa.
92. Mərifət – kitab, hər kəs etmir tab.
93. Əl-ayağın var, hünərə nə var?
94. Canda hünər tap, zirvələrə çap.
95. Qalxdın sabaha – durma get daha.
96. Bağın neməti, bağban zilləti.
97. Daş atma yada, gedərsən bada.
98. Qaçsan irəli, işlə yor əli.
99. Zəhmətdən qalma, qulu da olma.
100. Gün gəlsə acı, hünər əlacı.
101. Boşluğa düşmə, şərə ilişmə.
102. Ağla səcdə et, xeyrə doğru get.
103. Para həyatdı, çoxunu satdı.
104. Qanana dost ol, qanmaza qəsd ol.
105. Hicran bir yuxu, zəhərli oxu.
106. Aşma həddini, əymə qəddini.

107. Dürüst ömür sür, mükafatı dürr.
108. Əyrilərdən qaç, onlar gözüac.
109. Haram əskilər, halalsa – gülər.
110. Tapsan əlacı, gün keçməz acı.
111. Şərə qul olma, xeyirdən qalma.
112. Sözün düzü, haqqın üzü.
113. Yoxuş çətindi, çıxan mətindi.
114. Yaxşılar azdır, hər işi yazdır.
115. Vicdan işığı, haqq yaraşığı.
116. Ucalıq elm – yetmədin zülm.
117. Qışın qarı, yazın barı.
118. Savad – zəhmətdən, gələr idrakdan.
119. Allahı duyan etməz qan-qada.
120. Zirvə ucalıq – ensən viranlıq.
121. Ömür – can tacı, gah şirin, gah acı.
122. Can Yaradanın, uca tut adın.
123. Ağıl gövhərdi, əymədi mərdi.
124. Arxasız adam – budaqsız ağac.

19. 08. 2014

DEDİKLƏRİM

1
Bugünün qədrini bilməyən,
Sabahın haqqını əyən.

2
Kimsədən heç kömək ummma, ey naşı,
Tənələr içində qoyarsan başı.

3
Ömür, sanki axar sudu,
Ğah zəhər, gah baldı dadı.

4
İnsan həyatı ağılla ölçülür,
Çəkilən cığırla ömür keçilir.*

5
Mənəvi qidanı dadmayan insan,
Ömür yollarını keçməyir asan.

6
Hər kəsin şansı var bəxtəvər olsun,
Yetər ki, insanlar haqpərvər olsun.

7
Özünü xətadan qoruya bilsən,
Bədənin bəzəyi can deyər əhsən.
8
Bu dünya hamını güldürə bilməz,
Hamının dərdini öldürə bilməz.
9
Qəlbin çirkabına bulaşan kəsin,
Heç nə təmizləyə bilməz nəfəsin.
10
Hər kəsin içində bir dünya yatır,
Ulduzu gah çıxır, gah da ki batır.
11
Qorxaqlıq ömürə yara kimidir,
Canı dəryalara atan gəmidir.
12
Ürəyin aynası gözdu deyirlər,
Dilin pərvanəsi sözdü deyirlər.
13
Hamıya xoş gözlə baxmaq nə yaxşı,
Amma, sayılmaya axmaq nə yaxşı.

26.11.2014

14
Hər şeyi həll edən ELMDİR,
Hər şeyə qalib bilimdir.
15
Elmsiz adam sahilsiz gəmi,
Hey ləngər vurar, heç tapmaz çəmi.
16
Türk Ordusu basılmaz,
Heç bir kəsdən asılmaz…
17
İgid varsa, Vətən var,
İgid yoxsa, Vətən yox.

06.04.2016

DEYİMLƏR

1. Adamın min üzü, dərdin bir üzü.
2. Baş düşünəndi, ürək çalışan.
3. Şəri törədən də adamdı, əridən də.
4. Göz eşq gətirər, ürək bitirər.
5. Dilin şirini – dirildər ölünü.

6. Sevgi hünərdi, yaşadan ərdi…
7. Aşiq ol sevənə, sevməyənə yox.
8. Ağrı candan doğar, bədənə keçər.
9. Bir yaxşılıq, min yamanlıq üyüdər.
10. Dilin zəhəri, verməz bəhəri.
11. Mərd tikəndi, namərd sökən.
12. Qonşunun pisi, gətirər küsü.
13. Hicran acıdı, sevgi tacıdı.
14. Həyat bazardı, duydun azardı.
15. Getmə uzağa, başa dərd yağa.
16. Ağıl əzəldi, duydun düzəldi.
17. Kimsəyə atma, aləmi qatma.
18. Canda mərhəmət, edər xoş niyyət.
19. Dil ahdan keçir, günahdan keçir.
20. Ömür qısadır, sonu yasadır.
21. Günaha getmə, vicdanı ötmə.
22. Ömrün gərdişi, zəhərli dişi.
23. Ağılı ötmə, hissi tərk etmə.
24. Qəlbin işığı, dərdin aşığı.
25. Günə dəyər ver, ömrə bəhər ver.
26. Dil haqqı öyə, vicdanı öyə.
27. Sevin ki varsan, ruhuna yarsan.
28. Könül qaladı, hicran taladı.
29. Əzabın üzü, ürəkdə közü.
30. Dünya tamaşa, bacarsan yaşa.
31. Aqil tənhadır, ömrü ahadır. *
32. Bu dünya qəhər, udana zəhər.
33. Həyata naşı, axar göz yaşı.
34. Sevgi bal kimi, min bir hal kimi.
35. Ömür fırtına, minmə sırtına.
36. Gününü sayma, dünyadan doyma.
37. Çalışmaq uğur, şad olmaz fağır.
38. Özünü tanıt, vicdan indi qıt.
39. Sev bu həyatı, çap murad atı.
40. Tale əlində, tez çap belində.
41. Yaşamaq zövqü, artırar şövqü.
42. Öldürmə günü, batırar ünü.
43. Tələs sabaha, yatmaq çox baha.
44. Həyat uğurdu, çökdün ağırdı.
45. Zalımın sözü qatlayar dizi.
46. Xəyanət tənə, uçurar binə.
47. İtirmə günü, batırar ünü.
48. Ötən zamandı, itdi amandı.

49. Sevgi ürəkdən, keçər ələkdən.
50. Durmaz çənəsi, bitməz tənəsi.
51. Bu dünya laçın, qapısın açın.
52. Çökmə ağrıya, qəlb aç doğruya.
53. Səadət haqdan, gəlməyir yaddan.
54. Qəlbdəki işıq ömrə yaraşıq.
55. Dilin acısı, ömrün sancısı.
56. Sayğı et eşqə, yaraşmır məşqə.
57. Dilinə bal qat, gözəldir həyat.
58. Ömür keçəri, ağrı içəri.
59. Fələyi sorma, dərinə varma.
60. Hicran həyatdı, qanana çatdı.
61. Yaşat ömrünü, Rəbbin əmrini.
62. Acını burax, ətrafına bax.
63. Sevənin közü, güldürər üzü.
64. Əzimkar olan, udar min bir an.
65. Yaşat qəlbini, oxşa səbrini.
66. Zaman ucada, can var bacada.
67. Eşq bir həyatdı, sevəni tutdu.
68. Yaradan vicdan, unutma bir an.
69. Dünya tərəzi, bitməz mərəzi.
70. Ömür əmanət, istər dəyanət.
71. Eşq ver diləyə, bənzər mələyə.
72. Vəfa şirindi, tutsan dirindi.
73. Gənclik ucalıq, istər xoşqılıq.
74. Sev həyatını, qur büsatını.
75. Enmə ayağa, dözməzsən dağa.
76. Bu möhlət quşu, gəzər dağ-daşı.
77. Gələn gedəcək, haqq yolu seçək.
78. Tələs sabaha, can tənə baha.
79. Bişir sözünü, vurma dizini.
80. Ürək vurandı, ağıl qurandı.
81. Paxıl şüvəndi, şərə güvəndi.
82. Gəncliyi qoru, ipəkdi toru.
83. Gün vaxta bağlı, əldə nağılı.
84. Yaltağın dili, gətirər əli.
85. Sevda yolçusu, haqqın elçisi.
86. İtirmə iman, əfv etməz zaman.
87. Aşiqin odu, sevginin dadı.
88. Dünya şəkərdi, dadan nökərdi.
89. Varsa amalın, artar kamalın.
90 Ağlatma gözü, qopartma közü.
91. Ağılın gücü, vaxtın ülgücü.

92. Qoru ürəyi, qursun diləyi.
93. Yetən imana, çatar peymana.
94. Eşqə səcdə et, Yaradana yet.
95. Qırma ürəyi, artar kələyi.
96. Vətən məkanın, yaşam imkanın.
97. Qoru Vətəni, canda bitəni.
98. Kişi bir ərdi, eşqi hünərdi.
99. Cızıqdan çıxma, evini yıxma.
100. Yoldaşın candı, tənə ünvandı.
101. Can əzab verən, tən ağrı dərən.
102. Sevgi gözəl hissdir, anlamayana pisdir.
103. Ömür duyuqdur, cana yovuqdur.
104. Sürət ver gücə, endirmə heçə.
105. Bəxtə vurulma, sonra darılma.
106. Zalımın adı, söndürər odu.
107. Güldür ürəyi, versin diləyi.
108. Səadət başda, artmayır yaşda.
109. Hicran acıdı, sevgi tacıdı.
110. Əyilmə yada, salsın fəryada.
111. Baxış od salar, ürəyi alar.
112. Vicdana öc ver, ömürə tac ver.
113. Dövran qarışıq, anlayan, aşıq.
114. Allah ağılda, ötməz nağılda.
115. Vicdana sim ver, ürəyə him ver.
116. Sev eşqlə canı, dürst tut anı.
117. Saatın vaxt ucu, ağladar gücü.
118. Zaman zalımdı, ölüm-qalımdı.
119.Bitməsə hicran, təndən gedər can.
120. Ömür yaşantı, sonu sarsıntı.
121. Sevgi güldürər, həsrət öldürər.
122. Yaşat amalı, ucalt kamalı.
123. Həyat aynadır, gözü qaynadır.
124. Zülmə üsyan, Allaha həyan.
125. Tanrı içimdə, min bir biçimdə.
126. Yaşat ruhunu, inlət ahını.
127. Çağlat canını, coşdur qanını.
128. Zülmdən qaçan, qorxunu qucan.
129. Əymə özünü, görmə dizini.
130. Həyat heyrətdi, udsan nemətdi.
131. Zülmə əyilmə, untək üyülmə.
132. Ürəyin halı, bəxt qeylü-qalı.
133. Yaltağın dili, ağladar eli.
134. Yurd candan keçir, ürəyi seçir.

135. Ömür işığı, can yaraşığı.
136. Yadı dinlətmə, qəlbi inlətmə.
137. Sevda bir yoldur, can ona quldur.
138. Tox yeməkdən ölər, ac da acından.
139. Yaşat ruhunu, inlət ahını.
140. Sevgi həyatdı, qəlb oda atdı.
141. Gənclik xətası, qocalıq yası.
142.Ruha inci ol, qəlb sevinci ol.
143. Sevgi ürəkdən, gələr diləkdən.
144. Ağrıya möhtac, daim dərdə ac.
145. Dərdə qul olma, ürəyə salma.
146. Aclar çörəksiz, toxlar ürəksiz.
147. Mənliyi qoru, bitməz bu soru.
148. İş daşdan keçir, tələşdan keçir.
149. Ağlına söykən, işə dur erkən.
150. Zaman havalı, dillər dualı.
151. Arxalan başa, vur ömrü başa.
152. Zülmə zaman yox, şərə iman yox.
153. İtirmə ağlı, ömürə bağlı.
154. Yaşam işıqdı, ömür qaşıqdı.
155. Zülmə tənə yox, haqqa binə yox.
156. Göz yaşa qəsir, ağrını kəsir.
157. Yaşına uyma, günü boş qoyma.
158. Dünya tə‘nədi, yanan sinədi.
159. Ömür möhləti, etməz hörməti.
160. Hər dildə bəla, getməyir yola.
161. Acgöz doymayır, gözdən qoymayır.
162. Dünya həyatdı, tənbələ çatdı.
163. Dinlət ağrını, desin doğrunu.
164. Şirin dil varmı, ürəyə yarmı?
165. Sevdanın özü, ağladar gözü.
166. Tap şirin dili, dinsin qəlb teli.
167. Qəlbin ocağı, Vətən qucağı.
168. Bu zalım zaman, verməyir aman.
169. İlahi nurdu, ruha qürürdü.
170. Vara hərisin, kim qırar hissin?
171. Dağ duman verər, göy iman verər.
172. Ömür pilləsi, yaman silləsi.
173. Min murad ata, baş vur həyata.
174. İtməsin güman, var yaxşı-yaman.
175. Zaman keçəri, ömrü biçəri.
176. Çalxat ürəyi, o eşq mələyi.
177. Sındırma qəlbi, o ruhun təbi.

178. Ömür dumandı, ötdü yamandı.
179. İlahi nəzər, insanı bəzər.
180. Doğulan bəşər, niyə gərək şər?
181. İlahi eşqi, bəndənin məşqi.
182. Canın işığı, dilin aşığı.
183. Vicdan əzabı tükədər tabı.
184. Hicran candadı, sevən andadı.
185. Eşq bir həyatdı, sevəni tutdu.
186. Dərd leysan tökər, ürəklər çəkər.
187. Hicran eşq tacı, sevmək əlacı.
188. Vuruldun batdın, qəlbə dərd qatdın.
189. Hiylə ürəklə, gəzər kələklə.
190. Girmə ağıla, düşmə nağıla.
191. Həyat ışıqdı, qaşıq-qaşıqdı.
192. Ruh sirr yuvası, canda havası.
193. Qürbətə uyan, Vətəndən doyan.
194. İllər imtahan, müəllim cahan.
195. Cana kəc baxan, ömrünü yıxan.
196. Mərifət əhli, imanı bəlli.
197. Möhlət işığı, ömrün aşığı.
198. Allah yaradan, özündən qadan.
199. Hər ömür şamdı, yananda kamdı.
200. Udma zilləti, bitməz illəti.
201. Danma hicranı, ağrıdar canı.
202. Ağıldan qaçma, hislərlə uçma.

04-05.07.2015

203. Ağıldan gələn bəla, Salar insanı dala.

07.05.2016

204. Kim hərəkətdə o bərəkətdə.
205. Yaxşılıq etmək yaxşı, Gətirməyə göz yaşı.

04.06.2016

İKİLİKLƏR

1

Həyatın o üzü özünə bağlı,
Hərdən də çaşdırır közüylə ağlı.

2

Mənə dəniz verin suyu bol olsun,
Suların üstündən haqqa yol olsun.

3

Şöhrətin xəstəsi olan hər kəsin,
Axırda şöhrət də kəsər nəfəsin.

28.06.2012

4
İnsanın varlığı ömürdən keçir,
Əqlin qavradığı əmirdən keçir.
5
Hər ömrün içində bir bahar gəzir,
O da Yaradandan insana nəzir.
6
Heç bir gözə özgə xəyal görünməsin,
Girib könlə qəlb evində sürünməsin.
7
Sevginin milləti, dini olmayır,
Sevgisiz insanın günü olmayır.
8
Harda səsin gəlir? Səsimə səs ver.
Alllah, al ruhumu ona nəfəs ver.
9
Hər kəs öz gözüylə baxır dünyaya,
Öz qara-qurasın yaxır dünyaya.
10
Xəstəlik qiyamətdi,
Bədən ona alətdi.
11
Qan-qırğını sevən bəşər,
Ürəyini ah-vay deşər…

12
Sübhün gözü yaşlıdı,
Dünya ikibaşlıdı…
13
Zaman su kimi axıb gedir,
Hər ömrə baxıb gedir
14
Hər kəsin əlinə düşməyir çox pul,
Düşəndə özünə çoxun edir qul…
15
Vaxtı öldürənlər baxtı öldürür,
Ömrünü özünə yaman güldürür.
16
Hər ruhun işığı nəfəsdən çıxır,
İnsan can verəndə qəfəsdən çıxır.
17
Anlamaq çətindir insan olanı,
Dilindən düşməyir heç vaxt yalanı.

18
Səadət hər kəsin başına tacdır,
İnsan səadətə daima acdır.
19
Dünyaya zəhərdir nadan adamlar,
Hər cür rəzaləti udan adamlar.
20
Həyat düşüncəsi ağıldan keçir,
Sonra öz suyunu ürəkdən içir.
21
Yaşamaq hər kəsə bir imtahandır,
Onun ağrısını çəkən tək candır.
22
Ağılla ürəyin gedir savaşı,
Bilinmir hansıdı daha çox naşı.
23
Ürəyə düşəndə vicdan ağrısı,
Çıxarmaq çətindi candan doğrusu.

22.09.2015

24
Riyakar adamlar dünyanı tutub,
Allahı, vicdanı, eşqi unudub.
25
Hər insan ömürü gur işıq kimi,
Canı bədəninə bir aşiq kimi.
26
İnsan xislətində vəhşilik yatır,
Onu yaşadığı həyat oyadır.
27
Haqqın dərgahından kömək umanlar,
Bizim özümüzdən gəlir yamanlar.
28
Acgöz adamların gözü doymayır,
Kimsənin dərdini heç vaxt duymayır.
29
Həyat imtahanı çətin sınaqdı,
Ömrün yarısı da cana qınaqdı.
30
Məzhəb ağrısıyla yanan müsəlmən,
Bir-birin qırmaqmı Allaha iman?
31
Sənin ucbatından əzab çəkir can,
Ağrıya-acıya tab edən vicdan.

32
Xalqın sevdasıyla yanmayanların,
Yoxlamaq lazımdır gərək qanların.
33
İnsanlıq adının qiyməti böyük,
Çoxları bu ada doğulandan yük.
34
Məhəbbət hər yerdə suda, havada,
İnsanın ruhunu ovutmur o da.
35
Səhərin işığı salamdan başlar,
Kimə şadlıq düşər, kimə göz yaşlar.
36
Dərdimi içimdə oyatma, Allah,
Acımı, ağrımı sovutma, Allah.
37
Harama dadanan halalı bilməz,
Qopmaz vərdişindən düz yola gəlməz.
38
Sabahın xeyirin görəsiz, dostlar,
Hər cür çətinliyi gərəsiz, dostlar.
39
Ömür hər bir kəsə həyat sınağı,
Gəlin qazanmayaq ruha qınağı.

40
Sabahın xeyiri qapılar döysün,
Bütün yaxşılıqlar özünü öysün.
41
Heç kəs bu dünyadan heç nə aparmır,
Mənliyi olanlar yolun saparmı?
42
Bəlkə ləğv edilə cahanda dinlər,
O zaman yetişə Allaha ünlər…
43
İlahi sevincə bürü Vətəni,
Üstünə qaldırma yoldan ötəni…
44
Vətəni işğalla kabab etdilər,
Bizim səbrimizə hesab etdilər…
45
Ey sabah, gəlirsən səadət gətir,
Dünyadan ağrını, acını itir.

46
Harama dadanan əllər olmaya,
Bir kimsə köməksiz, məzlum qalmaya.
47
İnsanı yaşadan rahat həyatdı,
Kimi xoş gün gördü, kim isə batdı.
48
Kədər də, sevinc də gözdə görünür,
Daxildə nə varsa üzdə görünür.
49
Gözdəki yaşların əsiri insan,
Sanma ki, bu həyat hər kəsə asan.
50
Qorxağı kim duyar, kim qulaq asar,
Önünə çəkilər zülümdən hasar.
51
Göz – ürəyin aynası,
Hansı, harda sınası?

02.02.2016

52
Ağıllı düşünən baş zərbə almaz,
Kimsədən heç zaman geridə qalmaz.
53
Dərd ürək qapısın döyər qonaqtək,
Bacaran qapıdan qovar qınaqtək.
54
Ağıl yükləyəndi, ürəksə çəkən,
Bədən başdan-başa ağrıya məkan.

11.02.2016

55
Hər insan həyatı bir inci kimi,
Var olan gününün sevinci kimi.
56
Hər insan həyatı röyaya bənzər,
İçini gah şirin, gah acı bəzər.
57
Gizli bir eşq ilə keçdin qəlbimdən,
Həyata sevgini içdin qəlbimdən.
58
Dünya da insana çox ağrı imiş,
Ömrü alıb qaçan bir oğru imiş…

59
Hər kəsin əməli özündə gəzir,
Bütün ömrü boyu izində gəzir.
60
İnsan xilas edən hipokrat andı,
Hansı od-ocaqda alışıb yandı…
03.03.2016
61
Dünyanın acısı ürəkdən keçir,
Hər insan taleyi ələkdən keçir. **16.04.2016**
62
Düşünən insanın acısı böyük,
Dünya ürəyinə dağdan ağır yük.
63
Hər insan ömürü qısa nağıldı,
Ucaldan endirən onu ağıldı.
64
Hər kəs öz ağlının bəhərin görür,
Boğaz kilidləyən qəhərin görür.
65 **17.04.2016**
Ömür təkər üstə qaçan araba.
Dəyərin verməsən olacaq qaba.
20.04.2016
66
Baş deyəni hiss demir,
Ağıl hissdən pis demir. **18.05.2016**

67
Haramla yığılan varın dərdi çox,
Halalla qurulan evin mərdi çox.
25.05.2016
68
Özünə tərifi yağdıran xalqın,
Tapdıyar hər zaman özgələr haqqın.
08.07.2016
69
Heç vaxt görünməyir hiylənin üzü,
Bağlıdır hər zaman bəsirət gözü.
70
Qardaşın qardaşa açdığı güllə,
İşlənir hər zaman bir özgə əllə.
17.07.2016

71
Hər günün hikməti sabahdan doğur,
Gah kədər izləyir, gah da ki, uğur.
72
Hər kəs öz ağlıyla dünyaya baxır,
Bütün yer kürəsin yandırıb yaxır.
21.07.2016
73
Sözün bəlasına düşən adamın,
Uçurdar başına öz dili damın.
22.07.2016
74
Hörmürçək toruna bürünən ağıl,
Qurar tor içində özünə nağıl.
75
Ruhun qidasıdır sağlam düşüncə,
Gərək basılmasın heç zaman küncə.
76
Hər kəs öz ağlının bəlasın çəkir,
İçinə ağrılar, acılar tökür.
77
Sevgi elə hissdir dillə deyilməz,
Ürəyi yandırar, ağla əyilməz.
78
Heç kəsin daxilin bilmək olmayır,
Ürəyə yaxınsa silmək olmayır.
79
Əzabı sonsuzdur düşünənlərin,
Ağrıya bələyir idrak günlərin.
80
Hər günün itgisi ömürdən gedir,
Pasın da varlığı dəmirdən gedir.
81
Əbədi məşəldir ruhun ağrısı,
Anlamaq çətindir onu doğrusu.
06.09.2016
82
Hamıya yük olar ağlıdayazlar,
Özlərin xəyallar içində nazlar.
83 **07.09.2016**
Ağıldan kəmlərin əlində dünya,
Etdikləri xəta gəlməyir saya.
08.09.2016

84

Talan eyləyənlər xalqın malını,
Sonda görəcəklər acı halını…

09.09.2016

85

Gəl salma mərdi azara,
Özün düşərsən məzara.

10.09.2016

86

Bişir çıxar sözünü,
Döyməyəsən dizini.

06.12.2016

87

İdrak güzgüsündə bir bax özünə,
Səhvlərin kölgəsi düşər gözünə.

09.11.2016

88

Məhhəbbət İlahi sehrindən başlar,
Tanrının insana mehrindən başlar.

89

Nə gəlir insana sözündən gəlir,
Yaxşı-pis hər kəsə özündən gəlir.

90

Nadanlar əlində əzilir çoxu,
Anlamır imansız, ömür bir yuxu.

91

Hikmətin işığı hər qəlbə düşmür,
Təmiz ruhu olan şərlə görüşmür.

92

Millətin varlığı dövlətə bağlı,
Dövlətin varlığı millətə bağlı.

93

Hamı öz ağlına olub alüdə,
Bürüyüb dünyanı işgəncə, hədə.

20.12.2016

PUBLİSİSTİK MƏQALƏLƏR

ÖN SÖZÜ VACİB BİLİNƏN HEKAYƏ

Ömrünün çiçəklənən vaxtında həyatı acılar içində keçən bir həmvətənmizin keşməkeşli taleyindən bəhs edən Ceyhun Ağabəylinin "Erməni həkimin borcu" hekayəsi məni çox təsirləndirdi. Həyat hər bir kəsin bəxtinə bir dəfə düşür. Hər bir insan övladı çalışır ki, ağlının bacardığı qədər niyə isə nail olsun...

Hekayəni araya-ərsəyə gətirən müəllif, əslində həyatı əhəmiyyətli vacib bir mövzunu qələmə alıb. Gözəl şeirləri ilə ürəkləri riqqətə gətirən şair, qələmini nəsirdə də sınayıb. Əslində nəsirlə qələmə alınan bu yazı insanlarımızı ayıq-sayıqlığa səsləyir. Bizlərin hər birinin yolu ən azından bircə dəfə olsa belə xəstəxanalardan keçir, elə bir insan tapmazsan ki, o hansısa həkimə, ya xəstəxanaya müraciət etməmiş olsun. Bizlər tibb ocaqlarına ümidlə gedirik, şəfa bulmaq üçün üz tuturuq, amma bə`zən elə olur ki, ümidimiz puç olur, ömrü boyu çarpayı möhtacı oluruq, ya da qismətimizə vaxtsız həyatı tərk etmək düşür.

Bilərəkdən və ya bilməyərəkdən, insanlar həkim yanlışlığının, səhvinin qurbanı olur. Müəllifin bəhs etdiyi hekayədə isə, milliyyətcə mənfur qonşumuz, erməni Sveta Bacanyanın açıq-aşkar çirkin cinayət əməli ifşa olunur. Hekayənin əsas qəhrəmanı Nail 15 yaşlı yeniyetmədi, məktəb illərini başa vurmadan xəstəliyə düçar olan uşaq qəfil ağrılarla Bakı şəhərinə gətirilir, burda hadisələr erməni həkimin ətrafında cəryan edir. Həkim uşağı ömürlük əlil edir...

Karabakhmedia.az saytında "SSRİ-nın süqutunda erməni «xidmət»i" adlı məqalədə araşdırmaçı Zaur Mirzəlinin erməni xislətindən və Amerikanın məkrli Qarabağ siyasətindən bəhs edən yazısına rast gəldim.

Müəllif yazır:"...Təsadüf nəticəsində erməni "həkimlər"inin törətdiyi soyqırım faktlarının izinə düşdüm. Araşdırmalarım məni tükürpədici, dəhşətli faktlara gətirib çıxardı. Məlum oldu ki,1960-cı ildən bu yana erməni həkimləri Azərbaycan SSR və Ermənistan SSR-də çalışdıqları xəstəxanalarda azərbaycanlılara qarşı kütləvi soyqırım həyata keçirmişlər. Doğulan körpələrdən oğlan uşaqlarının öldürülməsi, qız uşaqlarının ana bətnlərinin çıxarılması, cavan və orta nəslin nümayəndələrinin müxtəlif üsullarla əməliyyat olunduqları yerə qayçı, tampon, lezva, dərman qoyularaq öldürülməsi, ermənilərin ciddi şəkildə hansısa, bir "ideya"ya hazırlaşdıqlarını, xidmət etdiklərini göstərirdi.

Digər bir məqalədə, Şahin Qocayev adlı müəllif, erməni vəhşiliyinin bariz nümunəsi haqqında məqalə çap etdirib. Məqalədə deyilir ki, Qarabağ müharibəsi zamanı əsir və girovluqda olan azərbaycanlılar həm mənəvi, həm də psixoloji cəhətdən iflic vəziyyətinə salınıblar. Müharibə zamanı, həkim və tibb bacısı adı altında fəaliyyət göstərən erməni kişi və qadın döyüşçülər, ələ keçirilən azərbaycanlı girovlar üzərində necə deyərlər, "sınaq təcrübələri" aparıblar.

Atəşkəsdən sonra Qarabağda "amputasiya otaqları" yaradan işğalçılar Ermənistandan ora xüsusi təcrübələr aparmaq üçün "həkim qrup"ları gətirib. Bu qruplar terrorçu dəstələrin üzvləri olublar.

1993-cü il 31 mart tarixində Kəlbəcər rayonunun işğalı ərəfəsində girov götürülən Gülcamal Quliyeva, girovluqda olduğu zaman, oğlu Arzu Hacıyevi dünyaya gətirib. Qısa bir müddət ərzində bu uşaq erməni "həkimi" Aida Serobyana tapşırılıb. Serobyan tərəfindən naməlum tərkibli iynələrin vurulması nəticəsində Arzu Hacıyev ömürlük şikəst qalıb.

2003-cü ilin may ayına qədər "sınaq təcrübəsi" nə məruz qalan və erməni terrorunun əlamətlərini daşıyan Arzu Hacıyev o zaman vəfat edib.

Bu il mənim doğmalarımdan birinin başına gələn faciəni də qısaca dəyərli oxucuların diqqətinə yetirmək istərdim...Soyuq qış günü idi, bağça yaşlı balaca Əsmər birdən-birə xəstələndi. Yaşadıqları binada yanğın olmuşdu, uşaq qorxmuş və dalağı şişmişdi, həkimlər ona qanda xərçəng (leykoz) diaqnozu qoydular. Uşağı Nəsimikənd bazarını arxasında yerləşən Xərçəng xəstəxanasına yerləşdirdilər, 5 yaş yeddi ayında olan bu balaca qızı da üzü üstə uzatdılar, belindən 3 dəfə ilik götürdülər, uşaq cəmi beş gün yaşadı, dedilər götürün aparın evə, uşağı evə gətirdilər, uşaq 5 gün fəryadla can verirdi. Mən bu dəhşətli mənzərəni şəxsən şahidi oldum, bu dəhşəti bizə həkimlər yaşatdı...Milliyyətləri kim idi dəqiq bilmirəm, adları bizim adlardan idi...

23.04.2016

RUHUN EHTİYACI

Vətənimizin şimal bölgəsini sayılıb seçilən şairlərindən biri də Ceyhun Ağabəylidir. O, Qusar rayonunun Balaqusar kənd orta məktəbində tarix müəllimi işləyir. Bununla yanaşı Ceyhun müəllim ədəbi aləmdə də öz sözünü deyən sənətkarlar sırasındadır. Bir neçə şeir kitabının müəllifi olan şairin yaradıcılığı ilə "Erməni həkimin borcu" hekayəsindən tanışam. Hekayə erməni millətindən olan bir həkimin bilərəkdən insan həyatına vurduğu acı nəticələrdən bəhs edir. Özgələrə can deyib, özünü biganəlik düsturu ilə kök-

ləyən xalqımıza bu hekayəni kitab şəkildə çap olunandan sonra oxumasını tövsiyyə edərdim. Bu bizim başımıza gələn faciələrdən bircəciyidir.
Ceyhun Ağabəyli " Erməni həkimin borcu" kitabı ilə paralel " Talelər də şəhid olur" şeir kitabını çapa hazırlayır. Onun şeirləriylə bir çox saytlarda tanışlığımla bağlı olaraq, kitab haqqında ön söz yazmaq ürəyimdən keçdi, çünki şeirlərin tutumu, dəyəri o qədər cəlbedicidir ki, qələmi olan bu şeirlərə söz deməmiş keçə bilməz. Müəllifin "Talelər də şəhid olur" şeirinin ilk bəndinə diqqət edək:

Alovundan ləzzət alır,
Altında gizlənən kömür.
Ruhani əlində qalır,
Allahdan verilən ömür,
Talelər də…, şəhid olur.

Dərin mənalar kəsb edən bu bənddə şair "Allahdan verilən ömür"ün ruhanilər əlində oyuncağa çevrildiyindən, insan taleləri ilə oyanıldığından bəhs edir. Dinlərin insanlara sülh, məhəbbət yox, fəlakət gətirdiyi açıq-aydın göz önündədir...Mən də şairin fikri ilə razıyam, Allaha yetməyin yolu elmdən keçir. İnsanı xoşbəxt edən, ruhunu xeyrə tuşlayan, varlığını təmizləyən elmdir, elmsiz insan cansız əşya kimidir. Gənc ikən parlayar, yaşlandıqca qubarlayar, amma elm əhli olan yaşlandıqca günəş təki şəfəq saçar, istisinə aləm qızınar.

Şeir dərin mənalarla dolu olduğundan növbəti bəndlərlə məqaləmi cilalamaq qənaətinə gəldim:

Ömrümüzə hökm eləyən,
Ölüm bizə müqəddəslik.
Cümlələri cücərməyən,
Bəxtimizdədi şəhidlik,
Kəlmələr də…, şəhid olur.

Kədər qoyub içimizə -
Məyər o bizi yaradan?
Haqqımızı vermir bizə,
Ömrümüzü yeyir nadan,
Ölənlər də…, şəhid olur.

Bəli, biz həyatda sağ ikən bilirik ki, öləcəyik, amma həyat eşqi son ana qədər insanla addımlayır, insan bu qayədən bir an özünü kənarda sanmır,

sanarsa ömrü sönər, hansısa nadan ömrümüzü puç etsə də, ruhdan düşmürük, arzular bizi tərk etmir, həyat eşqi sönmür, amma istəyimizi həyatdan könlümüzcə ala bilmədiyimiz üçün şair demiş: "talelər, kəlmələr, ölənlər şəhid olur". Əslində yaşadığımız reallıq budur, şair də bu həqiqəti misraların sığalına çəkib. Elə kitabın adını da " Talelər də şəhid olur" qoyub.
Müəllif növbəti şeirini " Adsız şeirlərdən" adı ilə verib. Şeir başdan-başa fəlsəfi düşüncələr burulğanında çalxalanır:

İnsana güvənmək olmaz,
Sonda insan ölür axı.
Sevgilər həsrətə dönür,
Çünki insan sevir axı.

Müəllifin şerində insan varlığının ölüm-qalım məsələsi ilham süzgəcindən keçərək misralar içində boy göstərir. Heca vəzninin 8-lik bölgüsündə oynaq söz çalarları ilə köklənmiş bəndlər, adamı öz kimliyini düşünməyə vadar edir:

Tale bağlıdır fələyə,
Fələksə düşür ələyə.
Gözdən girir eşq ürəyə,
Gözdən düşür gedir axı.

Bəndlərin bir-birindən söz tutumu, dərinliyi adamı heyran edir. Doğrudan da Ceyhun Ağabəylinin şeirləri ilə tanış olarkən görürsən ki, müəllif sözləri bir-birin arxasınca düzmək xatirinə ədəbiyyata gəlməmişdir. Onun şeirlərində dərin məna, fəlsəfi düşüncə, şeiriyyət, şeiriyyətin əsas amillərindən ilki olan axıcılıq öndədir. Bəzi şeirlərində ara-sıra qafiyə pozuntuları ilə rastlansam da, bu heç də şerin dərinliyinə, gözəlliyinə xələl gətirmir.
Müəllifin "Dağıt" şerinin son bəndinə diqqət edək:

Safam, görmürsənmi məni?
Mənlik deyil çirkab həyat.
Tanrı, dağıt bu düzəni,
Dağıt, təzədən gəl yarat.

Əsil şairlərin ruhu təmizdir, pakdır. Onlar yaşadıqları həyatda ömürləri boyu əzab çəkirlər, onlara hər şey təsir edir, ürəklərində bütün dünyanın ağrı-acılarını daşıyırlar. Bəlkə də Allah yerdəki bəndələrinə demək

istədiklərini şairlər vasitəsiylə bəyan edir, amma heç kim bunun zərrə qədər fərqinə varmır. Adi insanlardan tutmuş söz xiridarlarına qədər adamların dilinin əzbəridir, ürək! Həyatımız ondan aslıdır, hansı anda dayansa, ömrümüz də sona yetər. Mənə elə gəlir ki, ürək təkcə mühərrik rolu oynamır, o həm də beyinlə əlaqəlidir və hislər burulğanında çarpışmadadı. İnsan ürəyə tapınanda bir çox xətalarla baş-başa qalır, amma ağılla hərəkət edəndə kamal onu hifz edir. Elə Ceyhun müəllimin "Ağıllıyam ürək səndən" şeri də bu ovqata köklənib:

Niyə alışıb yanırsan,
Ürək, axı yoruluram.
Niyə bu qədər həssassan?
Səni daim qoruyuram,
Görmürəm heç kömək səndən,
Ağıllıyam ürək səndən.

Həqiqətən adam ağıllı olmağın, acısını və şirinini doğulduğu gündən ölənə qədər hiss edir. Bəzən insan ətrafından gördüyü qeyri-insani münasibətdən təngə gəlir. İçində dərin düşüncə sahibi olmayanlara qibtə hissi yaranır. Hərdən bir ruhuna qarşı üsyana da qalxır. Allahın ona bəxş etdiyi idraka öz içində tənələr yağdırır. Ağıllı olmağın şirinliyi isə fərdin ömrü boyu qazandığı uğurlarla bağlıdır. Əgər bu uğurlar onun nəsibi olarsa...Ceyhun Ağabəylinin "Adsız şeirlər" indən birində deyildiyi kimi:

Axır göz yaşları dolur içinə,
Yıxılır içində boğulur adam.
Dəli atın çapır doğan gününə,
Ağıllı olmaqdan yorulur adam.

Müəllifin insan həyatını ilahi eşqlə ovsunlayan, dünyanın keşməkeşlərini bir anda içindən yox edən sevgi şeirlərindən ötərgi keçmək olmur. Öz eşqini sevdiyinə misra-misra izhar edən şair, həqiqi məhəbbətin ötəri bir hiss olmadığı anlamına gəlir. Sevənləri bu hissə biganə yanaşmamağa səsləyir. Onun "Öz bildiyim kimi" şeiri oxucu ürəyini riqqətə gətirən, onu şahanə sevgi ilə dolduran gözəl bir şeir nümunəsidir:

Ruhumuz birdi, bilirsən,
Min ildir duyursan məni.
Sev məni necə sevirsən,

İcazə ver mən də səni,
Sevim öz bildiyim kimi.

Təmizliyin, saflığın çıraqla axtarıldığı bir zamanda yaşayırıq. Atalar demiş: Heç kəs ayranına turş demir, hərə öz bildiyi kimi dünyanı dərk edir, öz ağlının sehrinə çevirir dünyanı. Vicdanların sözaldığı, zülmün, işgəncənin, qan-qırğının ayaq tutub yeridiyi bir zaman daşıyıcılarıyıq. Şair bu ağrılar girdabında qələminə sığınıb, Allahına üz tutur "Allah, bu ürəyi dəyiş mənimçün" deyir:

Ağlımı, ruhumu yerində saxla,
Başımı, qolumu yerində saxla.
Közümü, odumu yerində saxla,
Allah, bu ürəyi dəyiş mənimçün.

Ruhun ehtiyacı ilə çarpışmada olan şair milyonların ağrı-ağıları ilə cilalanmış dünyanın hönkürtüləri içindən döğan misralarını ürəyini diqtəsi ilə bəndlərə düzür. Bənna evin özülünü əsas götürdüyü kimi, şair də deyəcəyi sözləri ilhamının ovqatına kökləyir. Ceyhun Ağabəylinin heca vəznin on dördlük bölgüsündə qələmə alınmış" Keçirik şeirinə diqqət edək:

Hicran yoldaşdı bizə, vüsal anidi, ani,
Dərdlərin yaylağından, qışlağına keçirik.
Taleyin ovundayıq, tutur, oynadır bizi,
Qarmağından çıxırıq, oymağına keçirik.

Doğrudan da keşməkeşli həyat yolları insanın yaşadığı bir ömür boyu asan olmur. Necə deyərlər varlının varlı dərdi, kasıbın kasıb dərdi var. Ömrün çətinliklərinə sinə gərib, qalib çıxan həmişə öndədir. Büdrəyənlər isə ağıla tapınmasa, sonra ömrünə düşəcək günlər əziyyətlə dolu olurş İblisin vəsvəsəsinə qapılan, haqdan qaçan sonda müəllifin özü demiş şeytanın barmağına keçir:

Ceyhun, sən də həyatı yozursan neçə kərə,
Pənah yoxdu Allaha, inanan yoxdu pirə.
Tanrımızdan ayrılıb nişanlanırıq yerə,
Babamıztək şeytanın barmağına keçirik.

Dinləri əlində oyuncaq etmiş, milyonları öz düşüncələrinə tabe edən təriqət sövdəgərləri Allah adından alver edirlər. Yaranışdan insanı düşündürən bir sual var. Bu dünyaya niyə gəldim? Çəkdiyim əziyyətlərin müqabilində bir gün yox olacam. Bu yox olmanın qorxusu insanı ölmümdən sonrakı həyata bağlayır. Elə buna görə də insan dinlər və təriqətlər içində çapalamadadı. Müəllifin "Həqiqət bölünmür təriqətlərə" şeiri bu qəbildəndir:

Hamı öz qəlbində özün düz sanır,
Hamı yaxın imiş həqiqətlərə.
Niyə başa düşmür axı insanlar,
Həqiqət bölünmür təriqətlərə?!

Şairlər dünya acılarını içlərinə çəkən yeganə varlıqlardır, onlara hər şey təsir edir, təbiət hadisələrindən tutmuş biganəliklə dolu dünyamızın üzüntüləri bu həqiqət carçılarını bir an rahat buraxmır. Hər şeydə düzlük, təmizlik axtaran, hər cür dönüklükdən, real həyatın fırtınalarından dəhşətə gələn təb adamları ruhlarının ağrılarını sözlə ovundururlar. Müəllifin "Düşünürəm adamları" şeri yuxarda izhar etdiklərimə tutarlı dəlildir:

Çox sevirəm insanları,
Ucaldıram qəlbdə, sözdə.
Düşünürəm adamları,
Azıram sifətdə, gözdə,
Şifrəyə, koda düşürəm.

Vətən acılarını tutarlı sözlərlə nəzmə çəkən müəllif, başımıza gələn müsibətlərin kökündə özümüzün durduğunu etiraf edir. Ümumiyyətlə, itirə-itirə gedən xalqımızın mənəviyyatının öləzidiyinin fərqində olmaması bizi uçuruma aparır. Onun **"**Torpağı çoban qorudu" şeirinin sonuncu misralarına diqqət edək:

Vətəni sevə bilməyib,
Vətən dərsi keçənlərə.
Gəl hamımız çoban olaq,
Alaq bir dənə dəyənək.
İçimizdəki mənləri,
Şeytanları kötəkləyək!

İnsanı saflaşdıran, durulaşdıran, aliləşdirən məhəbbətdir. İnsan sevməsə yaşaya bilməz. Həyatı istəklərini qəlbində daşıyanların yolu sevgiyə düşmürsə, onlar cılızlaşır, qəddarlaşır, hər cür cinayətlərə əl atır. Sevgisiz ürək, suyu kəsilmiş dəyirmandır, boş-boşuna fırlanar. İnsanı ruhsal edən, onu mənəvi dünyaya bağlayan sevgidir. İlahi eşqin ucalığına varanlar bulaq kimi dupduru olurlar. Ceyhun Ağabəylinin " Əllər" şeirinin sonuncu bənddində deyildiyi kimi:

Sənsiz günüm qara, illərim hədər,
Qəlbimdəki sözəm, dilindən aslı.
Daşı ürəyimi Allaha qədər,
Bilirəm aslıyam, əlindən aslı.

Müəllifin bir-birindən məntiqli, fəlsəfi duyumlu şeirləri ilə tanış olduqca hər biri haqqında bir xeyli söz söyləmək olar. Əlqərəz, dəyərli oxucularımı yormamaq üçün "Talelər də şəhid olur" toplusuna yazdığım ön sözü "Bilirsənmi mən kiməm?" şeirindən bir parça ilə sona yetirmək istəyirəm:

Bilirəm ki, nə vaxtsa
Mən yadına düşücəm.
Qaça-qaça kiçilib,
Uca-uca dönəcəm.
Mən sənin gözlərində
Yenidən böyüyəcəm.

Beləliklə, dəyərli oxuculara tövsiyyə edərdim ki, cavan nəsilin nümayəndəsi olan istedadlı qələm adamı, şair-jurnalist Ceyhun Ağabəylinin " Talelər də şəhid olur" kitabına diqqət ayırsınlar, çünki bir-birindən axıcı, fəlsəfi duyumlu şeirlər insanı cilalaşdırır, ruhunu saflaşdırır, həyat eşqini artırır.

Müəllif həm də gələcəyimiz olan uşaqlarımızın təlim-tərbiyyəsi ilə, bilik və bacarığının artırılmasıyla məşğuldu. Ona işlədiyi peşədə və bədii yaradıcılıqda könül dolusu uğurlar arzulayıram, çünki müəllim peşəsi müqəddəs peşədi, biz həyatda nəyi qazanmışıqsa elm anlamında, müəllimlərimizə borcluyuq! Müəllim haqqı ziya haqqıdı, Allah ziyamızı sozaltmasın, gözümüzdən və içimizdən nurumuzu almasın, bizi zülmətə salmasın. Amin...

26.08.2016

XAÇMAZ XATİRƏLƏRİ

İsti avqust günlərindən biriydi. Həyat yoldaşım, kitablarımın cəfakeşi Əli Abulla ilə bahəm şimal bölgəsini ən səfalı yerlərindən biri olan Qusar rayonuna getmişdik. Daha doğrusu, istedadlı şair-jurnalist, Balaqusar kənd orta məktəbinin tarix müəllimi Ceyhun Ağabəylinin dəvəti ilə, rayonun ən səfalı guşələrindən biri olan Həsənqala kəndində həmkarımın evində qonaq olduq. Beş günlük istirahət zamanı Qusarın gəzməli-görməli yerlərində ruhumuzu təzələdik, adı dillər dastanı Şahdağın ürək sərinlədən guşələrinə baş vurduq. Elə bil başqa bir aləmə düşmüşdük, quşların səsi, ağacların ürək titrədən, mehdən qopan sədası, Qusarçayın şırıltısı, uca zirvələrdən yarğanlara tökülən şəlalələrin oynaq zümzüməsi, bir sözlə, burda hər şey həyat yoldaşımla məni ovsunlamışdı.

Beləliklə, bütün bu gözəllikləri ruhumuza pay etməklə yanaşı, qərara aldıq ki, Qusara yaxın olan ətraf rayonlara da baş çəkək, günlərimizi daha rəngarəng, daha dolğun və səmərəli keçirək. Dəyərli oxuculara etiraf etməliyəm ki, özüm də şimal bölgəsinin Tağay kəndində doğulduğum üçün o yerlər ruhumu daha çox özünə çəkir, əlbəttə ki, burda Vətəni parçalamaqdan, ayrı-seçkilik salmaqdan söhbət gedə bilməz. Vətənin hər qarışı mənə doğmadır, əzizidir. Sadəcə, insan harda doğulursa, ruhu daha çox o yerlərə can atır. Əlqərəz, isti avqustun təndir havası, şimal bölgəsini Bakıdakı kimi qızdıra bilmir...Bakıdan o yerlərə dincəlməyə gedənlər də mənimlə həm fikir olarlar ki, oralarda ən başlıcası, Bakıda həsrətində olduğumuz təmiz hava var, heç bir yemək, rahatlıq bu hava ilə əvəz edə bilməz....

Hələ oralara qonaq getməmişdən öncə mən çapdan çıxmış kitablarımdan şimal bölgəsinin rayon kitabxanalarına hədiyyə olaraq yollamışdım. Bu xoş məramlı işdə mənə dəstək olan Ceyhun müəllimə öz minnətdarlığımı bildirirəm. İnsan ali təhsil ala bilər, hansısa idarədə, müəssisədə işləyə bilər, amma ziyalılıq hər adama nəsib olmur. O elə bir nurdur ki, hər adamın ruhuna qonmur, amma Ceyhun müəllimə İlahi bu ruhu nəsib edib.

Şimal bölgəmizin ən böyük inzibati yerlərindən biri olan Xaçmaz şəhərini ziyarət etmək qərarına gəldik. Hələ nəzərdə tutduğumuz yerə getməmişdən öncə, orada fəaliyyət göstərən “Ulduzlar” ədəbi məclisinin sədri–şair, Fərzalı Ziyanur mənə bir gözləmədiyim xəbər vermişdi. Əvvəlcə şair barədə qısa arayış vermək istəyirəm. Fərzəli Ziyanur, Müzəffəroba kənd tam orta məktəbində, uzun müddətdir ki, direktor vəzifəsində çalışır, ixtisasca filoloqdu, 2004-cü ildən Xaçmazdakı “Ulduzlar” ədəbi məclisinə rəhbərlik edir.

Dəyərli ziyalımız Fərzəli müəllimin mənə yetirdiyi xəbər ondan ibarət idi ki, tələbə yoldaşım Azad Əlifxanov Xaçmaz Mərkəzi Kitabxanasının direktorudur.

Əlqərəz, Ceyhun müəllimin yolyoldaşlığı ilə növbəti gedəcəyimiz yer Xaçmaz oldu. Qərara almışdıq ki, həm kitabxanaya baş çəkərik, həm də tələbə yoldaşımla görüşərik.

17 avqust 2016-cı il tarixində şəhərə qədəm qoyandan sonra ilk getdiyimiz yer muzey oldu. Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyinin binası üçmərtəbəlidir. Bina şəhərin mərkəzində yerləşən Şəxsiyyətlər Parkının ərazisində inşa edilib. 2013-cü ildən etibarən muzey yeni binadan fəaliyyətini davam etdirir. Ümumilikdə, 5000-ə yaxın eksponatın nümayiş olunduğu bu muzeyi hər il orta hesabla 5 mindən artıq tamaşaçı ziyarət edir. Burada eksponatlar dövrlər üzrə yerləşdirilib. Muzeyin direktoru Aqil Əlisultanov mədəniyyət ocağı haqqında fikirlərini bizimlə bölüşdü. Muzey əməkdaşlarının ayrı-ayrı dövrlər haqqında verdiyi məlumatlar bizdə dəyərli təəssüratlar yaratdı.

Muzeydən dolğun və əhatəli məlumatlarla ayrılıb, Xaçmaz şəhərində yerləşən Mərkəzi Kitabxanaya getdik, amma kitabxanaya yetişəndə bizə dedilər ki, bəs direktor Azad müəllim mənzuniyyətdədir. Bizi kitabxananın qarşısında ziyalı "Ulduzlar" ədəbi məclisinin sədri–şair Fərzalı Ziyanur və digər əməkdaşlar qarşıladı, onlarla söhbətləşən məqamda qəfildən kitabxananın direktoru, tələbə yoldaşım Azad Əlifxanov gəlib çıxdı, gözləmədiyim qəfil görüş, həm məni həyəcanlandırdı, həm də bizi ötən günlərə qaytardı.

Biz onunla 1978/83-cü illərdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin əyani şöbəsində təhsil almışdıq. Aradan illər ötmüşdü, təsadüf bizi görüşdürdü, biz o unudulmaz tələbəlik illərinin xatirələrinə qayıtdıq. Ürəkdə fərəh doğuran, heç nə ilə yeri doldurulmayan, əvəz olunmayan tələbəlik illərini xoş duyğularla yad etdik. Görüş bitdikdən sonra Xaçmaz rayonunun Mərkəzi Kitabxanasının Oxu zalında yaradıcılığımla və çapdan çıxmış kitablarımla bağlı tədbir keçirildi. Tədbiri Xaçmaz " Ulduzlar" ədəbi məclisinin sədri şair Fərzəli Ziyanur açdı. Fərzəli Ziyanur "Ulduzlar" ədəbi məclisi barədə geniş məlumat verdi, doğrusu bölgələrimizdən biri olan Xaçmaz şəhərində belə bir şairlər məclisin fəaliyyət göstərməsi kitaba, sözə verilən dəyər məni qürurlandırdı. Mərkəzi kitabxananın direktoru tələbə yoldaşım Azad Əlifxanov tələbəlik illərimizlə bağlı yadında qalan xatirələrdən danışdı, kitablarımın nəşrində böyük rol oynamış ziyalı geofizik, həyat yoldaşım Əli Abdulla yaradıcılığım barədə öz ürək sözlərini söylədi. Kitabxananın direktoru tələbə yoldaşım Azad

Əlifxanov və İnformasiya-resurs şöbəsinin müdiri Sevda İsmayılova qeyd etdilər ki, yaxşı olar mən virtual oxucular üçün kitablarımın elektron nəşrlərini kitabxanaya təqdim edim. Sevda xanımın mehriban baxışları ürəyimdə iz qoydu. Şair-jurnalist Ceyhun Ağabəyli ürəyə yatımlı səsi ilə şeirlər dedi, digər iştirakçılar da öz ürək sözlərini söylədi.

Xaçmaz şəhər 9 saylı tam orta məktəbin direktoru Tünzalə Salahova öz çıxışıyla təqdimat mərasimini daha da rövqləndirdi. Ona təqdim etdiyimiz kitabdan şeirlər söylədi. Sonra bizi payızda rəhbəri olduğu məktəbə yaradıcılığım barədə keçiriləcək tədbirə dəvət etdi.

Xülasə, könlümüzdə xoş əhvalı-ruhiyyə yaradan bu görüşün təəssüratları hələ uzun müddət hafizəmizdən silinməyəcək. Bizi bir araya toplayan, o günün sevincini bizə yaşadan Xaçmaz rayonunun yığıncaqda iştirak edən söz adamlarına, ziyalı insanlarına könül dolusu minnətdarlığımızı yetirirəm.

Sözə, kitaba verilən dəyər millətin kimliyi ilə ölçülür. O millətlər ki, yeməyi, geyimi, bir sözlə maddi rifahı mənəviyyatdan üstün tutur, belə millətlər elmli, bilikli xalqların içində əriyib itir. Amma bir şeyi də etiraf eləmək lazımdır ki, maddi rifahsız, mənəviyyat axsıyır, öləziyir, gündəlik təminatı üçün vurnuxan adamların gözündə heçə enir. Kitabı, kitabxanaları, muzeyləri, məktəbləri insanlara sevdirmək üçün adamlarımızın həyatında maddi yüksəliş olmalıdı, əks halda ac qarına mədəniyyət yox, gödəniyyət lazım olacaq, o ancaq gündəlik çörək pulu üçün özünü ora-bura vuracaq. Bununla yanaşı mədəniyyət, mənəviyyat sahəsində çalışan insanlarımızın maaşları yüksək olmalıdır ki, ətrafdakılara öz bilik və bacarıqlarını yetərincə aşılasınlar. Arzu edərdim ki, istər muzeylərimizdə, istər kitabxanalarımızda, istərsə məktəblərimizdə çalışan insanlarımızın maddi rifah halı yüksək olsun. Hamıya gün kimi aydındır ki, cüzi məvaciblə ailə dolandırmaq, öz şəxsi təminatlarını ödəmək çox çətindi, mən bu çətinlikləri ziyalı həmkarlarımın yorğun üzlərindən və ehtiyac məngənəsində sıxılan kədərli gözlərindən hiss etdim.

Ümid edirəm ki, nə vaxtsa ölkəmizdə də bu məsələlərə yetərincə diqqət ayrılacaq, o sahələrdə çalışan insanlarımızın üzü güləcək. Bu ümidlə də Xaçmaz xatirələrimə son nöqtəni qoyuram.

Biz yenidən Qusar rayonuna qayıtdıq, ayaqüstü Qusar kitabxanasına baş vurduq. Sonra isə Qusar Dövlət Rəsm Qalereyasına getdik, qalereyada bizi rəssam, Rüstəmbəy Nağıyev qarşıladı, digər gənc rəssamlarla da tanış olduq. Məlum oldu ki, burda uşaqlara kiçik yaşlarından rəssamlığın sirrləri öyrədilir. Beləliklə biz Şahdağın mənzərəsini rənglərin lal dilinə çevirən gözəl bir rəsm əsərini, müəllif Rüstəmbəy Nağıyevdən də ev üçün aldıq. Həmən

gün xoş əhval-ruhiyyə ilə yenidən Həsənqala kəndinə döndük. Evdə isə bizi gözəl mənzərəsiylə adamı heyran edən bağ, məxsusi zümzüməsi, dadı, ləzzəti, ətri ilə ruha zövq verən samovar çayı, bir də manqalı öz cızbızına ram edən kabab gözləyirdi...

08.09.2016

KÖVRƏK MÜSTƏQİLLİK VƏ ALATORAN GƏNCLİK

Biz heç inkişaf etmiş dövlətlərdə yaşayan millətlər kimi xoşbəxt olmamışıq. Dədə-babalarımızı nə qədər öysək də, ağız dolusu keçmişimizdən dəm vursaq da fakt odur ki, biz nəinki ikiyə parçalanmış xalqıq, hətta bir neçə yerə paralanmış, yurdları-yuvaları dəfələrlə talan olunmuş, didərginliyi yaşam devizi seçmiş bir qövümik. Az müddətdir ki, böyük Azərbaycanın balaca bir hissəsində müstəqillik qazandıq, o müstəqillik də əgər SSRİ dağılmasaydı, yəni balıq başından iylənməsəydi, çox güman ki, biz bu gün də müstəqillik üzünə həsrət qalardıq...Bu müstəqilliyi də SSRİ-nin atası olan Rusiya bizə Qarabağ problemi ilə birgə verdi ki, əl atanda əlinə keçək...

Deməli, bizim müstəqilliyimiz hələ çox kövrəkdi, sabit-qədəm deyil, onun üçün uzun illər lazımdı. Bizim ölkə püxtələşmiş, oturuşmuş, uzun əsrlər müstəqillik təcrübəsi olan dövlətlər kimi deyil. Biz inkişaf etmiş ölkələrə çatmaq üçün çox işlər görməliyik. Bu yolda inamla addımlamaq üçün insanlarımızın maddi durumu qənaətbəxş olmalıdır, çünki atalar demiş, toxda iman yox, acda aman...Bunu üçün insanların yaşam halını yaxşılaşdırmaq, birinci gəncləri düşünmək lazım, onların gələcəyi haqqında layiqli ölçülər götürülməlidir, çünki gənclik dövlətin və millətin danışan dili, görən gözü, vuran əlidir! Bu dili lal etmək olmaz.

Biz müharibə şəraitində yaşamağımıza baxmayaraq ölkədə təmir-tikinti işləri gedib, xəstəxanalar, məktəblər, mədəniyyət mərkəzləri, idman mərkəzləri, yollar, içməli su və sair, bütün bunları danmaq olmaz. Bununla yanaşı çatmazlıqlar da baş alıb gedir, işsizlik, həddindən artıq kasıb zümrə ölkədə boy göstərməyə başlayıb, manat iki dəfə devalvasiyaya uğradıqdan sonra insanların maddi rifah halı daha da pisləşdi, kəskin şəkildə təbəqələşmə getdi. Ölkədə varlılar və məzlum kasıb təbəqə günbəgün artmaqdadır. Artıq orta təbəqə yox olmağa başlayıb, insanlar banklardan asılı vəziyyətə düşüb, banklarda şişirdilmiş faizlər insanları əldən salıb, adamlar bir tikə çörəyə həsrətdirlər. Bütün bunları görüb, yaxın zamanlarda ölçü götürülməsə həqiqətən ölkədə etiraz partlayışları ola bilər. Polis üsul-

idarəsi ilə ölkəni idarə etmək olmaz, bu gec-tez xarici düşmənlərimizin hərəkətə keçməsinə səbəb olar, Suriyada, İraqda və digər bədbəxtliyə düçar olmuş ölkələrdə olduğu kimi bizim də müstəqilliyimiz təhlükə altına düşə bilər.

Müstəqilliyimizdən keçən bu illər ərzində biz çox səhvlərə yol verdik, neftin yüksəlişi vaxtı neftdən gələn gəlirlərdən dəyərincə istifadə edə bilmədik, çox israfçılığa yol verdik. Sabahı düşünmədən çox əliaçıqlıq etdik həm özümüzə, həm də digərlərinə. Biz neftlə ərköyün uşaq kimi rəftar etdik, düşünmədik ki, neftin lingləri hegemon dövlətlərin əlindədir, bir gün o bizi göydən yerə çırpa bilər. Nə isə, artıq bu baş verdi, çox güman ki, neft heç zaman yüz dollar səviyyəsinə qalxmayacaq, çünki böyük dövlətlər oyun oynayır, biz də istəmiyə-istəmiyə o oyunu içindəyik. Belə olan halda xalqın babat güzəranı üçün çıxış yolları aramaq lazımdı.

Bütün bu çətinliklərin fövqündə gözümüz önündə gənclik yetişir, bu gəncliyin az bir hissəsi, yaxşı güzəranla təmin olunur, ali təhsil alır və digər peşələrə yiyələnir. Çox qism gənclik isə, evsiz-eşiksiz, işsiz və pulsuzdu. Onlar müxtəlif yollara düşürlər, zərərli təsirlər altında əzilirlər, həbsxanalara atılırlar, ağrılı bir həyat yaşayırlar. Həbsxanadan da dəhşəti odur ki, belə gənclər müxtəlif dini qurumların təsiri altında beyinləri yuyulur, oz doğmalarına belə düşmən kimi baxırlar, hətta iş o yerə gəlib çıxıb ki, bunların dəstəsində qadınlar da önəmli yer tutur. Bu yaxınlarda xəbər saytlarında belə məlumat yayılmışdı ki, qadın öz ərindən ayrılıb, iki az yaşlı qızını da götürüb Suriyaya gedib və İŞİD-ə qoşulub. Bu necə olə bilər ki, öz ölkən müharibə şəraitində ola-ola sən başqa ölkədə kimlərləsə vuruşub, əlini qana bulaşdırsan, hansı ki, bilmirsən kim haqlı, kim haqsızdı! Vaxt ilə Azərbaycanda qapı-qapı düşüb sektaları, bizə yad olan məzhəbləri yayanlara qarşı heç bir ciddi tədbir görülmədi, savadsız, iradəsiz, pul-paraya ehtiyacı olan insanlar təsir altına düşdü. İndi bizim də içimizdə hər an alışa biləcək və kabus kimi bizi izləyən hal mövcuddur. Bunu danmaq olmaz, həyat şəraiti yaxşı olan insanlar heç zaman belə şirnikləndirici təkliflərə uyub öz həyatlarını faciəyə atmaz, bu insanların əksəriyyəti çətinlik, yoxsulluq ucbatından bu yola düşür.

İndi isə bir az da iqtidar-müxalifət haqqında fikirlərimi oxucularla bölüşmək istəyirəm. Bizdə iqtidar var, amma, bu iqtidarın içində də hər an müstəqilliyimizə zərbə vurmağa hazır olan qüvvələr var, bunlar əsasən dövlətin pulunu yeyib, varlanıb, harınlaşmış kəslərdir, onlar fürsət düşən kimi ölkəyə arxa çevirə bilərlər. Bizim ölkədə müxalifət isə yox dərəcəsindədir, ona görə də müxalifət xarici ölkələrin qonorarları, qrantları hesabına yaşamamalıdır, bizdə olan hal-hazır ki, müxalifət xarici qüvvələrdən asılı vəziyyətdədir, onlar hansı havanı

çalsalar, bizim müxalifət də o havanı oynayır. Belə müxalifət ölkəyə heç bir xeyir gətirə bilməz, əksinə xaos yaradar, ölkəni faciəyə sürükləyər. İnkişaf etmiş ölkələrdə müxalifət var, amma bu müxalifət özünün və dövlətin gəlirləri hesabına ayaqda olur, onlar heç bir xarici ölkədən asılı olmur. Yalnız iqtidarı tənqid edirlər ki, ölkədə inkişaf olsun, iqtidar özbaşınalıq etməsin, xalqın istəklərinə əməl etsin, onun rifahı üçün çalışsın. Bizdə hal-hazır ki, müxalifət iqtidarla düşmənçilik durumundadı, həmçinin iqtidar da müxalifətlə! Axı biz bu vəziyyətlə hara qədər yol qət edə bilərik, axı bizim müstəqilliyimiz çox kövrəkdi, o hələ uzun həyat yolu keçməyib. Hələ mən ölkəmizdə özünü yuxulu kimi göstərən beşinci kalonu demirəm, o baş qaldırsa lap işlərimiz fəna olar. Ona görə iqtidar bütün yuxarda yazdıqlarımı nəzərə almalıdır, gəncliyi alatoran vəziyyətdən çıxarmalıdır, ona gün-güzəran aramalıdı, əks təqdirdə nə canımızı, nə müstəqilliyimizi yaxşı günlər gözləmir. Ağıllı başlı, təmiz düşüncəli müxalif qüvvələr yaranmalıdır, dövlət onları dəstəkləməlidir ki, iqtidarı əyər-əskikliyini üzə çıxarsın, çünki tənqid olmayan yerdə inkişaf olmaz. Qapılarımız tənqidə açılmalıdır, əks təqdirdə bizi yaxşı günlər gözləmir, mən öz publisist düşüncəmə rəğmən yazdığımı yazdım, istər iqtidar, istər müxalifət bu barədə dərindən düşünməlidir, millətin, ölkənin gələcəyi naminə!...

29.10.2016

BAHALAŞMA ÖLKƏNİ FƏLAKƏTƏ APARIR

Dünəndən qanım qaralıb. Elə zənn etməyin ki, bu şəxsi məsələlərimlə bağlıdır. İnsan öz şəxsi məsələlərini bir təhər yoluna qoya bilər, amma söhbət bir ölkənin, orda yaşayan insanların taleyindən gedəndə, bir yazar olaraq susmağı özünə ar sayırsan. Manat devalivasiyaya (qiymətdən düşməyə) uğrayanda, mən manata birinci və ikinci məktub yazdım. Bu məktub dolayısıyla ölkənin taleyini həll edənlərə ünvanlanmışdı. Hələ manat bahalı olan zamanlarda kiçik bir ölkənin pul vahidinin hegemon dövlətlərin pul vahidindən üstün olması inandırıcı çıxmırdı, yəni adamın inanmağı gəlmirdi, neft gəlirlərinin hesabına manatı bu şəkildə saxlamaq özü səhv addım idi. Sonradan bu səhv addım, neft ucuzlaşandan sonra, biabırcasına dırnaqarası bəhrəsini verdi. Yəni neftdən gələn gəlirlər azaldıqca, donmuş manatın buzu açıldı və yavaş-yavaş əriməyə başladı.

Dünən neft gəlirlərini sağa-sola israf edənlər ölkənin sabahkı halından fikirləşmədilər. Onsuz da işsizlik, yoxsulluq içində əzilən xalq banklardan asılı vəziyyətdə qalıb. Borc içində batanlar ən sonda çıxış yolunu intiharda görürlər. Hələ mən işsizlikdən, ümidsizlikdən həyatını doğru-düzgün qura bilməyən gəncləri demirəm. Bu gün özlərini Avropa ölkələri ilə müqayisə

edən imkanlı adamlar bilməlidirlər ki, Avropada yaşam səviyyəsi bizim ölkədəki ilə eyni deyil, onlarda qaz-işıq-su və digər kommunal xərclər yüksəkdirsə, maaş da yüksəkdir. Onlar varlı dövlətlərdi, halallıqla, düzgünlüklə öz həyatlarını qurmuş ölkələrdi. Bizim böyük dövlətlərin bir şəhərində yaşayan qədər əhalimiz var, o əhalinin də yarısı pərən-pərən olub, diyarbadiyar düşüb xarici ölkələrə. Bir qarın çörəkçin öz yurdundan-yuvasından perikdilər. Əcabə, ey Milli Məclis əhli, sizi axı xalq seçib o mötəbər kürsülərə, bəs bu nə oyundu xalqın başına açırsız?!

Bəs bu millət bahalaşmadan sonra necə yaşayacaq? Hansı pullarla ödəyəcək kommunal xərcləri? Ölkənin taleyi ilə oynayanlar bilməlidirlər ki, sabahkı vəziyyət şər qüvvələrin hərəkətə keçməsinə səbəb ola bilər. Böyük qanlar hesabına qazandığımız başıbəlalı müstəqilliyimizi təhlükə altına atmayın. Siz xalqa israfçılığa yol verməməyi tövsiyə edirsiz, görəsən ən çox israfçılığa kim yol verib, sizlər, yoxsa xalq?!

Onsuz da yoxsulluğun ən aşağı həddində olan insanları çörəklə imtahana çəkməyin, bilirsiz ki, yanacaq bahalaşanda hökmən çörək də bahalaşacaq. Ac qarınları quru çörəklə doyduran insanların çörəyini əlindən almayın. Neft gəlirlərini dağıdanlar, hanı sizin iş yerləriniz?! Xalqın sərvətiylə bu cür rəftar etmək olmazdı, sizlər etdiz.

Deyirsiz işığın, qazın bahalaşması aşağı təbəqəyə aid deyil, sizin bu nağlınıza indiki zamanda körpə uşaqlar da inanmaz, çünki informasiya əsrdir, insanlar məlumatlıdırlar. Camaatı avam yerinə qoymayın. Nə etdiyinizin fərqində olun, bu müstəqilliyi təkcə yuxarda oturan sizlər yox, keçən əsrin 90-cı illərində bütün xalq qazandı, xalqın qələbəsindən gen-bol istifadə edib varlandız, daha doğrusu bunu bacardız, ancaq bir xalqdan da düşünün. Milləti rəzil, dilənçi günə salmayın, ölkədə xaos, fəlakət başlasa bu sizlərdən də yan keçməyəcək. Amanın bir günüdü, insanlarımızın arasında oğruların, yol kəsənlərin, özünə qəsd edənlərin, çirkin həyata qurşananların sayını artırmayın. Bizim işğalda olan torpaqlarımız boyda həll olunmamış, həll olunması düyünə düşmüş dərdimiz var. Sizin dırnaqarası baxdığınız, min bir zülmlə böyüdülən kasıb zümrənin balalarıdı cəbhədə ön xəttdə sinələrini sipər edənlər. O oğulların valideyinləri ilə insafsızcasına rəftar etməyin! İnsanların maaşlarını artırın, gənclərə iş yerləri açın, bahalaşmadan çıxış yolu arayın, millət olmasa, nə dövlət olar, nə ölkə!

Dövlətçiliyimizin, müstəqilliyimizin sabahı naminə ölkəmizi fəlakətə aparmayın. Siz özünüz də yaxşı bilirsiz ki, manat donan vaxtlarda insanlar banklardan öz həyat şəraitlərini qurmaq üçün kreditlə pullar götürüblər, indi o pullar iki qat, üç qat şişirdilib, banklar camaatın boğazından yapışıb, adamlar borc məngənəsində boğulurlar. Maddiyyət ucbatından doğmalar bir-biriylə

düşmən olurlar. Gündən-günə insanların həyat şəraiti pisləşməyə doğru gedir, hətta cavanlar arasında sağalmaz xəstəliklərə tutulanların sayı artıb.

Ey özlərini tutanlar, varlananlar, bahalı villalarınızdan, bahalı maşınlarınızdan başınızı çölə çıxarıb camaatın halına baxın, ey kasıb xalqın varlanmış insanları, yığdıqlarınızın taleyini düşünün, keçən əsrlərdə böyük dövlətlərdə baş verən inqilabları, yada salın, ciddiyyətə alın, biz hamılıqla fəlakətə gedirik, bu fəlakətin qarşısını siz imkanlılar ala bilərsiz, açdığınız iş yerlər ilə, artırılan maaşlarla.

Bizdən yazmaqdı, biz yazdıq sözümüzü dedik, hələ bugün vaxt itirmədən millətin, ölkənin gələcəyinin təminatı naminə hərəkətə keçin, xalqın ağzından tikələri qopartmayın...bu sizin də bərəkətinizin tükənməsinə gətirib çıxarar. Bunu biz demirik – tarix deyir, tarixdən öyüd götürənlər bunu yaxşı bilir, sizlər də bilsəniz hamılıqla bütün ölkəmizə yaxşı olar. Ümid edək ki, düşdüyümüz durumdan nəticə çıxaracaqsız, bütün yaxşılıqlar bizlərlə olacaq...Əks təqdirdə bahalaşma ölkəni fəlakətə aparacaq...

01.12.2016

NEFT ÇIXARAN NEFTÇİLƏRİN FACİƏLİ HƏYATI

Mən dənizdə, Neft Daşlarında Geofizikada işləməyə gedəndə 1985-ci il idi. Onda hələ Neft Daşlarının yaxşı günləri idi, estakadalar ciddi nəzarət altında idi, dənizdə iki tikinti idarəsi fəaliyyət göstərirdi, bu tikinti idarələri, tikilməli estakadaları, meydançaları yüksək səviyyədə tikir və neftçilərin istifadəsinə verirdi. Təmirə ehtiyacı olanları təmir edirdilər. O zaman ölkəni SSRİ idarə edirdi, neftimiz bəyənmədiyimiz, öz istiqlalımız uğrunda mübarizə apardığımız Moskvanın idarəçiliyi altında idi. Etiraf etmək lazımdır ki, o zaman insanlarımız bu sayda dənizə qərq olmurdu, təsadüfü, ara-sıra qəzalar olurdu, amma bu qəzalar çox saylı insan itkisi ilə nəticələnmirdi, çünki insanların təhlükəsizliyi tam nəzarət altında idi. Dənizdə tikinti sahəsində çalışanlardan tutmuş digər sahələr də daxil olmaqla Xəzərdə işini bilən mütəxəsislər çalışırdı. Dənizin tufanları qoynunda çalışan insanların həyatına mə`sul olan şəxslər öz mə`suliyyət hissini dərindən dərk edirdilər. Qurudan fərqli olaraq, insanlar dəniz üzərində qurulmuş estakadaların üzəri ilə iş yerlərinə daşınırdılar. Bu estakadaların üstündə ağır tonlu maşınlar hərəkət edirdi, biz güclü tufanları görürdük, amma bu tufanlar insan itkisinə gətirib çıxarmırdı, bunun başlıca səbəbi o idi ki, insan varlığına diqqət var idi. İnsan varlığı, hər bir neftçinin həyatı neft gəlirlərindən istifadə edən ölkə üçün çox dəyərli idi. Neftçilər üçün üç, 300-400 nəfər adamı daşıyan gəmi, Bakı dəniz limanı ilə Neft Daşları arasında işləyirdi, insanlar çox rahat şəkildə basabassız işə gedib gəlirdilər, paytaxtdan uzaqda yaşayanlara helikopterlər

(vertolyotlar) xidmət edirdi, (Damba) Gürganla Neft Daşları arasında kiçik tutumlu gəmilər işləyirdi, iri tutumlu gəmilərə hövsələsi çatmayanlar helikopterlərə üz tuturdu, təmənnasız, çətinlik çəkmədən insanlar sahilə daşınırdı. Bir sözlə, neftçi əməyinə misilsiz hörmət və qayğı var idi. Neft Daşlarında fəaliyyət göstərən kitabxanaya demək olardı ki, hər gün təzə qəzetlər gəlirdi, kitab dükanında daimi təzə kitabların satışı təşkil olunurdu, bir sözlə dənizdə işləyən insanların maddi və mənəvi durumu ən yüksək səviyyədə idi.

Mən 2007-ci ildə həyat yoldaşımla iş yerini tərk edib, könüllü təqaüdə gedəndə artıq Neft Daşlarının ağlar günləri bir neçə il idi ki, başlamışdı. İnsanların dənizdən gediş-gəlişi çətinləşmişdi, 3 iri tutumlu gəminin biri sovetlər dağıla-dağılda, artıq öz ömrün başa vurdu deyib onu sıradan çıxartmışdılar. Artıq helikopterlər insanlara əvvəlki kimi xidmət etmirdi, helikopterlərlə idarə rəisləri, bir də Günəşli yatağında işləyən neftçilər gedirdilər, qalan camaat isə iki gəminin, bir də sovetdən qalma sınıq-sökük kiçik tutumlu gəmilərin ümidinə qalmışdı. İki gəmini də biri xarab olub, təmirə dayananda onun təmiri düz 6 ay çəkirdi, insanların əzablı günləri başlayırdı, onlar hər vəchlə iş yerinə vaxtında çatıb idarə rəhbərlərindən töhmət almamaq üçün mütləq gəminin içərisinə özünü salmalı idi, zəiflər, abır-həyasına bükülənlər arada sıxılıb əzilirdilər, hətta dəfələrlə basabas zamanı ölüm hadisələri də olmuşdu. Bir də qeyd edirəm ki, bütün bu dəhşətli günlər biz müstəqilliyimizi qazanan gündən sonra başladı.

Ölkənin əsas gəlirinin qarantı olan neftçini çəkdiyi zülmü mən özüm çəkmişəm, çünki mən də onlardan biri kimi o yolu gedib-gəlirdim. Artıq biz ordan çıxdığımız illərdə neft meydançaları və estakadaların bir çoxu öz ömrünü başa vurmuşdu. İstər Günəşli yatağı, İstər Neft Daşları, istər Abşeronneft, istər Nərimanovneft Sovet dövründə tikilmiş və öz ömrünü yaşamış meyadançalar və estakadalardan ibarətdir.

SOCAR-a məxsus və Sovet dövründə istismara verilmiş meydançalarda işləyən neftçilər Allahın ümidinə qalıb. Bu meydança və estakadalarda heç bir təmirdən söhbət getmədiyi üçün oradakı hər kəs hər an ölüm təhlükəsi ilə üzə-üzədi.

Dekabrın 15-də səhər saat 05.00 radələrində Xəzər dənizində şiddətli, güclü külək "Azneft" İB-nin N.Nərimanov adına Neft-Qaz Çıxarma İdarəsinin 3 saylı neft yığım məntəqəsinin sağ və sol hissəsində yerləşən estakadanın, uzunluğu təqribən 150 metr olan hissəsini, dənizə uçurub. Estakadanın həmin hissəsi özü ilə birlikdə, ona bitişik olan meydançanı və üzərindəki yaşayış budkasını da uçurub və 10 nəfər neftçi sulara qərq olub...

Biz hələ keçən il bu vaxtlar Günəşli yatağında 30 nəfərin ölümüylə nəticələnmiş faciənin ağrılarını unutmamış növbəti faciə ilə qarşılaşdıq. Baş

verən bu dəhşətlərə cavabdeh adamlar niyə susur? Niyə neftçi əməyinin nəticəsi neftçinin ölümü bahasına başa gəlməlidi? Çürümüş dəmir dirəkləri rəngləyib üstünə tə`mir adı qoymaq hansı məntiqə sığır?! Biz müstəqillik qazanandan sonra bu qədərmi sağlığımız cavabdeh şəxslərin gözündə ucuzlaşdı?! Bəlkə doğrudan da, millət olaraq biz bir-birimizə düşmən kəsilmişik. Yoxsa biz hər yeni ili matəmləmi qarşılamalıyıq?!

Bu gün kimlərinsə məsuliyyətsizliyi, laqeydliyi, haramxorluğu ucbatından 10 ailənin çırağı söndü, ata yolunu gözləyən övladlar gözü yaşlı qaldı. Neftin barını yeyib, pulunu sağa-sola xərcləyib kef edənlər içlərində olan vicdan deyilən bir məfhumun qışqırtısını eşitdilərmi?! Harama dadanıb, millətin ağrı-acılarını veclərinə almayanlar, Tanrı hər birimizə bir ömür əta edib. Sizlər ömür adlı, Allah mükafatını xətalarla, günahlarla boyamayın, bilin ki, heçnə elə belə deyil, bir körpənin yetim qalması və yetimin naləsindən doğan göz yaşı heç zaman yerdə qalmaz, o nalə, o göz yaşına səbəb olanları gurşadına batırar. Bax o batacağınız günü düşünün. Sizlərin də balaları var, amma o balalar keflə, cah-calalla yaşayır, neftçi sizdən cah-calal istəmir, istəsə də siz ona qıyan deyilsiz! Öz haqqın istəyir. Onun haqqı – təhlükəsiz işə gedib, sağ-salamat evinə dönməkdən ibarətdir. Bu haqqı sizlər təmin etməlisiz, çünki sizlər cavabdeh şəxslərsiz!

Yazımın axırında, cənab Rövnəq Abdullayev, sizə üzümü tutub deyirəm ki, siz özünüz də dənizdə təmir-tikinti işindən SOKAR-ın prezidenti vəzifəsinə yüksəlmisiniz. Siz yaxşı bilirsiz, dənizdə estakadaların ömrü neçə ilə hesablanıb, özünüzə rəva bilmədiyinizi başqalarına da rəva bilməyin...Onu da bilin ki, xalqın gözü – tərəzidir, onun gözündən heçnə yayınmır, xalqın isə nifrətini qazanmaq heç bir kəsə xeyir gətirməyib, ziyandan savayı...

Ölkəyə milyardlarla xeyir verən, ölkənin yeganə dolanışıq yeri neftdir. Nefti çıxaran neftçini faciəli həyatla baş-başa buraxmaq ən böyük qəbahət, ən böyük günahdır. Neftçiləri dənizdə batırıb onlara abidə qoymaq lazım deyil, onlara can sağlığı lazımdı. Neftçilərin canlarının sağ olması üçünsə işlədikləri yerlərdə təhlükəsiz meydançalar və estakadalar gərəkdir. Günahkarlar cəzaların almasa və bu problemlər kökündən yoluna qoyulmasa, deyəsən bu faciələr tez-tez baş verəcək. Əlqərəz, nə Xəzər küləksiz olan deyil, nə estakada və meydançalar öz-özünə təzədən tikilən deyil. Bu məsuliyyəti daşıyan şəxslər, neft çıxaran neftçilərin faciəli həyatına son qoyun. Onların halal zəhmətinin bəhrəsini yeyirsiz...Allahdan qorxun, hay-hayla gələnin vay-vayla getməyi də var, bunu heç unutmayın! Sizlərə deyəcəyim bu qədər...

16.12.2016

MÜƏLLİF HAQQINDA

Şirinxanım Ağabala qızı Kərimbəyli (ədəbi təxəllüsü ŞADİMAN) 2 sentyabr 1955-ci ildə Siyəzən (keçmiş Dəvəçi, indiki Şabran) bölgəsinin Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra Siyəzən şəhər 2 saylı orta məktəbi bitirib. 1973-75-ci illərdə Yenikənd üzümçülük sovxozunda fəhlə,1975-76-cı illərdə Volodarski adına tikiş fabrikında tikişçi işləyib.1977-ci il-də ADU-nun (indiki BDU) hazırlıq şöbəsində dinləyiçi, 1978-83-cu illərdə Kitabxanaçılıq fakultəsinin əyani şöbəsini bitirib. 1992-ci ildə Azərbaycan jurnalist Sənətkarlığı İnstitutun məzunu olub. 1984-cü ildə Dəvəçi rayonun (indiki Şabran), hal-hazırda Siyəzən rayonun inzibatı ərazisi sayılan Gilgilçay qəsəbəsində kitabxana müdiri vəzifəsində çalışıb. 1985-2007-ci illərdə ADNŞ-nın Mədəngeofizik idarəsinin «Neft Daşları» geofizik ekspedisiyasında cizgiçi, texnik, mühəndis peşələrində çalışıb.

2007-ci ildən həmin idarədən əmək təqaüdünə çıxıb. Əmək fəaliyyəti ilə bərabər bədii yaradıcılığını davam etdirib. Dövrü mətbuatın mətbu orqanları olan «Neft Daşları», «Ədalət», «Çənlibel», «Azərbaycan müəllimi», «Bütöv Azərbaycan», «Kredo», «Mütərcim», «Məhsəti» və sair qəzet-jurnallarda çap olunub. «Məcməüs-şüəra»(Şairlər məclisi), «Füzuli» ədəbi məclislərin üzvü olub. AYB-nın və CASCFEN(Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi)nin üzvüdür. Hal-hazırda ədəbi fəaliyyətlə məşğuldur. «Modern.az», «Yalquzaq.com», «Davam.az» «Lit.parad», «Dayaq.az» və sair internet portallarla yaradıcılıq əlaqələri saxlayır. «Azpressin» və «Kredo» qəzetinin əməkdaşıdır. Şəxsi saytı aktiv fəliyyətdədir.

Müəllifin çapdan çıxmış kitabları:

1. «Ürək niyə ağrıyırsan?», (Şeirlər), Bakı-1991, «Azərnəşr», 56 səhifə, sayı 3000.
2. «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2000, AEK «Marfa press» nəşr., 400 səhifə, sayı 1000.
3. «Kiminə acı dünya, kiminin tacı dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2002, «Nurlan», nəşr., 566 səhifə, sayı 500.
4. «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» (Şeirlər, poema), Bakı -2007, «Nurlan» nəşr., 742 səhifə, sayı 500.
5. «Seçmələr» (1 cild), Bakı-2008, «Nurlan» nəşr., 292 səhifə, sayı 1200.
6. «Məni illərdən soruşun» (Publisist düşüncə), Bakı-2008, «MBM» 95 səhifə, sayı 300.
7. «Dünya mənə tanış gəlir» adı ilə «Ürək niyə ağrıyırsan?» və «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya» kitablarının birlikdə təkrar nəşri, Bakı-2009, «Nurlan» nəşr., 522 səhifə, sayı1000.
8. «Tağayım», poema, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 56, sayı 500.
9. «Ay adamlar, mən burdayam», «Adiloğlu» nəş. Bakı-2012 səhifə 454, sayı 500.
10. «Seçmələr», 2-ci cild, Bakı-2012, «Adiloğlu» nəş., səhifə 326, sayı 1200.
11. «Ötənlərdən gələn səslər», « Qanun» nəş. Bakı 2013, səhifə 632, sayı 500.
12. «Ötənlərdən gələn səslər», 2-ciild, «Qanun» nəşriyatı.,

Baki 2014, səhifə 480, sayı 500.

13. . «Seçmələr», 3-ci cild, Bakı-2015, «Qanun» nəşriyatı, səhifə 438, sayı 750

14. «Seçmələr», 4-ci cild, Bakı-2015, «Qanun» nəşriyatı, Səhifə 360, sayı 750
15. «Söz könlümü qələm etdi» /publisistik düşüncələr/ «Qanun» nəşriyatı, səhifə 288, sayı 500.

Müəllif və əsərləri haqqında çap olunmuş kitablar:

1. «Adı Şadiman olanın», Əli Rza Xələfli, Bakı-2009, «Təknur» nəş., səhifə 256, sayı 1000.
2. «Axtala əfsanəsi», Əli Rza Xələfli, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 144, sayı 500.
3. «Üç rəngli bayrağa bürünmüş şairə» Nəzirməmməd Zöhrablı, Bakı-2010, «Adiloğlu» nəşr., 148 səhifə, sayı 500.
4. «Qırmızı həqiqətlər», Əli Rza Xələfli, Bakı-2011, «Adiloğlu» nəşr., səhifə 130, sayı 500.

MÜNDƏRİCAT

İLAHİYƏ YETƏN SƏDAM

Müəllifdən 3
Tək yaradana gümanım 5
Məzhəb acısından qop, ay müsəlman 6
Bahar buludutək 7
İki qapı 8
Hara gəlmişəm 8
Mən ilahi təşnəsiyəm 9
Utanıram, ilahi 9
Din adı altında bu vəhşiliklər 10
Kainat içrə dolaşdım 11
Ah məzhəblər 12
İlahi, hardasan 14
Yanan atəş ol 15
Allahın eşqinə bürünmüşəm mən 15
İlahi, bizə həyan ol 16
İçimdə tənhalıq yatır 17
Özünü göstər 17
Kərəminə şükür 18
İlahi, yolumu aç 19

DÜNYA

Əfqan qaçqını 20
İnsanlar 22
İnsafı yoxmu 23
Nədən xəlq etdi 23
Bilmədin dünya 25
Yoruldum artıq bu dünyada qalmaqdan 24
Bilsəydim gəlməzdim 25
Yaman düşdün oda 26
Fəryadı içində batan türkmən 26
Belə getsə 28
Dünyanı hamı danlar 28
Möhlətinə vurulmuşam 29
Xoş sabahlar açılsın 30
Göylər səndən aralı 30

Dünyamızı qoruyaq 31
Düşdün dünya 31
İnsanı alət etməyin 32
Dərdlə çox göynədin 33
Tələsdin könlümü əzməyə dünya 34
Sahib çıxmadın 34
Sən elə gözəldin 35
Biz niyə inandıq sözünə, həkim 36
Sormuşam dünya 38
Xatirə imiş 38
Hamı düşüb bu dünyanın üstünə 39
Dönəcəyim var 39

VƏTƏN ƏQLİN HİKMƏTİDİ

Türk oğlu türk 40
Quba məzarlığı 41
Urmu gölü ağısı 44
Vətən əqlin hikmətidi 45
Türkün bayrağı 46
Əsli-soyu tamam danan 47
Qalıb çadırlarda 48
Heç olmadı bir xoş günümüz 49
Ağrısın tarixə salan Albanya 50
Səni qana salan 51
Ey Dərbəndim 52
Sevdamsan, Vətən 53
Pulum, ey pulum 54
Vətənin varlığı 55
Ermənin gülləsi batmadı sənə 56
Eşqinə düşdüm 57
Açılmayır baxt 57
Eşqin bitməz Azərbaycan 58
Bəxtin açılsın 59
Balıq baha, daha əti yemirəm 60
Doktor Cavadı 62
Səni çox sevirəm, Vətən 63
Ürək yanır, ey şəhidim 64
Səpilib yer üzünə 65
Çanaqqala 66

Yandıq, su verin bizə 68
Aç qaranı başdan, vətən 70
Soyulmağa öyrəşmişik, a millət 71
Qolları dibindən vurulan 72
Torpağının qoxusu 74
Bir parça odum 75
Heç kəs səni əyə bilməz, Türkiyə 76
Baxmayın ölü kimi 77
Əsgərim 78
Dərdim içdə yandı 79
Şanlı ordum 80
Qələmim hönkürür 81
Əsgər, durma, irəli 82
Dilində batsın 83
Əsgərə məktub 84
Titrəsin düşmənimiz 84
Param-parça bu Vətən 84
Sındırma özünü 85
Ey türk oğlu, türk əsgəri 86
Qəribəm Vətən 87
Vətəndən qərib düşənlər 88
Vətən mənim içimdədi 89
Vətən 90
Biz enirik 90
Ovçular 90
Sən ozan oldun 91

ÖZÜMÜ AXTARIRAM

Dərdimi bilmirəm kimə danışım 92
Çürük adamlar 93
Acı gümanlar 93
Niyə gəldim mən 94
Ömür 94
Kişilər 95
Dünyanın vəfası paradan keçir 96
Bir acı yaşar 96
Edilən yaxşılıq qayıtmır geri 97
Özümdə tapdım 97
Küçə uşaqları – gözləri qəmli 98

Ey mənim əlimdən qaçan illərim 99
Bilmirəm səni 99
Ömrümü həsr etdim 100
Dövran sulayır 101
Bənd olub qaldım 101
Həyat məsum bir körpə 102
Keçmişdə qalan günlərim 102
Gəlirsən səadət gətir 103
Bir ürəyin iki yeri 103
Ey yeni il 103
Hər gün gəlib keçirsən 104
Ömür elə keçir 104
Ürəyimə gömültdüm 105
Nişanlarım var 105
İnsan kimdir? 106
Əli-qolu bağlıların 106
Ömür kino lentıtək 107
Kəsirlər dosta qurban 107
Hərə bir gələm götürüb 108
Gərək dürüst ola 108
Düzgün olmayan həyat 109
Bir il də getdi ömürdən 110
Qapımda duran zaman 110
Haqq yola gələndi 111
Adam əməliylə hər gün yekəlir 111
Gizli könül nağılı 112
Aclığı olan bir kəsin 112
Kədər buludları 113
Gecədən doğan səhər 114
Cahan içində 115
Arasına düşmüşəm 115
Duyğularım var 116
Yandırıb yaxır 116
Getmək istəyir 117
Doğmanın ağrısı 117
Taleyimin quluyam 118
Keçdi ömürdən 119
Düşüb canım tələtümə 120
Ürəyi etdim nişan 120
Dönük üzlüm 121

Döyəsən tale qapımı ... 122
Bu uşağın gözlərində qəm ... 122
Könüldən keçir ... 124
Dil deyə bilmir ... 124
Hikmətin məkanı ... 126
Can qonub zaman telinə ... 126
Özünə vurğunsan ... 127
İtirmək istəmirəm ... 128
Batıb qalmış könlümü ... 129
Ürəyin aynası ... 129
Yaltaqlıq sənəti ... 130
Sirr deyil həyat ... 131
Keçdik səninlə ... 132
Həyat beşiyi ... 133
Həyatın nəbzi ... 134
Boylanan adam ... 135
Ömrə xoş gəlmisən ... 136
Şikayət edir ... 137
Qəlbə məktub yolladım ... 138
Ürəyimin içində daş ... 139
Ömrümüz qaçır ... 139
Can yatıran ... 140
Ehtiyacım var ... 140
Ömrümü əlimdən aparan saat ... 141
Yaman çəkdin dağı bizə ... 142
Məndən yazdıqlarıma cavab istəmə ... 143
Dam deyiləm ... 143
Sənə doğru ... 144
Yağan yağış ... 145
Ey göz yaşım ... 145
Ürəyimdən daş asılıb ... 146
Fikirimdən daşındırma ... 146
Canım demişəm ... 147
Açılan dildi ... 147
Dərd yüküm ... 148
Həyat eşqi ... 148
Gecəyə deyiləcək ağım ... 149
Uşaqlığın nağılı ... 150
Ömür yaxşı ... 153
Tikanlı sözlər ... 154

Ruh əzabı 154
Varlığının sübutu 155
İşıq dolu 156
Nağlına düşdüm 156
Ağlar qalan 157
Keçib gedən 158
Ey saflıq quşu 158
Münəvvər 159
Sən mənim canımsan 160
Güllərdən gözəlsən 161
Könül 162
İtirdik dünən 163
Dünyadan kəsilmir qırğın 164
Xəzana dönən 165
Köç edən 165
Sevgidən yazır 165
Məhəbətdən dəm vurma 166
Ay adam 166

TƏB DİLƏ GƏLƏNDƏ

Anamın ruhundan gəlibdi heca 167
Doğulan şeir 168
Əgər qulaq asırsansa mənə 168
Ruhumun özümdən 169
Kirpiklərim daş altında 170
Gur çay kimiyəm 170
Heca 171
Düşür yadıma 172
Gecələrin sükutunu çox sevirəm 172
Dolanırsan can başına 173
Niyə belə zalım olur 173
Adamlardan qaçıram 174
A tale 174
Ürəyimlə görüşəcəm 175
İzimə sarı 176
Qəh-qəh çəkdin 176
Mən minnətçi düşdüm 177
Misralarım 177
Bəs edər 178

Yuxusuz gecələrim 178
Mənə bir imkan verin 179
Ruhumu əlinə aldın 180
Ömrümə yağan yağış 181
Qəlbimdən yuxarı həsrətin baxır 181
Yenə ürəyimə möhnət çatmısan 182
Məni incitməyə fürsət gəzirsən 183
Bəs bu nədir, İlahi 183
Başıma dərd açan gecə 184
Dadlı bir həzdi 184
Ruhumda titrəyiş var 185
Əsib keçən küləklər 185
Gözləri uyğuda olanları 185
Gücüm qalmayıb 186
Çıxıb gəlmişəm 186
Mənə ilham verdin 187
Sevgili sözlərim 187
Pərvanə 188
Aramızda yollar var 188
Gəzirsiz otağda 189
Şam işığı 190
Qəfəslərdə saxlamaq olmur 190
Qopara bilməz 191
Şairin günü 191
Gecənin yastığı 192
Doldun kədərlə 192
İçimdən hayqıran ağrı-acılar 193
Mənim tənha yelkənim 194
Getmisən məndən 195
Sevgili yoxmuş 196
Könül dostum 196
Hamı qapanıb içinə 197
Havalı canım 198
Yuxudan qaldırdı məni 199
Sözün havası 199
Məni təbə qovuşdur 200
Qapımı döyən misra 200
Bu həsrətdən al məni 201
Bu gecə yuxuma gəlib 201
Şairin həyatı onsuz da zindandır 202

Bulaq kimi ... 202
Getmədin heç vaxt ... 203
Ürəyim ... 204
Heç nə yazmayıb bizə ... 204
Ruh ortağım ... 205
Bədən içində ... 206
Gün düşür ... 206
İçimdə bir sevgi var ... 207
Nədən mürgülüsən ... 208
Möhnətin ağırdı ... 209
Ruhunu qoruyan yuvam ... 209
Ruhun çağırışı ... 210
Yanğı var ... 211
Günüm qaradır ... 211

EŞQİMİZİN XATİRİNƏ

Yaman ayrılmışıq ... 212
Mənə sahib çıxanım ... 212
Sən elə bilirdin öləcəm sənsiz ... 213
Səni sevməmək olarmı ... 214
Sevgilərim solmayır ... 214
Sənə diləkçə yazıram ... 215
Zamanımız uzaq düşdü ... 216
Atmaram yerə ... 216
Bir nağıl danış ... 217
Bağçamızda iki lalə bitibdi ... 218
Əllərin toxunur kirpiklərimə ... 218
Avaz gəldi ... 219
Axtarırdım ... 220
Körpü çəkildi ... 220
Bahanə axtarırsan ... 221
Səni necə inandırım? ... 222
Mən niyə gözlədim ... 222
Dolaşır mehtək ... 223
Yuvasına gəlmisən ... 223
Deyirlər ... 224
Gözlərinə denən ki ... 224
Mətləb istəyir ... 225
Ürəyimin tellərin qırdın ... 225

Könül qapım sənə açıq ... 226
Dolaşıb qalmışam ... 226
Çıxıb gəlmisən ... 227
Kəsilibdi ülfətin ... 227
Küsmə məndən, küsmə ... 228
Baxırsan mənə ... 228
Gözümdən boylanır gözlərin yenə ... 229
Bu nə gülüş gözlərində göründü ... 229
Yaman dəymisən ... 230
Sənsiz nə edəcəm ... 231
Dilimdə dolaşan ... 231
Küsüb barışırsan ... 232
Məhəbbət bir əmanət ... 232
Ürəyimi can bilib ... 233
Bilirsən ki, sevirəm ... 234
Yaman incimisən ... 234
Məni sevdaya salan ... 234
Bu necə məhəbbətdi ... 235
Mənə sevgidən danış ... 236
Ulduzlar parlar ... 237
Yaman ürəyimə düşmüsən ... 238
Hər tərəfdə gözəllik ... 238
Könül şam işığı ... 239
Sən başqa dünyanın adamısan ... 240
Niyə fikrimdən çıxmırsan? ... 240
Sən elə bilmə ki ... 241
Bağlıyam sənə ... 242
Bahar ətri var ... 242
Açsın könüldə çiçək ... 243
Məktubu almışam səndən ... 244
Bu nə sevgidi ... 244
Sehirlənib diləklər ... 245
Ürəyim sənin yanında ... 245
Sənə bağlıdır ... 246
Saldın ürəyi ... 247
Yuva qurdum ... 247
Boylanıb baxdın ... 247
İşıqsan ... 248
Bir ürək vermişdin mənə ... 248
Bu gecə dolu ay çıxmışdı ... 249

Səni röyalarda yaşadıram 250
Köçürmüşəm mən 250
Ağlıma hardan düşmüsən 251
Səhər-səhər nə xoş baxdın 251
Asan deyilmiş 252
Məktubların kəsilib 252
İstəyin üzümə gülməyir 253
Niyə məni peşman etdin?. 254
Elə sev məni 254
Yenə də gəldi yuxuma 255
İçim qan ağlayır 255
Beşik deyil 256
Yuxumda gülürdün 256
İz qoyma belə 257
Acı göz yaşları axıtma 258
Çay təki sandım 258
Ah məhəbbət, sən nələr etdin 259
Nəfəsinə ehtiyacım var 259
Xoş baxırsan 260
Bülbül güldən inciməz 260
Əllərim uzalı 261
Baxışıma yox demə 261
Təbiətin xoş vaxtı 262
Ey mənim sevdiyim 262
Ulduz yağışı 263
Elə girdin həyatıma 264
Ey duyğu ortağım 264
Görmürsən mənim halımı 265
Bu nə sevda yuxusu 265
İçimdən hayqıran ağrı-acılar 266
Qapımda dayanıb 266
Bu səadət bitməsin 267
Günəş çıxan təki 267
Gəl gedək 268
Bu bir xəyal imiş 268
Ürəyimə girmisən 269
Bir baxışla 269
Bir sevdanın işığına 270
İnsanın bir sütunudu 270
Ürəyimdə yaşadıram 271

Can deyə bilsən 272
Gözlərim yaşla dolu 272
Qorxulu yuxu 272
Qapımdan girsin 274
Tellər bağlayıb 274
Vəfalı dildar 274
Dustaq olarkən 275
Sənə şeir yazırdım 275
Xəbərin varmı 276
Halım qarışıq 276
Ürəyimdə qal 278
Ətrafımda dolaşma 278
Həyata sən bağlamısan 279
Ayrılıq havası çalırsan 279
Ayrılıq şərqisi 280
Məni məğmun etdi baxışın 280
Şəfəq saçırsan 281
Çiçəkləri göndərən dostum 282
Duyğuları günə sərmisən 282
Qorxuram yaman 283
Kədərinə düşmüşəm 284
Gəlirsənsə 284
Gətirmirəm mən 285
Düşüb qalmışam 285
Ürəyimdə şikayətim 286
Gəzirsən könlümdə 286
Darıxıram sənincin 287
Qəlbinə yük olacağam 288
Ehtiyacım var 288
Bu gecə gəlmişdi 289
Çəkmisən ərşə yuxumu 289
Sənin nəyinə lazım 290
Ülfətin yaman kəsilib 290
Yaman gəzirsən 291
Ürəyimdə yandırdığın 291
Mən neyləyim 292
Kölgələr kimi 292
Mənə sevmək gəl öyrətmə 293
Xəyala bənzər 293
Çıxarda bilmədim 294

Aldın ürəyimi 295
Sən 295
Gözümdən düşür 296
Ayrılıq nəğməsi oxuma 296
Sənsizlik 296
Mən də ordayam 297
Hicran küləkləri 298
Səni deyib gəzir 298
Nə yaxşı ki, sən varsan 299
Eşqə yandım 299
Qürbətə sevgi məktubu 300
Pəncərəm mənim 301
Sevgi 302
Sevən adam 302
Çıxar ürəyimdən 303
Bir az üzün gülsün 304
Atəş olaq 304
Soyuq yelləri 305
Xəyalların içində 306
Ruhun içində 306
Cəfasıdır ürəkdə 307
Nə müddətdir 308
Bilsən 308
Elə get ki, ürəkdən 309
Məkəm tapanım 309
Elə getmisən 310
Can demirsən 310
Göylərdən yerə vurdun 311
Unut məni 311
Ürəyimdə qoruya bilsəm 311
Eşqinə inana bilsəm 312
Çıxıb gəlirəм 312
Tapa bilmirəm 313
Uzaqdan keçib gedirsən 313
Sənsiz yaşamağım çətindi 314
Mənə doğmasan 314
Könlümüzü üzücək 315
Xoş gəldi mənə 316
Həsrət daşıyıram 316
Gözümdən yaman qaçırtdın 317

Qısqan məni ... 317
Ürəyimin özü sənsən ... 318
Yuxuna da gəlməyəcəm ... 318
Gəlim yuxularına ... 319
Çox sözlərim var ... 319
Çağır yanına ... 320
Səni mənə bağlayan ... 321
Qəlbi qopartdın ... 321
Halımı sormursan ... 322
Dolaşır başımda ... 322

QƏZƏL BİLƏR ŞEİRİN DİLİN

Yenə min təlaş ilən ... 323
Ahım bürüyüb tutdu mənim qəlbimi, ey yar ... 323
Çəkirəm ahu-fəqan hər gecə candan o yana ... 324
Bulmadım bir arzu-kam ... 324
Yer üzünün barı yağış ... 325
Pozur yenə əhvalı qış ... 325
Bu Fələk etmədi bir çarə mənə ... 326
Aləmləri gəzdi ... 327
Sevgili dildar eşqinə ... 327
Qurban Vətənə ... 328
Ganım üçün ... 328
Yari-vəfadar gələsən ... 329
Bu payız ... 329
Yarıma deyin gəlsin ... 330
Bu dilək ... 330
Sən bilirsən ... 331
Könlüm dildən incik düşüb ... 331
Əcəb düşdüm qəlb içinə ... 332
Hicranına qarşı ... 332
Vəfa qılma bir kimsədən ... 333
Duyğularım öcəşir ... 333
Yenə qəm basdı məni ... 334
Həzin-həzin fəğan etdin ... 334
Düşmüşük yamanca dövrə başabaş ... 335
Yamanca kəmənd etdin ... 336
Gəl ey bəxti qara könül ... 336
Ulduzlar səpilib seyrinə ... 337

Ağlaram hicrinə mən ... 337
Adın içrə gülüstandır ... 338
Ürəyi güzgü sanıb ... 338
Bilsənə ey yar ... 339
Verirəm şe'rə könül ... 339
Sən bu gecə ... 340
Sözüm üçün ... 340
İşığım ... 340
Gecələr ... 341
Yar ola ... 341
Yar üçün ... 342
Səni duymağa çalışdım ... 342
Yar, sənə qurban mən olum ... 343
Hicran yarası ... 343

TƏBİƏT BİR NƏĞMƏDİR

Könlümü oxşar bağçamız ... 344
Əcəb bənövşələr açıb telləri ... 344
Sarı-qırmızı güllər ... 345
Bu güllər ... 346
Adanın küləyi ruhumda əsir ... 346
Aləmi başına götürüb yağış ... 347
Yuxumu qaçıran yağış ... 348
Bu payız günündə ... 348
Şıltaq külək ... 349
Qərənfil ... 350
Əsir səhər küləyi ... 350
Gecə sükut içində ... 351
Bu axşam ... 352
Saralmış yarpaqlar ... 352
Soyuq çağında ... 353
Qış oyunu ... 353
Çiçək açır ... 354
Buludlar xatırlar şıltaq uşağı ... 354
Atəşlər saçan ... 355
Göylərin əhvalı aləmi bəzər ... 355
Ürəyim yaman göynəyir ... 356
Bağrımı yaxırsan ... 357
Yer xəzəldən don biçib ... 358

Payızın göz yaşı ... 359
Nə döyürsən üz-gözümə ... 360
Qışın titrəyişi ... 361
Xəzrinin naləsi ... 362
Oynayır külək ... 362
Qış köçünü yığışdırır ... 363
Xızı dağları ... 364
İsladan yağış ... 365
Ürəyimi yandırır ... 366
Nə yağırsan ... 366
Üzü qışa gələn yağış ... 367
Göylərə çəkdi ... 368
Bu payız qışa bənzər ... 368
Yenə üşüyürsən ... 369

AYRILIQDAN VƏFA UMMA

Bir məktub yazmışam ruhuna, ata ... 370
Bildik bu əbədi gedişdi, anna ... 372
Bu görüş, bir vida görüşü idi ... 373
Ay ellər məzara qoymun anamı ... 373
Atalı-analı günlər əlvida ... 374
Gedibdi bir xanım anam əlimdən ... 375
Ana, haqqını həlal et ... 376
Axtarıram hər yerdə ... 377
Ey ruhumun canı anam ... 378
Göylərin içində gizlənən bulud ... 379
Fələk qara yazdı ... 380
Cavankən qoyuldun məzara bu gün ... 381

NƏZM-HEKAYƏLƏR

İNSANLIQ DRAMI ... 382
ON DÖRD YAŞLI QIZCAĞAZ ... 388
DÜKAN ADAMIN HEKƏYƏTİ ... 393

QUSAR NƏĞMƏLƏRİ

Ruhuma məlhəmdir ... 397
Həsənqaladı ... 398

Bu gəlin 399
Armud ağacı 400
Qusarçayı 400
Vüqarlı palıd 401
Qoz ağacı 402
Şahdağın 404
Dağ evin nağılı /Nəzm- hekayə/ 405

DÖRDLÜKLƏR 408
BAYATILAR 421
MƏSƏLLƏR 426
DEDİKLƏRİM 429
DEYİMLƏR 430
İKİLİKLƏR 435

PUBLİSİSTİK MƏQALƏLƏR

ÖN SÖZÜ VACİB BİLİNƏN HEKAYƏ 443
RUHUN EHTİYACI 444
XAÇMAZ XATİRƏLƏRİ 451
KÖVRƏK MÜSTƏRİLLİK VƏ ALATORAN GƏNCLİK 454
BAHALAŞMA ÖLKƏNİ FƏLAKƏTƏ APARIR 456
NEFT ÇIXARAN NEFTÇİLƏRİN FACİƏLİ HƏYATI 458

MÜƏLLİF HAQQINDA 461
MÜƏLLİFİN ÇAPDAN ÇIXMIŞ KİTABLARI 462
Müəllif və əsərləri haqqında çap olunmuş kitablar 463
MÜNDƏRİCAT 464

Şirin Xanım
Kərimbəyli Şadiman

TƏK YARADANA GÜMANIM

(Şeirlər, nəzm hekayələr, publisistik məqalələr)

Çapa imzalanmışdır: 27.01.2017
Kağız formatı 60x84 1/16

Həcmi: 30 ç.v. Sayı: 500

Bakı, AZ 1102, Tbilisi pros.76
Tel:(+994 12) 431-16-62, 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublshing